AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# TOVUZ
# FOLKLOR ÖRNƏKLƏRİ

## I KİTAB

BAKI – 2017

**LAYİHƏ RƏHBƏRİ:** **AMEA-nın həqiqi üzvü Muxtar KAZIMOĞLU (İMANOV)**

**TOPLAYAN:** **fil.ü.f.d. Səyyarə QASIMOVA**

**TƏRTİB EDƏN, ÖN SÖZÜN MÜƏLLİFİ:** **fil.ü.f.d. İlkin RÜSTƏMZADƏ**

**REDAKTORU:** **fil.ü.f.d. Nigar HƏSƏNOVA**

**Tovuz folklor örnəkləri. I kitab.** Bakı, "Elm və təhsil", 2017, 384 səh.

folklor.az

T 4603000000 Qrifli nəşr
N-098-2017

© Folklor İnstitutu, 2017

# TƏRTİBÇİDƏN

Cəmiyyətdə gedən sosial-iqtisadi dəyişikliklər klassik folklorun öz auditoriyasını itirməsinə, onun işlənmə arealının daralmasına, bir çox nümunələrin tədricən epik dövriyyədən çıxmasına, bəzilərinin isə dövrün tələbinə uyğun olaraq müəyyən dəyişikliyə uğramasına gətirib çıxarmışdır. Bu proses təkcə Azərbaycanda deyil, digər ölkələrdə də müşahidə olunur. Nağılçılıq ənənəsinin müasir durumunu araşdıran E.V.Pomeranseva Moskva Universitetinin 1945-1960-cı illərdə gerçəkləşdirdiyi ekspedisiyaların nəticələrinə dayanaraq keçən əsrin ikinci yarısında Rusiyada nağılçılıq ənənəsinin ancaq ucqar əyalətlərdə yaşadığı, mərkəzi əyalətlərdə isə öləzidiyi qənaətinə gəlir[1]. Bu hadisələrin fonunda folklorun müasir vəziyyətinin öyrənilməsi və folklor örnəklərinin toplanması xüsusi aktuallıq kəsb etmiş, bununla əlaqədar beynəlxalq aləmdə bir çox konfranslar təşkil olunmuş, bu istiqamətdə ciddi araşdırmalar aparılmışdır. Təbii ki, Azərbaycan folklorşünaslığı da bu proseslərdən kənarda qala bilməzdi. Klassik folklorun düşdüyü vəziyyət, uzun müddət ifa olunmadığı üçün dövriyyədən çıxma təhlükəsi bu tip folklor nümunələrinin gecikmədən toplanılmasını bir zərurət kimi qarşıya qoyor. Bununla əlaqədar, Folklor İnstitutu toplama işinin daha da sürətləndirilməsi üçün bir sıra layihələr gerçəkləşdirmiş, bölgələrə təşkil olunan folklor ezamiyyələrinin həm sayını, həm də müddətini artırmış, 2013-cü ildə Şamaxı şəhərində folklorun toplanması və sistemləşdirilməsi problemlərinə həsr olunmuş respublika səviyyəli konfrans təşkil etmişdir. İnstitutun 2012-2014-cü illərdə gerçkləşdirdiyi “Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması” layihəsinin icrası nəticəsində bölgədən son illərdə toplanmış folklor ma-

---

[1] Э.В.Померанцева. К вопросу о современных судьбах русской традиционный сказки / Русский фольклор. т. VI. М-Л., 1961, с.110-121

terialları əsasında on cildlik “Qarabağ: folklor da bir tarixdir” toplusu çap olunmuş, Azərbaycan Respublikası Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə dəstəyi ilə “Qarabağ xalq oyunları və meydan tamaşaları” layihəsinin icrası nəticəsində isə bölgədən əllidən artıq xalq oyunu və meydan tamaşasının təsviri əldə olunmuşdur. Bundan əlavə, müxtəlif rayonlara təşkil olunmuş folklor ezamiyyələri nəticəsində Masallı, Yardımlı, Saatlı, Cəlilabad, Gədəbəy folklor topluları işıq üzü görmüş, Cənubi Azərbaycandan toplanmış örnəklər əsasında isə VI cildlik toplu hazırlanmışdır. “Tovuz folklor örnəkləri” toplusunun I cildi İnstitutun 2015-ci ilin qış və yaz aylarında bölgəyə təşkil etdiyi ezamiyyələr əsasında hazırlanmışdır.

**Tovuz folklorunun müasir durumu.** Tovuz Azərbaycan Respublikasının şimal-qərbində, Gəncə-Qazax düzündə yerləşir. 1930-cu ildə aparılan inzibati ərazi bölgüsü nəticəsində rayon kimi təşkil olunmuşdur. Ağstafa, Şəmkir, Gədəbəy və Samux rayonları ilə həmsərhəd olan Tovuzun Ermənistanla 69 km., Gürcüstanla 23 km. sərhəd xətti vardır. Rayon ərazisinin şimal hissəsində, Kür çayının sol sahilində heyvandarlıq (xüsusən də qış heyvandarlığı) üçün olduqca əlverişli olan Ceyrançöl qışlağı yerləşir. Tovuz Respublikanın ən iri kənd təsərrüfatı rayonlarından biridir və ərazisi 1903 kvadrat km., əhalisi isə 2012-ci ilin məlumatına görə 163.6 min nəfərdir. Tovuz rayonunda 2 şəhər (Tovuz və Qovlar şəhərləri) və 102 kənd vardır.

Bölgədə aparılmış toplama işinin qısa vaxt ərzində aparılmasına baxmayaraq, xeyli sayda material toplanmış, gələcək müqayisələr və tədqiqatlar üçün İnstitutun arxiv fondu xeyli zənginləşmişdir. Toplamalar onu göstərdi ki, klassik folklorun arealı əvvəlki illərlə müqayisədə daralsa da, yaşlı nəslin hafizəsində hələ də öz yaşamını sürdürməkdə, şifahi ənənənin biliciləri tərəfindən bu gün də məharətlə ifa olunmaqdadır.

Toplama materialları üzərində müşahidə onu göstərir ki, Tovuz folklor arealında yer adları, tarixi şəxsiyyətlər, qaçaqlar və tanınmış insanlar haqqında rəvayətlər və əfsanələr ən aktiv janrlardır. Onlar orta və yaşlı nəslin yaxşı bildiyi və haqqında geniş məlumat verdiyi mövzulardır. Aktivliyinə görə əfsanə və rəvayətlərdən sonra ikinci yerdə nağıllar, lətifələr durur. Bölgədən 80-dən artıq nağıl mətni yazıya alınmış, onların içərisindən seçilərək ən yaxşıları topluya daxil edilmişdir.

Folklor o mühitdə qorunub saxlanır və inkişaf edir ki, orada milli mədəniyyət daha çox inkişaf etmiş olur. Tovuz rayonunda da aşıq sənətinin geniş yayılması, insanlarda saza-sözə, şeirə vurğunluq bölgədə nağılların geniş yayılmasının və klassik folklorun bu günə qədər öz yaşamını sürdürməsinin əsas səbəbidir. Şifahi ənənə son dövrlərə qədər canlılığını qoruyub saxladığı üçün janr haqqında təsəvvürlər də bölgə sakinlərinin hafizəsində qalmaqdadır. Toplayıcının söyləyicilərin yanında nağıl və ya qaravəlli janrının adını çəkməsi onun gəlişinin məqsədinin anlaşılması üçün kifayət edir. Bununla belə, bir çox nağıl mətnlərinin natamamlığı, bəzi epizodların söyləyicinin yadından çıxması, nağılların bədii cəhətdən zəifliyi bu janrın arealının daralmağa doğru getdiyini göstərir. Bu tendensiyaları diqqətlə gözdən keçirək.

Məlumdur ki, klassik nağıllar sabit bir struktura malikdir və tədqiqatçıların da ifadə etdiyi kimi, qəhrəmanın şəxsi xoşbəxtliyi üzərində qurulmuşdur. "Fəaliyyət çox vaxt bədbəxt hadisə ilə (çatışmazlıqla) başlayır və bədbəxt hadisənin aradan qaldırılması, <....> şahzadə qızla evlənmə və taxt-taca sahib olma ilə tamamlanır"[2]. Bölgədən qeydə alınmış nağıllarda bu qanunauyğunluğun pozulması müşahidə olunur.

[2] Мелетинский Е.М., Неклюдов С.Ю., Новиков Е.С., Сегал Д.М. Проблемы структурного описания волшебной сказки / Труды по знаковым системам. вып.4, Тарту: ТГУ, 1969, с.98

Mehparə İsmayılovadan yazıya alınmış "Ovçu Əhməd" nağılı sehrli nağıllar üçün xarakterik olmayan bir sonluqla – qəhrəmanın padşah tərəfindən öldürülməsi, çətin tapşırığın icrası nəticəsində gətirilən qızın da bu haqsızlığa dözməyərək özünü öldürməsi epizodu ilə tamamlanır.

Mətnlər uzun müddət ifa olunmadığı üçün söyləyici süjeti təşkil edən bir çox epizodları unutmuş olur, bu da öz növbəsində gedişlər arasındakı əlaqənin pozulmasına, bir çox gedişlərin əsaslandırılmamasına, süjetin natamam şəkildə təqdimatına gətirib çıxarır. Bölgədən yazıya alınmış "Cejimqulaq", "Molla Nəsrəddin" kimi bir çox nağıllar maraqlı süjet xəttinin olmasına baxmayaraq, yuxarıda sadalanan qüsurlar üzündən kitaba daxil edilməmişdir. Topludakı nağıllarda da buna bənzər qüsurlar müşahidə etmək mümkündür. Bəzən söyləyici nağılı tam şəkildə çatdıra bilmir, unutduğu epizodları sonradan xatırlayıb onu ayrıca nağıl etməyə başlayır. Yaxud, nağılı tamamlayır, amma başqasının xatırlamasından sonra onun davamı olduğunu yadına salıb ardını danışmağa başlayır. Bu amillər nağılların tamlığına, bütövlüyünə xələl gətirsə də, əslində, klassik folklorun müasir durumunu göz önünə gətirir.

Şifahi ənənənin öləzidiyini göstərən digər amil isə rus dilinə məxsus sözlərin epik əsərlərin dilinə daxil olmasıdır. Keçən əsrin əvvəllərində və ya ortalarında yazıya alınmış mətnlərin dilində rus sözləri müşahidə olunmadığı halda, son illər toplanmş mətnlərdə bunlara tez-tez rast gəlinir. Bu da sovet dövründə rus dilinin həddən artıq geniş yayılmasından qaynaqlanır. Bunun nəticəsində rus dilinə məxsus bir çox sözlər şifahi nitqdə özünə yer tapmış, şifahi nitq vasitəsilə də epik əsərlərin dilinə daxil olmuşdur. Rus dilindən alınmış sözlər ya Azərbaycan dilinin ahəng qanuna uyğunlaşmış halda (*qomandirovka, bayavoy, daqavor, zemləmer, zdanyo*), ya da qismən rus dilindəki şəkildə (*lijbi, risk, zayej, stroy, oçiret*) işlədilir. Maraqlıdır ki, bu sözlə-

rin Azərbaycan dilində qarşılığı olduğu halda, söyləyici onların rus variantını işlətməyə üstünlük verir. Rusizmlərin, müasir məişət elementlərinin nağılların dilinə bu qədər nüfuz etməsi əslində nağılın epik dünyası ilə mətnin dili arasında bir təzad yaradır. Mətndə keçmiş zamandan, hansısa hökmdarın dövründən bəhs olunur, amma pul vahidi kimi dolların adı çəkilir. Rayon anlayışı keçən əsrin əvvəlində leksikonumuza daxil olduğu halda, Şah Abbasın dövründən bəhs edən mətndə onun dərviş-libas olub rayonları gəzməsindən bəhs olunur. Bu kimi əlamətlər, yəni nağılın epik dünyasının dağılması, əslində, nağılçılıq ənənəsinin öləziməsindən xəbər verir.

Folklor mətnlərinin söyləyicilərinə diqqət yetirdikdə, onların böyük əksəriyyətinin söyləyicilik ənənəsinin mövcud olduğu ailələrdə yetişdikləri məlum olur. Əsas nağıl söyləyicilərindən biri olan Mehparə İsmayılova bildiyi nağılları atasından eşidib. Özünün dediyinə görə, bəzi nağıllar ona o qədər maraqlı gəlmişdir ki, onu dəfələrlə atasına söylətmiş, onu dinləməkdən xüsusi zövq almışdır. Aşıq İdris, Aşıq Əlixan və digər aşıqlar bildiyi mətnləri ustadlarından, Yunis Musayev isə bildiyi nağılları dayısı Aşıq Qədirdən eşidib. Deməli, hansı ailədə söyləyicilik ənənəsi varsa, folklor həmin mühitdə daha yaxşı qorunur və inkişaf edir.

**Tovuz folklorunun regional xüsusiyyətləri.** Hər hansı bir xalqın folkloru B.A.Lapinin sözləri ilə desək, “yerli ənənələrin məcmusu”ndan ibarətdir[3]. Eynilə nağıllar da oxşar poetik xüsusiyyətlər əsasında formalaşsa da, müxtəlif variantlar şəklində təzahür edirlər. Yerli variantlardakı dəyişikliklərin, variant xüsusiyyətlərinin üzə çıxarılması həm də regional özünəməxsusluğu müəyyən etməyə imkan verir. Tovuz folklor örnəklərini Saatlıdan toplanmış örnəklərlə müqayisə etdikdə regional fərq-

[3] Музыкально-песенный фольклор Ленинградской области в записях 1970-1980 гг. / Ред. – сост. Б.А.Лапина, Л., 1987, вып. 1, с.6

lilik o dəqiqə hiss olunur. Əvvəla, Saatlı rayonunda folklor örnəklərinin əsas daşıyıcıları mollalar, ağıçılar, rövzəxanlar, onların məclisində iştirak etmiş şəxslərdir. Ona görə də bu bölgədə Məhəmməd peyğəmbər, Həzrət Əli və digər müqəddəslər haqqında dini məzmunlu mətnlər geniş yayılmışdır. Bu mətnlər digər qruplarla müqayisədə həm yeniliyinə, həm də bədii genişliyinə görə seçilir. Ona görə də "Saatlı folklor örnəkləri" kitabının tərtibi zamanı ənənədən kənara çıxılaraq nağıllar bölməsi sehrli deyil, dini nağıllarla başlanılmışdır. Tovuz rayonunda isə şifahi ənənənin əsas daşıyıcıları aşıqlar, bu nəslin davamçıları və yaxud aşıq məclisində iştirak etmiş, aşıqların sözünü-söhbətini mənimsəmiş insanlardır. Bu da bölgədən toplanan mətnlərin xarakterinə təsir göstərmiş, aşıq repertuarında özünəməxsus yeri olan qaravəlli janrının bölgədə geniş yayılmasına səbəb olmuşdur. Kitaba söyləyicilərin qaravəlli adlandırdığı 30-dan artıq mətn daxil edilmişdir (təsnifat zamanı həmin mətnlərin bir qismi nağıllar, digər qismi isə lətifələr bölməsində verilmişdir). Həmin mətnlərin bir çoxunun bölgədən bir neçə variantı qeydə alınmışdır. Bölgədən aşkar edilmiş 5 yeni nağıl süjetindən 2-nin qaravəlli olması əslində bu janrın bölgədə nə qədər populyar olduğunu göstərir. Digər nağıl qrupları ilə müqayisədə qaravəllilər daha maraqlı təhkiyəyə malik olub, epik genişliyi, üslub vasitələrinin zənginliyi ilə diqqəti cəlb edir. Qaravəlli üslubu bölgədə o qədər geniş yayılmışdır ki, bir çox bölgələrdə ciddi tərzdə verilən bəzi süjetlər bu bölgədə qaravəlliyə xas yumoristik gülüşlə təqdim olunur. TR 911 nömrəli süjetin bölgədən yazıya alınmış variantında müşahidə olunan yumoristik cizgilər buna misal ola bilər. Arvadını döyməyə bəhanə axtaran kişinin onun bişirdiyi yeməyə bir ovuc duz tökməsini, daha sonra bişmiş ətin üstünə soyuq su əlavə etməsini söyləyici qaravəlliyə xas elə gülməli tərzdə çatdırır ki, dinləyicinin bu hadisəyə laqeyd qalması, gülməməsi mümkün deyil. Qaravəllilərə xas bu

kimi detallar əslində qaravəlli janrının, qaravəlli üslubunun bölgədə nə qədər yayğın olduğunun bir göstəricisidir.

Söyləyicilərin dediyinə görə, aşıqlar qaravəllililəri ya dastan arasında, ya da dastana başlamazdan əvvəl auditoriyanı ələ almaq, dinləyiciləri söyləniləcək mətnə kökləmək üçün söyləyərdilər.

Bir qədər əvvəl qeyd etdik ki, Tovuz nağılları regional özünəməxsusluğu ilə seçilir. Bu özünəməxsusluq, ilk növbədə, özünü nağılların süjet tərkibində göstərir. Bölgədən bahadırlıq və kumilyativ nağıllar istisna olmaqla digər nağıl qruplarının hamısına dair nümunələr qeydə alınmışdır. Amma qeydə alınmış süjetlərin nisbətinə diqqət yetirsək, ən çox satirik, dini və novellistik nağıl süjetlərinə rast gəlinir, sehrli nağıllar və heyvanlar haqqında nağıllar onlarla müqayisədə xeyli azlıq təşkil edir. Bölgədən cəmi 5 sehrli nağıl, 4 heyvanlar haqqında nağıl yazıya alınmışdır. Sehrli nağılların bu qədər sürətlə dövriyyədən çıxmasını tədqiqatçılar onların məzmununun gerçəklikdən, reallıqdan uzaq olması ilə əlaqələndirirlər[4].

Bölgədə Azərbaycan nağılçılıq ənənəsi üçün xarakterik süjetlərlə yanaşı, az yayılmış süjetlərin variantlarına da rast gəlinir. Məsələn, bölgədən şifahi ənənədə geniş yayılmış "Yaxşılığa yamanlıq" (TR 155), "Comərd Qəssab" (TR 750), "Xəncərin şahidliyi" (TR 780D*), "Yazıya pozu yoxdur" (TR 930) kimi məşhur nağıl süjetləri ilə yanaşı, "Boyaq suyu ilə ehsan" (TR 760*), "Bacı həsrəti" (TR 777*), "Naşı biçinçi" (TR 1202), "Üzlü qonaq" (TR 1618*) kimi az rast gəlinən nağıl süjetləri də qeydə alınmışdır. Bir çox süjetlərin isə ənənəvi variantlardan fərqlənən yeni variantları yazıya alınmışdır. Həmin nağıllar onu təşkil edən motivlərə, epizodların ardıcıllığına, maraqlı söyləyici təhkiyə-

[4] Р.Н.Матвеева, Е.Л.Тихонова. Русский традиционный фольклор Байкальского региона: жанровый состав, пробдемы выживания / Сборники конференции НИЦ Сосиосфера, № 42, 2012

sinə, bir çox nüanslarına görə digər bölgələrdəki variantlardan fərqlənir. "Elmin başı da səbirdir, sonu da" (TR 910B*), "İnsan nəslinə çəkər" (TR 997*), "İnsanın acgözlüyü" (TR 831C), "Bütün qadınlar eynidir" (TR 983) nağllarını təşkil edən bir çox motivlərə həmin süjetlərin ənənəvi variantlarında rast gəlmirik.

Nağıllar maraqlı kontaminasiya tipləri ilə diqqəti cəlb edir. "Təyin olunmuş arvad" (TR 930A) + "Canavarla gələn əcəl" (TR 934B), "Əzrayıl hərənin canını bir üsulla alır" (TR 811*) + "Sonsuz dua" (TR 1199), "Ramazan" (TR 1541) + "O dünyadan gələn" (TR 1540) + "Təqibdən qaçan keçəl" (TR 1542A*) kimi şifahi ənənədə geniş yayılmış kontaminasiyalarla yanaşı, bölgə üçün xarakterik kontaminasiya nümunələri də vardır. Məsələn, "Tənbəl ər" və "İsgəndərin ölümü" süjetlərinin birləşməsinə ancaq bu bölgədə rast gəlinir. Söyləyici personaj adlarının oxşarlığından çıxış edərək hər iki süjeti birləşdirmiş, nəticədə maraqlı bir kontaminasiya nümunəsi ortaya çıxmışdır. "Kim uzağa tullanar" (TR 1618*) + "Ağa nökəri çaya atmaq istəyir" (TR 1120), "Naşı biçinçi" (TR 1202) + "Çoban və quldurlar" (TR 958) süjetlərinin birləşməsinə də ancaq bu bölgədə rast gəlinir.

Nağıllardan bəhs edərkən onun təşkilində xüsusi rolu olan formullara toxunmadan keçmək mümkün deyildir. Formullar arasında inisial formullar nağıl dünyasına açılan bir qapı olduğuna görə xüsusilə seçilir. Nadejda Korovinanın da yazdığı kimi, inisial formullar təkcə kompozisiya elementi kimi çıxış etmirlər, həm də müəyyən məna yükünə malikdirlər. Hadisənin cərəyan etdiyi yer və zaman, əsas personajların təqdimatı, söyləyicinin nağılda bəhs olunan hadisələrə münasibəti bu formullar vasitəsi ilə ifadə olunmaqdadır [5]. Məlum olduğu kimi,

[5] Коровина Н.С. Инициальные формулы Коми народных сказок / Филологические науки. Вопросы теории и практика, Тамбов: Грамота, 2013, №6, в 2-х ч. Ч. 2, с.107-110

inisial formullar funksiyasından asılı olaraq dörd qrupa ayrılır: qəhrəmanın mövcudluğunu bildirən formullar, zaman formulu, məkan formulu və inamsızlıq formulu. Mövcudluq bildirən formullar müstəqil şəkildə çıxış edə bildiyi halda, digər formullar bir-biri ilə əlaqəli şəkildə işlənirlər.

Bölgədən toplanmış mətnlərdə mövcudluq formulunun əsas konstruktiv elementi *"var"* xəbər formasından təşkil olunur: *var imiş, var idi*. Bəzən bu mövqedə mövcudluq bildirən başqa bir leksik vahid – olmaq feili də işlədilir. Əksər hallarda *var* təsdiqdə, bəzən isə inkar şəkli ilə yanaşı işlədilir: "*Biri var idi, biri yox idi, Allahın bəndəsi çoxuydu". "Biri varmış, biri yoxmuş, bir patcah varmış".* Məkan formullarına gəldikdə, onlara çox nadir hallarda rast gəlinir. Tovuzdan toplanmış nağıllarda hadisələr irreal deyil, real məkanda cərəyan edir. Ona görə də məkan çox vaxt *bir kənddə, bir vilayətdə* formulları ilə ifadə olunur. Məkan formullarından fərqli olaraq, zaman formulları daha geniş yayılmışdır və söyləyicilər hadisələrin başlandığı zamanı ifadə etmək üçün müxtəlif leksik vahidlərdən istifadə edirlər: *keşmiş zamanlarda, günnərin bir günü, bir gün, keşmiş əyamda*. Nağıllarda hadisələr çox vaxt qeyri-müəyyən zamana bağlanır, yalnız bir nümunədə hadisələrin konkret bir zamana – Nuşirəvan padşahın dövrünə bağlandığı müşahidə olunur. Bəzi söyləyicilər zaman formulunu işlətməklə kifayətlənmir, həmin zamanın təsviri ilə nağılı başlayırlar: *Keşmişdə insannar bir-birinə çox mehriban oluflar, etibarrı oluflar, bir-birini çox isdiyən oluflar. Kişi arvadın, arvad kişinin qədrini bilif. O qədər mehriban oluflar ki, kişi evdən qalxıf gedəndə arvadına o qədər arxeyindi, o qədər sevirdi arvadını, arvadın eşqinnən nə desən eləməyə qadir idi.*

"Göydən üç alma düşdü", "Onlar yedi yerə keçdi, biz də yeyək dövrə keçək" kimi ənənəvi final formullarına bölgədə çox az rast gəlinir. Yalnız Mehparə İsmayılovanın söy-

lədiyi nağıllarda bu formullar işlənir. Bunun əksinə, ibrətamiz məzmunlu formullar daha geniş yayılmışdır. Bölgə nağıllarından seçərək təhlilə cəlb etdiymiz 30 fina formulunun 17-si məhz ibrətamiz məzmun kəsb edir. Söyləyici nağılları çox vaxt onların məzmunundan çıxartdığı əxlaqi nəticə və ona uyğun atalar sözləri ilə tamamlayır.

Maraqlıdır ki, söyləyicilər ənənədən mənimsədiyi formulları işlətməklə kifayətlənmir, eyni zamanda yaradıcı yanaşaraq vəziyyətə, stiuasiyaya görə onları dəyişdirir, nəticədə klassik formulların maraqlı variantları yaranır. Məsələn, klassik nağıllar çox vaxt göydən üç almanın düşməsi və söyləyicinin bu almaları ya özünə götürməsi, ya da onu paylaması ilə tamamlanır. Bu formulun bölgədən toplanmış variantında alma veriləcək adamların sayı çox olduğu üçün, söyləyici ənənəvi formulu dəyişdirir: *Nağılımız burda bitdi. Göydən yeddi alma düşdü. Yeddi almanın biri mənim, biri sənin, biri nağıl danışanın, biri qulax asannarın, üç-dördü də sənin iş yoldaşdarıyin, onlara apar. Siz sağ, mən salamat. Siz yüz yaşıyın, mən iki əlli. Hansı çoxdu, siz götürün, hansı azdı mənim olsun.* Ya da ənənəvi formullara müəyyən əlavələr etməklə onları daha da genişləndirirlər: *Əyağına geyinir bir dəmir çarıx, əlinə alır bir polad hasa, yola rəvan olor. Az gedif çox dayanır, çox gedif az dayanır. Həkdən düşör, haldan düşör, geder bir cazeyranın düzündə bir abidə rast gəler.*

Dediklərimizi ümumiləşdirərək deyə bilərik ki, inisial formullar arasında mövcudluq bildirən formullar bölgədə daha geniş yayılmışdır. Bu formulun hadisələrin gedişi ilə birbaşa bağlantısı olmasa da, ikinci dərəcəli personajların nağıl strukturuna daxil olmasında həmin formul mühüm rol oynayır. Final formullarına gəldikdə, klassik final formulları yalnız usta söyləyicilərin repertuarında qalmaqdadır, digər söyləyicilər isə daha çox əxlaqi formullarla nağılları tamamlamağa üstünlük verirlər.

**Mətnlərin tərtib xüsusiyyəti.** Kitabda, əsasən, Səyyarə Qasımovanın, qismən də Nigar Həsənova və Zəfər Fərhadovun bölgədən topladığı materiallardan istifadə olunmuşdur. Bölgədən müxtəlif janrlara dair nümunələr qeydə alınsa da, topluda ancaq nağıl və lətifələr verilmiş, digər janrların isə növbəti cilddə çapı nəzərdə tutulmuşdur. Topluda eyni süjet əsasında qurulan nağıllar vahid ad altında verilmişdir. Mətnlər artan sıra ilə nömrələnmişdir və onların nömrəsinə istinad etməklə toplunun sonundakı "Mətnlərin söyləyiciləri haqqında" bölməsində onun söyləyicisi və haradan toplanması haqqında məlumat əldə etmək mümkündür.

Mətnlərin dilinə gəldikdə, onlar vacib ləhcə xüsusiyyətləri gözlənilməklə verilmişdir. Mətnlər üzərində müşahidələr göstərir ki, insanların təhsili, savad dairəsi onların dilinə təsirsiz ötüşməmişdir. Yaşlı nəsilin dilində dialekt faktlarına daha çox, cavan, təhsilli, savadlı nəslin dilində isə az rast gəlinir. Bəzən söyləyici bir mətndə eyni sözün həm ədəbi, həm də dialekt variantını işlədir. Məsələn, bir nağılda *yenə* sözünün həm ədəbi dildən gələn şəkli, həm də dialekt variantı işlədilir. Söyləyici bir mətndə *oyçu* kimi tələffüz etdiyi sözü başqa mətndə *ovçu* kimi tələffüz edir. Ona görə də mətnlərdə eyni sözün fərqli şəkildə tələffüzünə rast gəlinsə, bunun redaktə səhvi deyil, söyləyicinin öz dilindən qaynaqlandığını nəzərə almaq lazımdır.

Söyləyicilərlə görüşlərin təşkilində bizə göstərdikləri köməyə görə Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Tofiq Zeynalova, icra başçısının mavini, İctimai-Siyasi və Humanitar Məsələlər şöbəsinin müdiri Təranə Bayramovaya, şöbənin əməkdaşı Bəhruzər Rüstəmova dərin minnətdarlığımızı bildiririk.

# NAĞILLAR

## 1. HALAL QAZANC

Keşmiş zamanlarda bir kişi varmış. Çox kasıf, uçux bir daxmada yaşıyırmış. Bir arvadı, yeddi qızı varmış. Bu kişi gündə bir şələ qaratikan gətirif, satıf bir kısmat çörək almaxdan daa bezer. Bir gün Allaha, bəndəyə ajığ eliyir, başını götürüf eldən çıxer. Deyir, başımı götürüf gederəm, harda tapajam, orda yijəm. Bu qızdar, bu arvad da harda öləllər ölələr, qalallar qalallar.

Bu, az geder, çox geder, geder bir şəhərə çıxer. Şəhərə çıxanda geder bir bazarın qırağında, – o vaxdı qullar durormuş, – bu da o qulların yanında duruf burda gözdüyür. Bir kişi gəler, deyir ki, kim nökər işdəmək istiyirsə, mana qul olmax istiyirsə, ortuya çıxsın. Bu kişi çıxer, deyir:

– O mən.

Deyir:

– De görüm mənnən nə alarsan? Bir ildə min manat haram pulamı nökər olarsan, bir ildə bir abbası halal pulamı?

Bu fikirrəşmədən tez muna cavab verer ki, bir ildə mən bir abbası halal pula nökər olaram. Kişi deyir:

– Gəl.

Kişi yanına saler, aparer öyünə. Arvadına, ayləsinə deyir ki, bu adama yemək verin, çörək verin. Muna çay-çörək verellər, dincəler, savahdan başdıyır işə. Bir il sərasər munun qapısında qulluğ eliyir, nökərçiliy eliyir, işdiyir. Bir ili tamam olanda bu, xazeyninə deyir ki, başına dönüm, mənim bir abbasımı ver, mən bazara çıxajam, görüm bazardan nə aleram uşaxlarıma.

Bazara çıxanda örör kü, bir balaca cavan oğlan uşağıdı. Əlində bir yaşik, yaşikin içində gözəl-göyçək, yaraşıxlı bir pişik. Deyir: "Pişik sateram, pişik sateram". Bu oğlana yaxınnaşer:

– A bala, bu pişiyi neçəyə verersən?

Deyir:

– Əmi, bir abbasıya.

Deyir:

– Mənim kiçik qızım var, yaman pişik sevəndi. Pişik görəndə ürəyi geder, az qaler ki, üzünnən-gözünnən öpsün. Elə bu pişiyi alıf ona göndərəjəm. Onsuz da mənim bir qazancım yoxdu.

Bir abbasıyı verer, bu pişiyi aler. Yaşikin içinə qoyor, bu pişiyin altına, üstünə, nəvilim, kağızdan-kuğuzdan, anrıdan-bəridən tökör, ağzını mismarrıyır, gətirer bunu verer karvana. Bir karvan var imiş. Bu karvan həmişə buların yanınnan keçif gedermiş. Gəler karvanın yanına. Karvanbaşıyı taper. Deyir:

– Karvanbaşı sağ olsun, mənim bir əmanətim var. Filan yerdən, filan kənddən, filan şəhərdən keçəndə onu verərsənmi?

Deyir:

– Nolar.

Bu yaşiki verer, deyir:

– Allah amanatı, bizim öyün yanında çağırarsan, bizim uşağa verərsən munu.

Karvanbaşı karvanını götürör, gəler. Az gəler, çox gəler, bir mənzil gələnnən sonra bular yorulor, bir yerdə dincələsi olollar. Dincəldikləri yerdə də həmişə bu şəhərin böyüyünə – patcahına bular xonça aparıf, muna ənam verif, munun yanına getməliymiş. Bular xonçanı götürör, munun yanına gedəndə – patcahnan bu dost imiş, – patcah deyir ki, yanındakı qulluxçularınnan bir yerdə hamınız axşam mənim qonağımsınız.

Deyir:

– Yaxşı.

Bular dəvələrini, yüklərini yerrəşdirif rahatdıyannan sonra bu kişinin evinə qonax gəlellər. Qonax gələndə patcah həyat yoldaşına deyir ki, arvad, bir puloy pişir, qonaxdı də,

qoy bir bizim puloyumuzu yisin. Arvad deyir ki, ay kişi, puloyu pişirəjəm, xəjalət qalajam. Deyir:

– Yox, sən pişir.

Arvad gətirer Əkülə düyüsünnən, Səbzə kişmişinnən puloyu pişirer, dəmleer, hazır eliyəndə gözü kişinin üzündə qaler. Yanı bu xörəyi necə çəkmək lazımdı. Kişi deyir ki, başına dönüm, Allahdan gizdin olmuyan bəndədən nə gizdin. Sizə bir sirr açajam. Xörək çəkiləjək, hər küşdə[6] məcməyisini götürüf öz sinəsinə sıxıf sinəsində yijək. Deyir:

– O niyə helə olur?

Deyir:

– Bizim bu ölkədə bir siçannar diyarı var. Daa siçanın əlinnən biz ojağa xörək asıf ağzımıza çörək apara bilmerik, əlaxüsus da düyü xörəyini görəndə bu siçannarın qoşunu gəler.

Deyir ki, bir görək. Bu arvad xörəyi çəkəndə görör kü, ilahi, bir qavın içinə yüz siçan töküldü. Bütün düyünü göyə çəkdilər, yeyif qutardılar. Kişi beləcə məhətdəl qaler.

Deyir:

– İndi bilersən nə var?

Deyir:

– Nə var?

Deyir:

– İndi bizim düyünən, bizim kişmişnən, bizim yağnan o puloyu təzdənnən pişirin. İndi mən bilerəm onun dərdini.

Deyir:

– Onsuz da siçannar qoymor, ayrı yimək hazırrıyax.

Deyir:

– Yox.

Puloyu bir də gətirer, düyüyü, yağı hazırrıyıllar, pişirellər. Məcməyilər, xörəhlər çəkilməyə az qalmış, yaşiki gətirer.

[6] Hər küşdə – hər kəs

Yaşikin ağzını açer, pişiyin başını-gözünü sığalleer, birdən pişiyi ortuya tulloor. Pişiyi ortuya tulluyanda siçanın birini burda, ikisini orda, beşini orda. Boğduğunu boğor, boğmadığı qorxusunnan qaçer gizdəner. Bu xörəklərin heç birinə siçan girmer, xörəklər məcməyilərdə qaler. Bular oturor rahat xörəyini-çörəyini yiyir. Şah muna deyir ki, sana qurvan olsun mənim canım, ay qardaş. Nə istiyirsən verim, bu pişiyi mana ver.

Deyir:

– Yox, bu Allah amanatıdı, munu başqa adam göndərif evinə. Əmanətdi, mən munu verə bilmərəm.

Deyir:

– Ə, nə əmanət? Əmanət bir manatdıx, beş manatdıxsa, mən muna yeddi dəvə yükü qızıl verərəm. Bunu mana ver, bu pişik məndə qalsın.

Karvanbaşı fikirrəşer, öz-özünə deyir: "Dediyinə görə, o da kasıv adamdı. Bu qızılı alım aparım, öyünün yanınnan keçəndə munun ayləsinə verim". Yeddi dəveyi yüklöör, gətirer munun karvanına qoşollar. Bu yolu gəler. Az gəler, çox dayaner, çox gəler, az dayaner. Gəler həmən kişinin öyünün yanına çater. Çatanda görör bir uçux dam, bir qara dam, xarabalıx yerdi. Çağırer:

– Öy yiyəsi, öy yiyəsi.

İçəridən bir qadın səsi gəler.

Deyir:

– Ay bajı, eşiyə çıx, mən vəzirganam, yük apareram. Sənin həyat yoldaşın – ərin əmanət göndərif, onu götürgünən.

Deyir:

– Qardaş, Allahdan gizdin olmuyan bəndədən nə gizdin. Mənim əynim çılpaxdı, əynimdə fitə[7] yoxdu, mən eşiyə çıxa bilmərəm.

[7] Fitə – bürünmək üçün nazik mələfə və ya hamam dəsmalı

Deyir:

– Ay bajı, mən çuxamı soyunuf sənin qapıyın ağzına qoyoram, özüm də öydən bir az aralaneram. O çuxoyu geyin, lijbi[8] sana əmanəti özüm verməliyəm əlimnən.

Deyir:

– Yaxşı.

Bu, çuxoyu soyunor qoyor, burdan aralaner. Arvad bu çuxoyu geyiner bürünör, eşiyə çıxer. Deyir:

– Nədi, qadan alem?

Deyir:

– Bax, bu yeddi dəvə yükü ərin göndərif sana.

Deyir:

– Allah sənin köməyin olsun.

Dəvələri aparer arvad içəriyə. Yükü düşürör, bu arvadın gözü kəlləsinə çıxer. Baxır ki, qızıldı hamısı. Buları tez gizdədir, üstünə cırdan-cırıxdan, öydəki çuldan-kilimdən tökör. Birini çıxarder uşağın əlinə verer ki, get filan maqazinə. Maqazinçiyə denən ki, bizə çörək versin, bir də çitdən-bezdən bizə versin, əynimizə bir fitə tikək. Bu çuxoyu da qıza geyindirif göndərer.

Qız geder bu arvadın dediyi kimi maqazinçiyə deyir. Maqazinçi baxır ki, vallah, bu bir qızıldı, heç maqazinin hamısını versə də, qutarmaz. Deyir, əşi, zərəl yox. Yeməhdən, işməhdən xurcuna dolduror, üstünə də paltardan-palazdan, çitdən-mitdən, iynədən-sapdan qoyor, deyir:

– Apar get.

Qız söyünə-söyünə gəler, verer anasına. Anası yeməkdən-zaddan pişirer-düşürör, uşağının qarnını doyduror. Bu çitdən-zaddan, pardan-paltardan uşağın əyninə-başına taxer, qızılın bir-ikisin də civinə qoyor, çıxer bazara: – "Ay bənna". Bənnalar, ustalar başına tökülör. Deyir: "Sizdən xayiş eliyirəm,

---

[8] Lijbi – şəxsən

şahın sarayınnan gözəl bir saray mənim qapımda qurmalısınız”. Bir-ikisi lağ eliyəndə deyir: “Ay qardaş, hər şey pulnan başa əlmermi? Sənin nəyinə lazımdı? Gəl gedək işini gör”.

Beş-on nəfər bənna burdan yığıler, gəlellər arvadın qapısına. Arvad deyir:

– Şahın sarayınnan gözəl mənim qapımda saray tikilməlidi.

Arvad qızıldan verer, daş gəler, ağac gəler, usta gəler, işçi gəler, kəntçi gəler, qum gəler. Bir il munun qapısında işdiyillər. Arvad da bulara yimək, işmək, qulluğ eləmək.

Burda dam tikilif hazırranmaxda olsun, sana söylüyüm kişidən. Kişi gənə xazeynin qapısında nökər işdiyir. İli tamam olanda deyir:

– Başına dönüm, mənim bir abbası halal pulumu ver, mən bazara çıxajam.

Bir abbası halal pul aler, civinə qoyor, çıxer bazara. Bazarın bu başınnan o başına, o başınnan bu başına hərrənəndə görör bir uşaq qavağına qoyuf üş dənə gülöyşə narı, sater.

– A bala, bu narı neçəyə verersən?

Deyir:

– Əmi, bir abbasıya vererəm.

Deyir:

– Bir abbasım var, elə bunu mana ver.

Abbasıyı verer, narları aler. Bir yaşikə qoyor, ağzını gülmuxluyur[9]. Deyir: “Mənim bir balaca qızım var – o pişik göndərdiyim qız, yaman nar yiyəndi. Elə bu narı da ona göndərerəm. Aylədə onu çox isteerəm”. Gəler həmən vəzirganı taper. Deyir:

– Sana canım qurvan olsun, vəzirgan! Bunu gənə bizim öyün yanınnan keçəndə verərsən mənim qızıma.

---

[9] Gülmux – mismar

Deyir:

– Yaxşı.

Kişi yaşiki götürör, gəler. Bir ölkəyə çatanda karvansaraya düşöllər. Göröllər ki, şəhər qara geyinif. Soruşanda deyillər ki, patcahın gözünün ağı-qarası bir oğlu var. O, uzun zamandı xəstədi. Həkim deyif ki, əgər üç günə kimi buna gülöyşə narı gətirməsələr oğlan öləjək. Vəzirgan bunu eşidəndə fikirrəşer ki, kişinin öz uşaxlarına göndərdiyi gülöyşə narını bu oğlana verim, əvəzində də verilən bəxşeyişi aparım onun uşaxlarına verim. Patcah yeddi dəvə yükü qızılı verif narı aler, oğlu suyunu içif sağaler.

Vəzirgan öyün yanınnan keçəndə görör kü, ay Allah, bu uçux binanın yerində bir imarət var, bir dam var, bir gəlin-qız var, bir cah-cəlal var, gəl görəsən. Tərəddüd eliyir ki, görəsən, düz gəlif, ya yox. Deyir, yox, çağırajam soruşajam, görüm budumu. Xanım bu vəzirganı görən kimi tanıyır, tez munun qavağına gəler. Salam verer. Deyir ki, məni olmuya tanımadın? Deyir ki, sən filan kişinin arvadı döyülsənmi?

Deyir:

– Bəli.

Deyir:

– Bu yeddi dəveyi gənə yoldaşın göndərif.

Uşaxlarını çağırer, qulluxçusunu çağırer, yeddi dəvəni aparıf yerbəyer eliyir. Bu kişi də karvanını aparer geder öz işində, öz bazarında olor.

Aradan yenə bir il keçer. İki ili keşdi, indi üçüncü ilidi. Üçüncü ili gənə xazeyinnən bir abbası halal pul aler, bazara çıxer. Bazara çıxanda örör, bir balaca uşax var yeddi yaşında, əlində bir nar çöpüdü. – "Ay nar çöpü alan, ay nar çöpü alan, ay gülöyşə narının çöpünü alan" – deyir.

Bu kişi deyir:

– A bala, çöpü neçəyə verersən?

Deyir:

– Bir abbasıya.

Deyir:

– Onu mana ver.

Gətirer, deyir:

– Əmi, sana bir söz deyim. Bu gülöyşə narı üç günün, beş günün içində açer, çiçəkleer, narı yekələndirer, böyüdör. Ölümcül xəstə munun suyunnan bir qurtum ağzına alıf içən kimi dirilif sağalmalıdı. Gərək munu elə yerdə gizdin saxlıyasan, bejərəsən, munu heç kəs bilmiyə.

Deyir:

– Eləmi?

Deyir:

– Elə.

Deyir:

– Yaxşı.

Bu narın çöpünü aler, bir yaşikin içinə qoyor. Gəler öyündə nökər olduğu şəxsnən də halallaşer, "tfu" deyir davanına, çıxer gəler öyünə. Kəndinə gəlir, evinə gəlif baxanda görör kü, ay Allah, munun evinin yerində başqa imarət var, gəlin var, qız var, qoşun var, dəvə var. Bu deyir ki, haa, mənim öyüm yıxıldı. Kim bilir qızdarım, arvadım harda öldü, harda itdi-batdı, yurduma da kimlər yiyə durdu. Bir az hərrəner oanda-buanda, geder damın bir kölgəsində bürüşör. Deyir, acca burda dincəlim, sonra duruf gedərəm. Burda bürüşüf dincəlməkdə olsun, bu kişinin gözünə yuxu geder.

Yuxunun içində yatmaxda olsun, sana söylüyüm arvatdan. Arvad hayatdan baxerdı. Küləfirəngidən çıxıf baxanda görör kü, birinci mərtəbənin qapısında bir qaraltı var. Buna dikqətnən baxer, baxer, baxer. Görör bu bəni-insandı. Tez nökərin birini göndərer. Nökər gəler baxer, deyir: "Xanım, bir

kişi xaylağıdı, burda yater". Özü düşör gəler. Gəlib baxanda örör bu munun əri. Arvad tanıyır, kişi tanımer.

– Ay kişi, ay kişi, dur görüm.

Bu qalxer, deyir:

– Xanım, başına dönüm, məni öldürmüyün, bir qələtdi eləmişəm. Nolar, yol adamıyam, burdan keçirdim, yorulmuşdum, burda kölgədə bir az dincəldim. Nəyinizi oğurramışam, neynəmişəm? Məni öldürmüyün, sizi and verirəm bu anda, o anda.

Deyir:

– Ay kişi, öldürmək nədi? Sən bu evin yiyəsisən, mənim yoldaşımsan. Belə, filan.

Deyir:

– Xanım, başına dönüm, məni al dilə tutma. Qadan alem, dərdin alem, mən çıxıf gederəm, məni burax.

Bu, nökərrərinə, qullarına deyir ki, tez olun munu hamama aparın. Munu hamama aparıf çimizdirellər, əyninə paltar geyindirellər, gətirer otaxda oturdollar. Munun qavağına çörək qoyollar, bu bir-iki kısmat yiyir, axlı başına əler, gözünə işığ gələndə görör kü, bu munun arvadı, uşağıdı.

– Arvad, bu nə sirdi?

Deyir:

– Özün göndərdiyin qızıllarnan tikdirif başa gətirmişəm. A kişi, göndərdiyini bilmersənmi? Yeddi dəvə bir, yeddi dəvə bir dolu qızıl göndərifsən. Hələ onun heç üçdə birini işdətməmişəm mən. Göndərdiyinin xeyli hissəsini saxlamışam.

Deyir:

– Beləmi?

Deyir:

– Belə.

Barmağını dişdeer, deyir:

– Haa, ay mənim halal bir abbasım, halal pulum. Gör başıma nələr gəlif.

Yaxşı, bu, öyündə-eşiyində... Xəlvətcə zirzəmiyə düşör. Zirzəminin ora-burasını düzəlder, qara torpax tökör, bu narın çöpünü gətirer burda basırer. Divinə su tökör, muna qulluğ eliyir oğruncax, arvad-uşağ, heş kəs bilmer. Büyün keçer, savah baxanda örör çiçəkliyif. Bürsüyün baxer ki, başında nar. Üçüncü günü geder narları dərer. Yeddi dənə nar dərer. Narı dərer, qoyor bir səvətin içinə, aler əlinə, çıxer bazara.

– Ay gülöyşə narı alan?

Bu bazarın da böyüyü, bazarkomu bir cuhud imiş. Bu cuhud baxer ki, bir kişi buruya gülöyşə narı gətirif. Deyir: "Ayə, o tərəfə üç ay yol gedəsən, bu tərəfə üç ay yol gələsən, bu gülöyşə narını gətirəmməzsən. Bu kişi nə canı cinnidi, bunu hardan alıf?"

Deyir:

– A qardaş, narı neçəyə satersan?

Deyir:

– Birini yüz manata.

Yeddi yüz manatı verer, bu yeddi narı aler da, qavqarer[10] qavına. Kişi gəler. Cuhudun da şəhərində patcahın oğlu ağır xəsteymiş. Şəhər qara geyinif, oğlan ölüm ayağındadı. Deyiflər buna gülöyşə narı çatdırın, onnan bir qurtum muna içirtsən oğlun sağalajax, yoxsa büyün, ya savah oğlun getdi. Cuhud deyir: "Allahım verif, gedif mən də ordan var-döölət qazanıf yığajam". Gətirer bu narın birini bulara verer. Bu narı kəser, narın bir-iki dənəsini yidirdellər, suyunnan sıxer bu oğlana içirdellər. Oğlan axsırer, öhsürör, götü üstə qalxer oturor, deyir:

– Mana çay verin, çörək verin, mən nə yaman çox yatmışam.

[10] Qavqarer – yığır, qablaşdırır

Deyir ki, yaxşı. Muna çay verellər, çörək verellər, yiyir. Daa bu nar məşhur olor. Cuhud da deyir, mənim Allahım verif, elə bu narı alıf həmişə satajam. Aradan üş gün keçer. Göröllər, həmin kişi yenə yeddi dənə narı gətdi, gəldi bazara. Bu cuhud deyir: "Vallah, burda bir sirr var, bu sirri mən örgənməliyəm". Bu kişiyi yanına çağırer, deyir:

– Ay qardaş, sən gəl bu sirri mana de, görüm bu narı sən hardan alıfsan? Munun ağacının kökünün yerini bizə də de.

Deyir:

– Mənim vəzirgan dostum var, o gətirer mana verer, mən də sateram. Mənim narım-zadım yoxdu.

Deyir:

– Yaxşı.

Cuhud gəler evinə. Çox fikirdən sonra bir küpəgirən qarı taper. – O qarının imanı heç kamil olmasın. – Qarıyı taper, deyir:

– Qarı nənə, səni dünya malınnan qəni elijəm, sən gərək bu sirri örgənif mana deyəsən.

Deyir:

– O məndə.

Qarı "tfu" deyif davanına, tumanın balağını əlinə aler, gəler bu kişinin evinə.

– Salaməlöyküm.

– Əlöyküməsalam.

Deyir:

– Ay gəlin, ay arvad, sən yaxşı arvad döyülsən. Yalannan deyirsən ərim məni çox istiyir, belə eliyir, elə eliyir. Ərin səni çox istəsə, sana sirrini verər. Bu ərin nətəər adamdı kı, sirrini sana demir?

Deyir:

– Aaz, noluf mənim ərimə? Yaxşı-yaman danışma, çıx burdan cəhənnəm ol.

Deyir:

– Yox, qızım, mən sana bir sirr açajam. Mən sənin qoja nənənəm. Səni istiyif gəlmişəm, istəməsəm gəlmərəm. İndi gör sənin ərin nələr eliyif.

Deyir:

– Neyliyif?

Deyir:

– Sənin ərin üş günnən bir bazara yeddi gülöyşə narı aparer.

Deyir:

– Nə? Elə şey olmaz.

Deyir:

– Bəli. İnanmersan savah vaxtıdı, savah gənə narları aparajax. Özün bazara çıx, ərini müşayət elə, gör. Munu örgən, görək bu harda bitif, hardan aler, harda sater.

Deyir:

– Yaxşı.

Arvatdarın başına daş düşsün içi də mən qarışıx. Başı milcəh olsa da, divi qılcaxdı. Arvad gəler qaşını-qavağını tökör, irəngini turşalder-pursalder, hıkqıldeer-zıkqıldeer. Kişi öyə əler.

– Arvad, niyə elə eliyirsən?

Deyir:

– Niyə eləmiyim? Sən mənim nəyimsən? Mənim ərim olsan, mən sənin arvadın olsam, biz halal olsax, bir öydə olsax, məni çox istəsən mana da deyərsən. Sənin sirrin var, mana demiyifsən.

– Arvad, nə sirrim var, nağayrmışam, neynəmişəm?

Deyir:

– Sən o gülöyşə narlarını hardan alıfsan, yerini mana demersən, örgətmersən, bildirmersən. Elə də şey olarmı bir ərin, bir arvadın arasında sirr ola?

Kişi görör bu xına o xınadan döy. Naəlaş qalıf deyir:

– Arvad, gəl.

Arvadı aparer saler zirzəmiyə, narları göstərer, deyir:

– Amma bu şərtə ki, qapıyı sən açma, nara baxma, yoxsa qeyb oluf uçajax.

Deyir:

– Yaxşı.

Kişi gənə narları dərif bazara aparanda arvad bunun dalınnan geder. Arvad görör kişi o qaydada apardı narları yeddi yüz manata verdi, çıxdı gəldi. Kişi deyir:

– Arvad, pisdikmi eliyirəm? Pulumuzun üstünə pul gəler, varımıza var gəler. Daa da yaxşı.

Deyir:

– Yaxşı.

Arvad öydə şam kimi oturordu, bir də gördü qarı gəler, şıllaxlanmış.

– A qızım, nooldu?

Deyir:

– Örgəndim. Sən deyirsən ərin səni çox istəmer. Ərim məni çox isteer, hələ varınnan, hər şeydən üstün məni isteer.

Deyir:

– Nədi?

Deyir:

– Belə-belə. Narın yerini örgəndim.

Deyir:

– Hardadı?

Deyir ki, bizim öyümüzün padvalında narı özü yetişdirir. Üç günə narımız yetişer. Deyir:

– Eləmi?

Deyir:

– Elə.

Arvad burdan "tfu" deyir, davanına tüpürmüş düz bazara – cuhudun yanına. Deyir:

– Ay cuhud, ay bazarkom, bax, bunun belə bir sirri var. Sirrini örgəndim, indi sən bilersən.

Bu cuhud munu çağırer, deyir:

– A kişi, bu nar səndədi, özün bitirersən, özün yetişdirersən. Munun çöpünnən bizə də ver, yerini bizə də de. Ya məni özünə yoldaş elə, yoldaş olax, filan-bəsməkan.

Deyir:

– Yox.

Bu deyir, o deyir, axırı cuhud deyir ki, gəl mərcə girək. Əgər bu narın kökü səndə olsa, ağacı səndə olsa, səndə bitsə, mən deyən olajax. Yox, olmasa, onda sən deyən olajax. Kişi bununla razılaşır. Cuhud deyir:

– Gedək sənin öyünü axtarax. Sənin öyündə tapıldı, onda sənin öyün, varın-döylətin, arvadın-uşağın – hamısı mənimdi. Sən əlini üzünə tutuf, bircə kastyumunu çiyninə salıf öydən çıxmalısan. Arvadın, uşağın da mənim qulum, kənizimdi. Yox, olmadı, onda mənim bu bazarım, bazarrığım, bütün varım-döylətim, arvadım, uşağım – hər şeyim sənindi.

Camaat tamaşa eliyirdi. Müqavileyi yazellar, qol çəkellər, əllərini basellar, hərəsi birini civinə qoyor. Beş-on nəfər də munun başına yığışıf, gəlellər. Gəlellər kişinin öyünə. Girellər zirzəmiyə, baxanda öröllər narın ağacı zirzəmidədi. Kişi nə desin? Daa müqaviləyə qol çəkif, başınnan cavabdehdi. Deyir:

– Qardaş, sənindi hər şey.

Hər şeyi əlinnən çıxannan sonra bu ağlıyır, gözünün yaşın tökör. Deyir: “Ay Allah, mən sana neyləmişdim mənim başıma bu işi gətdin? Mən bu ölkədən çıxıf gederəm Allahtaaleyi gəzməyə”.

Əyağına geyiner bir dəmir çarıx, əlinə aler bir polad hasa, yola rəvan olor. Az gedif çox dayaner, çox gedif az dayaner. Həkdən düşör, haldan düşör, bir cazeyranın düzündə bir abidə rast gəler.

– Salaməlöyküm.

– Əleyküməsalam.

– Abid qardaş, məni beyjə qonaq eliyərsənmi?

Deyir:

– Qonağ Allah qonağıdı.

Munun yanında əyləşer.

– Oturmağ olarmı?

Deyir:

– Olar.

Abidin yanında oturor. Axşam yemək vaxtıydı. Bunun yanında oturuf bir az söhbət eləmişdi ki, Allah-taaladan iki qav xörək gəler. Sürfə açıler, xörək gəler, çörək gəler. Ustolun üstünə qoyulanda abid deyir ki, fidah olduğumun harasa səfəri var, savah məni görəmmijək, indidən mənim xörəyimi göndərif iki qav. Birinin ağzını örtör anrı qoyor, birini qavağına çəker yiyir. Bu kişiyə nə vermer, nə təklif eləmer. Bu yazıx da köksünü ötürör, aj-susuz qarnını qucaxlıyır, burda bir təhər quru yerdə oturor. Bir az keçənnən sonra iki dəst yaxşı palaz gəler, yorğan-döşək. Abid deyir: "Allaha qurvan olom, beyjə donatdıx[11] olajax, külək, tufan olajax. Yəqin mən soyuxdan donajam deyə iki dəst göndərif". Palazdarı üst-üstə saler, əynini soyunor, qu tükü yorğan-döşəyin içinə girer, mışırhamışır başdıyır burda yatmağa yuxusu şirin olmamış. Bu yazıq kişi qaler düzün düzəngahında. Abid savah deyir:

– İndi yola irəvan oluf gedersənmi?

Deyir:

– Gederəm.

Deyir ki, Allah-taalayı tapsan denən ey Allah-taala, filan yerdə – cazeyrənin düzündə bir abid var. Deyir alnımı möhür

---

[11] Donatdıx – şaxta, donuşluq

aparıf, dizimi yer aparıf, qırx ildi ona qulluğ eliyirəm. Soruş görək mən cənnətin hansı küncündə yatajam.

Deyir:

– Yaxşı.

Bu, yola rəvan oluf geder. Az geder çox dayaner, çox geder az dayaner, taqətdən düşör. Əlini gözünün üstə qoyuf belə boylananda görör kü, bir qalın meşənin ortasınnan tüstü çıxer. Deyir, Allah haqqı, ölsəm də, ölüm-zülüm özümü oruya salajam, orda bəni-insan var ki, ordan tüstü çıxer. Ojağı insan qalıyar, heyvannar ojax qalıyammaz.

Az geder, çox geder, qalaçaya çatanda görör kü, burdan toy səsi gəler, dəf, zurna, balaman səsi gəler. Yavaş-yavaş, yavaş-yavaş gedib aynanın ağzınnan baxanda görör ki, içəridə qırx lotu yiyif içer, çalıf çağırer, çapqıntıdan gəliflər. Birdən biri munu görör. Munu görəndə deyir:

– Əyə, qoymuyun, tutun, bəni-insan gəlif. Aynadan baxdı, qayıtdı.

Bulardan beş-onu eşiyə çıxer. Nolojax, hay-huy, qomarrer bu kişiyi tutollar. Kişinin dodağı quruyur, çatdeer, rəngi-başı ağavazıyanda deyir:

– A kişi, qorxma. Səni nə döymörük, nə söymörük, nə öldürmörük. Səni aparıf qonağ elijeyik. Qonağ Allah qonağıdı. Niyə qaçersan?

Munu aparıf bir otağa salellar, otaxda stolun üstünə yiməklər gəler. Munun qavağını doldurollar, qaynar çaydan-çörəkdən munu yidirdellər, içirdellər. Kişi neçə gündü aj, susuz, yornux. Bir-iki kısmat yiyir, deyir:

– Başına dönüm, qadan alem, bəsdi.

Kişi başdıyır mürgüləməyə. Deyir:

– Ay kişi, mürgüləmə.

Kişiyi salellar hamama. Hamamda çimizdirellər, əyninə paltar geyindirellər, bir otaxda bir yer açer. Deyillər, a kişi,

burda rahatdan yat savağa kimi. Arxeyincə, əlini qulağıyın divinə qoy, yat.

Bu kişi yatmaxda olsun, bular da öz işində, yiyif-içif, çalıf-çağırmaxda. Savah durollar. Duranda deyir ki, a kişi, harya gedersən? Deyir, Allah-taaleyi gəzməyə, başıma belə bir müsibət gəlif. Allah mənə var-döylət verdi, tez də başıma vurdu, əlimnən aldı. Deyir:

– Sənin qadan alem, Allah-taaleyi tapsan denən ki, filan yerdə qırx lotu var. Deyir ki, elə arvad var ki, bircə sarı keçisi var. O sarı keçiyi sağer, qatıx çaler. Uşağına boz aladan yığer, pencər bişirer, axşam o qatığı onun üstə töküf o uşağına yedizdirer ki, zəhərrənif ölməsin. Eləsi də var, varrı, milyaner bir adamdı. İndi biz onun hamısını çaler, çaper, gətirif burda yiyif-içirik. Cəhənnəmin hansı küncündə yanajeyih, hansı tərəfinə vasil olojoyux, bizi də gənəş.

Deyir:

– Yaxşı.

Buna da bir heyvə çörək, xörək doldurollar xarav olmuyannan-filannan, kişinin çiyninnən aşırellar.

– A kişi, get, Allaha pənah.

Kişi yola rəvan olor. Az geder çox dayaner, çox geder az dayaner. Görör çörək də qutarer. Fidah olduğum Allah-taalaya agah idi. Deyir:

– Ya Cənab Cəbrayıl, dərviş libasında en qavağına.

Dərviş libasında, insan sufatında Cənab Cəbrayıl ener qavağına.

– Salamməleykim.

– Əleykiməsalam.

– Ay qardaş, kimsən, nəçisən, hara edersən?

Deyir:

– Dərdin alem, mənim dərdimə dərman eliyən döysən. Hər kiməm, yolçuyam, qoy yolumnan gedim.

Deyir:

– Yox, dərdini mana deməmiş səni buraxan döyüləm.

Deyir:

– Başıma belə bir müsibət gəlif, bir qəzavü-qədər gəlif, gedərəm Allahı gəzməyə.

Deyir:

– Allahın ən əziz, ən mömin, ən yaxın adamı mənəm. Məni sana köməyə göndərif. İndi sən dayan burda, mən sana deyim.

Deyir:

– Nədi?

Deyir:

– Gedersən həmin şəhərə. Şəhərə çatanda gedersən bazara, axtarıf tapersan o cuhudu. Deyirsən ki, ay cuhut, bilersən nə var? Mən bir iş görə bilərəm. Mana Allah-taala təzə bir qismət verif. Sənnən soruşajax nə qismət. Denən gün doğannan günü batırram, gün batannan günü doğuzdurram. Camaat sana əl vuruf güləjəh, hüyuxma[12], zərəl yoxdu.

Deyir:

– Başına dönüm, mən yerinə yeti...

Deyir:

– A kişi, sənin nəyinə lazım. Mən deyirəm, səni mən göndərerəm.

Bu deyir:

– Yaxşı.

Sonra deyir:

– Qadan alem, filan yerdə bir abid mana rast oldu, belə dedi.

Deyir:

– Abidə denən ki, onun yeri cəhənnəmdə qır qazanının içindədi.

---

[12] Hüyuxma – narahat olma

Deyir:

– Qadan alem, filan yerdə də qırx lotu var idi, mana belə dedi.

Deyir:

– Denən behişdin küncündə güllü, çiçəkli bağın içində almalar olardan ötrü saplağınnan asılıf. Olar gəvələrin üstündə yatajax.

Deyir:

– Yaxşı.

Bir də istiyir ki, bir söz soruşa. Cəbrayıl deyir:

– O adam sizin adamdımı?

Bu belə baxer, çöörülüf belə baxanda görör fidah olduğum yoxdu. – "Əstafrullah, hələbi və tövlü, sana şəkkə nəhlət" eliyir, yönünü çöyürör gəler.

Az gəler, çox gəler, gənə həmin lotulara qonağ olor. Lotular munu yaxşı qarşılıyır, heyvan kəser. Aparer yedirder, içirder, bir otax verer. Yater, savah da yeyillər, içellər. Deyir, tafdınmı? Deyir, tafdım. Deyir, soruşdunmu? Deyir, soruşdum. Deyir, nə dedi? Deyir, Allah-taala dedi ki, behişdəki almalar olardan ötəridi. Behişdin birinci küçəsi olarındı, amma bu şərtə ki, "əstafrullah" eləsinnər, tövbə desinnər. Hamısı bu kişinin yanında tövbə deyir, and içer, "Quran"a əl baser. Bütün tuluxları cırellar, şərab qavlarını qırellar, dağıdellar buruyu. Deyillər, innən sonra gedif itayət elijeyik Allahın yolunda. Yazığımız gələjəh, aja, yalavaca kömək elijeyik. Çapıf gətirdiyimiz qızıllardan paylıjeyih, özümüz də Allah yolunda oturuf ibadət elijeyik.

Buların yanınnan kişi çıxer, gəler abidin yanına.

– Salaməleykim.

– Əleykiməsalam.

Yenə abidin yanında qonax qaler, həmən qaydaynan abid munu qarşılıyır. Nə yemək verer, nə palaz verer. Savah duruf yola düşəndə deyir:

– Qardaş, tafdınmı?
Deyir:
– Tafdım.
– Nə dedi?
Deyir:
– Dedi ki, qır qazanı onnan ötəri qaynıyır, qır qazanında qaynıjaxsan.
Deyir:
– Kül başına, məni ki belə eliyir, innən sonra nə qulluğ elijəm, nə dizimi yerə aparajam, nə alnımı möhürə. Mən qırx lotulara qoşuluf çapqınçılığ elijəm, çalıf-çapajam.
Deyir:
– Özün bilərsən.
Bu, yolu əlinə aler, irəvan olor, gəler çıxer özünün şəhərinə. Şəhərin qırağınnan, böyrünnən, başınnan düz gəler bazara. Bazarda bir-iki adam munu tanıyer, bir iki adam da tanımer.
– Salaməleykim.
– Əleykiməsalam.
Cuhut muna deyir:
– Sən burda nəəzirsən? Sən burdan sürgün olufsan, buruya gəlməməlisən. De görüm nəəzirsən?
Deyir:
– Ay səni öləsən, mən Allah-taalaynan danışıf gəlmişəm.
Deyir:
– Ə, Allah-taala səni başına çöyürsün, nə danışıfsan?
Deyir:
– Mən Allah-taalaynan danışmışam, gündoğannan günü batırajam, mana izin verif, günbatannan günü doğuzdurajam.
Cuhud əlini əlinə vuruf gülür. Deyir:
– Ay camaat, munun başına havaəlif. Varı-döyləti, öyü-eşiyi, arvad-uşağı – hər şeyi əldən gedif deyə bu havalanıf.
Deyir:

– Mən havalanmamışam, havalanan sənsən. Gəl müqavilə bağlıyax, eliyim mən.

Yanındakı camaatın bir-ikisi deyir ki, olar, bir-ikisi deyir olmaz. Deyir, yaxşı. Bu qeyrətdəner, gətirer müqavileyi bağlıyıllar, yazellar, qol çəkellər. Peçat basıler, hamısı əlini baser. Bir surəti onun civində, bir surəti munun civində. Deyir, beyjə yatın-yatmıyın, özünüz bilərsiniz, savah saat beşdə gözdüyün.

Saat beşdə hamı duror, göyün üzünə baxer. Göröllər ki, günbatan tərəfdən göyün üzü qızardı, gün şualarını salıf gəler. Hamı bir-birinə dəyir ki, ilahi-pərvərdigarə, kişinin dediyi gerçəkdi. Deyir, bəli, bəli, gerçəkdi, mən yalan danışmeram. Ajan çörək yiyir, su içən su içer, yorulan öyünə geder, yorulmuyan elə göyün üzündə gözdəri qalıf. Axşamı gözdööllər, göröllər günbatannan gün doğmuşdu, gündoğannan da gün batdı. – “Düzdümü?” – “Düzdü”. – “Müqavilə təsdiq oldumu?” – “Oldu”. – “Öy-eşik mənimdimi?” – “Mənimdi”. Deyir:

– İndi bu cuhudu, bu insana oxşamazı bağlıyın bir dəli qatırın quyruğuna.

Bir dəli qatırın quyruğuna bağlatdırer, munu buraxer bərribiyavana. Qatır munu sürüyör burda-orda. Cəzaynan bu ölməkdə olsun, indi sana söylüyüm kişidən. Kişi gəler öyə. Deyir:

– Ay camaat, indi mana nə deyirsiniz?

Deyir:

– Qardaş, əyağını yerdən üzsən, sana nozənbillah, ikinci Allah deyərik.

Deyir:

– İndi mən nağayrem, mən bu arvadı öldürömmü?

Bir-iki ağsakqal qayıdır deyir ki, yox, öldürmə, qadın xaylağıdı. Qadın xaylağına, irax sizdən, it hürmür, o qala öldürmək ola. Deyir:

– Bə nağayrem?

Deyir:

– Uşaxlarıyın anasıdı, uşaxlarına süd verif. Onu sal zirzəmiyə, zirzəmidə o çörəyin qırınnan-qırıntısınnan, sürfeyin qırınnan-qırığınnan tök qavağına, yisin, ölənətən orda yatsın. Allahın xoşuna getməz, uşaxlarına süd verif, o südə bağışla.

Kişi yanıf tökülüfmüş, arvad ona o qədər dağ çəkifmiş. Gətirir munu zirzəmiyə saler. Nökərə, naibə əmr eliyir ki, muna çörəyin qırığınnan-quruğunnan verməsinnər. Uşaxlarına da deyir, ona yaxın getmiyin, o sizin ananız döy. Ananız olsa, sizin çörəyinizə vais olmazdı. Onnan sonra bu arvad burda yaşamaxda, kişi də burda yaşamaxda olsun, cuhut da ölməkdə.

Nağılımız burda bitdi. Göydən yeddi alma düşdü. Yeddi almanın biri mənim, biri sənin, biri nağıl danışanın, biri qulax asannarın, üç-dördü də sənin iş yoldaşdarıyın, olara apar. Siz sağ, mən salamat. Siz yüz yaşıyın, mən iki əlli. Hansı çoxdu, siz götürün, hansı azdı mənim olsun.

## 2. OVÇU ƏHMƏD

Biri varıydı, biri yoxuydu, Allahın bəndəsi çoxuydu. Bir yaxşı kişi varıydı. Bu kişi çox atıcı, çox məşhur kişi idi. Munun adına deyirdilər Oyçu Əhməd. – Atamın dizinin divində oturanda bu nağılı ən azı iki dəfə söylətmişəm, bəlkə atam üş şillə vuruf mana. Deyif bir dəfə söylədim bəsdi. O qədər şirindi, adam bir də istiyir. – Oyçu Əhməd gündə geder quş, ceyran, cüyür – hər şey vurordu, gətirerdi, pişirerdilər, düşürördülər, yiyirdilər. Bir gün Oyçu Əhməd oya gedəndə gördü ilahi-pərvərdigara, cəmənnikdə bir gözəl ceyran var, eləcə yimə, işmə, bu ceyranın gözəlliyinə tamaşa elə. Tüfəngi üzünə ötürüf çaxmağı çəkəndə ceyranı vurdu. Yüyürdü getdi ceyranın başını kəsdi, boğazını yüdü, qaytardı başını üstünə tikdi. Munu qoltuğuna ötdü, öyə ətdi. Dedi:

– Arvad, büyün bir gözəl ceyran çıxıf baxtıma. Munu bu saat soyum, təmizdiyim, pişir-tüşür, uşax da, biz də munun bir kavavını, ətini yiyək.

Arvad gördü ceyran çox gözəldi. Arvad da buranın şahınnan gəzerdi xəlvəti. Dedi:

– A kişi, bu ceyranı pişirif yijeyik. Bir tikə ətdi, bizim qarnımıza nə gedəjək? Gəl, bu ceyranın ora-burasın da təmizdiyək, bir qəşəh dəsmələ bükək, munu qucağına ötü, apar şaha peşkəş elə. Əvəzində nə verər, verər. Yəqin ki, onun da insafı olar, bizə bir qızıl verər, bir gümüş verər, biz də uşağımıza bir yemək-işmək alarıx.

Oyçu Əhməd arvadın sözünnən bu ceyranı pükdü, qoltuğuna aldı, getdi şahın qapısına. Darvazeyi döydü, gəldilər aşdılar. Dedi:

– Şaha mənim peşkəşim var, oyum var.

– Ver aparax.

Dedi:

– Yox, özüm aparmalıyam.

Getdi, salam elədi, iltimas elədi. Baş əydi, əlini öpdü, ceyranı şahın qavağına qoydu. Şah dedi:

– Onu aç, görüm nədi?

Bu, surfanın arasını açanda gördü, ilahi, bu bir gözəl ceyrandı, yimə, içmə, munun xətdi-xalına, gül camalına tamaşa elə. Şah qayıtdı dedi:

– Ə, sənin qolun qurusun, Oyçu Əhməd. Bu ceyranı niyə vurordun? Bu ceyranı mana diri tutuf gətireydin, səni özümə vəzir götüröydüm. Bütün bu xəzinəm, bu dünyam sənin oloydu.

Dedi:

– Şah sağ olsun, nə bilim, ona qüvvəm çatmadı, özümü sınamadım. Elə şikarıma çıxdı, munu vurdum. Mən istədim öydə uşaxlara pişirəm. Arvad mənnən ağıllı idi, dedi munu

patcaha peşkəş çək, – deyəndə patcah deyir: “Həə, bu arvadın töhvəsidi”. Dedi:

– Oyçu Əhməd, munu gətdin, çox sağ ol. Bilirsən nə var?

Dedi:

– Nə var?

Dedi:

– Bunun bir cüt göyərçinnəri var, bir gəzellər. O göyərçinnəri mana diri-diri tutuf gətirsən, bax bu xəzinəm, bu dünyam sənindi. Hamısını da verməsəm, yarısı sənindi. Ala, daqavor kağızı yazım, qol çəkim, verim.

Dedi:

– Yaxşı.

Daqavor yazer, qol çəker, muna verer. Bu gəlir öyə, başdıyır öydə ağlamağa. Arvad deyir:

– A kişi, nədi?

Deyir:

– Belə-belə.

Deyir:

– Öyün yıxılsın, ona nə var. Onun yolunu sana deyim, get elə.

Deyir:

– Nədi?

Deyir:

– Get patcaha denən filan yerdə güjdü bulax var. O bulağın dörd tərəfini qazdırsın, o bulağın gözünü tutsun. O bulağın suyunu çəkdirsin, tökdürsün qırağa. O bulağın suyunun əvəzinə təmiz, xalis arı balınnan doldursun oruyu, üstünü də örtsün, balaca ağız qoysun. O göyərçinnər yeddi aydan bir gəler o bulaxda çimer. – Arvad köpəkqızı bilən imiş. – İndi vaxt yaxınnaşıf, o göyərçinnərin orda çimmək vaxtıdı. Olar elə biləjək sudu, gəlib bir az hərrənif özünü suya çaxanda bala

batajaxlar, yapışajaxlar. Ordan da sən çıxardar, balını yuyar, aparar patcaha peşkəş çəkərsən, bir elə xəzinə alarıx.

Oyçu Əhməd gəlir munun hamısını patcaha danışanda patcahın əlində arımı yoxuydu, balmı yoxuydu? Nökəri, naibi çağırer, pəhlivannarı çağırer, suyu tökdürör, bulağın gözünü tutduror, hələ bir az da dərin qazdırer. Oruya balı tököllər, qırax yerrərdə də pusqu yerrəri qayırellar. Oyçu Əhməd də bulağın yaxınnığında buları gözdəməkdə olsun. Göyərçinnər gəler çimməyə. Bu bulağın dörd tərəfində döyrə vurollar. Bu göyərçinin balaca tayı deyir ki, ay bacı, yaman istilənmişəm, çimmiyəkmi? Böyük tayı deyir ki, ay bacı, nəsə mənim ürəyimə bir şübhə damıf, gəlin büyün heç çimmiyək, qayıdax gedək.

Balaca bacı deyir:

– Baa, elə şey olarmı? Yeddi həftədən, yeddi aydan bir gəlerik buruya. Yox, çimməliyik. Mən çox istilənmişəm, təntimişəm.

Bir o tərəfə, bu tərəfə şığıyır, dövröyü vuror, özdərini suyun içinə çaxanda batellar, qalellar balın içində. Oyçu Əhməd ordan çıxer, camaat ordan çıxer, göyərçinnəri tutollar. Elə tutor ki, qanadı-quyruğu qırılmasın. Munu ballı-zaddı götürör aparer, şaha deyir:

– İndi munu yüdürtmək, çimizdirmək özünə qalıf, özün elətdirərsən. Mən çimizdirəndə qanadını-quyruğunu qıraram, mənim zəhmətim batar.

Şah Oyçu Əhmədin arvadını gətirder. Oyçu Əhmədin arvadı munu yaxşı yüyür, çimizdirer, məhrəbanın arasına qoyor quruloor. Bu göyərçinnəri şahın otağına buraxer.

Bu göyərçinnər bir cüt gözəl qız idi, burda qalmaxda olsun, indi sana hardan xavar verim, bir xayin, bir paxıl qonşudan. Xayin, paxıl qonşu deyir:

– Ey şah.

Deyir:

– Hə.

Deyir:

– Bilirsən nə var?

Deyir:

– Nə var?

Deyir:

– Oyçu Əhməd sana bir ceyran gətdi. Ona bir belə var-döylət verdin. Sonra istədin, iki göyərçin gətdi, xəzineyin yarısını verdin. Buların bir xanımı var. İndi xanımı gətirdərsən, bütün variyətini ona verərsən, Oyçu Əhməd də olar sənin oğlun. Amma munun xanımını mütləq gətirt. Bular üçdü: biri ceyrandı, bir cüt göyərçindi, bir də bir qızdı. Əmri də verən bu qızdı bulara.

Şah deyir:

– Yaxşı.

Şah Oyçu Əhmədi çağırer, deyir:

– Əhməd, işin bitif.

Deyir:

– Nədi?

Deyir:

– Allah öyünü yıxsın, munun bir qızı var, gərək qızı da gətirəsən.

Deyir:

– A tufağın dağılsın, mən qızı hardan alem, hancəri gətirem, nağayrem, neyliyim?

Gəler öydə ağlıyanda arvad deyir:

– A kişi, mən onun dərdini bilerəm.

Deyir:

– Nədi?

Deyir:

– Get bir yaxşı paraxot qayırtdır. Paraxot quruda da yerisin, suda da. Özü də onu sürməyi bizə örgətsin. Sənnən, mənnən başqa orda heş kim olmujax.

Deyir:

– Yaxşı.

Arvad da ara açer dana şahın yanına gedif gəlməkdən ötəri. Bu gəler şaha deyir ki, gərək bir paraxot qayıtdırasan, bu paraxot suda da yeriyə, quruda da. Şah deyir:

– Yaxşı.

Paraxot qayrıler, hazır olor. Gəler Oyçu Əhməd buannan, oannan baxer, arvad baxer, görör yaxşıdı. İçinə miner, bir az elə, bir az belə sürör. Arvad deyir, iki dəst paltar: biri üzgüçü paltarı, biri quru paltarı. Quru paltarını geyinellər, gedellər, suyun qırağına yaxınnaşanda üzgüçü paltarını geyiner, paraxodu salellar dəryəyə. İndi arvad deyir:

– A kişi, sən gizdən paraxotun içində. Səni görüf qız gəlmijək. Qız büyün başında qırx qız dəryanın üzünə səyahətə çıxıf, dəryada gəzer. Mən paraxodumu elə sürüf, elə xoddoof buların yanınnan keçəjəm, qız meyillənif deyəjək əylə paraxodunu, gəlim minim sənin paraxoduna, gəzim. Görüm səninkimi gözəldi, mənimkimi? Əgər sənin paraxodun gözəlsə, mən o formada qayıtdırajam. O gəlif paraxoda çıxanda mən hər tərəfdən qapıları bağlıjam, qızı buraxmıjam. Sən onda çıxarsan, qızın əlini-əyağını bağlıyarsan, sürüf gətirərik.

Deyir:

– Yaxşı.

Bunun hamısını gəlif patcaha rəvayət eliyillər. Patcah paraxotu qayıtdırer. Bular götürüf paraxodu çıxellar. Quruyu gedellər, suya çatanda öröllər ki, bir xanım paraxodun içində, qırx incəbel qız da başında, baxdıxca gözün qaraler. Gözəlliyi suya şox saler. Minif gəzellər. Bu arvad paraxodun bir bu yanınnan, bir o yanınnan, bir munun qavağınnan, bir dalınnan... Qız deyir:

– Ə, bu nə riskin yiyəsidi? Nə adamdı bu bizi belə avqon eliyir?

Paraxodunu əyleer, muna əl eliyir. Deyir:

– Ey, ay xanım, ay xanım. Sən də xanımsan, mən də xanımamam. Xanım xanıma düz söz deyər, yalan danışmaz. De görüm sən kimsən, nəçisən? Hardan gəlif hara edersən? Bu paraxota məni də mindir, muna baxım.

Deyir:

– Paraxodunu əylə.

Paraxodunu əyleer qıraxda. Bu gəler miner, paraxoda baxer. Oannan, buannan, birdən arvad munu xoddoor. Xod-door, suyun üzünnən paraxod gedəndə deyir ki, ay bajı, qoyma paraxodun getdi, saxla. Deyir, yavaş. Onatan kişi ordan çıxer. Qız da qalıf paraxodun içində. Kişi munun əlini-əyağını bağleer, qızı paraxoda qoyuf gətirellər. Sürör gəler düz şahın hüzuruna. Şahın qəbuluna geder. Ənam verer, peşkəş çəker ki, qızı gətirmişəm, sana qurvandı.

– Məni istiyən bu Oyçu Əhmədə nəmər, – deyəndə arvad deyir ki, Oyçu Əhmədə nə nəmər, nə xələt verəjəksən? Ceyranı gətdimi Oyçu Əhməd? Göyərçinnəri gətdimi Oyçu Əhməd? Qızı gətdimi Oyçu Əhməd? Üçü getdi, dördüncüdə səni öldöröjək. Bütün varın, döylətin, qızılın, xəzinən, gümüşün, arvadın, uşağın, nökərin-naibin – hamısı qalajax Oyçu Əhmədə. Oyçu Əhmədin boynunu vurdur. Arvadın fitnəsinəjə şah inaner, Oyçu Əhmədin başını vurduror, var-döylət, dünya, xəzinə hamısı qaler patcaha. Oyçu Əhmədin arvadı da qaler patcaha, o gözəl qız da qaler ona. Gözəl qız belə baxer, baxer, deyir ki, mən divlər patcahınnan əmələ gəlmişəm. Hələ mana belə kələk gəlib, belə qurğu quran olmamışdı. Haşa, bu da deyir, yaxşılığınkı yamannıxdı. O sana yaxşılığ elədi ceyran gətdi, göyərçin gətdi, məni gətdi. Sən ona yamannığ elədin, axırda nahaq qan tökdürdün. Nahaq qan yerdə qalmaz, – deyən kimi qız "a" eliyir, buğda boyda qan ağzınnan gəldiyinnən qızın ürəyi partdıyır. Qız ölör, var-döylət də o düzdə qaler, patcah da o düzdə qaler. Oyçu Əhmədi də aparer qıznan baravar dəfn eliyillər; qızı ayrı yerdə, onu ayrı yerdə.

## 3. YAZIYA POZU YOXDUR

Bir Ovçu Pirim var idi. Ovçu Pirim dooşanı dizinnən vurordu, durnoyu gözünnən. O qədər mahir atıcı ovçuydu, amma evladı yoxuydu. Neçə illərdi arvadınnan xoşbəxt yaşıyırdı. Bir gün munun arvadı dedi ki, bu qonşunun uşağı, o qonşunun uşağı, hamının uşağı var, mənim yanımda bir əlimnən tutan korun bir hasası yoxdu. Dedi:

– Ovçu Pirim.

Dedi:

– Ha.

Dedi:

– A Pirim, ya məni həkimə, doxtura apar, ya mən çıxıf dədəm öyünə ederəm.

Dedi:

– Arvad, çox həkimə getdik, çox doxtura getdik, Allahın fikrində bizə övlad vermək yoxdu. Allah versə, bizə yetirəjək.

Dedi:

– Yox, mən getməliyəm.

Dedi:

– Arvad, mana qırx gün möhlət ver.

Ovçu Pirim arvadınnan qırx gün möhlət alıf oturmaxda olsun, indi sana kimnən xavar verim, şah oğlu Şah Abbasdan. Şah oğlu Şah Abbas vəziri Allahverdi xannan dərviş paltarında çıxıf kəndi, şəhəri seyr eliyirdi, görüm kimin vəziyyəti nətəərdi, kimin tükanı nətəərdi, hası rayon nejədi. Belə səyahət eliyif gəzerdi. Bir kəndin qırağında bir hündür təpədə bular gejəliyəsi oldular. Belə baxdılar ki, bu kəntdə heş kimin öyünnən işıx gəlmer, bir öydən ölüvay, zəyif işıq gəler. Getdilər bu işıx gələn yerə. Gethaget, atdarı sürüf gedəndə ördülər ki, bura bir qara damdı – qazma dam, bir çovan öyüdü. Çovanın arvadı, üş-dörd də uşağı var, arvad burda uşağa yater.

Qonşudan üç-dörd arvad da başına yığılıf. Bir qara çıradı, yandırıflar bunun uşağını tutmağa. Bular gizdəndi. Bir-birinə işarə elədi ki, gizdənək, görək bu nə işdi? Bular işığı nəyə yandırıf? Uşağ ana bətninnən düşəndə gördü başının üstündə üş dənə göyərçin – bular məleykələr idi göyərçin donunda, – gəldi danışdı. Biri dedi ki, bacılı-bacılı, yaz. O birsi də dedi ki, ay bacılı, nə yazım? O da dedi ki, mən deyim, sən yaz. Dedi: "Yazginən ki, bu qızın yazısını, taleh-qismətini, həyatını şah oğlu Şah Abbasa yazdıx", – deyəndə dedi:

– Yazdım.

O birsi dedi ki, ay bacılı, yazginən ki, qızın on beş yaşı tamam olanda toyu olojax, şah oğlu Şah Abbas munun yanına girəndə barmağını böcək dişdiyəjək, onnan da öləjək.

– Yazdım, – deyəndə şah oğlu Şah Abbas göyərçinin qanadınnan tutdu. Tutanda göyərçin qayıtdı dedi ki, ey şah, olar da sizin adamlardımı? Şah belə baxdı, belə baxanda gördü kü, göyərçinnər qeyb oldu, nəəzer. Dedi: "Yaxşı, sənin yazını mən qaraətirim, sən tamaşa elə". Vəzir Allahverdi xan dedi:

– Ey şah, yazıya pozu yoxdu, həbibə təbib. Sən bu qızın yazısını pozammazsan, yazıçılar yazdı.

Dedi:

– Gör mən nejə pozajam.

Arvatdar apardı uşağı içəri qoydu, rahatdadı, vardılar hamısı öyünə etdilər. Şah Abbasnan vəziri qapıyı tıkqıldatdı. Tıkqıldadanda arvad dedi:

– Gəl.

Dedi:

– Ay bajı, biz Allah qonağıyıx, qərib adamıx, burda qalmışıx, dardeyih. Beyjə qoy sizin öyünüzdə pənahlanax. Qorxorux soyux bizi eşikdə qırar, – deyəndə dedi ki, ay qardaş, mən xəstəyəm, qalxası halım yoxdu. Allahdan gizdin olmuyanı bəndədən nə gizdiyim. Tavaxda çörəyimiz var, tuada da südü-

müz var. Bura çovan öyüdü, mən çovan arvadıyam. Görörsən, mən də xəstəyəm. Palazım-barxanam yoxdu, ərimin cırıx surtovunnan-zaddan[13] altıma salıf uşaxlarımnan yateram. Amma orda bir təmiz qartımız[14] var. O qartı təmizdi, onu altınıza, üstünüzə salın, orda yatışın, – deyəndə deyir:

– Yaxşı.

Şah işarə eliyir ki, ay vəzir, yidiyimizə baxma, bunun çörəyini kəsməsək, bu bizim işimizi düzəltmijək.

Burda bunun çörəyinnən, südünnən hərəsi bir damcı yiyif bərəkət dileellər. Bu vəzir sürfeyi yığer anrı qoyor, qartıyı salıf üstlərinə, uzanellar. Bir canı-dilnən, bir zülümnən savağı açellar. Savah açılanda vəzir deyir, dur. Duror, deyir:

– Ay bajı, bilersən nə var?

Deyir:

– Nə var?

Deyir:

– Bu şah oğlu Şah Abbasdı, bunun evladı yoxdu. Kənd-bəkənd təzə olmuş uşax gəzerik. Sənin də uşağın ana bətninnən axşam düşüf, hələ bir sutkası tamam döy. İndi sən gəl bu qızı bizə sat – qız uşağıymış, – özü ağırı qızıl verək. İki kisə qızıl verək, beş kisə qızıl verək, munu aparağ evlatdığa ötürək. Öldürmörük, itirmerik. Bir vaxt olojax bu qız öyünə ələndə hamı sana məhətdəl qalıf gözaydınnığı verəjək. O qızılı da sən başının altda qoy, ömürboyu yi. Arvad ağleer, deyir ki, mən ömrümdə evladımı satammaram. Deyir:

– Ay arvad, etmə-eləmə, kasıf adamsan. Əpbək[15] tapmersan yiməyə. Cad[16] yiməhdən bu uşağın boğazı quruyuf. Cadnan da, südnən də uşağ durarmı? Öy tikdir, bulara paltar

---

[13] Surtov – sırıxlı, pencək

[14] Qartı – yapıncı, keçədən hazırlanmış çoban geyimi

[15] Əpbək – çörək

[16] Cad – qarğıdalı unundan bişirilmiş çörək

al, buğda al, çörəh al, yaxşı yi. Beş qoyun al, bir inək al qapına. Ərin də gələndə, soruşanda denən ki, bir ölü uşağ olmuşdu, öldü, basırdıx, o arvatdara da pul ver.

Arvad fikirrəşer, deyir: “Doğrudan da, yaxşı fikirdi, düz deyir. Kasıflığın daşını ataram”. Bir xurcun qızıl aler, qızı verer. Vəzirə deyir, götü. Vəzir götürör çuxanın sinəsinə qoyor, burdan belini tokqoynan tokqaleer, atdarını minif yola düşöllər. Gedellər hündür bir dağın başına çıxellar. Dağın başına çıxanda deyir, uşağı qoy yerə. Uşağı yerə qoyor. Şah özü xançalı belinnən açer, uşağın bələyini açer. Boğazının burasınnan – çökək yerdən pıçağı saler düz qarnının aşağı hissəsinətən uşağın qarnını yarer. Bağarsax-zad o yannan bəri portdoor çıxer. Uşax çığırer, amma ölmür. Allahın işidi öldürmək. Yarıldığına baxma, ölüm Allahdandı. Bu əysinin arasına belə-belə büköör, bükəleer, qannı-qoxulu, barrı-bağarsaxlı şalın arasında bu dağın təpəsinnən elə əldən qoyor munu. Deyir:

– Yazıyı da belə pozdum. Ay vəzir, nəyə gülördün? Yazıya pozu yoxdu nədi.

Deyir:

–Şah, bir gün sana deejəm.

Bular bunu atıf öyə gəlməkdə olsun, sana xavar verim Ovçu Pirimnən. Ovçu Pirimin arvadı deyir:

– Kişi!

Deyir:

– Ha.

Deyir:

– Qırx günün tamam oldu, heş nə olmadı. Məni yola sal.

Deyir:

– Arvad, büyünciyəz də dayan. Qırxa dözüfsən, birə də döz, qırx bir olsun. Savah bu and, bu zər, səni özüm əlimnən aparıf dədən öyünə qoyajam. Veş-vüşünü də haravaya yığajam.

Deyir:

– Yaxşı.

Duror tüfəngini götürör, torunu götürör, qatarını, yarağını-yasağını belinə bağleer. Deyir:

– Ya Allah, əl mənim, ətək sənin, ya mənim əlimi kəs, ya ətəyini.

Ovçu Pirim öydən çıxer. Deyir:

– Arvad, ya sana bir qismət tapıf gətirəjəm, ya mənim ordan meyidim gələjək. Mənim meyidim gəlsə, sən qardaşıyın canı, olmuyan uşağıyın canı, məni el adətinən götürüf basdırarsan. Nəyim var, onnan ehsan verərsən.

Deyir:

– Yaxşı.

Bu geder, axşama kimi gəzer. Baxer ki, gün batdı, qavağına bir quş da çıxmeyif ki, bu quşu vura. Bir daşın başında oturor, başını əllərinin arasına aler, möhkəm burda ağleer. Ağlıyan mamentdə baxer ki, bunun gəlib başının üstündə bir quş dövrə vuror. İstiyir tufəngi ata munu vura, quş dilə gəlif deyir:

– Öyün yıxılsın, sana ana ceyranı mənəm gətirən. Odu, sallanıf gəler, orda qismətin var, get götü.

Belə baxanda örör ordan bəri bir ana ceyran gəler. Ceyran, həqiqi də ceyran. Yelni paçasının arasına sığışmer. Deyir: "Allah, payına da qurvan olum, qismətinə də". İstiyir tüfəngi götürə munu vura, ceyran gözünnən yaş tökör. Vurmor. Ceyran geder, bu geder, ceyran geder, bu geder. Tufəng də burda qaler, tor da burda qaler, qatar da, hər şey də. Amma bu qarışbaqarış, kolbakol, qəyabaqəya tanıyır buroyu ku, haradı bura. Ceyran geder, bu geder. Qəyanın yanınnan hərrəner geder, baxer ki, çayın qırağında bir kolun divində ceyranın dört dənə balası var. Munnan da aralı yuanın[17] içində bir uşax var. Uşax o qədər gözəldi, o qədər gözəldi, dünya gözəli. Amma uşağın bədəni

[17] Yua – yuva

tük gətirif. Ceyran kimi, cüyür kimi, keçi kimi bədəni tük gətirif. Deyir:

– Allah-taala, göndərdiyin paya, verdiyin nemətə şükür. Munu aparajam loğmana, bütün dünyanı gəzdirəjəm, bu tükü mən təmizdətdirif tökdöröjəm. Yəqin ki, bu uşağı yuyuf çimizdermiyiflər, onnan tük gətirif.

Ana ceyran gəldi. Allahdan buyruxdu, birinci gəldi uşağın yarasını yaladı, onnan hərrəndi məməsinin birini munun ağzına saldı. Bu uşax munu möhkəm əmdi, onnan sonra gözünü bu yaranın üstünə tutdu, gözünnən beş-altı damcı yaş tüşdü bu uşağın yarasının üstünə. Getdi oanda öz balalarını əmizdirməyə. Yaranın üstünə tüşən göz yaşı məlhəmdi. Uje bu munu qutarer. Bu uşağı tutdu, çuxanın arasına qoydu. "Ay Allah, verdiyin paya şükür, nemətə şükür". Uşaxdan bir bağırtı çıxdı, bir qışqırtı. Uşax bəni-insan görmüyüf axı. Gözünü açıf bu ceyranın balalarını görüf, bu ceyranı görüf. Özgə nə görüf bu dərənin içində?

Uşax nə qədər ağladı, nə qədər qışqırdı, nə qədər parpıladı[18], munu buraxmadı. Uşağı götdü, gəldi düz evinə. Çağırdı arvadını:

– Ay Güllü, eşiyə çıx.

Arvad eşiyə çıxanda dedi, Allah-taaladan sana pay gəlif, gəl uşağına yiyə dur. Arvad düşüb bunun yanına gəldi, baxanda gördü, Allah, munun çuxasının arasında bir gözəl uşax, yimə-işmə, muna tamaşa elə.

– A kişi, munu hardan gətdin?

Dedi:

– Orasını deməzdər.

Arvad tez su qoydu, bir çaynik suyu soyuxladı, bu uşağı çimizdirdi, yüdü, savınnadı. Gördü uşağın kiri, pası, palçığı

---

[18] Parpılamaq – əl-qol atmaq, çırpınmaq

getdi. Əlini belə eliyəndə kirin içində o tükün hamısı getdi. Uşağı yaxça bükdü, bələdi, yorğanın arasına qoydu, üstünü örtdü. Yidirtdi, uşax yuxuya getdi. Bu, tələsik cırdan-cındırdan, öydəki parçadan, mənəfədən, ağdan-uğdan nə var idi bu uşağa paltar tikdi. Hərrədi, hüşülədi[19], bu uşağın əyninə, başına geyindirdi. Uşağı əlində oynada-oynada kişinin yanına etdi. Dedi:

– A kişi, sana da qurvan olum, Allaha da qurvan olum, gətdiyin paya da. Daa mən ölənətən heç hara qımıldıyan döyüləm.

Kişi də köynəyinnən keçirdi, bu uşağı öz aralarına qoydular, qucaxlıyıf yatdılar. Savah açıldı. Savah açılanda kişi dedi: “Gedim mən tüfəngimi, torumu, görüm, tapıf gətirə bilerəmmi”. Kişi getdi tüfəngi, toru tafdı gətdi. Dedi:

– Arvad, indiyətən kəklik deməmişəm, bülbül deməmişəm, dooşan deməmişəm, cüyür deməmişəm, ceyran deməmişəm – nə tapmışam hamısını vuruf, kəsif gətirmişəm. Qanına qaltan eliyif, kavavını yiyif bu öydə qızarmışıx[20]. Amma indi eləmijəm. Yəni bircə qarışqanın da qanadınnan basıf qarışqeyi əyaxlamaram. Büyünnən sonra tööbə dedim, əkinnən-biçinnən, özümüzün də varımız çoxdu, bejərif uşağı, səni saxlıyıf burda dolanajam.

Dedi:

– Yaxşı.

Uşağın bir yaşı, iki yaşı, üç yaşı, beş yaşı, on beş yaşı tamam oldu. İlin, ayın axır çərçənbəsiydi. Bu uşağ otdu öydə. Qonşular gəldi ki, ay xala, bulağa suya edirik, qızını ver bulağa suya aparax, biznən suya etsin. Dedi:

– A bala, mənim qızım darvazadan çölə çıxmıyıf, eşik üzü görmüyüf, olmaz.

---

[19] Hüşüləmək – tikişdəri dartmaq

[20] Qızarmax – firavan yaşamaq

Bu qızdar dedi ki, ay xala, o qızıyın dırnağının ujuna daş dəysə, bizim başımız fərmandadı. Biz apareriх, hamımız gederik. Qız uşağıdı, qonşuyux, onu qapıda qoyammarıx.

Qız bulara qoşuldu, getdi. Getdilər cərgəynən sənəyi doldurdular, çiyinnərinə aldılar. Bəri çıxanda qanına bələnmiş şah oğlu Şah Abbasın yönü, güzaranı bu bulağın yanına düşdü başının dəstəsinnən. Dedi:

– Burda su içək, gedək.

Bulağın yanına ələndə gördü bu qız əyilif sənəyini doldurur.

– A qızım, mana bir qav su verərsənmi?

Qız parçı doldurdu, – mis parçlar vardı o vaxtı, – mis parçnan bir suyu verəndə kişi suyu alanda şahın əli əsdi, parç əlinnən yerə tüşdü, daşa dəydi, qulpu qırıldı. Qız parçı götdü, dedi:

– Köpəyoğlu, munu başına vuraram, parçımı niyə qırdın? Əlin əser, su işmə. Mənim parçımı niyə qırdın? Anam məni öldöröjək.

– A qızım, ala parçına bir qızıl verim, filan eliyim.

Dedi:

– Apar qatığa ver, başına çək, lazım döy. Atam düzəltdirər.

Qırıx parçı əlinə aldı, sənəyi də çiyninə, qızdarnan getdi. Patcah dedi:

– Vəzir, öldüm, bu qızı mana al.

Dedi:

– Ə, dünənnən öl, bugün üçgünnüyün olsun. Mən yolun ortasında, bulağın başında bu qızı sana həncəri alem? Şah adamsan, xalxın uşağını götürüf qaşmaxmı olar? Millət adama nifrət eliyər, hamı üzümüzə tüpürər. Qoy görək bu kimin qapısına eder, harya eder, nəyə eder. Onun dalınnan gedək, örgənək, istiyək.

Bu qızın dalınnan getdilər. Gördülər bu getdi Ovçu Pirimin darvazasınnan içəri girdi. Munnan sonra bular da getdi, atdarı eşikdə tutdular, qapıyı vəzir döydü.

– Salamməlöyküm.

– Salamməlöyküm.

Kişi qapıya çıxdı.

– Qardaş, şah oğlu Şah Abbasdı, başının dəstəsinnən çöldən gəler, yorulmuşux. Bizə bir samavar çayı verərsənmi?

Dedi:

– Verərəm, xoş gəlifsiniz, şaha da qurvan olum, qonağına da. Gəlin, buyurun içəri.

Cərgeynən buların atdarı bağlandı, qavağına hamısının arpa töküldü. Bular gəldilər otdular. Arvad samavarı qaynatdı, amma qız daldada idi, çıxmadı. Qız samavarı qaynatdı, çayları, istəkənnəri yüdü, süzdü. Anası gətdi verdi, atası buların qavağına düzəndə Vəzir Allahverdi xan dedi ki, sənin qızın, arvadın hardadı ki, şaha, bizə qulluğ eləmer? Şahdan artıx qonağınız gələjəh sizin? Deyəndə dedi ki, şah sağ olsun, qadan alem, qadın xaylağıdı, qavağa çıxmağa utaner. Dedi:

– Yox, utanmasın, qulluğu qızın eləsin. Arvadın süzsün, qızın da çayları versin.

Bu getdi arvada dedi, gəldi arvad çayları süzdü, qızı gətdi düzdü. Gördü bir mərifətdi, qabiliyətdi, qanacaxlı uşaxdı başıaşağı. Qızı bir könüldən min könülə sevdi. Çaylar gəldi, qavağa qoyulanda hamı çayı geri itələdi.

– Ay qardaş, sən çay istiyifsən, biz də qaynatdıx, qadınnar da süzdü. Nooldu? İstəkanmı kirridi, öymü kirridi, xoşunamı gəlmədi?

Dedi:

– Qanun-qaydadı, biz sənin qapına elçiliyə əlmişik. Qızı versən, çayını içif çörəyini yijeyik. Qızı verməsən, yimijeyik.

– Nə qız?

Dedi:

– Bu qızını şah oğlu Şah Abbasa isteerik.

Ovçu Pirim bircə dəfə içinnən belə elədi: “Həə”. Daa sözünün dalını qorxusunnan gətirəmmədi ki, şah başını vurdurar bunun. Dedi:

– Şaha da qurvan olum, şahın qonağına da qurvan olum. İncimiyin mənnən. İcazə verin mən yoldaşımnan, qızımnan məsləhət eliyim, görüm nə deyillər.

Qızını, yoldaşını aanki[21] öyə çağırdı. Arvad dedi:

– Ay kişi, qızı verməsən, sənin də boynunu vurdurajax, mənim də. Üç adam üş çivinik[22] onun yanında, – deyəndə dedi ki, qoy qızdan soruşum. Qızına dedi:

– Qızım, səni şah isteer.

Dedi:

– Ateyi-mehribanım, kimə məsləhət görsən, mən ona gedəjəm.

Gəldi dedi:

– Bəli, biz razıyıx. Şaha da qurvan olum, qonağına da. Verirəm qızı, qız sizindi.

Dedi:

– Yaxşı.

Dedi:

– Hazır ol, heç nəyə sən əlini vurma. Savah camaat gələjək, hər şeyi gətirəjək. Qapıda çadırlar qurulsun, yeddi gün yeddi gejə toy vurduruf qızı aparajeyih.

Nolojax, Ovçu Pirimin əli belində. Şahın adamları savah töküldü gəldi, yeddi gün yeddi gejə toy vurdurdu, qızı gəlin apardılar. Qız gəlin köşdü getdi. Şah oğlu Şah Abbasın qapısında neçə gün toy oldu onu özü bilər. İndi bu, şahın otağına

---

[21] Aanki – o biri

[22] Çivin – milçək

getdi. Şah da təntənəynən qəbul oldu munun otağına. Qıza əmr elədi ki, soyun əynini. Qız əynini soyunanda gördü kü, qızın boğazının burasınnan ta qarnının aşağısınatan tikiş yeridi – yara yeri, qılınc yarası. Qılıncı çəkdi ki, öldöröjəm səni. Dedi:

– Məni niyə öldörörsən, günahım nədi?

Dedi:

– Sən bəni-insan üzü görüfsən, sənin qarnını kim yarıfdı?

Dedi:

– Mənim ağlım kəsənnən mən heç kəsi görməmişəm. Xayiş eliyirəm, mənim anamı çağır, mənim keşmişimi anamnan soruş.

Adam göndərdilər, getdi arvadı gətdi. Arvada dedi:

– Arvad.

Dedi:

– Bəli.

Dedi:

– Arvad, and olsun Allaha, səni qılışnan elə vurojam ki, başın bədəninnən yerə tüşəndə bir damcı qanın yerə dammıjax. Düzünü mana de görüm bu qızın kimnən oluf, hansı kişinin yanında oluf? Bu nə yarasıdı, nə qılış yeridi?

Arvad dedi:

– Şahım, düzünü deejəm sana, and olsun bizi yaradana və anamın döşünnən əmdiyim südə. Sən and işginən ki, mən səni öldörmöjəm, bağışdıjam, mən sana düzünü söylüyüm.

Dedi:

– Düzünü desən, anamın döşünnən əmdiyim süd haqqı, səni bağışdıjam.

Arvad başına nə gəlif hamısını şaha söylədi. Dedi:

– Mənim uşağım olmordu. Pirimə dedim. Pirim uşağı çöldən tapıb gətdi. Onu sağaltdıx, baxdıx, yekələndirdik, – deyəndə Vəzir Allahverdi xan əlini əlinə vurdu, qəhqəhə çəkdi, güldü. Şah Abbas dedi:

– Niyə gülörsən?

Dedi:

– Dejəm. Bu hansı qızdı, bilirsənmi? – deyəndə yadına tüşdü. Əmr elədi, qırx günün müddətinə dəryanın üzündə yeddi mərtəbə bir ev tikildi polatdan, hər yeri bağlı. Bir iynənin ucu boyda eşikdən içəri işıx gəlmerdi. İçəriyə işıxlar çəkildi, buruya bir illik, iki illik azuqə qoyuldu. Addı-sannı pəhlivannardan qapıda gözətçilər durdu. Eşikdən içəri, içəridən eşiyə adam gəlmədi. Uje bunun on beş yaşı tamam idi. Vəzir Allahverdi xan həmən günü işarə eliyif burda qoymuşdu. Oxudu, dedi:

– Ay şah, bu gün qızın on beş yaşı tamamdı.

Şah içəri girəndə, gəlif taxdın üstündə oturanda qız üşüdü, dedi:

– Ay şahım, mən yaman titrəderəm.

Bu da bunun başını sığalladı:

– Mənim gözəlim, mənim mələyim, mənim fatiməm, mənim göyçəyim, üşümə, noluf.

Belə-helə nə qədər bunun başını qatdısa, qız dedi:

– Yox, mən üşüyürəm, mən titrəderəm.

Başını şahın qoltuğun altına soxdu. Bu mametdə eşikdə bir göy gürüldədi, bir nərilti qofdu, bir yağış qofdu ki, gəl görəsən. Göy şakqıldıyanda göyün şakqıltısına bir ildırımın çıtqısı munun damının üstünnən aşağı düşdü. Ordan gəldi munun taxtının qavağında yerə düşdü, burda bir böcək əmələ gəldi. Böcək olduğunnan, sıçrıyıf qızın barmağınnan tişdədiyinnən qız bircə dəfə dedi:

– Ah.

Qız getdi. Vəzir Allahverdi xan əlini əlinə vurdu, bir möhkəm qəhqəhə çəkdi. Şah Abbas dedi:

– Cəllad, Vəzir Allahverdi xanın boynunu vurun, mənim dar günümdə bu nədi güldüyü?

Dedi:

– Şahım sağ olsun, niyə yazıya pozu, həbibə təbib eləmədin? Sana filan vaxdı dedimmi ki, yazıya pozu, həbibə təbib yoxdu. O uşağın da qarnını yardın, elə günahlara batdın, bunun başına nələr gəldi. Niyə eliyəmmədin bə? Yazıya pozu, həbibə təbib yoxdu. Allah-taala kimin qavağına nə yazıb, onu da görməlidi.

Onnan sonra Şah Abbas arvad almağa tööbə dedi. Köhnə arvadınnan gün keçirdi, devr qurdu. Dedi:

– Doğrudan da, yazıya pozu, həbibə təbib yoxdu.

## 4. MƏHƏMMƏD VƏ BABA SƏDRİ

Məhəmmədin atası iki qardaş oluf. Bular torpağ üstündə yola getmədiyi üçün bir-birinnən ayrılıf hərəsi bir məmləkətə gedif. Məmləkətdən gedənnən sonra bu qardaşın birinin üç oğlu oluf. Bu kişi bərk naxoşduyuf. Öz oğlannarını çağırıf dedi ki, ay oğul, siz o dağa çıxmıyın, tilsimdi o dağ.

Günnərin bir günündə bu oğlannarın atası rəhmətə geder. Munu aparıf dəfn eliyillər. Sonra böyük qardaşı deyir, ə, atamız öldü, dedi o dağa çıxmıyın. Mütləq o dağa çıxmalıyam, görüm nədi o, nəmənədi. Böyük oğlu atı miner, Tilsim dağına çıxer. Tilsim dağına çıxanda örör kü, burda böyük bir imarət var, gül gülü çağırer, bülbül bülbülü çağırer. Burda oturuf sudan içer. İçən vaxtı bir də örör kü, oannan bəri bir pəhlivan gəldi. Pəhlivan dedi ki, ayə, sən nəəzirsən burda? Sən kimsən, nəçisən, – deyəndə dedi ki, mən yol adamıyam. Bu pəhlivan deyir ki, başın göydənə ağırrığ eləməsin, çıx yolunnan get. Oğlan getmək istəmiyəndə pəhlivan onu qaldırer yerə vuror, başını kəser. Bu pəhlivan geder öz öyünə. Bu pəhlivan sən demə kim imiş? Ölən patcahın qardaşının qızıymış. Qız camış sağermış. Camış sağanda bir kal gəler munun südünü tökör. – Arvatdarın südünü tökənətən gözünü töksən onnan yaxşıdı. – Qızın ajığı

tutor, duror kalın quyruğunu qoluna doloor da, bunu ater. Deyir ki, kim məni yıxsa, ona gedəjəm, kimi yıxsam, başını kəsəjəm.

Ölən oğlanın ortancıl qardaşı deyir ki, mən həmən Tilsim dağına çıxmalıyam. Dağa geder, gedəndə örör kü, doğrudan da, burda gül gülü çağırer, bülbül bülbülü. Yaxşı çəmənnik. Atını açer buraxer, at otdoor, özü də sudan içer. Burda dincələndə həmən qız pəhlivan paltarında gəler, buna deyir:

– Ə, burda sən nəəzersən? – deyəndə deyir ki, mən yol adamıyam. Deyir:

– Sən yol adamı döyülsən, sənin başın göydənə ağırrığ eliyir. Çıx burdan get.

Axırı güləşellər, bunun da başını kəser. Sən demə, bu öz əmisi oğluymuş, bilmermiş.

Bir həfdə keçer, bir ay keçer, para ay keçer. Balaca qardaşın adı Məhəmmədmiş. Gejə yatdığı yerdə yuxusunda görör kü, bir nurru kişi, qırmızısakqal kişi gəldi: "Ə Məhəmməd, Məhəmməd". Məhəmməd yuxuda yatdığı yerdə dedi, can, ay baba. Dedi, ə, qardaşdarın hayfını almax istiyirsənmi? – deyəndə dedi, niyə almeram, alajam. – "Ə, – deyir, – filan dağın döşündəki sənin əmin qızıdı. O, pəhlivan paltarı geyinif sənin qardaşdarını öldürüf. Sən hayfını çıxmax istiyirsənsə, dediyimə əməl et, bu kəlmeyi-şəhadəti oxuyarsan. O sənə qalib gələjək, yıxajax. Onda deyərsən ki, əşədi ənna la ilahə ilallah, rəsulən vəliyullah, sənnən başqa yoxdu bir Allah. Onda o özü yıxılajax. Al bu badəni də iç". Oğlan badəni aler, içer.

Savah üzünüzə xeyirriknən açılsın. Savah duranda örör, nə kişi var, nə heç kim. Deyir, Allaha pənah. Durur atını miner, qızıldan-gümüşdən götürör, yola çıxer ki, gedim görüm bu nə sirridi. Gedəndə bir qoja kişi muna rast gəler. Deyir:

– Ə, Məhəmməd.

Bu qoja kişinin də adı Baba Sədri olor. "Əyə, Məhəmməd", – deyəndə deyir:

– Nədi?

Deyir:

– Yol adamıyam, mana xarşdıx ver.

Çıxarder buna qızıl pul verer. Bir qədər getmişdi Baba Sədri deyir:

– Bu azcadı axı.

Məhəmməd bir az da pul verir:

– Baba Sədri, çıx get yolunnan, – deyəndə deyir:

– Yox, sən dünənki uşaxsan, balaca boyun var. Səni öldürüf, atını, pulunu əlinnən almalıyam.

Məhəmməd atdan düşör. Deyir:

– Baba Sədri, sənnən güləşəjəm. Məni yıxdın, atım da sənin, pulum da sənin, canım da sənin. Mən səni yıxdım, başını kəsəjəm.

Deyir:

– Yaxşı.

Sən demə, Baba Sədri də uzun müddət pəhlivan imiş, indi yaşdaşıfdı. Məhəmməd munu yıxer, başını kəsmək istiyəndə ağleer. Deyir:

– Mən murazıma çatmadım.

Deyir:

– Nə murazın var idi?

Deyir:

– Nə bilim, arvad demişdi get qazan, gətir, burda yiyək.

Axırı Baba Sədri Məhəmmədə deyir ki, sənnən qardaş olajam. Deyəndə deyir:

– Hancarı?

Deyir:

– Siqa.

Siqa qardaşdar, rəvayətə görə, o dunyada görüşöllər. Deyəndə deyir ki, yaxşı. Məhəmməd Baba Sədriyə deyir:

– Mənim bu kəlmeyi-şəhadətimi yadında saxla, lazım olar.

Xüləsə, qayıdır gəlellər Məhəmmədin öyünə Baba Sədriynən. Deyir:

– A Baba Sədri, mən muraz üstündəyəm, səfərə gederəm. Biz oldux qardaş. – Baba Sədri də beysavad imiş. – Bu duhara[23] kömürnən bir cız çəkərsən, getdiyim günnəri hesaflıyarsan. Qırx günə gəldim gəldim. Gəlməsəm, bil ki, başıma iş gəlif.

Deyir:

– Yaxşı.

Bu burda qalmaxda olsun, Məhəmməd geder, dağın başına çıxanda örör kü, dünyanın lalı-cəvahiri burdadı, qızılı burdadı, gümüşü burdadı, gülü burdadı, bülbülü burdadı. Noya bax, suya bax. Burda atdan düşör, atı bıraxer. Yaxşı əlini-üzünü yuyur, dəstəmaz aler, Allaha kəlmə verer, kəlmə aler, çörək yiyir. Bir də örör kü, həmən pəhlivan gəldi, qız pəhlivan. Gəler muna salam verer. Salamdan sonra deyir:

– Ə, sən nəəzersən burda? Sənin iki qardaşıyın başını kəsmişəm, sən gənə burya əlifsən? Bir-birinizə oxşoorsuz. Sən mənim əmim oğlusan, – deyəndə deyir:

– Aaz, əmioğlu-zad tanımeram, sənnən güləşəjəm.

Deyir:

– Ə, sən bir şapalaxlıx şeysən, səni yıxıf başını kəsəjəm.

Xülasə, burda güləşellər. Güləşəndə – qız Məhəmmətdən iyirmi yaş böyüymüş, – Məhəmməd təntiyir. Təntiyəndə deyir: “Əşədi ənna la ilahə illallah, Məhəmmədi rəsulən vəliyullah. Sənnən başqa yoxdu bir Allah” – deyəndə qız deyir, sən məhəmmədisən? Deyir ki, həə. Deyir:

– Munu kim dedi sənə?

Dedi:

– Munu ağam yuxumda mana örgətdi.

Dedi:

---

[23] Duhar – divar, hasar

– Sənin ağan munu mana da deyif. Mən səninəm, sən də mənimsən. İndi sənnən güləşəjəm. Güləşə-güləşə atamın imarətinin qavağına gedəjeyik. Orda mən yıxılajam. Yıxılanda sən mənim başımı kəsmək istijəhsən. Atam qoymojax, ağlıyajax ki, ə Məhəmməd, ə qardaşoğlu, öldürmə, qızımı sana verəjəm.

Məhəmməd allaner, çıxer öyə əler. Yarım aydan sonra geder ki, qızı gətirim. Gedəndə Məhəmmədin əmisi qızı ayrı adama verifmiş, toy eliyəsiymiş. Qızı verdiyi oğlana da deyif ki, mənim qardaşım oğlu gələjək, qızımın qavağında onun başını kəsəjəm.

Məhəmməd gələndə əmisi onu qırx arşın quyuya saldırer.

Sizə hardan xavar verim, Məhəmmədin qardaşdığı Baba Sədridən. Baba Sədri günnərin bir günündə duharrarın cızdarını sayer, sayer, görör kü, otuz dokquz gün keçif. Deyir, ə, mən həncəri qardaşam Məhəmmədin dalınnan getmədim? Duror atını miner də, geder. Soruşa-soruşa edəndə necə söylənif həmən dağdı, dağın yanında öy-eşik var. Bir qoja arvada rast gəler. Çor-çöp yığermış arvad da.

– Ay nənə, beyjə məni Allah qonağı elə.

Deyir:

– Ay bala, qonağ Allah qonağıdı. Gəl, xoş gəlifsən.

Qarı deyir ki, ay bala, mən tezdən çıxıf gedəjəm, indi nə bilim yol adamısan? Deyəndə deyir:

– Nədi, ay nənə.

Deyir:

– Burda zülümkar patcah var, öz qızını ərə verir, savah qardaşı oğlunun başını kəsdirəjək, – deyəndə deyir:

– O hardadı?

Deyir:

– Filan yerdə.

Deyir:

– Ay nənə, ala bu pulları, get bir az behiş[24] al, yağ al, pesox al, gəti halva bişir.

Gətirer, qırx büküm arvad halva bişirer. Qırx bükümü Baba Sədrin çiyninə verer gejeynən. Gejə arvad aparer Məhəmmədin quyuya salındığı yeri buna görkəzer. Burda qarool duranlar:

– Kimsən, tərpənmə, – deyəndə deyir:

– Ə, Allahın eşqinə, imamların eşqinə, dədəm ölüf, iraq üzünüzdən, qardaşım ölüf. Qırx büküm halva bişirmişəm. Bu halvaları yeyəllər, mana "ehsanın qəbul olsun" deyəllər, – deyəndə bular deyir ki, ə, hazır qırx nəfər bizik, qırx büküm də halva var. Hərəsi birini aler, yiyəndə behiş olor yater. Baba Sədri pəhlivan olor. Oların hamısının başını kəser. Başını quyudan başaşağı saler:

– Ə, Məhəmməd, sağsanmı?

Deyir:

– Sağam. Sən kimsən?

Deyir:

– Baba Sədri.

Deyir:

– Ə, can qardaş.

Atın rəşməsini[25] saler, Məhəmmədi quyudan çıxarder. Çıxardanda Baba Sədri deyir ki, ayə, Məhəmməd, qızın yerini bilersənmi? Deyir:

– Filan otaxdadı.

Qız gejə gəlermiş, Məhəmmədə baş çəkif gedermiş. Qızı da o otaxdan götüröllər, çıxer gəlellər. Baba Sədri, qız, Məhəmməd gəler öz vətənlərində aylə quror, təzədən yaşellar.

---

[24] Behiş – bihuşdarı

[25] Rəşmə – keçi qılından hörülmüş ip

# 5. DÖYÜLƏN ÖLÜ

Bir tacir olur. Bu tacir lap cavan vaxdınnan tacirliknən məşğul olur. Bir gün ticarətdən gələndə bir dağdan yolu düşör. İraq üzdən, dağa çatanda gözü kor olur. Kişi gəler evə. İki oğlu var idi. Arvad-uşaxların başına yığır. Deyir:

– Ay oğul, iki oğulsunuz. Bu tacirlik sənətini görüm hansınız götürə bilirsiniz. Ananız sizə pul versin, gedin alver eliyin, görək tacirrik hansınıza yaraşır.

Yoldaşına dedi ki, hərəsinə min manat pul ver. Dedi:

– Oğul, sizə bir ay möhlət verirəm. Gedin, bu şərtnən ki, mənim min manatımı gətirin. Görüm siz min manatın üstə neçə manat qazanıbsınız, onun müqabilində sizi tacir qoyum, – deyəndə hər iki qardaş yola çıxdı. Getdilər, bir yol ayrıcında hərəsi bir tərəfə getdi. Böyük qardaş getdi pulu xarşdadı, yidi-işdi.

Balaca qardaş getdi bir kəndə. Kəntdə gördü kü, bir kişi qarmağı saldı, palçıxlı sudan bir meyid çıxartdı. Meyidi döydü, döydü, itələdi suya saldı. Oğlan məhətdəl qaldı. Dedi: "Bunu soruşajam". Soruşa bilmədi. Bir gün keşdi. Kəntdə hərrəndi, əlinə bir şey keşmədi: nə fəhləlik etdi, nə alver oldu. Səhərisi gəldi, gördü həmin vaxtı genə kişi gəldi. Meyidi çıxartdı, döydü, döydü, suya saldı. Uşax getdi bunun yanına. Dedi:

– Bunun günahı nədi ki, bunu döyüb ora tulloorsan?

Dedi:

– Bunun günahı odu ku, mana pul borşdudu. Pul borcu ola-ola dünyasını dəyişdi, – deyəndə dedi:

– Ay kişi, bunun sahibi yoxdumu o pulu verə?

Dedi:

– Yoxdu sahibi.

Dedi:

– Yaxşı, bu meyidi döyməknən o pul çıxarmı?

Dedi:

– Yox, mən döyməliyəm.

Dedi:

– Ola bilərmi bu meyidi mana satasınız, mən aparam dəfn eliyəm?

Dedi:

– Sataram.

Dedi:

– Nə qədər borcu var? – deyəndə anası verdiyi min manatdısa, bunun yarısı qədər pul dedi. Cibinnən çıxartdı pulu, verdi. Bir fəhlə tutdu. Dedi:

– Qəbirsannıx burda hardadı?

Dedi:

– Filan yerdə.

Qəbir qazdırdı, bunu apardı dəfn elədi. O günnən kəndə səda düşdü kü, burda bir oğlan yaxşı işdiyir. Bir aya bu oğlan nə qədər pul qazandı. Beş manat işə on manat verdilər, on manat işə iyirmi manat verdilər. Ay tamam olanda oğlan dedi: "Ateyi-mehriban vədəmizi kəsib, həmin vaxtdı". Yola rəvan oldu, gəldi. Gəldi atasının üzünnən-gözünnən öpdü. Bir gün sonra o birsi oğlu da gəldi. Gələn kimi böyük oğlu dedi ki, ay dədə, belə etdim, elə etdim, əlim tutmadı. Dedi:

– Oğul, bilerəm əlin tutmadı. Bu dəfə də anan pul verər, ikinci dəfə əlin tutar.

Kiçik oğluna üzünü tutdu. Dedi:

– Oğul, sən nə gətdin?

Dedi:

– Ateyi-mehriban, nə iş gördüyümü sənə danışsam xoşuna gələrmi?

Dedi:

– Buyur, oğul.

Maraxlandı, dedi:

– Nə qədər pul gətirifsən?

Dedi:

– Anam vermişdi min manat, min altı yüz manat gətirmişəm.

Dedi:

– Ay oğul, onu sən hardan qazandın mana de?

Dedi:

– Ateyi-mehriban, getdim belə bir vəziyyət alındı. Filan kəntdə gördüm bir kişi meyidi döyür. Mən də anam verən pulun yarısını o meyidə verdim, apardım onu dəfn elədim. Onnan sonra kəntdə hamı məni hörmətdi bildi, mana iş verdi, işdədim. Öz pulumun üstünü də düzəltdim, bu pulu da əlavə qazandım.

Dedi:

– Oğul, sən həqiqi tacir olajaxsan.

Böyük oğlunu çağırdı, dedi:

– Oğul, bu var-dövlət, ev-eşiy, mal-buzov sənindi, tacirlik balaca qardaşınındı.

Dedi:

– Yaxşı.

Kiçik oğluna dedi:

– Oğul, gedərsən bazara, bazarda qul satannar olur. Gedərsən qul satanın yanına, deyərsən mənə ticarətdən başı çıxan bir qul lazımdı. O sizə yol görkəzəjək. Başı çıxan olmasa, alma.

Getdi birinə yaxınnaşdı, salam verdi. Dedi:

– Mənim atam tacir olub, indi gözləri tutulub. Mən istiyirəm tacir olam, mana yol bilən qul lazımdı, – deyəndə qul satan dedi:

– Ay oğul, saa bir söz deyim. Qulu halal pulamı verim, haram pulamı?

Dedi:

– Yox, mən haram pul istəmerəm. Halal pul verif, bir az da artıq verif bilən bir qul alajam, – deyəndə dedi ki, quldan soruş. Qul dedi ki, mən İranı, Türkiyeyi, Suriyoyu – hər yeri

gəzmişəm. Məni ala bilsən, sənnən gedərəm. Əmbə qul satan dedi ki, bu qul bütün vəhşi heyvannarın dilini bilir. Dedi:

– Çox gözəl. Qulu neçəyə verirsən?

Dedi:

– Beş minə.

Bu çıxartdı halal beş mini verdi, qulu aldı, gətirdi atasının yanına. Atası qulnan söhbətləşdi. Dedi:

– Oğul, haralısan?

Dedi:

– Filan yerdən.

– Sən de görüm, heç tacirnən gedifsənmi?

Dedi:

– Mənim sənətim tacirlərnən getməkdi.

– İndi de görüm, sən, məsəlçün, İrana hareynan gedifsən?

Dedi:

– Mən İrana filan yernən, filan yernən, filan yernən getmişəm.

Adlarını dedi. Əmbə – dedi, – iki-üç yer var, ordan getmerəm. Dedi:

– Hansı yerdi?

Dedi:

– Mən getmədiyim yer odu ku, filan yerdə qırx quldur var, ordan getməmişəm. Gələn başı filan dağnan gəlməmişəm, çünki ora təhlükəlidi.

Dedi:

– Oğul, gedin. Bu pul, bu var.

Qəflə-qatırı yüklədilər. Qul dedi ki, filan şey almaq lazımdır, orda yaxşı qiymətə gedir. Qəflə-qatırı yüklədilər, yola rəvan oldular. Əmbə kor tacir dedi ki, çalışın quldur olan yernən getmiyin, mənim gözüm o dağda kor oluf.

Getdi. Cavan oğlan idi. Bir gün, beş gün qəflə qatırı hayladılar. Elə variant alındı ki, bu bələdçi qul qırx quldurun

iqaməti tərəfə getdi. Getdi burda köç saldılar. Köç salanda qul bilirdi fəndi. İndi orda nə cür elədisə, bu qırx quldurun hamısını yuxu xəstəliyi tutdu. Yuxu buları tutan kimi bir-bir buların qulaxlarını kəsdi, torvasına doldurdu. Burda nə qədər qızıl, gümüş var idi, öz xurcununa doldurdu, yola rəvan oldular. Tacir bilmədi ki, beyjə nə hadisə oluf. Getdilər lazımı yerə. Dedi ki, ay xazeyin, ay tacir, sən burda dur, mən aparıb veji[26] satajam. Veji apardı. On manatdıx veji dedi ki, otuz manata satmışam. Halbuki quldurrarın puludu. Qul dedi ki, burda qalmaq üçün gərək bir ev tikdirək. Patcaha xəbər verdilər ki, bir tacir ev tikdirmək üçün torpaq almaq istiyir. Patcah dedi ki, filan zdanyoyu[27] ona ver, pulunu al. Bu minvalnan evi aldılar.

Patcahın bir qızı var idi. Patcahın qızı gejə vəəğasında gördü kü, bu tacir bunu istiyir. Bu minvalnan qul getdi patcahın düz iqamətgahında veji satanda qıznan görüşdü. Dedi:

– Gəlsənə səni xazeynimə alam?

Qız dedi:

– Onsuz da mən vəəğamı görmüşəm, ona getməliyəm.

Qul bir neçə yerli mədəni adamları yığdı başına, ağasına dedi ki, patcahın qızını sana aleram. Getdi qıza elçi düşdü. Patcah tutuldu. Dedi:

– Bu nə hadisədi?

Qıza adam göndərdi ki, gör razıdımı tacirə getməyə. Qız dedi, mütləq getməliyəm. Toy elədilər. Toy eliyənnən sonra bir neçə atlı, nə qədər cahi-cəlalnan taciri yola saldı. Gələndə tacir dedi ki, atam deyib filan dağdan getməyin. Dedi:

– Yox, məni eşidirsənsə, oroynan gedəjeyik.

Dağa gələndə gördü iki tuladı, bir-biriynən boğuşur. Boğuşanda biri dedi ki, sən pissən. Dedi, niyə? Dedi, filan tacir

---

[26] Vej – ayın-oyun
[27] Zdanyoyu – binanı

burdan gedəndə getdin dəsmalına siydin, tacir dəsmalnan gözünü siləndə kimi kor oldu. O birisi dedi, yaxşı, mən kor elədim, sənin də xazeyninin qızılını basırıflar, sən də neçə ildi burda aj-susuz gözdöörsən. Sən də pissən deyəndə qul tacirə dedi ki, beyjə burda qalmalıyıx. Gejə burda qalanda qul getdi həmən daşın altından qızılı, gümüşü yığdı, qəflə-qatıra yüklədilər. Bir neçə günnən sonra gəldilər kor tacirin evinə. Tula o birinə dedi ki, bir adam isteerəm səni vura, beyniyin yağını o kor kişinin gözünə çəkə, onun gözləri açıla. Deyən kimi qul tuloyu vurdu. Gejə gəldi beyninin yağını bir şüşəyə yığdı. O daşın altından qızılı-gümüşü götdü, qəflə-qatıra yüklədi. Bir necə günnən sonra gəldilər düz tacirin qapısına. Qəflə-qatır, təzə gəlin, cahi-cəlal... Xəbər gəldi ki, oğlun arvad alıb, bu qədər də vej gətirib. İndi bu kor tacir oğlunu da, qulu da gətdi otağa. Gəlini bir otağa saldılar. Qula dedi:

– Oğul, bu qədər varı-dövləti sən hardan düzəldə bildin? Mən əlli ildi tacirrik eliyirəm, bu qədər var-dövlət qazanmamışam.

Dedi:

– Söhbət eləsəm, sonra məni tapmıyajaxsınız.

Dedi:

– Yox, eləməlisən.

Dedi:

– Qırx qulduru yatızdırdım, qulaxlarını kəsdim. Bu qırx quldurun qulaxlarıdı.

Söhbət elədiyimi danışdı. Şüşədən yağı çıxartdı, tacirin gözünə çəkəndə tacirin gözü sağaldı. Dedi:

– Bu gəlini də mən aldım oğluna. Mən bilirsən kiməm? Mən halal pula alınmış adamam. Sənin halalca pulunu oğlun mana verdi. Mən də tacir idim, öldüm, filankəsə borcum qaldı. Gündə məni döydü, döydü, oğlun da borcumu qaytardı, məni dəfn elədi. Mən həmən o palçıxdakı kişiyəm.

İndi biz nə iş görsək də, ədaləti, səxavəti yaddan çıxartmamalıyıx.

## 6. BİLİCİ UŞAQ

İmam Cəfər Sadiq deyir ki, dinim Məhəmməd dinidi, sadiq budağındayam. Çağırer, deyir, ey əhli-əyan! Hansı ər-arvadın yidiyi halal olsa, olardan törüyən uşax yerin altınnan üstünü biləjək. Çox bilici olajax. Bunu heş kim saxlıya bilmədi. Kasıbın biri bildi ki, bu axşam bu iş tamam oldu. Arvad dedi:

– Ə kişi, dur, qazının yanına edəh, boşanax.

Qadın kişidən boşandı. Bu qadın geder:

– Ay qul-qaravaş istiyən?

Geder bir həyətə. – "Nədi, a bala?" Dedi: – "İnək sağmax, gəvə toxumax, cəhrə əyirmək – hansı işi desən görərəm, amma hər gün mənim qazandığımı ovcumun içinə qoyarsan". Dokquz ay, dokquz gün tamam deyəndə bir oğlan uşağı anadan oldu. Uşağın qırxı çıxanda, uşağı da götdü, kişinin yanına getdi. Dedi:

– Bax, bax, bu kəbin kağızımız, bu boşandığım gün, qırxı da çıxıf. Get nigahımızı geri oxu, təzdənnən yaşıyax.

Getdilər, qazı geri oxutdu. Uşax bir sinidə[28] yeddi siniyə qalxdı.

Kişi cüt əkməyə ederdi. Uşax dedi:

– Ay dədə, mən də gedəjəm.

Uşağa qıymellar. Kişi toxumu səpif cüt əkerdi. Uşax dedi:

– Ata, tacir Musanı buruya çağır.

Gəldi dedi ki, mən çağırmeram, səni bax o uşax çağırer. Tacir Musa gəldi, dedi:

– A bala, məni sənmi çağırersan?

Dedi:

---

[28] Sini – yaş

– Hə! Sən beyjə bir vəyğa görüfsən. Bir at minifsən, atın nə yalmanı var, nə quyruğu var, nə yəhəri var, nə qantarğası var. Səni at götürüf qaşdığı yerdə qalxdın gördün bir quru döşəydi, bir də yer. İndi o at fani dünyədi. Qırx günnən sonra sən qəbirsənnihdəsən. Civində də iki tümən pul aparersan alim-münəccim-molluya. Qayıt, get.

Tacir Musa bu uşağın adını, sanını, yerini yazdı, getdi. Dəriyə düşdü, genə alim-münəccim-mollanın yanına etdi ki, görüm o nə deyir. Alim-münəccim-molla dedi:

– Paho! Sən gedif bir əvləğ[29] ölkəyə çıxajaxsan. O qədər qazanajaxsan, nə at, nə eşşəh, nə dəvə tutajax.

Dedi:

– Ə, yolda bir uşax çağırdı məni. Dedi otuz dokquz ötər, qırxıncı günü öləjəhsən.

Alim-münəccim-molla dedi:

– Ə, qələt eliyir uşax.

Bu gedənnən sonra alim-münəccim-molla nökərə yüz tümən verdi, dedi:

– Gedərsən, o uşağı alarsan, gətirərsən, yolda başını kəsərsən. Nə qədər o sağdı, bizə çörəh yoxdu.

Uşax gördü alim-münəccim-mollanın nökəri gəlir. Dedi:

– Ay dədə, alim-münəccim-mollanın nökəri məni sənnən almağa gəler, yüz tümən gətirer. Məni yüz tümənə de. Civimə də beş manat qoy, məni yola sal.

Gəldi nökər:

– Salamməleyki.

– Əleykəssalam.

Dedi:

– Sənin bu uşağını alim-münəccim-molla almaq istiyir.

Dedi:

---

[29] Əvləğ – yad

– Vallah, biz uşağı bazara çıxartmalıydıx. Allah ruzumu qapımın ağzına ətdi. Uşağımın qıymatı yüz tüməndi, ver, apar.

Nökər yüz tüməni verdi. Kişi beş manatı da uşağın civinə saldı. Bu, atın tərkində eder. Uşax dedi:

– Ay nökər baba!

Dedi:

– Bəli!

Dedi:

– Bu çökəyə düşən kimi məni öldürəjəhsən. Cəhənnəmin odunda səni şişə taxajaxlar, mənim qədər sənin yağın süzüləjəh, buraxajaxlar, süzüləjəh, buraxajaxlar. İndi sür o ağacın divindəki kişinin yanına. O kişinin bir qoyunu var, onu alajam. Kəsəjeyih, mənim paltarımı qoyunun qanına bula, mən də qayıdem geri.

Getdilər:

– Ə kişi, beş manatım var, o pula yetdik bir heyvan ver. Kəsəh, sən də ətinnən yi, biz də, qalanını da apar, getginən.

Elə də elədilər. Uşax qayıtdı getdi.

Bir adam həmişə şaha iki balıx gətirirdi, şaha ənam eliyirdi. O balıx da cütünnən hər saat tora düşmördü. O balıxlar tora tüşdü, pişirdi, gətdi qızıl mejməyidə şahın qabağına qoydu. Şah ənamını verdi, bu getdi. Vəzir əlini uzadanda şah dedi:

– Uzatma əlini.

Dedi:

– Niyə?

Dedi:

– O balığın hansı erkəh, hansı dişidi, onu bilməsən, sən vəzirrihdən azadsan, – deyəndə, balığın biri başını qaldırdı, güldü.

Şah dedi:

– Mana onun erkəyi, dişisi lazım döyül. O balıx nəyə güldü onu bilməlisən. Əgər bilməsən, səni dar ağacınnan asajam. Dört gün sənə möhlət verirəm.

Üç gün ötmüşdü, arvad gördü ki, vəzirdə qan ədlahı[30] yoxdu. Dedi:

– Öyün yıxılsın, bu nə vəziyyətdi?

Vəzir dedi:

– Belə oldu. Balıxçı bizə balıx gətirdi. Balığın biri başını qaldırdı güldü. Şah dedi, olar nəyə güldü, onu tapginan. Mən savah onun cavabını deməliyəm.

Arvadı dedi:

– Alim-münəccim-molla yaxşı bilir, onun yanına et.

Alim-münəccim-mollanın yanına etdi. Hal-qəziyəni ona başa saldı. Alim-münəccim-molla eşiyə çıxdı, nökərə dedi ki, əyə, o uşağı öldürdünmü, durormu? Görəndə ki nökər kikildəner, dedi:

– Öldürməməyin xeyirdi.

Vəzirə dedi:

– Yeri get, savah gələjəm, günortaya ordayam.

Vəzir belə gedən kimi nökərə iki yüz tümən verdi, dedi:

– Get o uşağı al, gəti.

Uşax da indi beş-altı yaş böyüyüf dana. Uşağa "dərdin alem, ağrın alem, başına dönöm" deyif dört yanına keçellər, şirin dilə tutollar. Elə bekaraja balıx gülüfdü, şah vəziri asdırmax istiyir. Onu yozmaxda bizə kömək elə. O atı min, gəlginən. Uşax alim-münəccim-mollaya dedi, sən dərya-dəniz, mən balaca bir göləm. Sən alimsən, mən bir uşağam. Savah gedəh, şahın hüzurunda mən o yuxunu yozajam.

Getdilər. – "Ay alim-münəccim-molla, xoş gəlmisən, xoş gəlmisən, xoş gəlmisən". Buları hörmətlə qarşıladılar.

[30] Ədlahı – zərrəcə

Bular oturdu. Dar ağacı quruluf, kəndir vəzirin boynundadı. Alim şaha dedi:

– Şah sağ olsun! Onu elə bizim bu balaca uşax da biler. Mən bilsəydim ki, bunun üçün məni narahat edirsiz, bir belə yolu zəhmət çəkif gəlməzdim.

Dedi:

– Oğul, bilersənmi?

Dedi:

– Hə!

Dedi:

– Nədi?

Dedi:

– Ortadakı boş stol kimindi?

Dedi:

– Boğazında kəndir olanındı.

Dedi:

– Yaxşı, onun yerində mən oturuf deyəjəm.

Otdu, dedi:

– Sizin, vəzir-vəkalətin, şəhərin baş qazısının və mənim – beş adamın iştirakıynan akt yazılajax, sən də möhürünü oruya vurjaxsan. Onu mən bildim, vəziri buraxajaxsan. Bilmədim, vəzirin yerinə məni as.

Akt yazıldı, hamısı qol çəhdi. Möhürünü şah yapışdırdı, götürdü civinə qoydu. Dedi:

– Şah sağ olsun, sənin neçə hərəmin var?

Dedi:

– Niynersən?

Dedi:

– Lazımdı.

Dedi:

– On.

– Onu da bir dəyqəyə buruya çıxmalıdı.

Bunun hamısı çıxdı. Dedi ki, buların hamısını dama doldur, haçarı mana ver. Dama doldurdu, haçarı uşağa verdi. Dedi:

– Şah sağ olsun, olar bir-bir ana-hürüyə[31] bəri çıxmalıdırlar. Burda ölüm-dirim məsələsi var.

Bunun dokquzu çıxdı, biri çıxmadı. Sən demə o bir nəfər kişiymiş, özü də arvad kimi saç uzadıfdı. Bu dedi:

– Ayıbın tökülsün, şahıma bax, bir uşağın sözünnən qadınnarı çılpax camaatın ortasına çıxardır.

Uşax dedi:

– Şah sağ olsun! Onu lüt buruya çıxartmax lazımdı, qollarını da yanına sarımax lazımdı.

Şah baxanda gördü, ə, bu kişi. Arvatdar yaşadermış bu kişiyi aralarına alıf. Uşax dedi:

– Şah, balıx gülməklə deyir ki, özünün erkəh-dişisini bilmer, pişmiş balığın erkəh-dişisini axtarer hələ.

Şah uşağı vəzirin yerinə qoydu ki, sən mənim vəzirimsən. İki dəvə göndərdi, onun dədəsini, cijisini də saraya gətirtdi.

## 7. QIZ KİMƏ ƏRƏ GETSİN?[32]

Deyir, bir hökümdarın çox ağıllı, idraklı, kamalca dərin gözəl bir qızı olur, olduxca gözəl. Bu qızın gözəllihdə mislibərabəri olmur. Bu qıza üç oğlan aşiq olubmuş. Biri baş vəzirin oğlu, biri vəkilin oğlu, biri də padşahın sərkərdəsinin oğlu. Hər üç oğlan ağılda, kamalda, eyni zamanda gözəllihdə, boyda-buxunda, həm igidlikdə bir-birinnən geri qalan döymüşdər, elə üçü də qıza yaraşanıymış. Buların üçü də qızı sevirmiş. Padşah da məhətdəl qalıf ki, ay canım, mən qızımı vəzirin oğluna versəm, vəkil mənnən narazı qalajax. Vəkilin oğluna versəm,

[31] Ana-hürüyə – lüt-üryan, çılpaq
[32] Söyləyici bu mətni nağıl-tapmaca adlandırır.

baş vəziri – neçə illərdi mana xidmət eliyəni narazı salajam. Sərkərdənin oğluna versəm, o ikisi narazı qalajax. Mən nağayrem, başıma nə çarə qılem? Qızı yanına çağırır, deyir:

– Qızım, səni üç oğlan istiyir: vəzirin, vəkilin, bir də sərkərdənin oğlu.

– Ateyi-mehriban, mən bilirəm, xəbərdaram bunnan.

Deyir:

– Qızım, bu dövlət işidi, hakimiyyət işidi, gərək buların heç hansı mənnən narazı qalmasın. Mən məhətdəl qalmışam. Necə eliyim, səni buların hansına verim, ürəyin hansını tutur? Ürək tutmağnan da döy. Hansını tutsan, o biri narazı qalajax.

Deyir:

– Ateyi-mehriban, sən bunu mənim öhdəmə burax. Mən özüm hər şeyi yerbəyer elijəm.

Deyir:

– Baş üstə qızım, neynək, özün yerbəyer elə.

Qız da atasını həddinnən artıq sevirmiş. Ona görə belə qərara gəlir ki, sevməh məsələsi yox, nəsə siyasət işdətməh lazımdı. Hər üç oğlana ismarlıyır ki, sabah tezdən hər üçü atını minsin, yaraxlansın-yasaxlansın, özü də qiymətdən ağır, vəzindən yüngül pul-qızıl götürsünnər, mənim sarayımın qarşısına gəlsinnər. Mən olara bir tapşırıx verəjəm.

Hər üç oğlan qızı o qədər istiyirmiş ki, cannarınnan artıx. Odur ki, oğlannar qızın dediyi kimi, köhlən atdara minib, gəlirlər qızın hüzuruna. Qız deyir:

– Biz uşaxlıxdan bir yerdə oynamışıx, bir yerdə böyümüşük. Mən bilirəm ki, hər üçünüz mənə aşiqsiniz. İstəmirəm ki, birinizə gedəm və o birilərinizin könlünü qıram. Odur ki, getsin, hər kəs mənə bir hədiyyə alsın gətisin. Bacardığı, gücü çatdığı bir hədiyyə alsın gətisin. Kimin hədiyyəsi xoşuma gəlsə, ona da gedəjəm, amma o birilər, xayiş eliyirəm, incimәsin. Hansınızın hədiyyəsi xoşuma gəlsə, mən yalnız ona gedəjəm.

Oğlannar gəlillər evə. Təzdənnən çoxlu pul-qızıl götürüf yola düşüllər hər üçü. Hər üçü birlikdə at sürür, üç yolayrıcına çıxıllar. Vəzirin oğlu deyir ki, qardaşdar, biz üçümüz də bir səmtə gedəmmərih. Gəlin, birimiz sağ yolu tutax, birimiz sol yolu tutax, birimiz də orta yolu tutax, gedəh. Gedəh, qızın istədiyi hədiyyəni alax, amma bu şərtnən ki, geri qayıdanda bir-birimizi gözdüyək bu yolayrıcında. Tək getmiyək, üçümüz də bir gedək, üçümüz də hədiyyəni aparax. Hansımızın hədiyyəsi xoşuna gələjəhsə, ona da gedəjəh.

Bəli, vəzirin oğlu düzünə gedən yolla, vəkilin oğlu sağa gedən yolla, sərkərdənin oğlu isə sola gedən yolla geder. Əvvəlcə, vəzirin oğlu bir neçə gün yol getdihdən sonra bir şəhərin kənarında gözəl, böyük bir bağa çıxer. Görör, əyə, bu bağın ətrafı hündür hasarnan hasarranıf. Birtəər eliyir, bu bağın qapısını tapır və bağın qapısınnan içəri girer. Gəler içəri, görör bir qoca kişi əyləşib.

– Əmi, salamməleyküm!

Deyir:

– Əleykəssalam, bala, xoş gəlifsən!

Deyir:

– Əmi, sən nəçisən?

Deyir:

– Oğlum, mən bu bağın bağbanıyam.

Görür ki, kişinin qabağında bir nimçənin içərisində bir dənə gözəl alma var. Almaya baxanda insan valeh olur. Almanın gözəlliyi oğlanın diqqətini cəlb eliyir. Deyir:

– Əmi, bu alma nədi belə?

Deyir:

– Oğlum, bu alma satdıxdı, satıram.

Deyir:

– Əmi, neçiyə satırsan? – deyəndə, kişi qayıder deyir ki, əlli min qızıla və yaxud otuz min qızıla. Ağıla gəlmiyən fantastik bir qiymət deyir almaya. Oğlan deyir:

– Əmi, bir dənə alma nədi ki, sən onu bu qədər ağır qiymətə satersan? Sənin deməyinə görə, mən yanımda götürdüyüm bütün varidatı sənə verməliyəm ki, o almeyı da aparam gedəm.

Deyir:

– A bala, bu sən görən almalardan döy. Bu elə bir almadı ki, can üstə olan xəstə belə onu yisə, o dərhal sapbasağlam, anadangəlmə olur. Bu elə bir almadı. Özü də bu alma yeddi il xarab olmur. Yeddi il saxlaginən.

Oğlan deyir: “Ə, qızdan ötrü bunnan da gözəl hədiyyə olmaz”. Çıxardır, qızılları sayır kişiyə, həmən almıyı aler, gəldiyi yolnan da geri qayıder.

Bu tərəfdən də sərkərdənin oğlu gəzə-gəzə gəler, deməli, bir şəhərə çıxer. Şəhər kənarında bir tükan varıymış. Oğlan gəler tükana girer, görör, ə, bunun hamısı güzgüdü. Tükanın sahibi olan tacir güzgü satır. Güzgülərin hamısına baxer. Zərri-zibalı, qırağı gözəl işlənmiş güzgülər. Görör ki, güzgünün biri elə-belə künəcə[33] güzgüdü, qoyuluf bir tərəfə. Qırağı qızılnan haşiyələnmiş güzgülər ucuz, amma bu köhnə güzgünün qiyməti qırx min, əlli min qızıl. Bu məhətdəl qaler. Deyir: “Ə, onda mən götürdüyüm varidatın hamısını gərəy bu güzgüyə verim. Bu nə məzəli güzgüdü?” Çağırer, deyir:

– Ay tacir!

Deyir:

– Bəli!

Deyir:

– Bu nətəərdi ki, qırağı qızıl haşiyələrnən işdənmiş güzgüləri sən ucuz verirsən, bir köhnə güzgünü bu qiymətə deyirsən?

---

[33] Künəcə – sadəcə

Deyir:

– Bu sən görən güzgülərdən döy. Bu dəyqə ürəyində kimi tutorsan tut, güzgüyə bax. Tutan kimi həmin adamı sənə göstərəjəh, bu şərtnən ki, bu dünyada olsun, ölməmiş olsun.

Oğlan o saatca ürəyində qızı tutuf da güzgüyə baxer. Qız gözünün qavağına, güzgüyə gəlir, sonra yox olor gözünün qavağınnan. Deyir:

– Bu belə güzgüdü. Uzax bir yerdə yaşıyan hansı qohumunun halınnan, əhvalınnan xəbər tutmax istəsən, ürəyinə gətirən kimi güzgü o dəyqə göstərir ki, o sağdı, sayrıdı[34], ya nətəərdi.

Oğlan deyir: "Ə, sən öl! Qıza bunnan da gözəl hədiyyə ola bilməz". Çıxarder pulunu sayır, güzgüyü götürör. Qayıder geri.

Bu yannan da vəkilin oğlu sol yolnan gəzə-gəzə geder, görör bir şəhərin kənarında xalça tükanı var. Xuruştaner[35], girer buruya elə-belə. Girer, görör, əyə, satdıx xalçalar, cürbəcür xalılar, zililər[36], gəvələr düzülüf, tacir də bığını buruf əyləşif. Görör bir köhnə xalça var, asılıf divardan. Üstünə yazılıf doxsan min qızıl. – "Allah amansan. Nədi ə bu xalça, bunun doxsan min qiyməti ola?" Tacirə deyir ki, tacir qardaş! Deyir:

– Bəli!

Deyir:

– Ə, bədbəxt oğlu, bu boyda zililər, xalılar bu qiymətə. Bu nədi ki, bunun qiymətin sən doxsan minə verersən?

Deyir:

– Bala, o, sən görən gəvələrdən döy, xalçalardan döy. İndijə üstünə otu, "uç xalçam, uç" de, istədiyin yerə səni aparajax. Gözünü yumuf açanatan mənzil başına yetirəjəh səni. Yeddi aylıx yolu yeddi saata qət eliyir. Bu, elə bir xalçadı.

[34] Sayrı – xəstə
[35] Xuruştanmaq – maraqlanmaq
[36] Zili – böyük ölçülü xalça

Oğlan deyir: "Bunnan da gözəl hədiyyə almağ olmaz qıza". Tez pulunu verer, xalçanı aler. Xalçıyı pükör qoltuğuna, əzizdeer möhkəm, atı da miner, ya Allah.

Oğlannarın üçü də gəler, təsadüf elə gətirer ki, üçü də eyni vaxtda gəler həmin yolayrıcında görüşör. İkisi gələndə örör ki, biri oları gözdüyür. Salamlaşannan sonra bular deyir ki, sən nə cür hədiyyə aldın? Aldıxları hədiyyənin xassələrini, neçiyə aldıxlarını bir-birinə izah eliyillər. Deyillər, gedəh, Allaha pənah. Hansımızın hədiyyəsini bəyənər, bəyənər. Bular bir neçə saat yol gəldihdən sonra sərkərdənin oğlu deyir ki, ayə, gəlin görək sevdiyimiz qızın vəziyyəti necədi. O birinə deyir ki, ə, sənin axı güzgün var. Qızı ürəyimizə gətirək, güzgüyə baxax. Qızı ürəklərinə gətirif güzgüyə baxan kimi, görüllər ki, qız bir çarpayının üstündə ölüm yatağında, saşdar tökülüf yana, qız çavaleer. Qızdırmadan, titrətmədən çavaleer. Qızın son nəfəsidi. Məmləkətin təbibləri, həkimləri hamısı tökülüf, heç hansı qıza bir əncam çəkəmmer. Qız ölhaöldü. Bular baxıllar, hər üçü qəmlənir. Xalça gətirən deyir ki, gəlin xalçanın üstünə minək, ha demədən özümüzü yetirəh. Almıyı verək, qızı dirildək, aman günüdü.

Deməli, bular üçü də xalçanın üstünə minillər. "Uç xalçam, uç" – deyən kimi xalça qalxer göyə. Buları gətirir, ha demədən, bir saat keçməmiş məmləkətə çatdırer. Oğlannarın üçü də gəlillər. Almıyı dərhal soyuf, dilimliyif verellər, qız yiyir. Yiyən kimi anadangəlmə olur. Elə bil ki, heç xəstələnməmişdi. Padşah sevinir, pütün saray əhli bayram eliyir.

İndi, burda məsələ belədi. Qız kimə getsin? Güzgü gətirənəmi getsin, alma gətirənəmi getsin, yoxsa xalça gətirənəmi getsin? Hansına getsin? Alma gətirənə gedəjəh, xalça gətirən dejəh, canım, nolsun ki, alma varıydı. Biz üç-dörd aya qayıdıf gələnətən qızın sümühləri çürüyərdi. O birinə gedəndə güzgü gətirən dejəh ki, bə mənim güzgüm olmasa, siz nədən bilər-

diniz ki, qızın vəziyyəti necədi? Yenə biz gəlif çatammazdıx. Alma gətirən də dejəh, bəs mənim almamı yeməsəydi, qız nədən dirilərdi? Gəlif nağayra bilərdiniz? İndi tapın görüm, qız alma gətirənəmi getsin, xalça gətirənəmi getsin, yoxsa güzgü gətirənəmi getsin?

*Açması:* Qız getməlidi, alma gətirənə. Ona görə ki, xalça gətirənə dejəh ki, atana Allah rəhmət eləsin, xalça gətirifsən, sağlıxnan işdət. Götür apar. Güzgü gətirənə də dejəh, güzgün sağ-salamatdımı, qırmamışam ki? Satmamışam ki? – “Yox!” – “Güzgünü də götür, xoş getdin, yeri get”. Amma alma gətirən almıyı hardan alsın? Almıyı qız yeyiv axı. Kimə getməlidi? Alma gətirənə! İndi almıyı qaytarıf verə bilərmi qız ona? Yox! Deməli, alma gətirənə getməlidi.

## 8. SƏXAVƏTLİ HATƏM

*Atam Kərbalaya getdiyinə görə ona el arasında Həmid demirdilər, Kalvayı deyə çağırırdılar. Anamın adı Cənnət idi.*

*Bir gün atam dedi ki, Cənnət, filan kəndə gedək. Məni də yannarında apardılar. Uzax yol getdik. Dedi, Cənnət, çörək-yemək götür, Daşbulaxda oturuf dincələrik, həm də günorta namazını orda qılaram. Bir xeylax getdikdən sonra Daşdıbulaxda atam əlini-üzünü yudu, mən də yudum. Yuannan sonra atam həyvəsinnən ceynamazı çıxartdı, qıblanameyi qabağına qoydu. Bir xeyir-dua verdi hündürdən, namaz qıldı. Namaz qılannan sonra anam sürfeyi açdı. Biz əlimizi sürfəyə uzadan kimi getdiyimiz yolun əks tərəfinnən bir yaşdı adam gəldi. Atamnan tanış imiş. Əlini atamın boynuna saldı. Dedi, Kalvayı, uzun müddətdi biz görüşmürük, hardasan? Atam dedi, nə bilim, həyatdı, kəntdə oluram. Bular xeylax söhbət eliyənnən sonra dedi, buyur, biznən çörək ye. Dedi, əlbət də, siznən çörək kəsmək böyük savabdı. Ona görə ki, siz ojax-*

*sınız, dindarsınız. Atamnan çörək kəsə-kəsə müxtəlif söhbətlər elədilər. Kişi yaşdı idi. Üzr istədi ki, mən uzaq gedirəm, icazə verin. Sürfəniz Hatəm sürfəsi olsun, səxavətdi ol. O gedənnən sonra dedim, ata, o Hatəm kimdi ki, bizə deyir sürfəniz Hatəm sürfəsi olsun. Dedi, oğul, arzu eliyirəm sən də Hatəm sürfəli olasan, Hatəm kimi səxavətli olasan. Mən darıxdım ki, bu söhbəti elə. Atam dedi, qulaq as.*

Eşitdiyimə görə, Hatəmnən Məhəmməd dost oluf bir kənddə yaşıyıflar, cavan uşax oluflar. Bular məslahat eliyif ki, yaşamax üçün qazanc dalınca gedək, işdiyək. Bu minvalnan atadan, anadan icazə aldılar, yola rəvan oldular. Getdilər bir gün, iki gün, bir yol ayrıcına çıxdılar. Yol ayrıcına çıxanda Məhəmməd dedi:

– Hatəm!

Dedi:

– Bəli.

Dedi:

– Ay qardaş, gəl belə məslahat eliyək. Bu daşın altda bir nişanə qoyax. Sən bu tərəfə, mən əks tərəfə gedək bəxtəbəxt. İndi nə qazanarıx, neçə ildən sonra gələndə bu nişanədən bilək ki, ya Hatəm gedib, ya Məhəmməd.

Atam dedi, oğul, bu minvalnan Məhəmməd getdi bir şəhərə çıxdı. Şəhərə çıxanda gördü əhali, camaat bir tərəfə axışır. Bu da bulara qoşuldu, getdi. Birinnən soruşdu ku, bu camaat hara gedir? Dedi:

– Burda adətdi, patcah öləndə, qırxı çıxannan sonra – patcahın göyərçini var, – göyərçini buraxellar, kimin başına düşsə, patcah o olor, tacı başına qoyullar.

Məhəmməd arxada dururdu. Göyərçin gəldi Məhəmmədin başına düşdü. Camaat dedi:

– Yox, olmadı, göyərçin səyf getdi.

Məhəmmədi məclisdən ayırdılar. Göyərçin ikinci dəfə də düşdü. Üçüncü dəfə Məhəmmədi apardılar bir uçuq evə saldılar. Evə salannan sonra göyərçin pəncərənin açıq yerinnən gəldi Məhəmmədin başına düşdü. Camaat dedi:

– Ola bilməz, bu qanundu. Bu patcah olmalıdı. Ədalətli patcah olajax.

Tacı Məhəmmədin başına qoydular. Məhəmməd burda patcahlıq eləməkdə olsun, indi, dedi, ay oğul, Hatəmdən danışax.

Hatəm getdi, bir gün, iki gün, heç nə tapa bilmədi, pulu da qurtardı. Getdi ağsakqal, nurani bir kişi ilə tapışdı. Dedi:

– Ay oğul, sən nəbələtsən, buralarda nə gəzersən?

Dedi:

– Ateyi-mehriban, mən burda iş gəzerəm.

Dedi:

– Çoban ola bilərsənmi?

Dedi:

– Olaram.

Kişi Hatəmi evə gətirdi. Çörək yidilər, otdular. Dedi:

– Oğul, bir il qoyuna gedəjəhsən. Şərtimiz nə olsun?

Dedi:

– Ateyi-mehriban, burda adət nədi? Mən adətdən çıxa bilmərəm. Çoban neçəyə gedir onu mana de.

Dedi:

– Ay oğul, görürəm mədəni uşaxsan. Burda yeməyi-işməyi veririk, çoban ili bir qoyuna gedir. Eləsi olor artımı aler, eləsi olor almer – deyəndə Hatəm dedi:

– Onda belə eliyək. Mən artımı istəmerəm. İldə bir qoyun mənim zəhmət haqqımdı, onu verin. Artım mənə lazım deyil.

Bu gedişnən Hatəm on il qoyuna getdi. O qədər səxavətli oldu ki... Atam dedi, ay oğul, Hatəmin səxavəti ordan gəlir. Onun xazeyni dedi ki, ay arvad, o qədər səxavətlidi, o qədər

mehribandı, bunu oğul kimi qəbul eliyək. Ona görə Hatəmə məslahat elədilər ki, ay oğul, gəlsənə səni evləndirək? Dedi:

– Ateyi-mehriban, ağsakqal sizsiniz. Mən sizin sözünüzdən çıxa bilmərəm. Çıxsam, mənim üçün günahdı. Siz mənim atamsınız.

Ona görə kəndin münasib bir ayləsinnən getdilər danışdılar, bunun qızını gətirdi, yaxşı toy elədi.

Bir gün keşdi, beş gün keşdi, Hatəmin vətən yadına düşdü. Hatəm dedi ki, ateyi-mehriban, icazə ver biz gedək. Çünki vətənim yada düşüb, ata-ana yadıma düşüb. Nə qədər təbliğ elədisə, dedi:

– Yox.

Dedi:

– Onda gedək, ay oğul, filan sürüdən əlli, yüz qoyun ayırax, həyat yoldaşınnan apar get.

Dedi:

– Yox, ateyi-mehriban, ola bilməz. Bizim danışığımız, bizim şərtimiz belədi ki, ildə bir qoyun almalıyam.

Hatəmə nə qədər təbliğ elədisə, razılaşmadı. On qoyun ayırdılar. Hatəmin xazeyni gəldi dedi ki, arvad, gəlinə bu qədər pul ver, gəlin götürsün, amma Hatəm bilməsin. Hatəm bilsə, qoymujax. Hatəm səxavətlidi, düz insandı. Ona görə kadın gətdi gəlinə pul verdi. Gəlin pulu götürdü, on qoyunu qabaxlarına saldılar. Bir gün, iki gün gəldilər, gözəl bir mənzərəli kəndin ayağına çıxdılar. Hatəm çoban idi. Gördü bura yaxşı yerdi. Dedi:

– Ay arvad, burda bir ev tikək. Bir ay, yarım ay, üç ay burda qalax, yazbaşı gedərik.

Bular getdi kəndxudadan icazə aldılar. Gəlin gətdi bu puldan verdi. Burda bir balaca xiyməgah tikdilər.

Rəvayətə görə, o devrdə patcahlar dəvriş sifətində gəzəllərmiş ki, gedək görək kənd, el-oba nə cür yaşıyır. Bular dəv–riş sifətində ağzı axşama gəldilər, Hatəmə rast oldular. Gördü-

lər bir kişi çiynində çomax qoyun haylıyır. Bu xiyməgaha yaxınnaşanda Hatəm dedi:

– Dəvriş baba, ağzı axşama gedir. Mənim qonağım olun, – deyəndə bu dəvrişdər dedi:

– Ay kişi, sənin balaca bir daxman var.

Dedi:

– Ola bilməz, ağzı axşama gedir, dəvrişsiz, sizi buraxmaram.

Patcah vəzirə dedi ki, gedək görək bu nə cürdü. İçəri girdilər, oturmağa yer yox, bir şey yox, əmbə Hatəm səxavətlidi axı. Dedi:

– Arvad, gəlsənə qoyunun birini kəsək.

Dedi:

– Ay kişi, kəs, qonaxdılar.

Qoyunun birini kəsdi. Bir neçə dəyqədən sonra kabab gəldi. Dəvriş dedi ki, mən bu yaşımatan nə qədər el-oba gəzmişəm, belə şirin ət yeməmişəm. Deyəndə Hatəm dedi:

– Arvad, qoyunun filan yeri şirindi, qalan yeri havayıdı.

Ona görə danışığı uzatmeram, on qoyunun onunu da kəsdi. Sabah üzünüzə xeyirrihnən açılsın. Dəvrişdər durdu, çörək-zad yidilər. Dedi:

– Ay kişi, evin şirin olsun, bir qoyun da kəsdin, zəhmət çəkdin.

Amma patcah bilirdi ki, on qoyun kəsilib. Dəvriş getdi, patcah libasını geyindi, tacı başına qoydu. Əmr elədi ki, gedin filan kəndin böyründə balaca daxmada bir kadın, bir kişi var, onu gətirin. Bunu nə niyyətnən gətirirdi? Asdırmağa gətirmirdi. Bir təşbeh kimi gətirerdi ki, elinə-obasına desin ki, belə bir insan var. Getdilər gətirdilər kadını da, Hatəmi də. Adəti üzrə patcaha baş əydi, salam verdi. Patcah dar ağacını qurana dedi ki, get dar ağacını qur. Dedi:

– Patcah sağ olsun, kimə?

Dedi:

– Bu kişiyə.

Dedi:

– Onun günahı nədi?

Dedi:

– Qonşunun on qoyununu kəsib, – deyəndə Hatəm üzr istədi, dedi:

– Patcah sağ olsun, baş ağrısı olmasın sizə, beş-on dəyqalıx söhbət eliyim, sonra asdır.

Atam elədiyi söhbəti Hatəm patcaha elədi. Patcah başa düşdü:

– Biy, sən Hatəmsən.

Bu da dedi:

– Sən Məhəmmədsən.

Bular qucaxlaşdılar, öpüşdülər, görüşdülər. Mehriban söhbət elədilər, sonra xəzinədarı çağırdı. Vəziri, vəkili – hamısını çağırdı yanına. O vaxtı pul vahidi kiseynən ölçülörmüş. Əmr elədi ki, xəzinədən on kisə qızıl gətir. Xəzinədar, vəzir, vəkil – hamısı patcahın üzünə baxdı. Cəsarət edib soruşammadılar ki, bu on kisə qızılı kimə verir. Xəzinədar dedi:

– Patcah sağ olsun, mən o qızılı qeyd eləməliyəm. Çünki xəzinədən geder. Bu qızılı kimə, nəyə verersən? – deyəndə dedi bu qızılı bu kişiyə vererəm.

Dedi:

– Nəyə görə veririk?

Dedi:

– Ona görə verirəm ki, on il bu Hatəm çobannığ elədi. On ildə on qoyun gətdi. Mən dəvriş libasında qapısına getdim, məni balaca daxmada qonağ elədi, on qoyunu kəsdi. Əmbə xəzinədən bu qədər qızıl geder deyə sizin ürəyiniz yater. Qoy innən sonra mənim millətimə, xalqıma bir örnək olsun, hər kəs Hatəm surfalı olsun, Hatəm səxavətli olsun.

## 9. SƏXAVƏT İNSANLIQDANDIR

Allah rəhmət eləsin Şah Abbasa. Şah Abbas çox ədalətli şah oluf. Yeri gələndə də dəvrişlibas oluf xalqın, camaatın içinə çıxarmış. Tanınmamax üçün, xalqın dolanışığını, vəziyyətini bilməh üçün dəvrişlibas olarmış.

Günnərin bir günü ikinci vəzirinə deyir:

– Ayə, ay vəzir.

Deyir:

– Bəli.

– Ə, – deyir, – səxavət nəynəndi?

Deyir:

– Şah sağ olsun, səxavət pulnandı da: varım, pulum olsa, səxavətim də olar.

Bunnan razılaşmer Şah Abbas. Razılaşmıyanda, gəler axşam olor, bu, birinci vəzirini də götürör, dəvrişlibas geder ikinci vəzirin qapısını döyör. Qapısını döyəndə vəzir çölə çıxer:

– Kimsiniz?

Deyir:

– Allah qonağıyıx, beyjəliyinə öyündəmi, nəvilem, balqonundamı bizə yer elə, qəriv adamlarıx, nabələdih, gejəliyəh, – deyəndə elə yek kəlmə deyir ki, ə, mənnən buanda üç yüz öy var, get birinə qonağ ol. İrəhmətdiyin oğlu, gərəy manamı qonağ olasan?

Belə diyəndə, bu birinci vəzirin üzünə baxer və deyir ki, gördün də ikinci vəzirin səxavətini. Bular gedə get, gedə get, kəndin lap ujqarında bir alçajıx daxma var, bu daxmadan işıx gəler. Gəlellər bunun qapısını döyüllər. Qapısını döyəndə cavan bir oğlan eşiyə çıxer:

– Kimsiniz?

Deyir:

– Ay qardaş, Allah qonağıyıx, bizi beyjəliyinə qonağ elə.

Oğlannan qavağ içəridən anası deyir:

– Ay bala, kimsiniz? İçəri gəlin, qonağa da qurvan olum, Allaha da.

Bular içəri gəlellər. İçəri gələn vaxtı çovan anasını çağırer. Deyir:

– Ay ana.

Deyir:

– Bəli.

Yazıx bir ildi, iki ildi, deməh, bir varrı kişinin qoyununa gedif, yeddi dənə toğlu alıf. Həmin günü gətirif qapıya. Deyir:

– Ay ana, icazə ver, toğlunun birini kəsem. İki bulardı, iki də bizih, hərəmiz bir tikə, para tikə yijeyih, qalanı da öyümüzdə qalajax də.

Deyir:

– A bala, heyvanı özün qazanmıyıfsanmı? Birin də kəs, ikisin də kəs, nətəər bilersən.

Nolasıdı, bı oğlan çıxer bir toğlunun başını kəser də, şakqaler, hər şakqası bir əlində qapıdan içəri girer. Girəndə Şah Abbas dəvrişlibasdı, deyir ki, ay bala, niynerdin bunu kəsif. Pendirdən, çörəhdən, çaydan yiyif, yıxılıf yatajeydıx. Deyir:

– Nəvilim, elə kəsdim də, bir tikə siz yijəhsiniz, bir tikə də biz. Götürüf aparası ha döyülsünüz.

Deyir:

– Düz deyirsən, amma biz ət yimerih, ancax kəsilən heyvanın böyrəyini yiyirih.

Həmin oğlan fikirrəşer: "Əyə, bu nə danışdığıdı?" Nolasıdı, əti çıxarder çölə. Anasına məsləhət eliyir, qalan altı toğlunun altısının da başını kəser, böyrəhlərini çıxarder. Çünki iki qonax, iki də bular, iki böyrəh, bu mümkün döylü. Qəşəh kavav çəker pişirir, bir darelkaya qoyor, əlində içəri gələndə deyir ki, bu nədi belə? Deyir:

– Nəvilim, siz dediniz böyrəh yiyirih, mən də böyrəh pişirif gətirmişəm.

– Ayə, a kişi, – deyir, – a cavan oğlan, ə bu heyvannarı niyə qırdın?

Deyir:

– Bircə heyvan kəsmişəm.

– Ə, nətəər bir heyvan kəsmişəm? Gözümüzü açannan biz heyvan əti yiyirih. Bir heyvanda iki böyrəh olar. Sən bu on dörd böyrəyi hardan aldın belə, neçə heyvan qırdın?

Deyir:

– Bircə heyvan kəsmişəm. Sizin yerin otu, suyu xarafdı, onçun ikijə böyrəh olor. Bizim yerin otu, suyu yaxşıdı.

Amma Şah Abbasa agah idi bu nədi. Nolasıdı, gejəni yatıllar, səhərsi gedellər. Taxta çıxer, qırmızı geyiner. Bütün çalvadarrarı, heyvannan başı çıxan adamları çağırer. O cümlədən bu çovanı da gətirtdirer – bu cavan oğlanı. Bunu ayrıja oturtduror. Bütün çalvadarrara, heyvannan başı çıxan adamlara sual verir:

– Ayə, a kişilər, bir heyvanda neçə böyrəh olar?

Bu burdan deyir, ə, vallah, padşah dəli oluf. Hancarı bir heyvanda neçə böyrəh olar. Hamısı deyir ki, biz gözümüzü açannan heyvan kəsmişik, bir heyvanda iki böyrəh olor. Deyir:

– Əyə, çovan, cavan oğlan, ayağa qalx görəh.

Qalxer:

– Bəli.

Deyir:

– Bir heyvanda iki böyrəh olar deyillər. Bə sən nətəri deyirsən ki, on dörd böyrəyi...

Belə baxanda örör ə, axşam bulara qonax olan kişidi.

– Vallah, – deyir, – on dört də olar, iyirmi dört də olar. İki nəfər axşam bizə qonax gəldi. Bir heyvan kəsdim. Hey-

vanın ətini içəri gətirəndə dedilər ki, biz ancaq böyrəh yiyirih. İki qonağı iki böyrəhnən mən nətəər yola salem? Əyağımı çınqıl aparmışdı, yeddi toğlu almışdım. Altısının da başını kəsdim. Dedim, razı getsinnər. Ona görə olara dedim bir heyvan kəsmişəm, on dörd böyrəh də bir heyvannan oluf.

Təzdənnən Şah Abbas vəziri qaldırdı.

– Ə, vəzir, əyağa dur.

Dedi:

– Nədi?

Dedi:

– Səxavət nəynəndi?

Yenə dedi:

– Pulnandı, varnandı.

Dedi:

– Ə, yalansa başına daş düşsün. Sənin puluna, varına nə gəlmişdi ki, bir gejəliyinə iki nəfər adamı qonax eləmədin? O sənin səxavətindi, bu da o cavan oğlanın – o çovanın səxavətidi. Sənnən vəzir olan döy. Büyünnən səni vəzirrihdən azad eliyirəm. Ə, çovan, o çomağı bunun əlinə ver. Getsin bu çovannıx eləsin, sən də mənim məmləkətimdə mənim ikinci vəzirimsən.

## 10. SƏXAVƏT İBADƏTDƏN ÜSTÜNDÜR

Bir sayıl yolnan gedermiş. Gedəndə görör ki, bir yerdən işıx gəler. Deyir, ac qarın, yuxusuz göz. Gedem göröm, bu işıx gələn kimdi, nədi? Mənə mənunə[37] verə bilərmi? Getdi gördü bir abitdi. Allahın yolunda alnını möhür aparıf, dizini yer aparıf, Allaha ibadət eliyir il uzunu. Bir də hər axşam, hər səhər, hər günorta buna Allah-taaladan yeməh gələrmiş. Bu axşam buna iki qav xörək gəldi. Bu abid də birini yedi, birini

[37] Mənunə – gecələməyə yer

saxladı. Dedi, bəlkə, səhərə yoxdu, munu da səhərimə göndərif. Götdü saxladı. Bu sayıl da ac qarın, yuxusuz göz oturdu, gözdədi. Gördü bir-iki dəst bərxana[38] gəldi, yatacax gəldi. Hər axşam bir yatacax gələrdi, indi iki dəst gəldi. Abid də birini aşdı yatdı, birini qatdadı qoydu kənara. Sayıl ac qarın, yuxusuz göz səhərə qədər otdu.

Hamının üzünə xeyir açılsın səhərrəri. Sayıl səhər ala qarannıx durdu yola düşdü. Getdi, gördü bir yerdə bir həngama[39] var. Yaxşı çalıv oynuyan, səs-küy var. Yaxınnaşanda gördü kü, qapıçı var. Qapıçıya dedi ki, mana icazə verərsənmi? Dedi, qoy gedim böyüyümnən soruşum. Getdi, böyüyünə diyəndə, dedi:

– Get o sayılı buruya əti.

Gəldi qapıçı sayılı apardı. Gördü burda yaxşı yeməh-işməh, çalmax-oynamax, oxumax var, şənnih var. Bu da bulara qoşuldu. Yeməh verdilər, yatacax verdilər, əyninə paltar verdilər, civinə pul, yoluna çörəh qoydular. Sayıl yedi-işdi, şənnənə-şənnənə durdu getdi.

Rəvayətə görə, buların hamısı o dünyəlik oldu. Bu abid də oların yanında. Gedəndə gördülər ki, həmən bu çalıv oynuyannar, yenə də çalıv oynuyur. Sayıl da oların ortasında oynuyur. Bu abid kənardan məzlum-məzlum baxırdı. Allah-taalaya dedi ki, ilahi, sənin yolunda dizimi yer aparıf, alnımı möhür aparıf, mən sana itaət eləmişəm il uzunu. Sən mana niyə bu əzabı verersən? Dedi, sayılı sana qonax göndərdim. Sən o qonağın xörəyini də əlinnən aldın, yatacağını da əlinnən aldın. Vermədin, o da aj-susuz yolunnan getdi oların yanına. Olar ona xörəh də verdi, paltar da verdi, yatacax da verdi, civinə də pul qoydu, getdi. İndi o əzabdı sən çəkirsən.

Həmişə səxavət ibadəti döyör.

---

[38] Bərxana – yorğan-döşək

[39] Həngamə – yığıncaq, səs-küy

## 11. İBADƏT YAXŞIDIR, YOXSA SƏXAVƏT?

Cənabi Əli əleyhəssəlamın iki övladı olufdu – İmam Həsən, İmam Hüsöyn. Olar eşikdə oynadıxları zaman biri deyir ki, səxavət yaxşıdı, biri də deyir ki, ibadət yaxşıdı. Bular bir-birlərinnən razılaşmıyanda deyillər, gedək babamızın[40] yanına, babamızdan soruşax, görək, nə deyir. Gəlillər babalarının yanına. Deyir:

– Baba, bu qardaşım deyir ki, səxavət yaxşıdı, mən də deyirəm ibadət yaxşıdı. Buların hansı yaxşıdı?

Cənab Əli fikirrəşer ki, desəm ki, ibadət yaxşıdı, o, pisikəjəh. Desəm ki, səxavət yaxşıdı, bu pisikəjəh. Ona görə bulara praktik göstərim, görsünnər ki, hansı yaxşıdı. Düldülə əl eliyir. Düldül gəler. Düldülü minellər. Dəvriş livasında gələllər Gəncəyə düşöllər. O zaman da Gəncəyə İmam Hüsöyn şəhəri deyirmişdər. Çadırrarını qurollar. Orda da Comar Qəssaf varıymış. Comar Qəssaf da ət satermış. Düzgün, doğru bir insanıymış. Cənab Əli çadırrarını qurannan sonra İmam Hüsöynə bir manat verer, deyir ki, o evi görörsənmi?

Deyir:

– Hə.

Deyir:

– Bax, o evdə Comar Qəssaf ət sater. Ona bir manatı ver, denən ki, mana bir kilo yaxşı ət versin.

İmam Hüsöyn gəler. Deyir:

– Comar Qəssaf, babam deyir ki, bizə bir kilo yaxşı ət versin.

Qəssaf yaxşı yerinnən bir kilo ət verer, aparer. Gələndə Cənab Əli deyir, qaytar apar, yaxşı ət döyül. Denən yaxşı yerinnən versin. Bir kilo da verer, qaytarer. On dəfə bunu

---

[40] Bölgədə bəzi kəndlərdə ataya baba deyə müraciət olunur.

qaytarer. Onuncuda da deyir ki, qaytar əti, apar özünə ver, pis ətdi. Denən pulumuzu versin. Qəssaf gülə-gülə, xoş sifətnən bu əti oruya qoyor, pulların da verer. Geder. Deyir:

– Ay İmam Hüsöyn, nə dedi qəssaf? İncidimi, ajıdımı?

Deyir:

– Yox, ay baba. Elə bir adamdı ki, on dəfə əti qaytardım, onunda da gülə-gülə başqa əti çəkdi verdi.

– Özgə nə dedi?

Deyir:

– Dedi ki, babana denən yanında kimlər varsa, olarnan bu axşam maa qonağ olsunnar.

Qəssaf bilmerdi ki, əti apartdıran Cənab Əlidi. Qəssaf bir ev tihdirmişdi Cənab Əliyçün. Allah-taalaya üz tutuf demişdi ki, ya Rəbbim, Cənab Əli üçün burda bir ev tikəjəm. Onun içinin hər ehdiyatdarın qoyoram, qapıyı da qıfılleram. Cənab Əli bu evdə qonağ olmasa, bu qapı beləcə qıfıllı qalajax. Əhdi-peyman elədi Allahdan, qapıyı da qıfılladı, açarı da arvada verdi. Arvad da bir yerdə saxladı.

İndi Cənab Əli gəlif, Gəncədədi. Cənab Əli durdu, çadırrarın da yığışdırdılar, qonax getdilər Comar Qəssaba. Qapıya gedəndə Comar Qəssaf dedi ki, arvad, qonağ otağının haçarını mana əti. Nə bilerdi ki, bu Cənab Əlidi? Ayrı qonağ otağının açarını isteer. Haçar tapılmer. Comar Qəssaf ajıxlaner, özü də geder içəri haçar axtarmağa. Bular haçar axtarmaxda olsun, Cənab Əli qapıya yaxınnaşer – muna tikilən evə. Qapıya yaxınnaşer, qıfıllar açıler tökülör. Bular daxil olollar evə, oturollar. Kişi eşiyə çıxanda görör ki, qapı açılıf, qonaxlar Cənab Əliyçün tikilən evdə oturollar. Comar Qəssaf əlini başına qoyor, xeylax fikirrəşer ki, ya Rəbbim, bu nə olan işdi? Bu nətəər işdi? Qonaxlara deməh olarmı ki, durun çıxın gedin? Deyir, hər kim olar, olar. Əmbə Cənab Əlinin pulunun üstündə onun adı da var idi. Onnan da bir az annayışı varıydı. Təzdən

gəldi bir quzu da kəsdi, gətdilər pişirdilər, ortuya qoydular, yidilər. Yiyəndə Cənab Əli dedi ki, – Comar Qəssabın bir uşağı var idi, balaca uşağıydı, – uşağı da gəti, biznən yemək yesin. Qəssaf dedi ki, ay dəvriş baba, bircə uşağım var, qorxoram qonağın əlinə-ayağına dolaşar. Mümkünsə, bənd olma. Deyir:

– Onda çörəyini yığışdır, biz də yimirik.

Əlajsız qaldı qəssaf, uşağı gətdi, bularnan çörəh yidi. Vaxt gəldi yatışdılar.

Gejə patcahın başı ağrıdı. Cindarrarı, biliciləri – hamını çağırdı ki, buna bir çarə. İçində bir bilici varıydı. Dedi, patcahın başına Comar Qəssabın o bircə oğlunun qanı dərməndi. O olmasa, patcah öləjəh. Patcah dedi ki, gedin Comar Qəssaba deyin, Əlinin yolunda oğlunun qanını versin. Gedin elə deyin, Əlinin yolunda deyən kimi verəjək.

Gəldilər, gejə qapıyı döydülər. Comar Qəssaf qalxdı ki, nədi, kimdi? Dedilər ki, vəziyyət belədi. Patcahın başı ağrıyır, patcah öləsidi. Sənin o bircə oğluyun qanını Əlinin yolunda patcahın başına dərman buyuruflar. Comar Qəssaf uşağı qıravatdan götdü, arvaddan oğruncağ apardı, yönünü qivləyə çöyürdü, kəsdi. Qanını apardılar, getdilər. Patcah da qannan işdi, sağaldı. Qəssaf uşağı gətdi qıravatına qoydu.

Yatdılar, səhər durdular. Dedi:

– Arvad, qonax var, dur çörəyi-zadı hazırra.

Arvad durdu, çörəh-zad hazırradı. Bir də dedi ki, a kişi, bu uşax bu vədə durordu, bu niyə durmadı? Dedi:

– Arvad, uşaxdı, axşam da bir az gej yatıfdı, bənd olma.

Arvad arada durdu bir baxdı. Baxanda gördü ki, uşağı kəsiflər, qızıl qanın içindədi. Arvad çığır-bağır salanda dedi:

– Arvad, kiri.

Dedi:

– Nədi?

Dedi:

– Bu uşağın qanını Əlinin yolunda patcahın başına dərman buyurmuşdular. Ona görə kəsdim verdim, özüm kəsmişəm. Kiri, səs eləmə.

Arvad da kiridi. Gətdilər quzunun qalanını da pişirdilər, burda yidilər. Ortuya qoyuf yeyəndə dedi:

– Qəssaf, get uşağı da gətir.

Dedi:

– Ay dəvriş baba, uşax yatıf. Bircə uşaxdı. Qorxoram dəli olar, səksənər, eliyər.

Dedi:

– Ya get uşağı buruya əti, ya da çörəyi yığışdır.

Qəssaf dedi ki, ay dəvriş baba, vallah, Allahdan gizdin deyil, bəndədən nə gizdədim. Patcahın başı ağrıyırdı, uşağın qanı başına dərman deyilmişdi. Əlinin yolunda verdim.

Dedi:

– Get, uşağı buruya ət.

Gətdi uşağı, qoydu Əlinin qarşısına. Cənab Əli səkgiz rükət namaz qıldı, üzünü Allah tutdu, əllərini qaldırdı, dedi:

– Ya Rəbbim, belə bir iş var, buna şəfa ver.

Allah-taala Cənab Cəbrayılı göndərdi ki, get onun başını yerinə düzəlt, ağzeyin liqafınnan da çək. Gəldi Cənab Cəbrayıl uşağın başını yerinə qoydu, ağzının liqafınnan çəkdi. Allah-taala əmr elədi, nəfəs verdi, uşax dirildi. Bu kişiyə agah oldu ki, bu adam Cənab Əlidi. Cənab Əli əlini kürəyinə çəkdi. Sağollaşdılar, çıxdılar getdilər. İndi Göy İmam deyilən həmən uşaxdı.

Cənab Əli şəhərdə nə qədər öylər var idi, hamısının birbir qapısını hərrəndi, dedi ki, bu axşam bizi qonağ elə. Buları heş kim qonağ eləmədi. Axırı getdilər bir kəndə çıxdılar. Kəndin qulağında gördü ki, bir arvad qapı süpürür. Buruya getdi, dedi ki, ay bajı, ay xala, bu axşam bizi Allah qonağı eliyərsənmi? Dedi:

– Allaha da qurvan olum, qonağına da, gəlin, ay dəvriş babalar, gəlin.

Gəldilər. Arvad da çox kasıv idi, heş nəyi yoxuydu. Hərəsinin altına bir çul tulladı, üstündə otdular. Cənab Əli dedi ki:

– Ay bajı, ərin varmı?

Dedi:

– Var, ərim camaatın malını otarmağa aparıf, naxır otarer, indijə gələr.

Axşam oldu, arvadın əri hər kəsin malını qapısına ötürdü, axırda öz evinə gəldi. Gəldi gördü ki, üş dəvriş oturuf. Dəvrişdərnən salamlaşdı. Arvad da dedi ki, ay kişi, sənnən icazəsiz üş qonax qəbul eləmişəm. Maa nə deyəjəhsən bilmerəm. Kişi dedi:

– Yaxşı eliyifsən.

Getdi bularnan salamlaşdı. Arvadı çəkdi, dedi:

– Arvad, heş nəyimiz yoxdu. Qonaxlara nə pişirəjeyik, nə kəsəjeyik?

Bircə inəhləri varıydı, bircə də buzoyları. Arvad dedi:

– A kişi, gəti buzoyu kəs.

Kişi gətdi daldaya çəkdi buzoyu, kəsdi. Gətdi, pişirdilər, yidilər, yatdılar. Savah da durdu, pişirdilər, yidilər. Yiyənnən sonra dəvrişdər sağollaşdılar, çıxıf getdilər. Dəvrişdər gedənnən sonra kişi dedi ki, ay arvad, mən gederəm, camaatın malın gətirif burdan keçirəndə inəyi gətir naxıra qat. Getdi camaatın malını yığdı gətdi, qapıdan keçirəndə gördü kü, inək qapıda yater. Çağırdı, çağırdı, gördü ki, heş kəs yoxdu. Axırı özü yüyürə-yüyürə gəldi. Gələndə gördü inəh ölüf. İçəri girdi, girəndə gördü ki, oğlu, qızı, arvadı – hamısı ölüf. Çığırdı, bağırdı, ağladı, başına döydü, küy salanda qonum-qonşu töküldü.

– Ay kişi, nədi?

Dedi ki:

– Üş dəvriş gəlmişdi. Buzoyumuzu da kəsdih, yarısını axşam yedik, yarısını da savah. Çıxdılar getdilər. İndi də getdim ki, malı yığışdırıf gətirəm, gələndə gördüm ki, arvad da ölüf, uşax da ölüf, inəh də ölüf.

Camaat yığıldı, molla-filan yığıldı, apardılar buları basdırdılar. Kişi naxırı-zadı buraxdı, qavırsannıxda ölülərinin – oğlunun, qızının, arvadının üstündə özünü şəhid elədi, gejəgündüz evə gəlmədi. Bir neçə gün keşdi, Cənab Əli göy atda, göy donda gəldi qavırsannıxda kişiyə dedi ki, ay kişi, noluf, niyə özünü öldürörsən? Nədi, nəmənədi? Dedi:

– Ay sənə fida olum, hər kimsən bilmerəm. Üş dəvriş gəlmişdi. Bircə buzoyumuz vardı. Buzoyu da kəsdim, yidilər, getdilər. Olar gedənnən sonra uşaxlarım, arvadım, inəyim də ölüf. Mən də indi özümü şəhid eliyirəm oların üstə.

Çıxartdı civinnən bir alma verdi. Dedi:

– Patcahın bir qızı var, iyirmi ildi xəstədi. Dünya alimləri, biliciləri, şairləri hamısı tökülüf onu qutarammer. İndi bu almeyi apar, ona ver. Onun da əhdi-peymanı var. Kim onu qutarsa, o qızı ona verəjək. Apar bu almeyi onun burnuna ilət, llədən kimi diriləjəh, sağalajax, on beş yaşında olajax. Onu da alarsan, orda dolanarsan.

Almeyi də götdü, getdi. Elçi daşının üstə oturmuşdu. Patcah dedi:

– Gedin görün o kimdi?

Gəldilər, apardılar. Dedi:

– A kişi, nəəzersən?

Dedi:

– Qadan alem, o qızı qutarmağa gəlmişəm.

Dedi:

– Öyün yıxılsın, bunu hardan qutarersan? Dünya alimləri, biliciləri töküldü, onu qutarammadı.

Dedi:

– Mən qutarajam, niynersən.

Dedi:

– Bunu keçirin qızın yanına.

Qızın yanına keçirdilər. Almeyi civinnən çıxartdı, qızın burnuna ilədən kimi qız sapbasağlam qalxdı, on beş yaşında. Patcaha xavar getdi. Patcahlar da ağıllı olollar, ağılsız adamı patcah qoymazdar. Patcah fikirrəşdi, dedi:

– Ayə, mən qojalmışam, arvadım da qojalıf. Qoy buna deyim, bəlkə, yerini biler, getsin iki alma gətsin. Birini mən yeyim cavannaşım, birini də arvadım.

Dedi:

– A kişi, get bu almadan ikisin də gətir. Birini maa, birini də arvadıma. Onnan sonra cavannaşajeyih, bu başımın tacını da sənin başına qoyajam, özüm də saa vəzir olajam.

Təzdən ağlıya-ağlıya getdi arvad-uşağının üstündə gənə özünü şəhid eləməyə. Bir, iki, üş gün burda özünü şəhid elədi. Bir də gördü ki, göy atdı, göy donnu Cənab Əli böyürdən çıxdı. Dedi:

– A kişi, nooldu?

Dedi:

– Saa qurvan olum, apardım almeyi verdim, qızı da diriltdim. Qız da dirildi, cavannaşdı. Patcah dedi get maa da iki alma gəti: birini arvadıma, birini özümə. Mən hardan alım almeyi?

Cənab Əli əlini belə tutdu, dedi:

– Bir burdan bax.

Barmaxlarının arasınnan belə baxdı. Baxanda gördü ki, cənnətin bağı görükör. Dedi:

– Nə görörsən?

Dedi:

– Yaxşı alma, armud, hər şey, meyvələr görörəm.

Dedi:

– Get bax, o almanın başına fırran, hərrən, içində hansı yaxşıdı ikisini qopar, apar birini patcaha, birini də arvadına.

Getdi, alma ağacının dörd yanına hərrəndi. "Hansını qopardem, hansını qopardem" deyəndə belə baxdı gördü ki, arvadı da ordadı, iki oğlu, bir qızı da orda, inək də orda, buzoy da yanında – cənnətdə. Yüyürtmə özünü bura salanda Cənab Əli dedi ki, ay kişi, ay kişi, harya gedersən? Dedi ki, qadan alem, arvadımın, uşağımın yanına gederəm. Dedi ki, ay kişi, sana arvadınmı lazımdı, uşağınmı, inəyinmi, buzoyunmu, yoxsa patcahın qızımı?

Dedi:

– Ay sana qurvan olum, mana öz arvadım, öz buzoyum, öz oğlum, qızım lazımdı.

O səxavətnən hamısı cənnətə daxil oldular. Burda da Cənab Əlinin uşaxları bildi ki, ibadətdən səxavət yaxşıdı. Uşaxları bax elə başa saldı. Yəni səxavətsiz ibadət bir şey döy.

## 12. SAİLİ BORCDAN QURTARAN ƏLİ

Günnərin bir günü kəntdə bir kasıvın pulu yoxuydu, iş aşırmalıydı, toy eləməliydi. Əlacı kəsildi, getdi Yezitdən pul götdü kü, mana pul verginən, bu işimi görüm. Bular o vaxtı pulu verəndə daqavor bağladılar kı, bax, filan ayın filan tarixində pulu gətirəjən. Bir saat pulu gej gətdin, oğlun mənimdi. Kasıf pulu aldı, gətdi. İşini-güjünü görənnən sonra ayın başı tamam olanda bunun yanına yüürdü, onun yanına yüürdü, qohum-əqrəbanın yanına yüürdü, heş kimnən muna əl tutan olmadı. Əlaj kəsildi, getdi canım fəda olsun, Cənab Əlinin yanına.

– Ya Əli, mən pul götümüşəm Yezitdən, borcu büyünnəri qaytarmalıyam. Mana pul verginan, mən o borcu verim, canımı kutarım. Əyər büyün günortuya o pul çatmasa, oğlum Yezidindi. Günortadan sonra pulu aparsam da, qəbul döy.

Əli dedi:

– Omar, bu kişiyə pul verginən.

Dedi:

– Ə, mənim pulum nəəzer?

Dedi:

– Osman, buna pul verginən.

Dedi:

– Mənim pulum yoxdu.

O vaxtdarı insannarı qul kimi satellarmış. Cənab Əli dedi:

– Məni apar bazarda sat, apar pulunu.

Kişi dedi:

– Mənim özüm də olmuyum, ayləm də olmasın, uşağım da olmasın, bu mümkün olan iş döy mən səni aparıf satam.

– Ə, – dedi, – can mənim döymü? Mən sana ixtiyar verirəm. Apar məni satginan, get borcunu qaytarginan.

Əlajı kəsildi, kişi Cənab Əliyi apardı. Canım sənə fəda olsun, Cənab Əli şəxsiyyətcən çox şəxsiyyətdi, qüvvəli bir pəhlivan olufdu. Bazara çıxanda hərə bir tərəfdən töküldü:

– Kişi, quluyun qiyməti nədi?

Cənab Əli bu kişiyə dedi ki, denən mənim qulumun qiyməti özü ağırrıxda qızıldı. Gün batannan gün doğan arası nə iş desən, mənim qulum bajarır. Burda bu qədər əhalinin içində heç kimin bunun özü ağırrıxda qızılı verməyə gücü çatmır. O vaxtı patcahlığa səda getdi ki, belə bir qul gəlif. Özü ağırrıxda qızıladı, günbatannan gündoğan arası nə iş desən, onu bajarer. Patcah dedi:

– Gətirin onu buruya.

Apardılar. Dedi:

– Sən bilirsənmi ki, səni mən satın alanda ömrüün axırına kimi mənim tabeçiliyimdə olajaxsan?

Dedi:

– Bəli, bilirəm!

Dedi:

– Sənnən üş dənə daqavor bağlıyajam. Oları yerinə yetirsən, sən qulluxdan azadsan.

Dedi:

– Bəli, eşiderəm.

Dedi:

– Bax, kəndin ətrafında meşə var, orda bir ayı peydah oluf. Meşiyə top atammerıx, oddanajax. Kim də geder, nə qədər qoçax oğlannar geder, belini, harabanı, öküzü qatdıyır qırer, insannar məhv olor. Biz ordan odun gətirəmmerih. Onu ordan azad eliyə bilərsənmi?

Dedi:

– O mənnihdi.

Dedi:

– Çox yaxşı.

Dedi:

– Bax, bu çayı görörsənmi? Bu çayın qavağına bənd salmax olarmı?

Dedi:

– Bəli, o da mənnihdi.

Dedi:

– Çox yaxşı. Üçüncü şərtim budu ki, Cənab Əlinin başını mana gətirə bilərsənmi?

Dedi:

– Mənnihdi.

Dedi:

– Bax, bu üş şərti yerinə yetirdin, on günə yetirdin, beş günə yetirdin, üş günə yetirdin, azadsan, çıx var getginən.

Nolojaxdı, axşam yatdılar. Savah üzünüzə xeyirrihnən açılsın. Savah açıldı. Cənab Əliyə meşiyi göstərdilər. Getdi meşiyə. Meşənin qırağında Cənab Əli ucadan bir səs çıxartdı. Meşədə nəkqədər vəhşi heyvannar varıydısa, qarışqıya kimi yığışdılar buruya. Ayı da gəldi. Başdadı Cənab Əlinin əlini,

əyağını yalamağa. Cənab Əli dedi ki, indi bilersiniz sizin borcunuz nədi? Dedilər:

– Nədi?

Dedi:

– Kimin güjü nəyə çatersa, bu ayının belinə yükləsin.

Qarışqaya dedi, bir saman çöpünə güjün çater da, sən də bir saman çöpü qoygunan. Yühlədi ayının belinə. Özü otdu ayının belində, gəler – nolojax, palçıxdan hörülmə damlarıydı bu yekəlihdə, – uçura-uçura. Patcaha xəbər getdi ki, öyün yıxılsın, ayıyı tutuf, belinə də yühlüyüv, özü də yolun qırağında öy-eşiy qoymadı, uçura-uçura gəler. Gəldi, patcahın sarayının qavağında əylədi. Yükü boşaltdılar. Ayıya dedi ki, günü bu dəyqədən o meşiyi tərk eliyirsən, gedersən Kürün o toyundakı meşələrə.

Ayı çıxıf getməhdə olsun, Cənab Əli dedi:

– Patcah, nə qədər adam göndərersən göndər, getsin odununu qırsın. Orda nə ayı var, nə vəhşi var, nə bir şey var. Göndərdilər beş nəfər, üş nəfər, büyün salamat gəldi. Savah göndərdilər, salamat gəldi. Birsüyün… Dedi:

– Hə, bu şərti yerinə yetirdin. İndi qaldı bu çayın qavağını kəsməh.

Cənab Əli getdi çayın qırağına. Gördü ki, iki mindi, üş mindi, dört mindi adam torvuynan torpax daşıyır. Gətiriv oruya tökən kimi su da aparıf varıf geder. Durdu belə, dedi ki, ay camaat, qaçın, bu çayın qavağını kəserəm. Hərə bir tərəfdən dedi:

– Ə, öyün yıxılsın, uzax başı sən iki torva artıx gətirərsən. Bunnan artıx nağayrajaxsan?

Dedi:

– Qaçın! Mən sizə xəbərdarrığ eliyirəm.

Ağlı kəsən adamlar dedi, ə, bəlkə Allahdan verilən bir hökümdü. Qırağa durdular. Cənab Əli iki rükət namaz qıldı, Allah-taalaya üzünü çöyürdü. Dedi:

– Allah-taala, sirri sənə ayandı.

Şəhadət barmağınnan nətəər işarə elədisə, o dağ gəldi çayın qavağını kəsdi, bir damcı aşağı hissəyə su getmədi. Patcaha xəbər getdi ki, a kişi, çayın qavağını kəsdi, bir damcı da su getmir. Dedi:

– Ə, gedin ona deyin, bir baş aşağıdakı camaata, dəyirmənə, filana su buraxsın.

Şəhadət barmağınnan dağı araladı, bir baş su getdi. Gəldi patcahın hüzuruna. Patcah dedi:

– Çox sağ ol. Bircə dənə şərtim qalıb. Cənab Əlinin başını gəti, onnan sonra sən azadsan.

Axşam yatdılar. Savah üzünüzə xeyirrihnən açılsın. Savah qalxdılar. Gəldi patcahın sarayının qavağına. Patcah dedi ki, get gəti dana Cənab Əlinin başını. Dedi:

– Tanımaram, bilmərəm, görmərəm.

Dedi:

– Ə kişi, bu olmadı dana, bax, budaha. Yalın o üzündə oların iştabı, mərkəzi, onnan sonra kitabı, dəftəri. Bax, ordadılar. Nətəri, bəs bizim daqavor var. Onda sən olajaxsan ömürrüh mənim qulum.

Gənə dedi ki, tanımaram, bilmərəm, görmərəm. Deyəndə patcah gənə dedi ki, a kişi, etmə, eləmə. Dedi:

– Ə, sənə deyirəm, tanı mənəm, bil mənəm, gör mənəm. Sən başını ninersən? Bütün cəsədi burdadı dana.

Əli dedi:

– Bütün bu millətinnən bir yerdə dön ol müsəlman.

Dedi:

– Bay-bay-bay, söyütdən sandal iysi gələr, bizdən müsəlmanın iysi gəlməz. Bizdən müsəlman olmaz.

Əli patcahın kəmərinnən tutdu, bunu nətəər atdısa, göyün yeddinci qatınnan gələndə canım fəda olmuş tutdu, yerə qoydu. Dedi:

– Halın nədi? Müsəlmançılığı qəbul eliyirsənmi?

Dedi:

– Yox!

Bir də atdı göyə, gələndə tutmadı, darmadiyar oldu millətin gözü qabağında. Gördülər ki, bu əhvalat belədi, döndülər oldular müsəlman.

Cənab Əlinin günü günortadan qaytarması, saili borcdan qutarması onnan sonra dillərdə dastan oldu.

Adam burda bir az həyəcan keçirir, mən bir yerini yaddan çıxartdım[41]. Hə, Əlini mindirdilər tərəziyə, gördülər ki, nə qədər qızıl varsa, daşıyıllar, tərəzi düz gəlmer. Cənab Əli barmağınnan üzüyü çıxartdı, qoydu tərəziyə. Tərəzi düzəldi. Bu kişiyə dedi:

– Apar, borcunu ver. Mən qaldım da burda, sənnən mənim əlaqəm yoxdu. Mən işdərimnən məşğul olajam, – deyəndə, dedi:

– Canım sana fəda olsun, gün günortadan keçifdi. İki belə qızıl olsun, daqavor daqavordu, oğlumu alajax.

Dedi ki, kişi, apar, sən o borc yiyəsinin qapısına çatanda gün günorta olajax. Sənin nəyinə lazım?

Kişi getməhdə olsun. Cənab Əli, canım fəda olsun, oturdu namaz qıldı. Üzünü Allah-taalaya çöyürdü, dedi:

– Ey Allah-taala, sirri sana ayandı də. Günü günortadan qaytarginan, o kişi gedif orda olanda günorta olsun.

Kişi getdi, qapıya çatanda, bu Yezit də dəyqabədəyqa yoxluyur, görör ki, gün günortadan bir sahatdı keçif. Borc yiyəsi çatdı qapıya. Dedi:

– A kişi, oturma. Gün günortadan keçif, oğlunu gətiginən.

Dedi:

– Ayə, günortadı.

Dava qızdı. Nolojax, böyük axundları, üləmaları, ağsaqqalları yığdılar. Günameri qurdular, gördülər günortadı. Dedi:

---

[41] Həzrət Əlinin özü ağırlıqda qızıla satılması hissəsini söyləyici sonradan xatırlayır və onu danışmağa başlayır.

– Ə, ay Yezit, dava eləmə, bax, günortadı.

Allah-taalanın hökmünnən gün qayıtdı. Onnan sonra eldə, obada, dillərdə dastan oldu ki, günü günortadan qaytaran, sayılı borcdan kutaran, canım sana fəda olsun, Ya Əli!

## 13-14. MƏHƏBBƏT, ÖMÜR VƏ DÖVLƏT

İnstitutda oxuyanda, Aslan adlı nurani bir kişi belə bir söhpət elədi. Dedi, a bala, bir cavan aylə çox gözəl yaşıyırdı. Var-döylət, mal, qoyun-quzu... Qonşu buna yaman paxıllıx eliyirdi. – "Əyə, bax, biz də yaşıyırıx. Niyə onun varı-döyləti həddini aşır, amma biz yeməyə çörəh tapbırıx?"

Bir gün paxıl qonşu evdə arvadınnan məsləhət eliyir. Qərara gəlillər ki, buların evinə nifaq toxumu salsınlar. Məsləhətdəşirlər, qısa getməh üçün deyirəm. Oğlan gejdənnən durur, çörəyini yiyir, atını minir, işə gedir. Paxıl qonşunun arvadı gəlir gəlinə deyir ki, yoldaşın harya gedif? Deyif ki, işə edifdi. – "Ala! Heç bilirsən, iş yerində nə işdər görür o?" Bunu möhkəm köhlüyür. Oğlan işə gedəndə paxıl qonşu bunun qavağına çıxır. – "Harya gedirsən?" – "İşə gedirəm!" Deyir: "Vallah, qonşuyux, heç mənim ürəyim götürmür. Əşi, sonra deyərəm". Ürəyinə bir toxum saldı axı. – "Ə kişi, sən Allah, de!" Dedi: "Vallah, qonşuyux, ürəyim istəmir. Sən gedənnən sonra heç bilirsən, üzr istiyirəm, arvadın nə işdər görür?"

Axşam qayıdanda ərnən arvad tutaşırlar. Aylədə nifaq düşdümü? Bular dalaşırlar, aylədə ziddiyət başdıyır. Biri oanda yatır, biri buanda yatır. Səhər açılır, qoyun-quzu mələşir. Duruf heyvannarı rahatdamax lazımdı. Oğlan gözdüyür ki, arvad durajax. Arvad gözdüyür ki, oğlan durajax. Heç hansı durmur. Gənə ağırrıx kişinin boynuna düşür. Durur, eşiyə çıxanda görür tozanax qar yağıf. Onda da aynəbənd-zad yoxuydu. – "Ayə, balqona ayaq izdəri düşüf". Belə baxır, təxmini müəyyən eliyir

ki, ən azı üç adamın əyağ izidi. Deyir, halal olsun qonşuma. Düz deyirmiş. Arvadın adamı varıymış. Gəlif görüflər mən öydəyəm, çıxıf gediflər. Qayıdır içəri girir. Nə silahı varsa götürür. Tüfəngini, tapancasını, qılıncını, nizəsini götürür, iznən, iznən, iznən gedir. Hələ iz itmiyif axı. Kəntdən aralanır, görür kəndin kənarında təpənin başında qaraltılar var. Yaxınnaşır, yaxınnaşır, görür kü, üç adamdı. Qavax-qavağa saj-ayağlama oturuflar, əllərində də bir çöp, qarı eşəliyillər. Yaxınnaşır:

– Salamməleyküm!

Heç kəs başını qaldırmır.

– Zdrasti!

Heç kəs başını qaldırmır. Nə dildə salam verir, heç kəs başını qaldırmır. Axırı qılıncı çəkir ki, ə, siz kimsiniz? Məəm öyümə gəlifsiniz, içəri də girmiyifsiniz. Bu saat sizi qılışdan keçirəjəm. Heç kəs başını qaldırmır. Nə eliyir, heç kəs dillənmir. Axırı ağlıyır. Deyir:

– Ə, mən partdadım axı!

Biri başını qaldırır, deyir:

– Nə deyirsən?

Deyir:

– Ə, dediyimi dedim dana!

Deyir:

– Ay bədbaxt! Biz üç qardaşıx. Mənim adım Məhəbbətdi, bax, onun adı Ömürdü, onun da adı Döylətdi. Biz üçümüz sənin evində qərar tutmuşdux, həmişə sizdə olurdux. Bu axşam gələndə gördük arvadın buanda yatır, sən oanda yatırsan. Çıxıf gedirik daha. Daa biz sənnən olmurux.

Bu oğlan da dünyagörmüş oğlanıydı. Fikirrəşir: "Ə, qadanız alım, səhv eləmişəm!" – "Yox, olmaz". Axır, axır, deyir ki, yaxşı! Get, yoldaşına denən, bizim birimiz gələ bilər.

Başı yaloylu qayıdır. Axşamnan dalaşıflar axı. Öyün yıxılmasın! Vəziyyəti söylüyür ki, boyunnarına qoymuşam,

biri gələ bilər. Qadın fikirrəşmədən deyir ki, get denən Məhəbbət hansıdı, o gəlsin. Qayıdır gəlir, deyir ki, əyə, qadanız alım! Yoldaşım dedi ki, Məhəbbət hansıdı, o gəlsin. Danışan dedi, o mənəm, gedək! Durur buna qoşulur, gəlillər. Xeyli gələndə – adam tamahkar olar axı, – deyir:

– Nolar, Döylətə də denən gəlsin.

Deyir:

– Yox, gəlməz!

Bir yüz addım gedənnən sonra görür, Döylət başını qaldırıf, duruf gəlir. Bir yüz addım gedənnən sonra o biri də dalqavax gəlillər, içəri dolullar. Süfrə açılır, yeyillər-içillər. Oğlan deyir ki, bəs sən deyirdin ki, olar gəlməz. Deyir:

– Ay bədbaxt, bil ki, mən hardayamsa, Ömür də ordadı, Döylət də ordadı.

Mən də bundan ilham alıb bir şeirimdə deyirəm:

Məclisi şeirnən başdıyax, dostlar,
Eşqimiz, duyğumuz, şeirə dönsün.
Ağzını xeyirə açan kəslərin,
Amalı, arzusu xeyirə dönsün.

Düşək misraların cığır sətrinə,
Batax gül ətrinə, çiçəy ətrinə.
Məhəbbət xətrinə, ömür xətrinə,
Gecələr uzanıb səhərə dönsün.

Ömrümüz tarixin ötən bir anı,
Gəlsin dalğa-dalğa muğam karvanı.
Bir yannan "Dilqəmi", "Misri", "Divanı",
Hər kəlmə yaquta, gövhərə dönsün.

Süzsün durna kimi nazlı gözəllər,
Eldən uzax olsun qəm, qüssə, kədər.

Ağ bayrax qaldırsın qəzavü-qədər,
Hər biri ulduza, ülkərə dönsün,

İsa söz eşqiynən bu yollardadı,
Cavannar eşitsin, məna hardadı.
Məhəbbət hardadı, ömür ordadı,
Dövlət də üz tutub o yerə dönsün.

**14.**

Xalqımızı, qonum-qonşumuzu Allah məhəbbətdi eləsin, biri-birinə mehriban olsun. Allah, haqq Allahıdı, mərdiməzardan saxlasın.

Kəntdə bir ər-arvat varıydı. O qədir biri-birinə mehribanıydılar, məhəbbətdiydilər, biri-birinə o qədir sədaqətdiydilər ki, var-döylət aşıf gedirdi. Harda ki məhəbbət var, orda çörəh var.

Qonşu mərdiməzar – gənə deyirəm, keçi başı tutanı qalmasın, – gördü ki, ə, bu, günü-günnən, o qədir fərəhdən... Çıxıf gedəndə qanun buydu ki, yoldaşı darvazanın ağzına kimi bunun üstünü təmizdiyərdi, əyakqabısını şotkuluyardı, aparardı darvazadan yola salardı. Qayıdıf gələndə yenə bu midvalnan[42] darvazanın ağzında yoldaşı bunu qarşılıyardı, təmizdiyərdi. Qonşu gördü ki, oğlan çıxıb geder. Yaxınnaşdı ona:

– Salam, qonşu!

Dedi:

– Əlöyküməssalam!

– Sabahın xeyir olsun!

– Ə, sənin də sabahın xeyir olsun!

Dedi:

[42] Söyləyici *minval* sözünü *midval* şəklində tələffüz edir. Bu nitq hadisəsinə yalnız bu söyləyicinin dilində rast gəlinir və bölgə üçün xarakterik deyil.

– Ayə, vallah, neçə ildi biz burda qonşuyux. Sənin atanı da tanıyıram, ananı da tanıyıram, qardaşını da. Biri-birimizə mehribanıx. Ancaq mən, – dedi, – çox xəcalət çəkerəm.

– Ayə, – dedi, – sən mənim canım, xəcalət çəhməynən. Ayıf döymü? Nə lazımdısa istə, verim.

Dedi:

– Ə, yox, bir şey istəmerəm.

– Ə, nədi?

Dedi:

– Sən gedənnən sonra sənin həyatın[43] zayeja[44] dönür. Bu qadının yanına gələn-gedən. Mən də, – dedi, – ət tökörəm. Sənin nə nəslinə yaraşandı, nə kökünə yaraşandı, nə vijdana yaraşandı.

Kişi geri qayıdıf burda istintaq aparası döydü, vardı getdi işinə. Dərəni anrı aşan kimi qonşu gəldi bu qadının yanına.

– Bajı, anam olasan, bajım olasan, xətri istiyirəm, atanı tanıyıram, qardaşını. Biz o qədir mehribanıx, filan.

Dedi:

– Sən mənim canım, nə əysihliyin var, nə istiyirsən?

Dedi:

– Heç bir şey.

Axırı dedi:

– Sənin yoldaşın elə qadınnarnan gəzer, heç sənin əlinə su töhməyə yaraşmır.

Bir az da bunun ürəyinə şübhə saldı, çıxdı getdi. Əri gəldi. Daa bunu nə qarşılıyan oldu, nə paltosunu tutan oldu. Qadın balqonun o başına baxer, kişi də balqonun bu başına. Bir həftə bu midvalnan dolandılar. Dedi: "Ə, bunu pusom, axtarem, göröm bu qonşunun sözündə həqiqət varmı?" Qar

[43] Həyat – həyət
[44] Zayej – gediş-gəlişli yer

yağmışdı. Oğlan dedi, savah gejdən çıxem, iz-miz itməmiş, görüm burda bir həqiqət varmı. Çıxdı, gördü ə, bunun qapısınnan üş dənə iz gedif. Gəldi, axotu[45] götdü, qoyun-mal çıxıf izi əyaxlamamış gethaget, gethaget, bu izi apardı. Bir dağın başında gördü kü, üş nəfər adamdı burda. Həqiqi də, qapıdan gətdiyi izdərdi. Çaxmağı çəhdi, bular aman istədi. Dedi:

– Ay qardaş, bizi niyə vurorsan? Sana neyləmişik?

Dedi:

– Öz qapımnan gətirmişəm sizin izi. Bu niyə belədi?

Dedi ki, düzdü, sənin qapınnan gəlmişik, ancaq bir aman elə də, bilginən nədi, nə döy, nəyə görədi? Mən sənnən aylən arasında məhəbbət yaradanam. Havax ajığınız tutuf bir-birinizə çəkinəndə, dartınanda, çiyninizdən aşağı basıf arada məhəbbət yaratmışam.

Biri dedi:

– Ə, mən sənin varıyın-döylətiyin üstündə günüz axşama kimi keşih çəkerəm. Gejə yatdığın yerdə səni qaldıreram, ə, inəyin doğuf. Qalxıf gedif görörsən ki, inəyin doğuf, qoyunun doğuf. Malını, döylətini…

Biri dedi:

– Ə, mən də xəzinədaram. Öyə gələn gəlirin üstünə yıxılmışam, qoymuram lişni yerə xarşdanmağa. İndi sizin öydə bir həftədi davadı, qalmaqaldı. Biriniz aya baxersınız, biriniz çaya. Biz də çıxıf gederih. Harda kim bizi qəbul eləsə, ona işdijeyih də.

– Ayə, atam sizə qurvan olsun, anam sizə qurvan olsun, gəlin qayıdın.

Dedi:

– Yox, qayıdan döylüh. Get yoldaşınnan məsləhət eləynən. Bax, bizim birimiz vardı-döylətdi, birimiz məhəbbət ya-

---

[45] Axot – tüfəng

raderıx, birimiz də o xəzinənin üstündə duranıx. Hansımızı istirsə, o qayıtsın.

Gəldi, dedi:

– Ay arvat, Allah mərdiməzara nəhlət eləsin, bizim çörəyimiz ağzı üstə dönüf. Həyatımızın varı-döyləti, məhəbbəti, yaşayışı o dağdan aşıf varıf geder. Gedif tutmuşam. İndi sən hasını istirsən?

Dedi:

– A kişi! Get yalvar, yapış, birtəər elə məhəbbəti gəti. O məhəbbət gəlsə, biri-birimizə sədaqətdi, məhəbbətdi olsax, biz dolanajeyih.

Getdi, yalvardı, dedi:

– Ə, məhəbbət hasınızsız, qadan alım?

Dedi:

– Mən.

Dedi:

– Səni istir arvadım da, mən də.

O birilər da munnan bərabər qayıtdı gəldi. Xeyir-bərəkət təzdənnən başdadı.

## 15. ÇOBAN VƏ NAXIRÇI

Bir kəntdə bir çoban, bir naxırçı var idi. Naxırçının oğlu, çobanın qızı var idi. Naxırçı çox kasıb idi. Nəyi vardı? Bir ala danası var idi. Oğlu böyüdü. Arvad dedi ki, ay kişi, oğlumuz böyüyüf, yaşı keçer. Bunu öyləndirmək lazımdı. Kişi dedi:

– Arvad, nəyimiz var?

Dedi:

– Bir danamız var, onu satax gəlinə verək.

Nəysə, razılaşdılar. Dedi, bə kimin qızın alax? Kim qızını bizə verər? Dedi, verəllər. Onda biz çobanın qızına elçi gedək. El adətinən ağzı axşama bular getdi çobanın öyünə. Çoban

bunu yaxşı qəbul elədi. Burdan belə məsəl çıxır ki, kürd kürdün bəyi döyül. Çoban dedi:

– Ayıf döyülmü, qızım sizə peşkəşdi. Heç bir şey almıram, nə də vermiyin. Təki aylə qursunnar.

Çobannan naxırçı qərara gəldilər, ucuzvarı toy elədilər. Toy eliyənnən sonra bu bir dana böyüdü, balaladı, iki oldu, üç oldu. Bu minvalnan var-dövlət artdı. Var-dövlət artdıxcan da naxırçının oğlu, qızı oldu. Dedi:

– Arvad, bura kəndin ortasıdı, dardı. Gəlsən, qıraxda ev tikək.

Getdilər kəndin qırağında bir ev tikdilər. At ferması, qoyun ferması, toyuq ferması – hamısın cərgəynən tikdilər. Varrandılar. Bir axşam alçaxca qar yağdı. Kişi sabah eşiyə çıxanda gördü bir çəkməli adam gəlif bu qapıda hərrənif, izi də qara düşüb, amma mal toylasının, heç birisinin qapısını açmıyıf, içəri girmiyif. Dedi:

– Arvad, axotu gətir, gedif bunu güllələjəm. Mənim qapımı gəziflər.

Dedi:

– A kişi, gəzif gəzif, malını ki aparmıyıf!

Dedi:

– Yox, gedif tapajam.

Uzaxda – dağın ətəyində bir sirri mağara var idi. Bu mağaraya gedəndə gördü bir kişi burda oturuf qalyan çəkir. Kişi əlində axotnan gələni görüb gülümsədi. Dedi:

– Nəyə gəlibsən?

Dedi:

– Səni vurmağa gəlmişəm.

Dedi:

– Niyə vurursan məni?

Dedi:

– Niyə gəlif mənim qapımı-bajamı hərrənifsən?

Dedi:

– Bura bax, bura sirri mağaradı.

Belə deyəndə kişi ayıldı ki, doğrudan, bura sirri mağaradı. Dedi, o varı-dövlətin hamısını mən vermişəm sana. Get aylənnən, uşaxlarınnan məslahat elə, bircəciyini saxla. Ya at fermasını saxla, ya inəyi, ya qoyunu.

Kişi bikef gəldi. Uşaxlarını, arvadını, gəlinini başına yığdı. Dedi:

– Başıma belə iş gəlif. O kişi varımızı əlimizdən alajax. Hansını saxlıyax? – deyəndə oğlan dedi:

– Mən maşın almışam, maşınımı verməərəm.

Arvad dedi:

– Ay kişi, qızdar böyüyür, bulara cehiz düzəltmək lazımdı. Qoyun ferması qalsın.

Biri dedi:

– Mən böyüyürəm, cıdıra çıxajam, atım qalsın.

Bir qərara gələmmədilər. Gəlin öz işinnən məşğul idi. Gördü bular bir qərara gələ bilmer, gəldi dedi:

– Ateyi-mehriban, üzüyün nuruna qurvan olum, olarmı bir söz deyim?

Dedi:

– Qızım, de.

Dedi:

– Get o babama denən ki, üzüyün nuruna qurvan olum, bütün varı əlimizdən alsın, mehribançılığımızı əlimizdən almasın.

Kişi getdi. Bayax ajıxlı getmişdi, indi salam verdi, baş əydi. Dedi:

– Baba, bütün varı əlimizdən al, bizim mehribançılığımızı əlimizdən alma, – deyəndə güldü. Dedi:

– Onu kim dedi?

Dedi:

– Arvadım dedi.

Dedi:

– Yox, düzünü de.

Dedi:

– Oğlum dedi.

Hamısın sanadı, dedi:

– Yox, düzünü de.

Dedi:

– Vallah, gəlin dedi.

Dedi:

– O gəlin ki evə ayax basdı, var-dövləti mən o gəlinin ayağınnan gətdim. İndi get, iki sürün olsun, malın olsun, mehriban dolanın.

İndi bu el adətidi. Eldə belə söhbətdər olur. Mehribançılıq, aylə məhəbbəti ən gözəl nemətdi.

## 16. BELƏ DƏ GETMƏZ

Biri borc alır. Bir il keçir, iki il keçir, üç il keçir, borcu ödüyəmmer. Borc yiyəsi də əyağını diriyir ki, borcu vermersən, gə səni qoşuf yer əkəjəm. Bir tay öküzü, bir də kişini qoşuf yer əkerdi. Tacir yoldan keçif Tiflisə ederdi. Gördü birini qoşuf yer əkellər. Nökərə dedi, ə, öyün yıxılsın, get gör o neynir, o insandı. Nökər gəlif deyir:

– Ə kişi, əyleynən.

Deyir:

– Ə, nə əylə? Mənim vaxtımmı var əyləməyə, filan?

Deyir:

– Niyə elə eliyirsən bu insanı?

Deyir:

– Mana üç ildi, dörd ildi pul borşdudu, pulu qaytarmer. İndi də qoşuf haqqımı aleram.

Gəldi bu tacirə dedi ki, tacir, cütə qoşulan o birinə pul borşdudu, pulunu qaytarammer. O da onu cütə qoşuf hakqını aler. Dedi ki, ə, get gör neçə manat borşdudu. Gəldi, soruşdu. Dedi, on manat, məsəlçün. Apardı tacir munun pulunu verdi. Bunu aşdılar, ordan gəldi tacirin yanına. Tacirin yanına ələndə tacirə dedi:

– Tacir baba, səni and verirəm Allahın birdi birriynə. Mən, əvvəla, kəntdə rüsvay olmuşam. İkincisi, mənim taqətim yoxdu innən sonra yaşamağa. Harya kimi gedersənsə, ölərəm, qalaram, məni də aparginan.

Tacir dedi:

– Ə, tulluyun onu kəcavənin birinə, dəvənin belinə.

Tulladılar dəvənin belinə. Karvanın başını çəkən dəviyə sarvanbaşı deyillər. Sarvanbaşı dəvə xəstələndi. Tacir dedi ki, ə kişi, mən bu dəviyi burda buraxıf gedəmmərəm. Bu dəviyi açın, yükünü tökün, bunun qunudunu[46] – haşa üzdən, ulax gəler da arxadan, – onun quyruğuna bağlıyın. Harda ölər oruya kimi, yoxsa mən burda buraxammaram, bu sarvanbaşı dəvədi. Bağladılar, getdilər çıxdılar Tiflisə.

Tiflisə gedif çıxanda malı satdılar, filanı satdılar. Tacir dostuna dedi ki, qadan alım, ay dostum. Bu dəvə xəstədi, burda qalsın, bax, bu adam da qalsın dəviyə qullux eləməyə mən bir devr eliyif gələnə kimi. Dəvədi, ölər, bu burda dursun, gəlif bunu da aparıf gedəjəm. Ölməz, qoy dəvəyə baxsın.

Tacir getməhdə olsun. Tacir gedəndə kişi dedi ki, tacir baba, belə də getməz. Tacir əhəmiyyət vermədi, çıxdı getdi. Gəldi, devr elədi, Tiflisin patcahı öldü.

Tacir hərrənif gələnə kimi quş uçurtdular. Quş gəldi bu adamın başına düşdü. Dedilər, ə, quş yanılıf, munnan patcahmı olar? Filan-bəsməkan. Hay-huy... Bir də uçurtdular. Gəldi düş-

---

[46] Qunud – noxta

dü. Bir də uçurtdular, dedilər elə budu. Bunu apardılar qoydular patcah. Tacir devr elədi, getdi dostunun öyünə çıxanda gördü, dəvə yaxşılaşıf. Ə, bu adam hanı? Dedi ki, baa, deməzsəmmi, sən gedənnən sonra quş uçurtdular, bunu apardılar qoydular patcah.

Tacir əl-əyağ vurmaxda oldu dana, bunu buraxıf, pul verif. Dedi, hə, çox yaxşı. Getdi sarayın qavağına. İstədi girsin. – "Ə, harya girirsən? Buraxmalıx döy, filan". – "Ə, – dedi, – gedin o patcahınıza deyin ki, filan tacir gəlif". Getdilər girdilər, dedilər, filan tacir gəlif. Tacir içəri girdi, qəbul elədi. Öpüşdülər, görüşdülər. Nolojax, qırx dəvənin qırxı da pulsuz, parasız yühləndi. Yaxşı şadyanalıx, yaxşı gün-güzəran. Patcah taciri yola salanda gənə dedi:

– Tacir baba, belə də getməz.

Tacir yenə də əhəmiyyət vermədi. Getdi, bir də hərrənif gəldi. Tiflisə gedənə kimi, irağ üzünüzdən, bu patcah öldü. Apardılar bunu basırdılar. Bu, vəsiyyət elədi ki, mənim baş daşıma yazın ki, belə də getməz. Baş daşına yazdılar ki, belə də getməz. Tacir gəldi. Bildi ki, qul kimi aldığı, buraxdığı adam ölüb. Dedi, ə, çörəh kəsmişik, mən buna hörmət eləmişəm, bu da maa hörmət eliyif. Gedif bunun qəbrinin üstündə bir "Quran" oxudum. Gedəndə gördü ki, baş daşına yazılıf "belə də getməz". Tacir başına döydü, dedi, əyə, bu üş dəfə, dört dəfə mana dedi ki, belə də getməz. Bunu mən niyə örgənmədim. Bir də gəldi, devr etdi. Dedi, gedem, buna dua oxudom. Gedəndə, gördü ki, baa, çay daşıf, sel gəlif qəbri yuyuf aparıf.

Tarix belə də getməz, qadan alem. Bu günün o günü də var. Allah-taalanın nərdivanı var, enən ağlarmış, qalxan gülərmiş. İndi kimi alçaldır, kimi yüksəldir. Belə də getməz. Həyatdı da.

## 17. ALLAHA PƏNAH

Bir gün Musa peyğəmbər gedirmiş Turi Sənaya Allahnan danışmağa. Rəvayətə görə, Allahnan danışan Musa peyğəmbər olufdu. Gedəndə görür yolda bir nəfər var, əli-əyağı tutuluf, dizinnən yeriyir. Deyir:

– Ya Musa, harya edersən?

Deyir:

– Turi-Sənaya gederəm.

Deyir:

– Mənim də ərzi-bəndəliyimi eliyərsən Allaha?

Deyir ki, nə ərzi-bəndəliyi? Deyir:

– Allaha denən mənim bunnan sonrakı həyatım nətəər olajax?

Deyir:

– Yaxşı, deyərəm.

Musa gedir, Turi-Səna dağında üç dəfə əsasını yerə vuror. Allahdan səda gəler ki, eşidirəm, ya Musa! Olannarı danışer, məruzəsini eliyir, amma kişinin sifarişi yadınnan çıxer. Allah-taaladan səda gəler ki, ya Musa, yolda sana nəsə deyiflərmi? Deyir:

– Hə, bir nəfər varıydı, yolda maa dedi ki, mənim bunnan sonrakı həyatım nətəər olojax? Amma gəl, mana düzünü denən.

Deyir:

– Get denən onu onnan da pis günə salajam.

Gəlif keçəndə həmin adam deyir ki, ya Musa, nooldu?

Deyir:

– Yaxşı olar.

Deyir:

– Yox, Allahım nə deyif, onu mana de!

Deyir:

– Ayə, öyün yıxılsın, Allah dedi səni onnan da pis günə salajam.

Deyir:

– Atam-anam fəda olsun Allaha! Qurvan olum ona! Özü bilən məsləhətdi!

Musa ilə sağollaşıf getməh istiyir evinə. Arxaya dönəndə görör, bəyax bu gəldiyi cığırdan əsər-əlamət yoxdu. Burdan bir dərin iti arx axer, üç-dörd metr də eni olar. O üzdə də bir yarğan əmələ gəlif. Deyir, ə, burdan hopbanajam, Allaha pənah. Bu hopbananda, deyir, qayıfdan bir zincir sallaner. Bu zincirdən tutor dırmaner, birtəri çıxer anrı. Bu zincirin divini eşəler, eşəler, görör əyə, burda qırx dənə qulplu qazan var, içi də ağzına qədər qızıldı. Bunun üstünü örtör. Bu çıxer geder öyə. Deyir:

– Arvad!

Deyir:

– Ha!

Deyir:

– Belə bir şey tapbışam.

Arvad ağıllı arvad olor, kişi kimi yelbeyin olmor. Deyir ki, ə, get kəndin koxasına denən oroyu bizə satsın, o torpağı alax. Gəler koxuya deyir. Koxa deyir:

– A yiyən ölsün, orda Allahın eşşəh qanqalı pitmer. Get çəpərrə, nağayrersan qayır.

Gəler buruyu çəpərriyir. Savah gələndə görör ə, zincir ordadı, hər şey burdadı, arx da yoxdu. Bura yeddi yolun ayrıcıdı. Hər tərəfdən gələn yollar burda birləşer, burdan ayrıler.

Bu kişi qızılın ağzını açer, yavaş-yavaş xırıd eleer, burda böyük bir mehmanxana tikdirer. Birinci mərtəbəsi yeməkxana olor, ikinci mərtəbəsi istirahət otağı olor, üçüncü mərtəbə bunun özünün evi olor.

Bir gün, deyir, Musa peyğəmbər gəzirmiş də vilayətdə. Gələndə görör burda bir yer var, camaat yığılıf buruya. Bir uşaxdan soruşur:

– Ay bala, mən ajmışam. Burda yeməkxana-zad harda var görəsən?

Deyir:

– Bax, bura yeməkxanadı. Gəlin yiyin, ay dayı.

Burda çörəyini yiyir və çıxanda deyir ki, qarson kimdi gəlsin pulunu alsın. Deyəndə qarson deyir ki, ay dayı, Allah-taalanın şəninə bir salavat çevir, zikr elə, çıx getginən. Sənin yeməyinin haqqı budu. Deyir:

– Ay bala, mən Allaha salavat, zikr eliyəndə gejeyi gündüz eliyir, varı yox eliyir, dəryanı qurudor. Yox yerdən bir dərya yarader.

Deyir:

– Kişi, sana deyirəm Allaha salavat-zikr elə, çıx getginən.

Musa da deyir ki, a balam, pulunu alginan mənnən, mən o günaha batammaram. Bir də içəridən mən ağıldası çıxer eşiyə, deyir ki, nə deyir ə bu? Qarson deyir:

– Deyirəm bir salavat-zikr elə, get. Deyir, mən salavat çəkmerəm, pulunu al getginən.

İçəridən çıxan deyir:

– Ə, bu saat vuruf dişini tökəjəm, çıx rədd ol, salavatını çöyür.

Allah görör kü, bunun beyni qandı, Musayı vura bilər. Səda gəler ki, ya Musa, salavat-zikr elə, getginən. Göybuynuzdular, səni vurallar. Cavandı, o xeyrini-şərini qanmer. Musa deyir:

– Allahın məsəli əla Məhəmmədin və ali Məhəmməd.

Zikr eliyif gedəndə görör ə, yolda gördüyü yesir üçüncü mərtəbədə oturuf. Biri bunun qulağını siler, biri burnunu siler, biri ağzının şorşağını siler, biri dırnağını tutor, biri başını darer, biri çivinini yelpikleer, qoaleer. Deyir:

– Ya Allah, fida olum sana, bu nə olan şeydi? Bə sən buna deyirdin bunnan da pis günün olajax! Bu niyə belədi?

Deyir:

– Ay Musa! Bəs sən bilmədinmi ki, sən elə deyəndə nə dedi o? Dedi Allahıma qurvan olum, özü bilən məsləhətdi! Gördüm, mən bunu nə dona salsam da, bu hamısını qəbul eliyir. Dedim qoy burdan belə həyatı yaxşı olsun.

Səbr Allahın birinci adıdı. Səbirnən də Allah ona elə bir imkan yaratdı ki, bu gəldi istədiyinə nail oldu. Və, Allahın yolunda aj qarınnarı doydurmağa başdadı.

## 18. ÖMRÜNƏ ÜÇ GÜN QALMIŞ ŞƏXS

Bir gün yenə bir kişi geder bir çəhməçinin yanına. Deyir ki, mana bir cüt çəhmə tihginən. Vallah, yaxşı olsa, gələn il bu vaxtı da birini tihdirəjəm. Çəhməçi bunun əyağını ölçör, nağayrer, nəvilim mən. Görör, atın üstündə bir cavan oğlan buna gülür. Deyir:

– Ə, nəyə gülörsən? Yeriyif rədd olsana ordan oana.

Deyir:

– Öyün yıxılsın, mən Cənabı Azreyiləm, üç günnən sonra sənin canını alajam. Nə gələn ilə sən sapox gəzersən, çəhməəzersən? Üç günnən sonra sənin canını aleram, vaxtın qurtarıf.

Çəhməçidən bir cüt çəhməni aler, qoltuğuna vuror, geder. Gedəndə örör böyüh bir bağ var, hasarranıf. Bunun içi güjdü ərihlihdi. Ərih bağıdı bura və ərih də yetişif. Buruya girməyə bircə su gilifi var. Bu deyir: “Sapoxlarım bulanmasın. Onsuz da mən öləjəm üç günnən sonra. Gənə ağlaşmada ortuya qoyar, ağlıyallar”. Sapoxların hasarın üstünnən tulluyuf su gilifinnən girer içəri. Sapoğu böyrünə qoyor, ərihdən yeyəndə görör kü, bağın başında böyük bir imarət var və bu imarətin qavağına yaman adam yığılıf. Deyir: “Sən öl, toy olsa, gedif burda bir qarın yijəm, bu ərihdən də yığıf varıf gedəjəm. Onsuz da üç gün qalıf da ömrümə”. Deyəndə, görör, molla səsi gəldi. Molla

deyir ki, camaat, qavaxca bir “Yasin” oxuyax, onnan sonrasına çörəh də yiyərih, bu təamlardan da nuş eliyərih. Başdıyır molla “Yasin” surəsini oxumağa. Bucuğaz da axıra qədər mollanın “Yasin”inə qulağ asır. Axırda da “Fatihə” surəsi veriləndə bu, fatihəsini verer, salavatını çöörör, duruf əriydən də bir qoltux yığer, sapoxlarını da qoltuğuna vuror, evəəler. Gəler, bu əriyi də tökör, uşax yiyir. Savah arvad deyir:

– A kişi, duruf toya getsənə.

Deyir ki, ə, rədd ol, mən üş günnən sonra öləjəm. Deyir:

– A yiyən ölsün, ölörsən, cəhənnəmə öl! Camaat səni toya çağırıf. Duruf getsənə, bu çəhməni də geyin.

Deyir:

– Yox, bulamaynan. Bəlkə öldüm-elədim, qavağa qoyuf ağlıyarsan.

Üç gün, beş gün, on gün, bir ay, bu kişi ölmör. Arvad deyir:

– Əyə, bu səlvərini[47] geyin get, a kişi. Səlvərin biri sənə bir söz deyif. Dur getginən camaatın xeyrinə.

Kişi yavaş-yavaş xeyirə-şərə qarışer. İlin tamamında gəler bu çəhməçinin yanına. Gələndə çəhməçi deyir:

– Pissimillah! – Gözünü-başını oxalıyır. – Öyün yıxılsın, sən hələ durorsanmı?

Deyir:

– Ə, nəvilim, haranın sarsax şeyidi gəldi, dedi öləjəhsən. Mana Azreyil çıxıf bu. Bə niyə ölmədim?

Görör həmən oğlan atın üstündə gülör. Deyir:

– Ə, bu da keçən il məni aldatdığındı? Rədd ol get. Tüş ordan cəhənnəmin gözünə. Sən öl, gözünü çıxardaram. Azreyil idin, mana can almağa gəlmişdin. Bə niyə ölmədim?

Deyir:

– Ay Allahın yazığı, Allah-taala sənin ömrünü uzatdı.

---

[47] Səlvər – sahibsiz mal, yiyəsi ölmüş mal

– Nəyşə uzatdı?

Deyir:

– Sən Qurani-Kərimi axıra qədər dinlədin və bu dünyada sənin qulağın Quran səsi eşitdi. Və Allah-taala sənin ömrünü uzatdı ki, o, cənnətini qazanıf bu dünyada.

Onçün hamı deyir ki, Allah özü bilən məsləhətdi. Cənnəti bu dünyada qazanmax lazımdı. İndi gedirsən yasda molla "Yasin" oxuyur, qulağ asan yoxdu. Hərə öz dərdinnən danışer. Fakt budu ki, o, Allahın "Quran"ını oxuyur, ona qulağ asmax lazımdı, dinləmək lazımdı.

## 19. ÜÇ DİLƏK

Deyilənə görə, Musa peyğəmbər kəlamullah adlanıfdı. Yəni Allahnan söhbət eliyən ancax Musa peyğəmbər olufdu. Musa peyğəmbər də ildə bir dəfə deyilməyə görə, Tur dağında gedif namaz qılarmış, üzünü Allaha tutarmış, nə diləyi var imiş, onu deyərmiş. Cəmiyyətdən onu xəbərdar eliyərmiş, Allahdan da nə lazım imişsə, onu istiyif, gətirif xalqa çatdırarmış, insannara çatdırarmış. Bu məqsədnən gedirmiş.

Günnərin bir günü Musa peyğəmbər genə həmənki qaydaynan istiyir ki, getsin namaz qılsın, Allah-taalaya dua eləsin, onnan kəlam alsın, kəlam versin. Gələndə yolu təsadüfən kasıf bir kişinin həyətinin yanınnan keçer. Bu kişinin də varıyoxu bir oğlu olufdu, bir yoldaşı, bir özü. Çox kasıf yaşıyıllarmış. Kişi də bilirmiş ki, peyğəmbər həmişə gəlib burdan keçir. Kişi uzaxdan görəndə ki, peyğəmbər gəlir, arvada deyir:

– Ay arvad, mən bunun qarşısına gedəjəm və bundan xayiş eliyəjəm, rica eliyəjəm ki, Allah-taalaya bizim əhdimizi çatdırsın, bizə imkan yaratsın, bir üç illik var-döylət versin. Bu uşağımızın yetkin çağıdı. Buna həyat qurax, onu bir yana

çıxardax. Onnan sonra bizim ömrümüz əmanətdi, nə olar, olar. Amma bu uşağın gələcəyini fikirrəşmək lazımdı.

Yoldaşı da deyir:

– Ay kişi, nətəər istiyirsən elə, nə deyirəm.

Peyğəmbər gəlif çatanda gedir qarşısına, salam verir. Salamını alannan sonra deyir ki, ya peyğəmbər, siz hara gedirsiniz?

Deyir:

– Bəs Tur dağına gederəm. Bə bilmirsənmi, mən həmişə Tur dağına gedirəm, namaz qılıf Allahnan danışıram?

Deyir:

– Mənim bir xayişimi yerinə yetirərsənmi, Allah-taalaya çatdırarsanmı?

Deyir:

– Nədi xayişin?

Deyir:

– Mənim bir oğlum var, özümüz də kasıbıx. İstiyirik gələcəkdə ona bir həyat qurax. Ona da imkanımız çatmır. Allahdan xayiş eliyirəm, mənim diləyim budu ki, bizə üççə illik var-döylət versin, onnan sonra alsın, mən bu uşağımın əlini-əyağını bir yana yığım. Onsuz da bilmək olmaz, bizim ömrümüz tezdi, gejdi?

Deyir:

– Çatdıraram.

Musa peyğəmbər bununla halallaşıf ayrılannan sonra, bir müddət gedənnən sonra bir qumsal səhraya rast olor. Çöllükdə, biyavannıxda görür bir nəfər lütdü, yəni əynində paltar yoxdu, özünü quma basdırıf. Bircə qolu, sinəsi görükür. Bu adam Musa peyğəmbəri görəndə buna üz tutur ki, bəs ya peyğəmbər, Allahdan mənim diləyimi diləginən. Denən ki, filan yerdə quma basdırılmış bir adam deyir ki, maa, heç olmasa, bircə dəst cırıx-cındır olsa da, paltar versin ki, mən camaatın içinə çıxım. Çıxa bilmirəm mən camaatın içinə.

Deyir:

– Deyərəm.

Burdan da gedir. Musa peyğəmbər bir müddət gedənnən sonra yolun qırağında görür kü, bir nəfər oturuf, gözdəri kordu, heş nə görmür. Bu əyağ səsinə:

– Ay gələn, kimsən? – deyəndə deyir:

– Mən Musa peyğəmbərəm.

Deyir:

– Bəs hara gedirsən?

Deyir:

– Mən Tur dağına namaz qılmağa gedirəm, Allahnan danışmağa gedirəm.

Bu kor deyir ki, mənim bir xayişimi Allah-taalaya çatdırarsanmı? Deyir:

– Çatdıraram.

– Nədi?

Deyir:

– Deyərsən ki, filan yerdə bir nəfər kor var, o, Allahdan işığ istiyir ki, mən dünya işığını görüm, gözdərim görmür heş nəyi. Maa göz işığı versin.

Deyir:

– Deyərəm.

Burdan da gedir. Musa peyğəmbər öz namazını qılır, Allah-taalaya üz tutuf diləyini diləyənnən sonra deyir ki, ya Allah, bir neçə nəfərin diləyi var. Onu mən sizə çatdırmalıyam. Siz nə deyirsiz?

Deyir:

– Buyur.

Deyir:

– Filan yerdə bir qoca kişi, bir qoca arvad, dilək dilədilər ki, oğlumuzu bir yana çıxarmağa imkanımız yoxdu. Allah bizə müvəqqəti olaraq borc versin, sonra borcumuzu qay-

tararıx. Amma bizə üççə illiyinə imkan versin, uşağı bir yana çıxardax.

Deyir:

–Ya Musa, get deginən ki, verdim.

Deyir:

– Filan yerdə quma basdırılmış bir adam var. O da dedi burdan çıxmağ üçün mənə, heç olmasa, cırıx-cındır paltar versin.

Dedi:

– Ona deginən ki, dilini tərpətməsin. Bir də dilini tərpətsə, bir tufan qopardajam, o qum da yox olajax, qalajax tamamilə biyavanda açıx.

Deyir:

– Yaxşı. Bəs, filan yerdə bir kor oturufdu. O kor dedi ki, Allah-taala maa göz işığı versin, bu zülmətdən qutarım. Mən camaatın içinə çıxa bilmirəm. Çıxım, heç olmasa, görüşüm insanlarnan.

Deyir:

– Ya Musa, ona göz işığı düşmür. Ancax sən deyirsən, saa subut eləməkdən ötəri deyirəm, verdim, get.

Musa peyğəmbər qayıdanda görür ki, kor yoxdu orda. Amma quma basdırılan yerindədi.

Deyir:

– Ya Musa, dedinmi mənim əhdimi?

Deyir:

– Dedim. Allah-taaladan səda gəldi ki, dilini tərpətməsin, yoxsa elə bir tufan qaldıraram ki, o qum da yox olar. Elə orda sakit durginan sən.

O kasıf kişinin ayləsinin yanına çatanda, kişiyə dedi ki, kişi, əhdini Allah-taalaya dedim. Dedi, verdim.

O da gənə Allaha şükür oxudu, Musa peyğəmbərə alxış elədi. Musa peyğəmbər getdi öz işinə. Bular qaldı indi evdə. Kişi yoldaşınnan – arvadınnan məsləhət elədi ki, indi nə cür

eliyək, nağayrax? Savağa, birsüyünə Allah nə verəjəh, hələ bilmirih. Heç olmasa bir çörəymiz olsun, yiməyimiz olsun.

Arvadın bir toyuğu var imiş. Hansı ki, kürt toyuğuymuş, yumurtalı, filan. Deyir:

– Ay kişi, rast ki belədi, savah apar bu toyuğu sat, hələlik bunnan girrənək, bir-iki gün çörək pulumuz olar.

Deyir:

– Yaxşı.

Kişi səhər toyuğu götürür, aparır bazara. Soruşullar qiymətini. Bu, bazar qiymətinnən də aşağı qiymət deyir. Məsələn, deyir ki, üş manat. Ordan bir başqası soruşanda ki, neçəyə verirsən?

Deyir:

– Üş manata.

O üş manatı verməmiş, heç razılaşmamış, o birsi deyir:

– Mən beş manat verəjəm, toyuğu maa ver.

Bu sözünü qutarmamış o birsi deyir:

– Mən on manat verəjəm.

Belə-belə, bəhsəbəhs düşür. Bir toğlu qiymətinə bu toyuğu bunnan alıllar. Kişinin xeylağ pulu olur. Gəlir bazarrığ eliyir, yimək-işmək, nə bilim, uşaxlara paltar alıb qayıdıf gələndə arvad təəccüb qalır ki, bu boyda var-döylət səndə yoxuydu. Bir toyuğnan munu nə cür aldın? Kişi başına gələn əhvalatı danışır ki, bax, belə-belə oldu. Burda da Allaha şükür oxuyullar, Allaha ibadət eliyillər.

Beləliknən, demək, bu kişi müntəzəm bazarrığ eləmək istiyəndə, nə aparırsa, məsəlçün, bir yumurta aparırsa satmağa, demək olar ki, yüz yumurtanın qiymətinə alıllar. Belə-belə qısa müddətdə bu kişi həddən artıx varranır. Başdıyır özünə ev tikməyə, yaxşı imarət qurmağa, yaxşı mal-qoyun düzəltməyə.

Beləliknən, iki il də keçir. Kişinin varı-döyləti lap çoxalır. Demək, munu ən varrı adam sayıllar ərazidə. Munu ağsakqal

sayıllar, yaxşı hörmət eliyillər. Hamı muna məsləhətə gəlir ki, bu kişi ağıllı adamdı, biz buna gənəşək.

Günnərin bir günü kişi öz-özünə fikirrəşir ki, bıy, axı biz varranmışıx. Bə bu uşağa həyat qurmax lazımdı. Allah-taala bu varını geri alajax, onda bizim axırımız nolajax? Fikirrəşir, yoldaşınnan məsləhət eliyəndə, arvad deyir ki, filankəsin qızı yaxşı, gözəl insandı, dolanışıxları da yaxşıdı, bizim elə babımızdı. Kişi deyir:

– Yox, olmaz.

Deyir:

– Bəs nə istiyirsən?

Deyir:

– Mən şahın qızına elçi gedəjəm, heç olmasa bu vardöyləti Allah-taala geri alannan sonra bəlkə şahın himayəsində oğlumuz yaşıya, bir gün görə.

Deyir:

– Axı verməz şah.

Deyir:

– Mən gedəjəm, verər verər, verməz də özü bilər.

Özü kimi bir neçə ağsakqal da götürür, şahın imarətinin qarşısına gedir, orda elçi daşının üstə oturur. Şaha xəbər eliyillər ki, bəs, belə-belə. Elçi daşının üstündə gəlib oturan var. Deyir:

– Qəbul eliyin, gəlsin.

Gələndə deyir:

– Kişi, xoş gəlifsən. Nədir dərdin, diləyin?

Yanında gedənnərdən biri deyir:

– Şah sağ olsun, sənin qızına elçi gəlmişih. Məsləhətdi biz onu səndən, bax, bu kişinin oğluna istiyək.

Deyir:

– Mən etiraz eləmirəm, mən razıyam. Ancax bir şərtim var.

Deyir:

– Nədi?

Deyir:

– Bu kişi mənnən bərabər olmağını sübut eləməhdən ötəri, gərək əlli dəvə yükü ləl-cəvahirat gətirsin, qızıl gətirsin, pul gətirsin. Mən də qızıma toy eliyim, o qədər də mən buna cehiz verəjəm, ona başdığ verəjəm, ona kömək elijəm, gedif yaşejax. Şah qızıdı, şah kimi də yaşamalıdı.

Bu elçilər oana baxır, buana baxır, üzünü kişiyə tutur ki, görsünnər kişi nə deyir. Kişi başını tərpədir ki, biz razıyıx. Bular razılığını bildirənnən sonra şah deyir:

– İndi mən sizə vaxt verirəm, qırx gün müddətinə mənim dediyim hazır olmalıdı. Qırx günə hazır olmasa, bizim soodamız baş tutmuyajax.

Qayıdıllar gəlillər. Arvad deyir:

– Nooldu?

Deyir:

– Məsləhət belədi, əlli dəvə yükü qızıl.

Deyir:

– Bəs sənin ağlın nə kəsir? Əlli dəvə yükü qızılı sən hardan alajaxsan?

Deyir:

– Varımı-döylətimi satajam, onu düzəldəjəm, aparıf verəjəm şaha.

Deyir:

– Elijəhmi?

Deyir:

– Baxax da, Allaha pənah.

Kişi başdıyır bir ujdan malını, qoyununu, dəvəsini, keçisini satmağa. Necə Allah-taala əvvəldən vermişdi, elə də indi başdıyır verməyə. Bazara apardığı malın biri əlli qat bahaya gedir, on qat bahaya gedir. Qısa bir müddətdə, heç bir ay çəkmir ki, bu

kişi şahın dediyi əlli dəvə yükü var-döyləti hazır eliyir. Ağsakqalları çağırır, deyir ki, bəs belə-belə. Mən hazır eləmişəm. İndi munu şaha demək lazımdı ki, nə vaxt onun qapısına gedək?

Deyillər:

– Yaxşı.

Gedillər şahın hüzuruna. Şah soruşur ki, xeyir ola, nəyə gəlmisiniz?

Deyir:

– Dediyinə əməl eləmişik, nə vaxt sənin qapına gələ bilərik?

Şah təəccüb qalır ki, nətəər oldu, qısa bir müddətdə hazır oldu? Deyir:

– Yoxlatdırajam gələndə, əgər mən deyən olmasa, olmuyajax.

Deyir:

– Yaxşı.

Kişi bütün əyannarını, özünün köməhçilərini cəlb eliyir. Karvana nə lazımdısa, hamısını – dəvəsini, filanını yüklüyüllər, karvan bağlıyıllar, şahın dediyi vaxt bunun qapısında olullar. Hansı ki, bir gün qalır. Şahın qapısına gedillər ki, bəs biz gətirmişih. Bu da öz adamlarına deyir ki, gətirin. Gətirillər, yoxlatdırır, görür kü, doğrudan da, bu dediyindən də ləyaqətdi bir kişi bunun qapısına gəlif. Hə, kişiyə söz verir ki, kişi, sən get, indi mən tədarük görüb toy məclisi qururam. Toy elətdirəjəm, toynan da qızımı verəjəm. Eyni zamanda nə layiqdi, onu da verəjəm.

Şah o formu da eliyir. Gəlini gətirillər kişinin evinə. Evi var, eşiyi var, hər şeyi Allah-taala əvvəlcədən vermişdi, düzəltmişdi. Bir neçə ay yaşıyıllar. Gəlin bir də görür kü, qaynatası getdikcə geriliyir, zəyifliyir, nasazdı, kefsizdi, nəsə halı özündə döyül. Həyat yoldaşına deyir ki, get atamıza de ki, bu sirrdən məni agah eləsin, görüm, niyə sınıxır bu adam? Mən

ona pismi qulluğ eliyirəm? Mən atam qədər ona qulluğ eliyirəm, əziyyət çəkirəm, halalı olsun. Bunun dərdi nədi? Bəlkə, xəstədi, maalicəyə ehtiyacı var? Bəlkə, nəsə lazımdı?

Deyir:

– Yaxşı.

Gəlir anasının yanına ki, ay ana, mən atama deyə bilmərəm. Bunu sən denən ki, gəlinin belə deyir. Arvad gəlir kişinin yanına ki, ay kişi, bəs belə-belə. Gəlinin deyir ki, mən burda oturmuyajam, əgər bu sirridən məni agah eləməsə. Nədi dərdi? Mən muna bu qədər əziyyət çəkirəm, qulluğ eliyirəm, bu niyə sınıxır? Xəstədimi, nədi?

Kişi əvvəl deməsk istəmir, sonra deyir:

– Ay arvad, bəs bilmirsənmi? Allah-taalanın borcunu geri almağına üççə ay vaxt qalıf. Mən bunu fikirrəşirəm ki, Allah-taala bu var-döyləti alannan sonra bu uşağın axırı nolajax. Şah qızı munnan oturajax, oturmuyajax? Uşağın vəziyətini fikirrəşirəm ki, bəs bunun axırı çətin olajax.

Gəlir oğluna deyir. Oğlu da bikef, çox məlul gəlir yoldaşının yanına ki, bəs belə-belə. Atamız buna görə qəmgindi ki, Allah-taala var-döylətini alandan sonra şahın qızı mənim oğlumda oturajax, oturmuyajax? Mənim axırım nolajax? Bunu fikirrəşir.

Şah qızı deyir ki, get atamıza de ki, fikir eləməsin. Peyğəmbər Allah-taalaynan danışmağa gedəndə Allah-taaladan rica eləsin ki, mənim gəlinim deyir ki, bütün varı, döyləti, nə veribsə, Allah-taala geri alsın. Ancax bizim məhəbbətimizi, bizim ağız birriyimizi, bizim şirinniyimizi əlimizdən almasın.

Munu kişiyə deyəndə kişi bir az təsəlli tapır, deyir:

– Deyərəm.

Vaxt gəlir, söhbət uzun olmur. Musa peyğəmbər gəlib burdan keçən vaxtı kişi qavağa çıxır, deyir:

– Ya peyğəmbər, Allah-taaladan xayişimiz var. Mənim gəlinim xayiş eliyir ki, Allah-taala nəyi istiyir alsın, ancax

bizim ağız birriyimizi, məhəbbətimizi, ünsiyyətimizi əlimizdən almasın.

Deyir:

– Baş üstə.

Musa peyğəmbər gedir, yolda gənə görür kü, qumdakı qumdadı. Ancax həmən kor qamışın arasındadı. Girif qamışdardan kəser, şiş qayırer, gölə sancer, çıxer çölə. Uşaqlar da, deyir, suya tullananda kimisinin böyrünə girer qamış, kimisinin qabırğasına, kimisinin buduna. Su qızıl ala qandı. Elə orda üzünü Allaha tutur ki, ya Allah, mən peşmanam sənin bu kora göz verməyinə. Özün bilən məsləhətdi. Gedir Allahnan danışır, eliyir. Həmin bu kişinin də xayişini yerinə yetirir ki, bəs gəlinim belədi, helədi. Allah-taaladan səda gəlir ki:

– O kişiyə deginən ki, ona bir də dillənsə, o qəddər var-döylət verərəm ki, altında itib batar, nə var elə odu. Danışmasın.

Qayıdanda görür kü, kor öz yerində oturuf, gözdəri tutulub. Kişinin yanına gəlir. Deyir ki, Allah-taaladan belə səda gəldi ki, heş vaxt deməsinnər mənim malım artıxdı, filandı. Nə var-döylətini alıram, nə bir şey eliyirəm. Əgər var-döyləti alajax olsaydım, birinci oların səmimiyyətini, ağız birriyini, ünsiyyətlərini, məhəbbətlərini əllərinnən alajeydim, var-döylət öz-özünə dağılajeydi. Mən verdim əbədi.

Bax, söhbəti Qədir dayım belə qutarardı. Allah ona rəhmət eləsin, ruhu şad olsun. Sizin də canınız sağ olsun ki, onun rəvayətlərini yazıya alırsınız.

## 20. QƏBUL OLUNMUŞ EHSAN

Belə rəvayət eliyillər ki, keşmiş zamanlarda bir varrıhallı, pullu, ağsakqal, dünyagörüşatdı qocaman tacir var imiş. Bu tacirin dünyada o qədər dostu, tanışı, hörməti var imiş,

bütün aləm munu tanıyermış. Bir gün tacir xəstələner, arvad-uşağını çağırer. Deyir:

– Buruya gəlin, vəsiyət eliyirəm, vəsiyət yüngüllükdü.

Oğlannarı gəler. Böyük oğluna deyir ki, a bala, mən ölöjəm, mənim bu varım, mülküm hamısı sizindi. Amma elə eləginən ki, mənim ehsanımı kəsmə. Mana ehsan ver.

Deyir:

– Yaxşı, ateyi-mehriban.

Kişiyi dəfn eliyillər. Üçü, yeddisi, qırxı çıxer. Anasına deyir ki, ana, qırx çıxdı, savah adını anax, atama bir ehsan verək.

Hazırrıx göröllər. Camaat çağrıler, qazannar asıler, ehsannar pişer. Bütün nə qədər dostu-tanışı var, hər yerdən millət çağırer. O xörəklər hazırraner ki, göydəki quşdar da qanad saxlıyıf bu xörəkdən yiyillər. Yiyillər qutarellar, camaat dağıler geder. Oğlan gejə yatanda görör atası gəldi dedi ki, oğul, ehsan qəbul döy. Deyir:

– Ateyi-mehriban, sana büyün bu qədər xərc çəkdim, belə əziyət...

Deyir:

– Ehsan qəbul döy.

Kişi bunu deyir, ajığ eliyir geder. Oğlan durur, munu – kəntdə bir ağsakqal var imiş, – bu ağsakqala söylöör, anasına söylöör, bir-iki qocaya söylöör. Deyir: “Zərəl yoxdu, bir həftədən sonra bir də ehsan verəjəm atama”.

Atasına bir də ehsan verer, yenə dünya-aləm tökülör gəler, yeer-içer. Gənə atası yuxuda deyir ki, ehsan qəbul döy. Beləliknən yeddi yol, yeddi dəfə, yeddi dönüş atasına ehsan verer. Yeddi dönüş ehsannan sonra hamısında atası deyir ehsan qəbul döy, ehsan qəbul döy. Oğlan geder xəzinəyə baxer, görör kü, xəzinədə beş-on dinar pul qalıf. Deyir ki, bu atamın axırıncı qəpikləridi, munu da verəjəm, indi nə olar,

olar. Biz də yaxşı oğulux, özümüz qazanax, özümüz yiyək. Görək bunnan nolur.

Qazannar asıler, xeyratdar pişer. Millət gəler, yiyir geder. Bu vaxdı Allah-taalaya xavar geder ki, bu ehsan niyə qəbul döy. Deyir:

– Ya Cənab Cəbrayıl, dərviş libasında en, görək ehsan niyə qəbul döy?

Cənab Cəbrayıl dərviş libasında gəler, yanında da iki nəfər adam. Bular insan libasında gəlellər ehsan verilən yerə. Yaxınnaşanda örör kü, bir yazığ uşax əyağı yalın, başı açıx, cılcırım[48], ağzının, burnunun suyu tökülə-tökülə yolun qırağında durub boylaner. Buları görən kimi uşax yüyürör munun əlinnən tutor. Deyir:

– Dərviş baba, hara gedersən?

Deyir:

– Oğul, bu tərəfə.

Deyir:

– Dərviş baba, sana qurvan olum, burda filan tacirə ehsan verellər. Mən də getdim, məni qoaladılar, oruya qoymadılar. Gəl gedək, mən də sizin yanınızda gedim, əldə-əyaxda qalan qırdan-qırıntıdan mana da bir kısmat ver.

Oğlan dərvişi darta-darta güjnən tacirin ehsanına aparer. Gedellər, qapıdan içəri daxil olanda salamməlöykü, salamməlöykü. Xoş gəlifsiniz, xoş gəlifsiniz. Uşax munu aparer. Aparanda deyir ki, gəlin əyləşin, atama ehsan vererəm, bir xeyrat kəsin, bir həmdi-sura oxuyun, bir dua deyin, bəlkə sizinki qəbul ola. Deyəndə Cəbrayıl deyir ki, yaxşı, oğul, mənim gözüm üstə. Uşağ əlinnən tutuf gedəndə Cənab Cəbrayıl deyir:

– İcazə ver qavaxca gedem bu ehsan pişən yerləri gəzem.

---

[48] Cılcırım – cır-cındır içində

Bu geder ehsan pişən yerləri – qazannarın yanını gəzəndə görör kü, bir kişi – bir ağaşdan kürək qayırıflar əti qarışdırmağa – kürəyi salıb bir qazan ət var, munu qarışdırer. Ətin altınnan salıb belə altdan yuxarı qarışdıranda ətin bir tikəsi sıçreer külün içinə tüşör. Külün-qorun içinə ətin bir tikəsi tüşəndə uşax dərvişin əlini buraxer, yüyürör odun içinnən bu tikeyi götürör, qorru-morru ağzına soxor. Ağzına soxor, bu uşax çiyneer çiynəmer, bu əti udor. Ət mədədən anrı gedən kimi Allah-taaladan səda gəler ki, ehsan qəbuldu.

Kişi geder məclisdə oturor, deyir:

– Oğul, gəl görüm buruya, sana bir sirr söylüjəm bu camaatın içində.

– Nədi?

Deyir:

– Sən atana neçə dəfə ehsan verifsən? Bu nədi, bu nə sirridi? Hər dəfə də sənin atan deyirdi ehsan qəbul döy, büyün dedi ehsan qəbuldu.

Deyir:

– Ateyi-mehriban, mən hamıyı çağırmışam – tanıdığımı, bildiyimi, gördüyümü, götdüyümü. Özüm kimi atamın dosdarını, varrıları yidirtmişəm, içirtmişəm hamıyı, amma bu gün bir səyfim oluf. Mən səyfimi boynuma götürörəm.

Deyir:

– Nədi?

Deyir:

– Bu sizin əlinizdən tutuf gələn uşax cılcırım bu ehsana əlmişdi, bu qapıya əlmişdi. Bu uşağı mən burdan qoaladım, çıxdı getdi. Bir az keçənnən sonra gördüm bu uşax siznən gəldi. Siznən gələndə də siz qavaxcan getdiniz qazannarın yanını gəzdiniz, hərrəndiniz. Orda ətqarışdıran əti qarışdıranda tikənin biri qorun içinə tüşdü. Qorun içinə tüşəndə bu uşağ əlini uzatdı, tikeyi götdü, yidi. Onnan başqa mən heç bir günah

eləməmişəm. Mənim günahım odu. İstiyirsən məni bağışda, istiyirsən bağışdama.

Cənab Cəbrayıl barmağını ağzına aler, dişdiyir. Deyir:

– Haa, indi mən bildim ki, ehsan niyə qəbul döyülmüş. Bu uşağı qoalıyıflar. O qorun içindən uşax tikeyi götürüf yiyif, ehsan qəbul oluf. Ona görə də, ay bala, büyünnən sonra gedin rahat olun, atanızın ehsanı qəbuldu. Atanızın sizə baxdığı halalınız olsun, çörəyi bol olsun. Yiyin, yaxşı yaşıyın.

Ona görə də ulu babalardan qalıf ki, yüz tikənin biri ofsanata keçir. Onnan sonra Cənab Cəbrayıl qeyb olur öz yolunnan geder, bular da öz yolunnan.

## 21. KASIB QIZIN EHSANI

Bir qız var imiş. Bu qız çox kasıb imiş. Atası rəhmətə geder. Rəhmətə gedəndə munu qonşu hesavına, qohum hesavına dəfn eliyillər. Dəfinnən sonra munun qonşuluğunda bir varrıhallı, çox gəl-götürrü bir kişi var imiş, bu kişi də rəhmətə geder. Bunu da dəfn eliyillər. Bu qız baxer ki, bu kişinin oğlannarı həftədə bir, ayda bir bu kişiyə ehsan verer. Camaat yığıler, pişer, tüşör, erkəklər kəsiler, danalar kəsiler, cəmdəklər asıler. Gəl-götü, xörəyin iysi qarın doyduran, filan-fəsməkən, ehsannar verillər. Amma bu qızın qulağına səda gəler ki, ehsan qəbul döy.

Bir gün bu qız deyir ki, ay Allah-taala, sana ağır getməsin. Mənim heş zadım yoxdu. Atadan heş nə qalmıyıf, özüm də heş nə işdiyif qazanammeram. Mən atama nə ehsan verim? Öydə ağleer, hikkələner, vedrələrini götürör suya geder. Geder bulağın başında oturor, bir az da hikkələner, burda ağleer, nağayrer. Deyir ki, hər küşdə öz varına görədi. O, elə ehsan verer, indi mən də duruf atama ehsan verəjəm. Geder vedrələri bulağa çaxer, suyu dolduror bu tərəfə səper, bir vedrə şarap. Deyir: “Atamın ehsanına”. O tərəfə tökör şarap: “Atamın ehsanına”.

Yola çileer: “Atamın ehsanına”. Bulağın dörd tərəfinə çileer: “Atamın ehsanına”. Burda, bəlkə, beş sot yer suloor, quru torpağı. “Atamın ehsanına, atamın ehsanına” deyə-deyə yeri suloor. Bir də qızın qulağına səda gəler ki, ehsan qəbuldu. Qız vedrələrini götürör öyə gəler. Gejə öydə yatanda atası gəler yuxusuna girer. Deyir ki, ay qızım, sən elə bir iş gördün, sən elə bir ehsan verdin, sən elə bir savab qazandın, dünyada mənim yerim cənnətdikdi. Dünyada heş kim mənim kimi ehsan görmüyüf.

Deyir:

– Ateyi-mehriban, biz kasıbıx, varım yox, halım yox. Nağayrdım?

Deyir:

– Sən ki o vedrələri doldurdun tökdün qırağa, bir məleykənin qanadı qırığıydı. O uçuf ordan su içəmmerdi, yolun ortasında qalmışdı. Sən o vedrələri dolduruf tökdühcən o məleykə sudan işdi doyunca, ağlı üstünə gəldi, qanadı da üstündə durdu, o qalxdı göyə, çıxdı getdi. Ona görə sənin ehsanın qəbul oldu. Sənin ehsanın kimi heş kimin ehsanı qəbul olmuyuf, qızım. Get yaşa, halal olsun dünyada gəzmək sana.

## 22. KORA QİSMƏT OLAN QIZ

Bir kişi varmış. Bunun bir arvadı, bir də bir qızı olor. Kişi bir gün yater, yuxuda görör ki, bunun qızı, üzüzdən iraq, yeddi illiy bir kora ərə gedəjək. Yuxudan qalxer, bir az da ağleer, duror arvada deyir:

– Ay arvad, yatdım, yuxuda belə bir vəğya gördüm.

Deyəndə deyir ki, a kişi, dəlisən, nəsən? Qızı niyə kora veririk? Deyəndə deyir ki, vallah, yuxuda belə gördüm. Təzədənnən bir də yater kişi gejə. Sabah qalxanda deyir:

– Arvad!

Deyir:

– Haa!

Deyir:

– Vallah, bu dəfə də yuxuda gördüm ki, qızı yeddi illik bir kora ərə veririk.

Arvad deyir:

– A kişi, rast ki elədi, biz niyə qızı kora ərə veririk? Gəl burdan çıxax gedək ayrı vilayətə.

Deyəndə deyir ki, arvad, bir az əppək qayır, götürək gedək. Qızın əlinnən tutullar, çörək qayırıllar, arvat da bunu şalına bağleer, dalına götürör. Gedellər, bir hündür təpiyə rast gəlellər. Belə çıxanda görüllər ki, bir dənə çörəkləri qalıf. Deyir:

– Ay arvat, sən aç, yeyək da çörəyi.

Arvat çörəyi açanda çörəy əlinnən dığırranır düz gedir dərənin dibində bir dənə dəmir qapı açıler, çörəy içəri girer, qapı örtülör. Bular indi bir az qojadı da. Qız bulardan qabaq çörəyin dalınnan qaçer. Qız da həmən çörəyin dalınnan girer içəri, qapı yenə örtülör. Arvatnan kişi gəler:

– Qapıyı aç, ay qızım, qapıyı aç, – deyəndə deyir.

– Ay dədə, mənim mümkünüm yoxdu qapıyı açem.

Deyəndə deyif:

– Ay bala, bəs çörək-mörək, yanında nə var?

Deyir:

– Hər şey var, ay dədə. Bir də taxtın üstündə bir dənə kordu. Bir oğlandı, ama kordu, – deyəndə, barmağın kişi belə (söyləyici əli ilə göstərir – top.) tutor, dişiynən dişdeer. Deyir:

– Arvat, saa dediyim vəğyam düz çıxdı. Vilayətdən çıxsax da, yenə gəldik bir kora irast oldux.

Duror, yeddi il bular alt tərəfdə, qız içəri tərəfdə yaşellar. İndi bir yol yoxdu ki, qız çıxa. Yeddi ildən sonra, fida olduğum iləha, bu korun gözdəri açıler, olor əməlli-başdı bir oğlan, qapıyı da açellar. Qıza təzədənnən toy eliyillər.

## 23. PALAN TİKƏN İBRAHİM

Keşmiş əyamda Nuşirəvanın vaxtıydı. Şəhərdə bir palan tikən İbrəhim vardı. Munun peşəsi palan tikif satmağ idi. Palan da ulaxların belinə, atın belinə çəkilən çul idi. Bir gün bir kişi gəldi, dedi:

– İbrəhim, salamməleyküm.

Dedi:

– Əleykümsalam.

Dedi:

– İbrəhim, mən sənin yanına gəlmişəm.

Dedi:

– Xeyir ola?

Dedi:

– Mənim dokquz qız uşağım var, əkməyə yerim yoxdu. Səni and verirəm Allahın birriyinə, mana bir qədər yer ver mən əkim, onun taxılınnan uşaxları saxlıyım.

Dedi:

– Ə, bədbaxt oğlu, mənim yerim çaxraxdı[49], sarılıxdı, taxıl olmur, get başqasınnan al.

Dedi:

– Səni and verirəm on səkkiz min aləmə, məni qapınnan boş qaytarma.

İbrəhim fikirrəşdi, dedi:

– İndi ki sən Allaha and verdin...

Getdi, addımlarıynan ölçdü muna xeyli yer verdi. Dedi:

– A kişi, apar ək, Allah bilər, sən bilərsən.

Kişi bir gün öküzdəri qoşuf xışı götürdü, yeri bir cız başa getmişdi, bir cız əyağa, munun xışının qabağına bir sərniş qızıl çıxdı. Öküzdəri dayandırıb boyunduruğa bağladı, qaça-qaça gəldi İbrəhimin yanına. Dedi:

---

[49] Çaxrax – daşlı-kəsəkli

– Ay İbrəhim, mən sənin yerini əkirdim, bir sərniş qızıl çıxdı. Get qızılına yiyə dur.

İbrəhim güldü, dedi:

– Ə, bədbaxt oğlu, əgər o qızıl bizə rast olsaydı, atam əkəndə çıxardı, ya mən əkəndə. O qızıl ana südü kimi sənindi, get xaşda[50].

Kişi yol uzunu gəlirdi. Dedi: "Sabah İbrəhim fikrini dəyişər, birdən deyər ki, sən qızılı niyə xaşdadın".

İbrəhim xeylax fikirrəşdi. Gördü kü, şəhərə əlan[51] vuruluf ki, bu gün Nuşirəvanın qızı şəhərə gəzməyə çıxajax. Heş kəs küçüyə çıxmasın. Bu əlan muna çatmadı. Bir vaxdı palantikən İbrəhim gördü kü, padşahın qızı qırx incəbel qıznan gəlir. Padşahın bircə qızı vardı, saşdarı yernən sürünür, qızıl məjməyidə bir qız arxada gəzdirirdi. İbrəhim bu qıza vuruldu. Nolajax. Savah açılanda gördü şəhərə qara baydağ[52] asılıf. Xəbər aldı ki, bu nə baydaxdı? Dedi:

– Bu gejə padşahın qızı dünyasını dəyişif.

İbrəhim axşama qədər ağladı. Onun bir dostu vardı, həmi dəllək idi, həmi həkim. Getdi bunun yanına ki, mənim bir bajım xəstələnif, bir gedəh onun üstünə əl gəzdir.

Bu gəldi baxdı, dedi:

– Ə, İbrəhim, mən nəyə baxım, bu dünyasını dəyişib. İndi ki sən deyirsən, bir dərmən verirəm. Munun damarınnan mən qan alajam. İşdi, qan açılsa, bu dərməni çəkərsən, bu sağalar.

Bir vədə İbrəhim gördü kü, qız tərpəndi. Qan açıldı, bu dərməni çəkib qanı kəsdi. Qız çığırıf başını qaldırdı. Baxdı ki, kəfənə bükülmüş vəziyyətdə stolun üstündədi. Dedi:

– İbrəhim, bu nədi?

Dedi:

---

[50] Xaşda – xərclə
[51] Əlan – elan
[52] Baydağ – bayraq

– Ay qız, mən gətimişəm səni.

– Nətəər gətirdin?

Dedi:

– Atan aparıf səni basdırmışdı, mən yerin altınnan kankan aşdırıf, gedif qəbirdən çıxartmışam.

Dedi:

– İbrəhim, indi mən səninəm. Nə badə, nə badə, mənim atam bilər, səni də, məni də öldürər.

İl dolandı, bunnan bir oğlan uşağı oldu. Bu uşax böyüdü, məytəbə gedirdi, gəlirdi. Bir gün bu uşax qayıtmadı. Anası xəbər aldı ki, çıx küçüyə, gör bizim uşax niyə gəlmədi. Onnan, bunnan soruşanda dedilər ki, padşah vəzirnən gəlirdi, uşağın üzünnən öpdü, atın qujağına qoydu, apardı. Dedi:

– Get o padşaha denən, o uşax bizimdi. Onun sayəsində dolanırıx.

Padşahın elçi daşı vardı, İbrəhim getdi bu daşın üstə əyləşdi. Vəzir gördü kü, palantikən İbrəhim burdadı. Dedi:

– Qibleyi-aləm sağ olsun, o İbrəhim sənin qabuluna gəlif.

Dedi:

– Burax.

İbrəhim içəri girdi, salam elədi, dizi üstə çökdü, bu mamentdə qapı açıldı. Padşah baxdı ki, bir qoja kişidi. Dedi:

– İbrəhim, bu sənnən yaşdıdı, icazə ver buna baxım. Ə kişi, nəyə əlifsən?

Dedi:

– Şikaata gəlmişəm.

Dedi:

– Kimnən şikaata əlifsən?

Dedi:

– Bu İbrəhimnən.

İbrəhim belə geri baxanda gördü kü, yeri verdiyi kişidi. Dedi:

– A kişi, nə şikaat elijən?

Dedi:

– Mən munun yerini əkəndə bir sərniş qızıl çıxdı. Qızılına yiyə durmur. Mən ona görə gəlmişəm ki, qızılına yiyə dursun.

Padşah baxdı ki, ayə, bu çox alicənab adamdı. Dedi:

– A kişi, nəyin var?

Dedi:

– Dokquz qızım var.

İbrəhim dedi:

– Ver aparsın xaşdasın, mən istəmerəm.

Kişi söyünə-söyünə gəlirdi. Padşah İbrəhimə dedi:

– Sən hansı şikaata əlifsən?

Dedi:

– Qıvla-aləm sağ olsun, dünən gətirdiyin uşax mənimdi. O uşağın sayəsində dolanırıx.

Dedi:

– İbrəhim, mən o uşağın anasını görməsəm, mən o uşağı sana verməərəm.

İki milisə[53] göndərdi. İbrəhimin arvadını apardı. Padşahın arvadı dedi, görüm, o nejə anadı kı, belə uşax doğuf. Gəlif qıza baxanda gördü bu öz qızına oxşuyur. Ürəyində fikirrəşdi: “Ay Allah-taala, bu nətəər sirdi? Elə bu mən doğan qıza oxşuyur”. İbrəhim bu söhbəti elədi. Padşah dedi:

– İbrəhim, mən o qızı basdırmışam. Gedib o qəbirə baxajam, işdi, qız o qəbirdə olsa, səni tikə-tikə doğradajam.

Gəlib qəbiri açanda gördülər ki, yerin altınnan tunelnən gətirif, bu öz qızdı.

Bir nəfər milisə göndərdi ki, get o dokquz qız uşağı olan kişiyi çağır. Kişi baxdı ki, milisə gəlir, dedi:

– Allah haqqı, İbrəhim fikrini dəyişdi.

---

[53] Milisə – polis

Milisə dedi:

– Səni padşah çağırer. Arvadını da, qızını da – hamısını aparırsan.

Dedi:

– Allah haqqı, bizim hamımızı nöyüt töküb yandırajax.

Bular yavaş-yavaş gəldilər, qıçaları tutulmuş.

Padşah dedi:

– A kişi, qızını stroya[54] düz.

Stroya düzdü. Ən balacasına dedi ki, a kişi, bu qız sənin qızındı. Bax, gətirdiyim oğlan mənim nəvəmdi. Sənin kimi kişinin qızı da mənim kimi kişinin oğlunun olmalıdı. O uşağı padşah başdadı oxutmağa. Dedi:

– İbrəhim, mən ölüf gedəjəm, tacı qoyajam bu uşağın başına. Həm səni dolandırajax, həmi də məni.

İnsannarın xoşbəxt olması Allahın əmridi. Allah verəndə verir, verməyəndə də alır.

## 24. ÇAMADARÇI

Bir kişinin bir oğlu varıdı, tək idi. Uşax çox qəbiliyətdi, çox mərifətdi uşağıydı. Munu apardı çamadarrığ məktəbinə qoydu. Bu uşax beş il bu məytəbi oxudu. Beş ildən sonra vətənə qayıtdı. Bir padşah munu öz hamamına götürdü. Dedi:

– A kişi, neçə ki mən burdayam, hər ay sənin haqqını verəjəm.

Bir gün padşahın qızı qızdarnan hamama gəldi. Bunun çimdiyi otax həmən oğlana düşdü. Bu oğlan tokqalaxdan yuxarı qadın, tokqalaxdan aşağı kişiydi. Bunu o qədər belə mərifətdi çimizdirdi ki, qızın ağlı başınnan çıxdı. Padşahın qızı paltarını geyinəndə gördü ki, qızıllar yoxdu. Qaravaşa dedi:

---

[54] Stroy – cərgə, sıra

– Əmr ver qapıları kəssinnər, mənim qızılım itif.

Çamadarçı Allaha yalvardı ki, Allah, mənim bu sirrim açılmasın. Mən bu bədənimi gedif filan dağda çürüdəjəm, mənim bu sirrim açılmasın. Bir də[55] qaravaş dedi:

– Xanım, budu bax, başmaxların içində.

Bu oğlan üç ay işdədi, sonra ərizə verdi, dedi, mən burdan çıxajam. Bu getdi həmən dağa Allahın əmrini yerinə yetirməyçün. Daşı qoydu başına, qalxdı dağın başına, burda ağlı başınnan getdi. Bu vaxtı bir sarı keçi meşədən çıxdı, südünü daşa buraxdı. Bu süddən bir xortum[56] bu almışdı ki, gördü həmi ağlı başına gəldi, həmi də yaxşılaşdı. Dedi: "Neçə ki[57] mən yaşıjam, burda bir coma[58] qayırım, burda dolanım".

Bir gün padşah dedi:

– Vəzir, bir atdanax dünyanı gəzəh. Görək, dünyada nə var, nə yox.

Buların yolu düşür bu meşəyə tərəf. Ajınnan, suzunnan təntimişdilər. Padşah dürbütnən[59] baxanda gördü kü, meşənin talasında bir coma var. Dedi:

– Vəzir, atdarı sür oruya.

Bular gəlməkdə, keçi südünü daşa buraxmaxda. Ay oğlan, bizə su... Dedi:

– O süddən için.

Süddən içəndə həmi susuzduxları kəsildi, həmi də ajdıxları. Dedi:

– Ayə, burda nağayrersan?

Dedi:

– Mən burda yaşeeram.

---

[55] Bir də – birdən

[56] Xortum – udum

[57] Neçə ki – nə qədər ki

[58] Coma – alaçıq

[59] Dürbüt – durbin, binokl

Geri qayıtdı, iki nəfər fərrac göndərdi ki, get o keçiyi də, oğlanı da gəti. Bunu gətdilər padşahın hüzuruna. Padşah dedi:

– Bu nə əhvalatdı?

Dedi:

– Padşah sağ olsun, – əvvəldən axıra dediyim kimi munu padşaha nağıl elədi. Dedi:

– Sən mənim qızımın bədənini görüfsən, mən o qızı sana verməliyəm.

Dedi:

– Sən bilersən.

Qızı çağırdı, dedi:

– Ay qız, bu səni çimizdirən oğlandı. Bu sənin bədənini görüf, mən səni buna vererəm.

Dedi:

– Sən mənim Allahımsan, atamsan, get deyirsən, gedim.

Qızı muna verdi, tacını da oğlanın başına qoydu, oğlan padşah oldu. Bunu eşidən keçinin sahibi çovan başında da bir neçə it, əlində bir çomax, tərpəndi gəldi padşahın paytaxtına. Dedi:

– Mənim keçimin südünnən padşah olan kimdi, bəri çıxsın.

Oğlan çıxdı. Çoban dedi:

– A kişi, sən mənim keçimin südünnən adam olufsan, bu şəhərə yarıyıx.

Dedi:

– Yaxşı.

Dedi:

– Mal-dövlətə yarıyıx.

Dedi:

– Yaxşı.

Dedi:

– Aldığın qıza da yarıyıx.

Dedi:

– A kişi, bu cannı insandı.

Qızın bir əlinnən çovan tutdu, bir əlinnən yoldaşı. Bu xançalı çıxardıf endirəndə qızın ağzınnan bir ilan çıxdı. İlan dilə gəldi, dedi:

– Ey oğlan, mən sənin taleyinəm, mən sənin baxtınam. Bu iqvalı, bu rütbəni mən sana verirəm, get yaşa, xoşbaxt olun.

## 25. ƏZRAYILIN QARDAŞLIĞI

Bir varrı tacir ölüm ayağına düşör. Deyir, ay arvat, bu uşax öyü, eşiyi, varı, döyləti təmiz satajax. Filan vilayətdə bir tacirdə yüz tümən alacağım var. Gedər, onu alar gətirər, onnan dolanar. Ona kimi dostunu, düşmənini tanıyar.

Tacir ölür, oğlan atasından qalan varı, döyləti təmiz sater, yiyir. Papağı qoyuf ortalığa bu uşağ dilənəndə anası deyir:

– Oğul, bir vilayətdə dədeyin yüz tümən borcu var. O borcu alıf gətirsən, əlinə maya salarsan. Lotu-potuyu başına yığma.

Bu, bir toğlu pişirer, torvuya qoyor, üş-dört də çörək, yola çıxer. Yola çıxanda bir göy atdı, göy əmmaməli gəler. Bu da Azreyil olor. Azreyil bunu da atın tərkinə aler. Şər qarışmış bular bir kəndə çatellar . Azreyil deyir:

– Gedərsən, o tüstü çıxan evə qonax olarsan, savah gələndə gördüyünü mana danışarsan.

Oğlan qapıya ələndə, dedi ki, ayə, qəriv adamam, maa yer eliyərsiz? Buna qapının dalında bir yer qayırellar. Bu, gejə baxanda görör, qapının dalı yarıldı, ordan haramı gəldi, bu xəstənin canını güjnən aldı, qopartdı. Qiyamət, qışqırıx… Duror, bu, vaxtlı geder.

Deyir:

– Ə kişi, getdim, bir haramı gəldi, içəridə kişinin canını aldı.

– Dərdin alem! Dur ata min.

Ata mindirer, geder. Geder, bir kəndin kənarında deyir:

– Bu dəfə o tüstü çıxan öyə gedərsən.

Deyir:

– Əşi, bu axşam qalmağala tüşdüm. Dərdin alem, qoy çıxıf gedim.

– Yox, sən oruya et.

Oğlan görör içərdən səs gəler. Deyir, ə, qonax gəlif. Ev yiyəsi deyir, qonağa da qurvan olum, onu yetirən Allaha da. Bu yatmır. Gejə görör, bülbül dimdiyində bir gül gətirer. Gülü gətirer, bunu iyliyən kimi xəstənin canı çıxer. Savah duror, geder. Deyir:

– Ə, bir bülbül gəldi, o xəstənin burnuna gülü iylədən kimi o öldü.

– Ə, otu, – deyir. – İndicə tacir çıxajax, gir yüz tümənini al.

Bu özünü qapıya yetirer:

– Tacir əmi, bax, bu sənin əlin, dədəmin yüz tümənina gəlmişəm.

Deyir:

– Ticarətim var, yol üstəyəm, qoy gedif gəlim, sonra verərəm.

Deyir:

– Yox, yox, yox! Yüz tümənimi ver.

Bu geder yüz tüməni gətirer. Pulu əlinə alan kimi at taciri hərreer, hərreer, başını darvazıya vuror. Bu da burda ölör. Bəyaxkı haramı da Azreyil idi, gülü iylədən də Azreyil idi. Tacirin də büyün vaxtı tamamıydı. Atı minən kimi, at tacirin başını vuror darvazıya, tacir də belə etdi.

Gəldilər, bir bulağın üstündə oturdular. Surfuyu açdılar. Azreyil əlini çörəyə uzadanda oğlan dedi, uzatma. Dedi, niyə? Dedi, səni ant verirəm bizi nurdan-xurdan xalq eliyənə! Mən istirəm sənnən qardaşdıx olom. – “Yox, yox, ola bilməz”. –

“Səni and vererəm gözə görünməzə, qardaşdıx olax”. Uzun söhpətin qısası, bunnan qardaşdıx olor.

Əlini bir də çörəyə uzadanda, deyir, yox, uzatma! Sən kimsən, özünü mana de. Deyir, mən, Azreyiləm! Əlini çörəyə uzadanda deyir, yox, gənə uzatma! Deyir, niyə? Deyir, mənim canımı havax alajaxsan, onu mana de. Deyir, sən əlini qızın əlinə vuranda alajam canını.

Bu, yaxşı varraner, hallaner. Gedellər, patşahın qızını buna alellar. Qızı salellar otağa. Bu, yaxın getmer. Bunun sağdişi varıymış. Götünün üstünə vuror, deyir, daz-daznan yatdığı, daz daza g..ünü atdığı. Hancarı, səni gözdəmermi içərdə? Çarpayının üstə qız oturor, burda da bu oturor. – “Ayə, zalım oğlu, sənnən ötürü ölmörəmmi mən? Niyə aralı durorsan?” Oğlan qalxer, qıza əlini vurmax istiyəndə qapıdan içəri girer qardaşdığı.

– Salamməlöyküm! Kimə verəcəyin var, onu bilmerəm, alacağımı alajam, vəsiyyətini elə.

Qız görör bu ayrı şeydi. Oğlan deyir:

– Səni ant verirəm o qardaşdığımıza, bizi yaradan xaliqə! Bax, o xam qızdı. İndicə toyu çöyrəjəhlər, başqasına verəjəhlər. Yad oğluyam, mana nə “Quran” oxuyan olujax, nə bir şey. Səni ant verirəm o Allahın allahlığına, birriyinə, mana icazə ver, qoy özümə bir “Yasin” surəsi oxuyum.

Deyir:

– Oxu!

“Bismillahir-rəhmani-rəhim” deyir, qalanını demir. Deyir, dalını nə vaxt istirəm onda oxuyajam. Allah-taaladan səda gəler. Deyir:

– Ey Azreyil, mən sana rəhimlik verməmişəm. Sən niyə rəhmlik eliyirdin ki, o da səni aldadırdı? Ona yüz il ömür verdim! Qoy getsin yaşasın!

## 26. BÜTÜN QADINLAR EYNİDİR

Patcah eşider ki, vəzirin bir qadını var, bunun qadınnarının hamısınnan artıxdı. Çağırer vəziri yanına. Deyir:

– Vəzir! Gedərsən, altı ay Yəməndə qalarsan, bac-xəracı yığar, gətirərsən.

Şah qiymətdi bir üzük düzəltdirer. Üzüyü vəzirin arvadına göndərer. Deyir:

– Bu məqsədnən sənin yanına gəlmək isteerəm mən. Sənnən yaşamax isteerəm.

Deyir:

– Gəlersənsə, xoş gəlersən. Əmbə gələndə bir quzu gətirərsən, on dənə də yumurta ətirərsən.

Aparer quzuyu verer. Vəzirin arvadı bunnan on löyün xörək pişirer. Yumurtaları on rəy boyuyor. Deyir:

– Bu yumurtalar başqa bir tam verdimi?

Deyir:

– Yox!

– Bə bu quzunun əti bir tam verdimi?

Deyir:

– Yox!

– Durarsan, burdan elə çıxarsan, səni heç kim görməz. Bax, bular kimi bütün qadınlar da eynidir.

Vəzir gəler. Bu üzük vəzirin əlinə keçer. Vəzir altı ay bu qadına yaxın getmer. Yaxşı uşaxları vardı. Nə uşaxlarına baxer, nə bunun şəltəsinə[60] yaxın geder. Vəzirin arvadı uşaxları da götürör, dədəsi evinə geder. Deyir:

– Ay dədə, o vəzir Yəmənnən gələnnən sonra nə mənim bir kısmat çörəyimi yiyir, nə də uşaxlarıma baxer. Mən orda havayı oturoram. Savah duror, çıxer geder, axşama əler.

---

[60] Şəltə – yorğan-döşək

Duror qızın dədəsi şahın yanına eder. Şah deyir:

– Xoş gəlmisən!

Deyir:

– Sənin vəzirinnən şikayətim var.

Vəziri çağırtdırer:

– Burya əl.

Şah deyir:

– Nə şikayətin var?

Qızın atası deyir:

– Buna yaxşı mülk vermişdim. Orda yaxşı bağ saldı, cürbəcür meyvələr əmələ gətdi. Altı aydı o bağı buraxıf, veran qoyuf. Bax, ortasınnan belə də gedellər, elə də gedellər.

– Ə, heylədimi?

Vəzir deyir:

– Düzdü! Gəldim gördüm o bağda bəbir izi var. O bəbirdən qorxdum ki, bəbir məni parçalıyar. Mən o bağa yaxın getmədim.

Şah deyir:

– Düzdü, o bəbir gəlif, amma bağın ortasınnan düz gedif. Get bağına sahib ol.

## 27. NOVRUZUN NAĞILI

Çin patcahı oluf, bircə oğlu olufdu. Adı da Noyruz oluf. Çin patcahının bir qardaşı oluf. Qardaşının yeddi oğlu oluf, yeddisi də sərkərdə oluf. Patcah oğlunu evləndirif. Evləndirənnən sonra qardaşı oğlannarının – bu sərkərdələrin beyinnərinə yerrəşif, danışıflar ki, elə bu patcahlıx əmimizəmi qalıf? Gəlin bu Noyruzu öldürək, patcahlıx bizə qalsın. Elə də eliyiflər. Gəliflər, aynadan doluf yeddisi də. Noyruzun başını kəsiflər, pıçağı da gəlinin civinə qoyuflar. Gəlin də quruyuf qorxusunnan duhara yapışıf, orda qalıf.

Savah duruflar, gün günorta oluf. Görüflər ki, nə gəlin çıxdı eşiyə, nə oğlu çıxdı. Gəlif baxanda görüflər ki, uje Noyruzun başını kəsiflər. Gəlinə deyiflər, buna nooldu? Deyif ki, yeddi oğlan qapıdan doldu. Kəsdilər, pıçağı da mənim civimə qoydular, getdilər. Patcah bütün alimləri, biliciləri, cindarları – hamını çağırer yığer ki, agah eləyin, görək mənim oğlumun başını kim kəsif. Cindarlar nə qədər baxıflar, heş nə tapa bilmiyiflər. İçində bir dənə bilicisi varıymış. Deyif ki, ay patcah, Ərəbistanda Əli addı bir nəfər var. O biləjəh munu. O bilməsə, heş kim biləmməz.

Patcah kejəvə düzəltdirir, bir böyük orduynan gəlillər düz Ərəbistana. Qoşunu bir dağın daldeyində saxlıyır. Omarı soruşollar. Omarı xavar alanda, Omar çıxer. Omara yetmiş iki dildə salam verer patcah. Bu yetmiş iki salamı düzgün ala bilmer. Osmanı taper. Osmana da yetmiş iki dildə salam verer, o da salamı düzgün ala bilmer. Sonra patcah deyir, yaqın ki, bular məni allatdılar. Bunu heş kim bilməz. Sonra xəbər aler, deyillər, bax, Əli deyilən o komadadı. Get, onnan soruş. Gəlir, eşihdən səslənəndə Əli çıxer. Yetmiş iki dildə Əliyə salam verer. Əli yetmiş iki salamın yetmiş ikisinə də cavab verer. Deyir, hə, budu. Deyir:

– Ya Əli, mənim başıma belə bir oyun gəlif. Mən oğlumu öyləndirmişdim. Oğlumun başını kəsiflər. Oğlumu bu qoşunnan gətimişəm, qoşun da bu dağın dalındadı. Bunu agah elə, görək mənim oğlumu kim kəsif?

Deyir:

– Gedin gətirin bura kejaveyi.

Gətiriflər. Əli deyif ki, sənin bu oğlunu qardaşın oğlannarı – yeddi sərkərdə kəsif. Deyəndə, olar deyif ki, cadukun Əli, cadukun Əli. Həqiqi də, sən cadukunsan. Biz əmimiz oğlunumu kəsmişik?

Deyir:

– Ayrı şahidiniz də var.
Deyir:
– Kimdi o şahidimiz?
Deyir:
– Orda qapının üstündə göyərçinnər var idi. O göyərçinnəri gətirəjəm, olar şahiddilər.
Əmr eliyir, göyərçinnər gəlir. Deyir:
– Kim kəsdi bunu?
Göyərçinnər dilə gəler, deyillər:
– Biz gördük, bu yeddi qardaş – əmisi oğlannarı kəsdi.
Genə deyillər, sən cadukunsan. Cadukunnuğ elədin, quş nə biler ki, biz onu kəsdik? Deyir:
– Ayrı şahidiniz də var.
Deyir:
– O kimdi?
Deyir:
– Pıçax.
Pıçağı gətirellər, qoyollar stolun üstə. Pıçax dilə gəler, deyir ki, o çəkdi, mən kəsdim. Deyillər:
– Genə cadukunnuğ eliyirsən.
Deyir:
– Ayrı şahidiniz də var.
Səkgiz rükət namaz qıler Cənab Əli, əllərini qaldırer, deyir, ya Rəbbim, bunu agah elə. Allah-taala Cənabi Cəbrayılı göndərer. Cənabi Cəbrayıl gətirer uşağın boynunu yerinə qoyor, ağzının liqafınnan çəker, Noyruz dirilir. Noyruzdan soruşdular ki:
– Səni kim kəsdi?
Dedi:
– Məni bu əmimoğlannarı – yeddi sərkərdə kəsdi.
Dedilər:
– Ta sözümüz qutardı, qardaş.

Cənab Əli padşaha tapşırdı ki, bulara heş bir cəza vermə mənim xatirimə. Olara cəza vermədi.

Bax, indi elədiyimiz Noyruz bayramı həmən bayramdı.

## 28. ALLAHIN BİRİNCİ ADI

Bir nəfər olor, Ərəbistana oxumağa geder. Geder orda oxuyur iyirmi beş il, başı sarıner, alim olor. Ordan çıxıf gələndə yolda gejəleer. Gejəliyəndə görör, bir düzdə bir yatax var. Oruya səmtdəner. Deyir:

– Ay çovan qardaş, bu axşam məni Allah qonağı saxla.

Çovan deyir:

– Qonağına da qurvan olum, Allahına da. Gəlginən.

Gəler, oturollar. Söhbət eliyəndə, kimsən, nəçisən deyəndə, alim deyir ki, mən aliməm, Ərəbistanda iyirmi beş il oxumuşam. İndi də oxuyuf qutarmışam, başım sarınıf, evə gederdim, yolum burdan düşüf.

Çovan gətirer quzu kəser. Pişirellər, yiyillər, yatellar. Savah duruf gedəndə çovan deyir ki, alimsənmi, ay qardaş? Deyir:

– Hə.

Deyir:

– Sana bir sualım var, ona cavab verə bilərsənmi?

Deyir:

– De görüm nədi?

Deyir:

– Ə, Allahın birinci adı nədi?

Cavabı bilmer. Çox şeylər sadaler. Deyir:

– Yox, bilmədin.

Deyir:

– Bə nağayrax, mən bilmədim, bilmədim. İndi bunu maa de.

Deyir:

– Yox, deməRəm. Paltarını soyun taxçıya qoy. Bir il çovan paltarını geyin, qartıyı çiyninə sal, bir il mana nökər ol, quzu otar. Onnan sonra deyərəm saa.

Soyunor, paltarı bükör bir yerə qoyor, geyiner çovan paltarını, qartıyı çiyninə saler, bir il quzuya geder. Bir il bitənnən sonra deyir:

– A çovan qardaş, bir il bitdi, indi neyliyəh, deyirsənmi?

Deyir:

– Deyərəm.

Gəler, quzudan-zaddan kəsellər, yiyillər. Deyir ki, a alim qardaş, Allahın birinci adı səbrdi. Deyir:

– Elə bucuğazdımı?

Deyir:

– Hə.

Deyir:

– Yaxşı.

Düşör yola, çıxer gəlir. O qədər gəler ki, şər qarışer, axşam olor. Görör ki, düzdə bir imarat var. Bu imarata yaxınnaşer, bir oğlan qarşısına çıxer. Deyir:

– Ay qardaş, bu axşam məni Allah qonağı saxla.

Deyir ki, gəl, Allaha da qurvan olum, qonağına da. Kişinin də iki otağı olur. Otağın birinin yanınnan keçəndə görör ki, gəvə salınıf otağın ortasına. Ortasına da bir mıx çalınıf, bir it bağlanıf. Bu fikirrəşer ki, görən deyimmi bu nə itdi? Bir də fikirrəşer ki, ayə, bir il nökərrik elədim səbrə görə. Səbr eləmək lazımdı. Bu səbr eliyir, keçer o biri otağa. Allah verənnən yiyillər, içellər, yatellar. Savah duruf evdən çıxellar. Görör ki, çıxıf geder alim. Deyir:

– Alim, əyləş.

Deyir:

– O alimlik sənə halal olsun. Həqqi də sən alimsən.

Deyir:

– Nəyə görə deyirsən?

Aparır göstərer, neçə başdar kəsibmiş. Başdan, kəllədən minara yapıbmış. Deyir ki, buları görörsənmi?

Deyir:

– Hə.

Deyir:

– Bax, bular hamısı bura gələndə öyün ortasına bağlanan iti xəbər aldılar. O da mənim anamdı. Qonax gələndə çığırerdi, bağırerdi, məni peşman eliyirdi. Mən də Allaha yalvardım ki, ay Allah, məni bu zulumdan qutar. Allahım da bunu qancığ eliyif. Oruya bağlamışam. İndi gələnə mırıldeer, hürör. Onu da kim xəbər alıfsa, hamısının başını kəsmişəm. Bax, bu kəsilən başdar hamısı oların başıdı. İndi sənə alimlik halal olsun, sən həqiqi alimsən.

## 29. ALLAHIN TƏPƏSİNƏ DÖYƏN ÇOBAN

Bir nəfər şəxs geder başqa bir ölkəyə təhsil almağ üçün, din təhsili. Bir il burda təhsil aler, qayıder. İndi təhsillənif gəler. Yolda bir çovana rast gəler.

– Salam, çovan qardaş.

– Əleykəssalam.

– Beyjə məni Allah qonağı eliyərsənmi?

Deyir:

– Qonağa da qurvan olum, Allaha da, gəl.

Çovanın nəyi var idi? Heyvanın birini kəser, yimək-pörtdəmə bişirellər, yiyillər, yatellar. Gejə həmsöhbət olanda deyir:

– Qardaş, kimsən, nəçisən? Hardan gəlif, hayana gedersən?

Deyir:

– Bəs belə-belə. Mən dini təhsil almağa getmişdim. Dinə aid təhsili almışam, savatdanmışam. İndi öz ölkəmə qayıderam.

Çovan deyir ki, qardaş. Deyir:

– Bəli.

Deyir:

– Sana bir sualım var. Mənim sualımı tapsan, mənnən salamat ötüşdün, yox tapmasan, onda mana borşdusan. Bir il mənim qoyunumu otarmalısan.

Deyir ki, o nə sualdı? Deyir ki, de görüm Allahın təpəsinə döyən peyğəmbər kimdi?

– Ayə, nə kitafda, nə "Quran"da, nə hədisdə belə bir şey yoxdu. Allah gözə görünməzdi. Bu nətəər olar? Allahın təpəsinə kim döyə bilər? Bu nə olan əhvalatdı?

Deyir:

– Yox, mənim sübutum var. Mən deyəjəm, özüm də sübut eliyəjəm. Bir il gərək mənim qoyunumu otarasan.

Dini təhsil almağa gedənin əlacı kəsiler, nə kitafda var, nə "Quran"da var. Heş yerdə rast gəlmiyif, heç kəsdən eşitmiyif. Bir il məjbur olor çovanın qoyununu otarer. Qaler bir il əlavə. Bir ili tamam olan günü təpənin başına çıxıf qoyun otardığı yerdə deyir ki:

– Ay çovan, sana qurvan olum, büyün artıx bir ilim tamamdı. De görüm o sualeyin cavabını. Mən beyjə də yatıf, savah getməliyəm.

Çovan çıxer təpənin başına, deyir:

– Bura haradı?

Deyir:

– Təpədi.

Deyir:

– Bu təpeyi kim yaradıf?

Deyir:

– Allah.

Deyir:

– Bura Allahın təpəsidimi?

Deyir:

– Hə.

Çomağı götürür, tapbatap təpənin başına iki dənə vuror ku, Allahın təpəsinə döyən peyğəmbər mənəm.

## 30. MƏHƏMMƏD PEYĞƏMBƏRLƏ ÇOBAN

Deyir, Məhəmməd peyğəmbər bir dənizin qırağınnan gedermiş ki, məsəlçün, filan yerdə gəmi var, ona minif gedəjəm. Yolda bir çovana irast olur. Çovan bunnan soruşor ki, ə, kimsən, nəçisən? Deyir:

– Ə, mən Məhəmməd peyğəmbərəm, dənizdən keçməyə gedirəm.

Deyir:

– Ə, Allah səni maa yaxşı yetirif, səni axtarırdım elə mən. “Quran”ın qırx ayəsin maa öyrətməsən, and bu, Quran bu, səni buraxmaram. İsdiyirsən bir ilə öyrət, isdiyirsən iki ilə öyrət, isdiyirsən iki günə öyrət, səni buraxmejam.

Nolujax, Məhəmməd peyğəmbər qaldı, buna “Quran”ın qırx ayəsin, qırx surəsin öyrətdi. Dedi:

– Di, bala, məni apar ötür.

Bunu apardı ötürdü. Çovan qayıtdı, istədi ki, öyrətdiklərin təkrarlasın, gördü kü, ayə, surənin biri yadınnan çıxıb. Çomağın götdü, tərpəndi. Getdi gördü kü, gəmi uje tərpənif geder. Özünü verdi suya. Suya girəndə, bu dəryanın içində buna yol açıldı. Bir toz-duman qalxdı, nətəri! Peyğəmbərə çatanda dedi:

– Peyğəmbər.

Dedi:

– Ayə, noluf belə qaçırsan?

Dedi:

– Bəs surənin biri yadımnan çıxıf.

Güldü Məhəmməd peyğəmbər, sonra da dedi:

– Ə, Allah öyüü yıxmasın, mən Məhəmməd peyğəmbər ola-ola kürək çaleram, saa Allah yol açıf dənizin içinnən toz-duman qaldırmısan, qayıt var-get, saa heç nə lazım döyül, sən onsuz da cənnətdəsən.

Onnan çovanı yoldan qaytardı.

## 31. İNSANIN ACGÖZLÜYÜ

Deyilənnərə görə, bir patşahın bircə oğlu olor. Bunu körpə vaxdı deyilənnərə görə, bir əjdaha qapıdanmı, qonşudanmı oğurroor, aparer öz mağarasına. Ancax bu kəntdə elə bir mahir oyçu oluf ku, bütün heyvannarın dilini bilif. Bu oyçu dağa çıxanda görüf, ayə, əjdaha yater, arxa tərəfində bir uşax var. Bu bütün heyvannarın dilini bilermiş. Bu əjdahanı oysuna gətirer, uşağı burdan götürör.

– A bala, kimsən, haralısan?

Deyir, mən filan patşahın oğluyam. Üç-dörd yaşı olur də, iki ildi itif. Filan patşahın oğluyam, vəziyət belədi. Bunu gətirer böyürdə gizdeer. Deyir, məni patşahın yanına burax. Patşah deyir:

– Qoyun gəlsin.

Gəlir. Deyir:

– Patşah sağ olsun, mən mağaradan bir uşaq tafdım, deyir filan patşahın oğluyam, adım da filankəsdi.

Patşah inaner da, inanmer da. Deyir, olarmı uşağa baxax? Deyir, olar. Gətirəndə patşah görör, onun öz uşağıdı.

– Məni istiyən bu oyçuya nəmər.

Qızıl, gümüş nə qədər tököllərsə, oyçu deyir ki, patşah sağ olsun, buların heç hansını götürmürəm. Günortayatan nə qədər yol getsəm, o getdiyim yerin torpağını mana ver. Patşah ağıllı adamdı, biler ki, bu nə qədər gedər. Gedif yolda partdı-

yıf öləjək. Deyir, günortayatan yox, axşamatan sana vaxt verirəm, get.

Bu yola düşör. Az gedir, çox gedir. Su yox, çörək yox. Burda camış saxlıyaram, burda arı saxlıyaram, burda ilxı saxlıyaram, burda üzüm əkərəm. İnsan nə qədər piyada gedə bilər? Səhrədi çıxaçıxda bunun nəfəsi kəsiler, ancax əlini uzader "orda bostan əkəjəm, burda qoyun, orda camış saxlıyajam". Bu yıxıler ölör. Patşah da bunun arxasınca adam salıf ki, gör bu nə qədər geder.

Bunun cənazəsini püküf gətirerdilər. Yolda bir çovan baxdı ki, ayə, cənazə gəler, əlin biri çöldədi. Deyir:

– Bu niyə belədi?

Vəziyəti danışellar ki, qızıl-gümüşə yaxın durmadı, torpax istədi. Ajgözdük elədi, daha çox torpax almaq üçün qaça-qaça getdi, axırda da ürəyi partdadı öldü. Çovan bir xışma torpax bunun oocuna qoyan kimi bunun qolu qatdaner.

Odu ki, atalar deyir, insanın gözü qara torpaxdan doymaz. Həqiqi də elədi. Bu saat da bu adət var. Mən görmüşəm insan öləndə balaca uşaxları çağırellar ki, gəl nəneyin gözünə torpax tök, gəl babeyin gözünə torpax tök. Bu saat da o adətdər geder.

## 32. BİR QIZA ÜÇ ELÇİ[61]

Keşmiş zamannarda sözü Allah tərəfinnən eşidilən bir kişi var imiş. Bunun da həyat yoldaşı rəhmətə gedibbiş. Varı-yoxu bir qızı var imiş. Yerdən qazma balaca bir kümədə olur-

[61] Söyləyici bu nağılı Aşıq Qədirdən eşidib. Dediyinə görə, Aşıq Qədir həddindən artıq söhbətcil adam olub. Camaat onun söhbətinə o qədər diqqətlə qulaq asardı ki, içəridə milçəyin vızıltısı belə eşidilərdi. Belə məclislərin birində dinləyicilər ondan nəsihətli bir söhbət etməyi xahiş edir. O zaman bu nağılı onlara danışır.

muş. Kişinin də xeyli yaşı varmış. Kişi bir gün fikirrəşir ki, bəs mən nətəər eliyim ki, mənim bir qızım var, mənim evim-eşiyim yoxdu, mənim qızımı kim alajax, kim harda sax-lıyajax, çətin zamanadı. Mən gərək bir adam tapam, cavan bir adam, həm qızımı ona verəm, həm də onu oğulluğa götürəm. Eyni zamanda evi-eşiyi ola, yaşıyalar. Bir ev-eşiyim də yoxdu. Mən nağayrım? Öz-özünə fikirrəşir ki, gedif bir nəfər tapba-lıyam, gəlsin kərpiş kəssin, bir ev qurax, heç olmasa, bir otaxlı evimiz olsun. Qızımı da ona verim, o mənim oğulluğum olsun, həm də kürəkənim olsun. Mən də olarnan yaşıyım, heç olma-sa, ömrümün axırında məni dəfn eliyəndə bular eləsinnər. Bu məqsədnən gedir kəndbəkənd gəzir, bir nəfər cavan oğlan tapır. Oğlana əhvalatı danışır ki, oğlum, bax belə-belə. Mənim bircə qızım var. Mən görürəm sən də təksən, heş kəsin yoxdu. Gəl sən mana oğulluğ elə, mən də saa atalığ eliyim. Bu qızımı da sana verim, bir yerdə yaşıyax. Oğlan deyir:

– Ay ata, bəs bunu nətəər eliyək?

Deyir:

– Gedək sən kərpiş kəs, mən də saa kömək eliyərəm. Bir dənə daxma qurax, yaşayış üçün yerimizi düzəldək.

Oğlan deyir:

– Razıyam.

Deyir:

– Mən də qızımı sana verəjəm, oğlum olajaxsan.

Oğlanı gətirir, kərpici kəser, hörgü hörülən məqamında bir də fikirrəşer ki, bəs deməzsənmi, bu evin təkcə hörgüsü döyül, kərpici döyül, bunun ağac işdəri var, suvax işdəri var, evi səhmana salmax lazımdı, qurmax lazımdı. Bu oğlana heş bir söz demir. Bu oğlan işinnən məşğul olanda, gedir axtarır bir oğlan da tapır ki, sən ağac işlərini görə bilərsən? Mənim bir qızım var, onu saa verəjəm. Kürəkənim olarsan, bir yerdə yaşıyarıx. Kişi bu sözdəri o məqsədnən deyir ki, ev başa gəlsin.

Amma heç ardını fikirrəşmir. Bu oğlanı da razı salır, gətirir. O birsi oğlan da hörgüyü qutarannan sonra köməkləşillər, bunun ağac işini görüllər. Kişi birdən fikirrəşir ki, ağac işi qutarajax, bəs bu evin içərisinin suvağı var, rəngi var, muna da bir adam tapım. Gedir muna da bir adam tapır. Sözün qısası, oğlanın üçünü də gətirir evə. Ev hazır olanda bir də öz-özünə fikirrəşir ki, axı mənim bircə qızım var. Bəs mən nətəər eliyim, bu bir qızı mən buların hansına verəjəm? Üçünə də söz vermişəm. Təzdən bu kişi çəkilir bir kənara – qırax bir yerə, sakitdiyə. Üzünü Allaha tutur, başdıyır yalvarmağa ki, ay Allah-taala, məni bu dardan qutar. Utanmıyım, buların yanında xəcalətli olmuyum. Mən bu uşaxları nə cür eliyim ki, razı salım? Buların hansına verim qızı? Allah-taaladan səda gəlir ki, kişi, fikirrəşmə, sənin üç qızın var. Get, o oğlannar hansı qızı istiyir, qoy alsın aparsın.

Kişi öz-özünə təəccüb qalır. Munun da heş nəyi yox idi. Bircə həyətində uzunqulağı varıydı, bir də, üzr istiyirəm, bir qancığ iti var idi. Gələndə görür nə qancıx yoxdu, nə uzunqulax yoxdu. Qızın olduğu otağın qapısını açır. Qızı da bulara göstərmiyifmiş, heç birinə göstərmiyifmiş indiyə qədər. Qapını açanda görür kü, evdə üş dənə qızdı. Üçü də eyni sıfatda, eyni geyimdə, eyni libasda, eyni boy-buxunda. Heç öz qızını tanıya bilmir. Üzünü Allaha tutur, yalvarır ki, ay Allah, sana min şükür. Gəlir uşağları çağırır ki, ay bala, gəlin gedək. Mən sizə söz vermişəm, əməl eliyim.

Gətirir, həmən o balaca daxmasının qapısını açanda görür kü, qızdarın üçü də orda oturuflar. Deyir:

– Oğlannarım, mən sizə deyəmmərəm bunu sən al, bunu sən. Hansını istiyirsizsə, götürün.

Oğlannar da baxır görör ki, qızdar bir-birinnən seçilmir. Gəlir hərəsi birinin qolunnan tutur, çıxıllar çölə. Həyətə çıxannan sonra kişidən üzürxahlıq eliyillər ki, mən öz evimə

gedəjəm, o birsi öz kəndinə. Allah qoysa, məsləhət bilsəniz, nə vaxtsa görüşərik.

Kişi deyir:

– Oğlum, gedin. Bir ilə yaxın mən buraları səhmannıyajam, bağdan, baxçadan salajam. Mən özüm sizi axtarıf tapajam. Görüşərik.

Buları yola salır, hamısına xeyr-dua verir özü bildiyi kimi. Yeddi-səkgiz ay keçənnən sonra kişi deyir:

– Gedim görüm mənim öz qızım hansıydı bunun? Bəlkə tanıya bildim.

Getdi, axtara-axtara birinci kəndi tapdı, hansı ki, o oğlanların biri burdan idi. Soruşdu ki, filankəs harda olur? Dedilər ki, bax, o iki mərtəbəli ev onundu. Bu fikirrəşir ki, mən qızımın birini muna vermişəm. Gəlir bura, tapır. Görür kü, qız həyətdə qulluğ eliyir. O yan, bu yan, hər şey səhmandı, yaxşıdı. Evi-eşiyi. Oğlanı da çağırır, görüşüllər. Birinci oğlannan soruşur ki, oğlum, nətəər dolanırsız, vəziyyət nətəərdi?

Deyir:

– Ay ata, çox sağ ol. Çox yaxşı dolanırıx, yaxşıyıx, hər şeyimiz də var.

Deyir:

– Bəs, yoldaşınla rəftarın nətəərdi, oğlum?

Deyir:

– Ata, Allahdan gizdin döyül, sənnən nə gizdədim? Yaxşıdı, zəhmətkeşdi, qulluxdardı. Ancax bir az key qanır. Nə deyirsən, gej başa düşür.

Deyir:

– Ə, oğlum, onun rəhmətdik anası da eləydi, olan şeydi.

Oğlan deyir:

– Qal, qonağımız ol.

Deyir:

– Yox, gedim o birilərnən görüşüm. Gəldim gördüm, qayıdan başı gəlif görüşərəm.

Gedir ikinci kəndə, axtarır tapır oğlanı. Görür kü, qəşəh evi-eşiyi, hər şərayiti var, qız da qapıda hərrənir. Oğlannan gəlir görüşür-eliyir. Bunnan da həmənki qayda sorğu-sual aparır ki, nətəərdi vəziyətiniz, işiniz-gücünüz? Oğlan razılığ eliyir. Deyir:

– Bəs oğul, yoldaşınla rəftarın nətəərdi?

Deyir:

– Ay ata, çox sağ ol, yaxşıdı. Qoçaxdı, hər şeyə yarıdandı, filandı. Ancax bir az tərsdi, yaman deyingəndi. Adamın dodağınnan yapışır dillənəndə.

Deyir:

– Oğul, onun anası da eləydi.

Deyir:

– Qalın, qonağımız olun.

Deyir:

– Yox, siz burda qalın, mən gedim o birsi uşaxnan da görüşüm, qayıdan başı görüşərik siznən.

Axtara-axtara gedir. Görür kü, hə, qızını verdiyi oğlan da burdadı, qız da həyətdə hərrənir. Üzr istiyirəm, gəlin boyludu. Oğlannan gənə sorğu-sual eliyir, söhbət eliyir.

Oğlan deyir:

– Ay ata, otu, bir kısmat çörək yiyək, sonra nə lazımdı söhbət eliyərik.

Kişi burda etiraz eləmir. Artığ umutdudu ki, öz qızıdı. Oturur. Oğlan yoldaşına deyir ki, get, ikinci mərtəbədəki otaxda qarpızdardan birini gətir, kəsək, atamız da gəlif, yiyək. Gəlin kirimişcə pilləkənlə yuxarı qalxır, bir balaca qarpız imiş, gətirif gəlir. Gələndə oğlan munu bir də qaytarır. Deyir:

– Bunu yox, get, bir ayrısını gətir.

Bu minvalnan gəlini qırx dəfə həmən pilləkənnən yuxarı qaldırır. O da gedir, həmən qarpızı yuxarı qoyor, sonra

götürür gətirir. Demir ki, burda bizim bircə qarpızımız var. Burda söz qaytarmağ olmur. Axırda kişi bunnan soruşur ki, oğlum, nətəərsiz? Yoldaşınnan rəftarın? Kişi də hiss eliyir ki, burda bircə qarpız gəlif gedir.

Deyir:

– Ay ata, mənim deməyimə nə ehtiyac var? Gözün gördü də. Özüm qəsdən onu qırx dəfə yuxarı qaldırdım. Allahdan gizdin döyül, sənnən də nə gizdədim. Bizim bircə qarpızımız var idi yiməkdən ötəri. Mən özüm qəsdən onu sizə göstərdim ki, sizin canınız sağ olsun, övladınız belədi. Mən yoldaşımdan ömrüm boyu razıyam, bir sözümü iki eləmir.

Qədir dayımın dediyinə görə, insannar müxtəlif cinsdəndi. Bəzilərinə deyillər, haşa üzdən, it nəslidi. Bəzisinə deyillər, eşşəy nəslidi. Bəzilərinə deyillər, əsl insandı, peyğəmbər övladıdı.

## 33. AXTAFA MƏNƏ ÖYRƏNMİŞDİ, MƏN AXTAFAYA

Keşmişdə insannar bir-birinə çox mehriban oluflar, etibarlı oluflar, bir-birini çox istiyən oluflar. Kişi arvadın, arvad kişinin qədrini bilif. O qədər mehriban oluflar ki, kişi evdən qalxıf gedəndə arvadına o qədər arxeyindi, o qədər sevirdi arvadını, arvadın eşqinnən nə desən eləməyə qadir idi.

Bir kişi baltasını götürüf gedir çöldə ağac yonmağa. İndi ağacı yonuf nəyəsə istifadə eliyəjeydi. Getdi, deyir, daşın üstə ağacı kəsdi, daşın üstündə başdadı ağacı yonmağa. Öz arva-dının eşqinnən yonur. Şahnan vəzir gəlif yolnan keçerdi. Şah baxdı ki, əyə, bu kişi elə yonur ağacı daşın üstündə, balta ötüf daşa dəymer. Keşmişdə vəzirrər ağıllı olordu. Vəzirə məsləhət gördü:

– Vəzir, bu sirri mana agah elə görüm, bu kişinin baltası niyə ötüf daşa dəymer?

Dedi:

– Şah sağ olsun, bilmersən?

Dedi:

– Yox.

Dedi:

– Onun arvadına o qədər məhəbbəti var, arvadın eşqinnən o formada ağaş yonor. Arvadın da ona xüsusi məhəbbəti, hörməti var. Ona görə.

Şah dedi:

– Bunu mana nətəər subut eliyərsən?

Dedi:

– Nə var onu subut eləməyə. Adam göndər getsin, baxsın.

Bir nəfəri göndərdi. Kişi eşikdən qayıdanda gördü xanımı axtafa əlində isti su, çiynində dəsmalı, əlində də sabun kişinin yolunu gözdüyür səbirsizdiknən. Qapıdan girəndə dedi: "Ay kişi, xoş gəldin". Kişinin əlinə savını verdi, suyu töhdü. Kişi əlini yüdü, dəsmalnan əlini sildi, keşdi içəri. Xoş, beş, on beş və kişinin üst-başını təmizdədi. Kişiyə çay-çörək... Bu gələn qonax baxdı ki, doğrudan da, bu arvad bu kişiyə belə bir hörmət elədi. Qayıtdı getdi, şaha söylədi ki, şah sağ olsun, belə bir haqq-hesaf oldu. Arvad o qədər mehriban kişiyi qarşıladı, nə lazımdı yerinə yetirdi, ona görə də bular bir-birinnən mehribandı.

Şah vəzirə dedi:

– Vəzir, munu həncəri pozmax mumkündü?

Şah bir nəfəri elçi göndərdi bu kişinin xanımına ki, bu kişi kasıf dolanan kişidi. Səni dünya malınnan qəni eliyəjəm. Qızıl məndə, pul məndə, var məndə, mana gəl. Arvad bir az fikirrəşdi, ağlı kəsdi ki, əşi, şah arvadı olaram də. Bu nöqteyi-nəzərnən kişidən acca da olsa, meyli döndü, kişiyə qarşı münasibət pozuldu. Axşam kişi çöldən gələndə həmişə arvadı qavağına çıxardı. Xoş-beş, on beş. Şah göndərdiyi adam gənə gəlmişdi dalınnan ki, görüm indi vəziyyət nətəərdi. Gördü,

deyir, kişi qapıdan girəndə xanım munu qarşılamadı. Qaşını-qavağını töküf. Soruşdu:

– Arvad, niyə elə eliyirsən?

Dedi:

– Heş nə.

– Arvad, suyun hanı?

– Xəstələnmişəm, başım ağrıyır, get suyunu da al, çörəyini də tap, ye.

Kişi kor-peşman girdi içəri, nə bilim, su tapdı, yüdü, yümədi. Öydə hazır xörək yoxuydu. Bir qarnı aj, bir qarnı tox, kişi gejə yatdı. Savah qalxdı, gənə ağa. yonmağa getdi. Şah gənə getdi. Gedəndə gördü kü, kişi yonur, bir dəfə ağaca dəyəndə, iki dəfə daşa dəyir, balta ötör. Bunu şahın qanı qəbul eləmədi. Dedi:

– Vəzir, bu işi necə pozufsan, xayiş eliyirəm, qaytar düzəlt.

Gəldi kişinin yanına vəzir. Salam, əleykəssalamnan sonra:

– Kişi, niyə elə eleersən?

Dedi:

– Nə bilim?

Dedi:

– Kişi, bilerəm neylədiyini. Sana bir şey örgədəjəm, get onu elə, düzələjək işdərin hamısı.

Dedi:

– Nə örgədersən?

Dedi:

– Get, otuz ildi, qırx ildi əlini yuduğun axtafanı apar subaşında sındır, qayıdıf gələndə də ufulda. Çox ah-uf çəkənnən sonra arvad bezif deyəjək ki, a zalım oğlu, bir axtafadan ötrü niyə ufulduyursan? Get təzəsini al dana. Onda arvada deyərsən ki, arvad, otuz ildi mənim əlim bu axtafaya örgəşif, bu axtafa mənə örgəşif. İnnən sonra mən gedəm təzəsini

alam, o gələ mana örgəşəsi, mən ona örgəşəsi. Ona örgəşənə qədər mən ömrümü bağışdıyajam, öləjəm.

Kişi axşam evə gəldi. Vəzir örgətdiyini həmin qaydeynan yerinə yetirdi. Başdadı ah-uf çəkməyə. Çəkəndə arvad dilləndi:

– Ay kişi, a bədbaxt oğlu, axtafa nəmənədi? Get beş manat ver, təzə birin də al dana.

Dedi:

– Ey arvad, nə bilirsən nə var.

Dedi:

– Nə var?

Dedi:

– Mənim ömrüm azalıf, otuz ildi bu axtafaynan yoldaşdığ eliyirəm. Təzə axtafa alam gətirəm, o mana örgənə, mən ona örgənəm. Mən onatan həyata olan borcumu verəjəm.

Qadın elə bil yuxudan oyandı ki, ə, kişisinnən mehriban dolaner, can-ciyərdi. Az tapellər, şirinniynən az yiyillər, çox tapellar çox yiyillər. Yaxşı da şad, gümrah yaşıyıllar. Bu gedə şahın arvadı ola, bu şahın xasiyətini örgənə, şah da munun xasiyətini örgənə. Onatan bu arvad da ömrünü qutarar. Təzədən yerinnən qalxdı, dedi:

– A kişi, sənin başına dönüm, çöldən gəlifsən, gəl əlini yü.

Çay gətdi, çörək gətdi, şad-xürrəm yedilər, işdilər, yatdılar. Səhər kişi gülərüznən genə yola tüşdü. Getdi genə başdadı ağacını yonmağa. Şahnan vəzir gənə gələndə gördü ki, doğrudan da, buların bir-birinə olan məhəbbəti o qədər möhkəm, ehtibarlıdı ki... Kişi gənə daşın üstündə ağacı yonur, baltası bir dəfə də olsa daşa dəymer.

Arvad da orda belə deyir:

– Kül şahın varının da başına, özünün də. Elə maa öz ərim lazımdı.

## 34. DÜZƏLDƏN DÜZƏLDƏR

Günnərin bir günü Şah Abbas vəzirinnən gəzintiyə çıxer da, onda adət imiş. Bir zərgər tükanının qavağınnan gedəndə görör ki, zərgərdi. Elə bir zərgərdi, həm boyu-buxunu, filanı, hamısı biri-birinə yaraşer. Amma əli işdeer, ağzı da deyir ki, düzəldən düzəldər. Şah Abbas vəzirə deyir:

– Ə, gəl gedəh, görəh bu nə deyir. Bu düzəldən düzəldər nədi? Nə səbəbə belə deyir?

– Salamməlöykü!

– Əlöykəssalam!

Şah Abbas deyir ki, mənim bu barmağımdakı üzük formada mana bir üzük qayıra bilərsənmi? Deyir:

– Lap ikisini qayırem.

Deyir:

– Elə qayırginan ki, bilinməsin ey, elə bil bir üzükdü.

Şah Abbas üzüyü zərgərə verer. Zərgər barmağının ujunda belə tullor (yeşik kimi şeyi varıymış, üzükləri, filanı – hamısı ordoymuş), onun içinə düşör. Şah Abbas zərgərin başını qater. Vəzirə göz vuror ki, sən üzüyü götü civəə qoy. Vəzir üzüyü götürör, civinə qoyor. Halallaşellar. Haqqı nə olajax, nə olmujax? Deyir ki, haqqını gələndə verərsən. Düzəldən özü düzəldəjəh. Şah Abbas vəzirnən geder. Dənizin qırağınnan gedəndə Şah Abbas deyir:

– Ayə, o üzüyü dənizə tulla, göröm bu hancarı düzəlder.

Dənizə tullollar, çıxellar gedellər. İndi kişi beş günə vədə verif, üç günə vədə verif. Aradan iki gün, üç gün keçəndə zərgər nə qədər eliyir, üzüyü tapa bilmer. Şəyirdi varıymış. Şəyirdinə deyir:

– Əyə, üzüyü olmuya sən götdün?

– A kişi, nə danışersan? Neçə ildi bir yerdə işdiyirik. Mən üzük götürənəmmi?

Məhətdəl qaler. Gənə "düzəldən düzəldər"i dilindən qoymor. Kişi evə getdiyi yerdə görör, uşaxlar balıx sater, iri-iri balıxlar. Bir iri balığ aler, aparer arvada verer, deyir:

– Arvad, pişir. Savah, Allah qoysa, bunu yeyək, əmbə kefim də yaxşı döyül.

– Niyə?

Hal-qəzyeyi arvada söylöör ki, belə-belə, mən üzüyü düzəldəmməsəm, Şah Abbas mənim boynumu vurajax. Üzük yoxdu, tapılmer. Nə cür düzəldem, onun şəklini çəkməmişəm?

Kişi gənə "düzəldən düzəldər, düzəldən düzəldər" deyə-deyə işə gəler. Kişi elə bil dünyadan köçüfdü, Allah göstərməsin. Arvad da balığı təmizdeer, qarnını yaranda üzük pıçağın burnunda eşiyə çıxer. Həmən balığın biri üzüyü udubbuş. Düzəldən bax belə düzəlder.

Axşam gəler. Arvad deyir, ə kişi, niyə elə eleersən? Deyir, belə-belə, ay belə-belə… Deyir, qorxuv eləmə. Düz deyirsən, düzəldən düzəldər. Ala, bu üzükdümü? Kişi ba-xanda görür ki, həmən üzükdü.

İndi vaxt daralıf, Şah Abbas gələjək. Gejiynən geder üzüyü qayırer, yanaşı qoyor oruya. Şah Abbas gəler. Gələndə görör, həmən kişi gənə "düzəldən düzəldər, düzəldən düzəldər" deyif işdiyir.

– Salamməlöykü!

– Əlöykəssalam!

Deyir:

– Üzük hazırdımı?

Deyir:

– Bəli, hazırdı.

Şah Abbas məhətdəl qaler. – "Ə, bu dəlidi! Hancarı hazırdı? Nə cür hazırdı?" Deyir ki, hanı? Deyir, budana, bax! Baxer görör ki, doğrudan, üzük biri-birinnən seçilmir. Deyir:

– Ə kişi, bu nə cür oldu düzəldi?

Deyir:

– Mərdimazar işimi pozdu, düzəldən də düzəltdi. Sən tulladın, düzəldən də pıçağın ucunda üzüyü bəri çıxartdı.

Şah Abbas deyir:

– Doğrudan da, düzəldən düzəldər. Yəni, hər şey Allahın əlindədi.

## 35. KOR CANAVARIN ALLAHI

Bir kasıb oğlan olor, tənbəl olor, çox tənbəl olor. Bunun ata-anası bunu evləndirer. Deyir, ay oğul, filan ev sənin, orda dolan. Bu arvadın da – yoldaşının üş-dörd qardaşı olor. Arvad nə qədər eliyir, a kişi, get odun gətir sat, yer ək. Deyir, yox, mən getmerəm. Bir gün bunun qayınnarı deyir:

– Gedək yeznəmizi danlıyağ-eliyək, getsin çöldən odun-nan-zaddan gətsin satsın.

Beləliknən, gəlillər bu oğlanın yanına. Deyillər:

– Səni öldüröjöök. Sabah get bir şələ odun gətir, bazarda, harda satersan sat, çörək pulu elə, dolan.

Deyir:

– Yaxşı.

Oğlan qorxusunnan çatıyı götürör geder. Guya odun gətirib, bazarda satıb çörək pulu qazanajax. Geder görör bir sürü qoyundu. Bir qoyun sürüdən ayrıldı, qaşdı, qaşdı. Çoban nə qədər dalınca getdisə, alınmadı. Getdi bir yarğan var idi, bura düşdü. Oğlan gedəndə gördü, bir kor canavardı, gözdəri görmör, qoja canavardı. Qoyun getdi, bunun qavağına yıxıldı. Yıxılanda bu oğlan dedi:

– Atam ərvahına, dünya dağılsa mən gedif şəleynən odun gətirif satmaram. Kor canavarın Allahı mənim ruzumu yetirəjəh.

Bu minvalnan qayıtdı evə. Arvad soruşdu:

– A kişi, odun gətdinmi?

Dedi:

– Yox, mən kor canavarın Allahınnan isteerəm ruzumu. Mən ruzumu qapının ağzında isteerəm.

– A kişi, elə olmaz.

Qayınnarı gəldi ki, büyün nə iş gördün? Deyəndə dedi ki, mən kor canavarın Allahınnan isteerəm ruzumu.

– A kişi, ruzu nədi? Sabah gedib odun gətirib satıb çörək almasan, səni öldüröjöök.

Sabah açıldı. Bu çatısını götürdü, bir qayalığın divinə getdi. Getdi gördü burda bir quru ağaş var. Belə çəkəndə gördü iki dənə sərniş bir-birinə bağlıdı, içi qızılnan doludu. Ağzını örtdü. Dedi: "Mən kor canavarın Allahınnan isteerəm. Bu ruzuyu mən öydə isteerəm". Ağzını örtdü, daşdan-zaddan qoydu, evə gəldi. Evə gələndə arvad getdi qardaşdarına dedi ki, alınmadı. Kişi nə odun gətdi, nə də çörək. Qardaşdar gəldi, istədilər bunu döyələr.

Dedi:

– Ə, məni niyə döyürsüz? Filan yerdə bir quru ağaş qoparmışam, onun divində iki sərniş qızıl var. Gedin gətirin.

Qardaşdar dedi: "Dəlidən doğru xəbər. Birdən həqiqi qızıl olar, gedək gətirək". Getdilər gördülər qızarer. Ağzını örtdülər ki, gejə apararıx qızılları, qoy burda dursun. Böyürdə-başda hərrəndilər. Şər vaxtı sərnişdərin ağzını bağladılar, gətdilər. Keşmişdə qara dam deyirdilər. Yeri qazırdılar, üsdən də baja qoyordular ki, hava çəksin. Bu da qara damda olordu. Evə yaxınnaşanda gördülər ki, hamısı qızıl ilandı. Tez ağzını örtdülər, dedilər: "Həyətimizə dolmasın, aparax bajadan içəri tökək, qoy göyümüzü də öldürsün, bajımızı da". Ta bulara çörək verməkdən yoruldux. Gəldilər, sərnişdərin ikisin də bajadan tökdülər şarhaşar, guya ilan tököllər. Bular qaşdı ki, ilan bizi yiijək. Qızıllar şarhaşar töküləndə kişi dedi:

– Arvad, mən kor canavarın Allahından isteerdim. Qızıllara bax, öz-özünə gəldi bura töküldü.

İndi bu bir misaldı. Bizim zonada deyirlər ki, ə, kor canavarın Allahı versin. Biz təsərrüfat adamıyıx, əkerik. Bəzi yaşdı adamlar deyir ki, kor canavarın Allahı kimi qapında istəmə, əkinçi ol, biçinçi ol, işdə, zəhməkeş ol.

## 36. ŞAH ABBAS VƏ ÜÇ OĞRU

Dörd nəfər oğru olor, tapışellar. Oğrular deyir: "Nağayrax, neyliyək?" Oğrunun biri deyir ki, ə, nağayrajeyih? Gedək filankəsin iki inəyini ətirəh, birinin buzoyunu ətirəh, danasını ətirəh. Gələllər, bu Şah Abbasın bağının başında oturollar. Şah Abbas da həməşə gejə olanda səyahətə çıxermış dana. Gedəndə örör ki, bağın başında hənirti gəler da. Şah Abbas yuaş-yuaş bulara yaxınnaşer. Bular dörd nəfərdi axı. Gəler:

– Salamməlöykü!

– Əlöykətsalam!

Şah Abbas deyir ki, nəçisiniz, ə? Deyəndə deyir ki, a qardaş, oğruyux. Danmellar. Bu dörd nəfər Şah Abbasdan soruşor:

– Bə sən nəçisən?

Deyir:

– Mən də oğruyam.

– Yoldaş olaxmı?

Deyir:

– Olax.

Yoldaş olollar bu beş nəfərin beşi də. Deyir, indi hər kəs sənətini desin, həm də adresini desin. Bir-birimizə lazım olanda, gedəh tapax.

Biri deyir ki, mən yetmiş yerdən qıfıllı qapıyı açeram açarsız. Deyir: "Ə, sənin sənətin lap yaxşı sənətdi". İkincisi deyir ki, mən də gejə gördüyüm adamı nəkqədir qarannıx olor-olsun, gün üzü tanıyıram. Deyir: "Sənin sənətin də yaxşıdı". Üçüncüsünə deyillər: "Bə sənin sənətin nə?" Deyir: "Mən də

itin, qurdun, quşun – hamısının dilini bilerəm”. Deyir: “Sənin də sənətin yaxşıdı”. Dördüncüsünə deyillər: “Bə sənin sənətin nədi?” Deyir: “Vallah, mənim sənətim odu ki, kimin duzu dilimə dəysə, ona xayin çıxmeram”. Deyillər: “Sənin sənətin hamısınnan yaxşıdı”. İndi Şah Abbasın özü qalıf axı. – “Bə sənin sənətin nədi?” Deyir: “Vallah, mən də gejə yateram, savah duroram, sağ bığım qımıldıyanda dünya əmin-amannığ olur. Sol bığım oynuyanda qan su yerinə axer”. Deyillər: “Sənin də sənətin yaxşıdı. Bəs sən hansı küçədə olorsan?” – “Filan küçədə”. – “Sən hansı küçədə olorsan?” – “Filan küçədə. Öyün nömrəsi bu, filanı bu”. Şah Abbas da bir küçə deyir. Da demer ki, mən Şah Abbasam. Bular yaxşıca yoldaş olollar. Şah Abbas deyir:

– Bilersinizmi nə var?

Deyir:

– Nə var?

Deyir:

– İndi siz dörd nəfərsiniz, mən də bir nəfərəm. Gəlin belə eliyək. Gedif birinin iki danasını, üç inəyini oğurruyanatan bu kişi deyir ki, yetmiş yerdən qıfıl olsa, açaram. Ə, gəlin gedəh Şah Abbasın anbarına, bu kişi qapıyı açsın, hər kəs öz payını götsün, yüklənsin, civini-başını, torvasını qızılnan doldursun, ya Allah, gedək. Ölənətən də yeyək.

Razılaşellar. Gələllər. Şah Abbasın öz qapısıdı axı. Bular içəri girəndə bir qoja itnən maşqı[62] tula varıymış, tula ürör. Ürəndə itin-qurdun dilini bilən əyağını saxleer. Deyir:

– Ə, niyə əyləndin?

– Ə, – deyir, – maşqı it orda ürəndə qoja it burdan dedi ki, ə, kirimiş dur, yiyəsi yanındadı.

– Ə, qələt eliyir, gəl.

---

[62] Maşqı – arıq, cılız

Bu qapıyı açan barmağını belə eliyən kimi kıfıllar hamısı açıler.

– Ə, bə sən bunu harda örgənifsən?

Deyir:

– Mən İranda ayət təhsili oxumuşam. Mən hansı qapıya etsəm, ora açıler.

Dolollar içəri. Bu torvasını dolduror, bu civini dolduror, bu qoynunu dolduror. “Dilimə kimin duzu dəysə, mən ona xayin çıxmeram” deyən görör bir girdin[63] var. Elə bil on kilo olar bu. Qucağına ötürör. Görör ə, heç bu qızıla oxşamer. Belə-belə torpağını-zadını sığaller. Dilini belə vuranda örör duzdu, götdüyü qızılları yerə tullor.

– Ə, niyə tullorsan?

Deyir:

– Ay qardaş, mən demişəm də, kimin duzu dilimə dəy-sə, ona xayin çıxmeram. Mən istəmerəm, heç nə istəmerəm.

Dördü də çıxer. Şah Abbas da bir az qızıl götürör buların yanında. Hər kəs öyünə dağıler torvuynan, qızılnan.

Şah Abbas da gejə geder yater. Savah tezdənnən qırmızı geyiner, taxta çıxer. Vəzirə deyir, get filan yerdən filankəsi çağır, filan öydən filankəsi çağır, filan öydən filankəsi. Dördünü də yığer. İçəri daxil olollar. “Gejə gördüyümü gün üzü tanıyıram” deyən dedi:

– Sən öl, beyjə bizim oğru yoldaşımızın biri budu.

Tanıyır dana. Şah Abbas deyir:

– Əyə, nə qədər götdün, nə qədər götdün?

Bunu tanıyan deyir ki, mən ölüm, oğru yoldaş, elə eləynən sağ bığın qımıldasın. Yəni, bizə dəymə. Deyir:

– Sizə dəymerəm. Bu günnən də oğurrux eləməyin. Gedin yaşıyın.

---

[63] Girdin – iri, dairəvi ağac gövdəsi

“Dilim duzuna dəyəndə ona xayin olmoram” deyənə deyir ki, sən dayan! Xəzinədarı çağırer. Açarı verer həmən oğlana. Deyir:

– Bu günnən mənim xəzinədarım sənsən.

Halallıx hər şeydən müqəddəsdi!

## 37. KEFLİ İSGƏNDƏR

Biri varmış, biri yoxmuş, bir patcah varmış. Bu patcahın üş dənə qızı varmış. Bir gün patcaha üş dənə yemiş hədiyyə gətirellər. Patcah vəzirnən oturor, deyir ki, vəzir, bu yemişi kəsginən. Birini kəser yemişin, ilənmiş çıxer. İkincisini kəser yemişin, yarı ilənmiş, yarı yiyiləsi formada olor. Üçüncünü kəsəndə görür kü, əsl yeyiləsi vaxtıdı. Patcah baxır, deyir ki, vəzir, bu yemişdərdə sən nəsə bir məna görürsənmi? Mən şübhələndim. Sən bir baxıcı gətir, bu yemişdərin mənasını mana desin, görüm bu yemişdər niyə belə çıxdı. Vəzir geder baxıcını gətirir. Baxıcı buna baxer deyir, patcah sağ olsun! Mən belə yozoram ki bunu, sizin üş dənə qızınız var. Böyük qızınızın ərə getməh vaxtı keçib. Ortancıl qızınızın keçif də, keçmiyif də. Amma kiçik qızınızın əsl ərə getməh vaxtıdı. Deyəndə vəzir deyir, nağayrmax lazımdı? Şah deyir, onda belə eliyəh. Hər tərəfə car çək, mən qızdarımı çıxardajam yuxarı, hərəsinin əlinə verəjəm bir alma. Hansı qızım hansı oğlanı bəyəndi, o oğlana da almanı atsın, qızımı o oğlana verəjəm.

Hər tərəfə car çəkellər, gözəl oğlannar, ağıllı oğlannar, qəhrəman oğlannar gəlsin, patcah özü üçün kürəkən axtarer. Oğlannar yığıler, gəlellər bir-bir qızdarın qabağınnan keçellər. Böyük qız görör vəzirin oğlu gəler. Böyük qız almanı vəzirin oğluna ater. Ortancıl qız vəkilin oğluna ater. Pütün oğlannar gəlif keçer, kiçik qız atmer. Patcah deyir ki, mənim qızım elə bil kimisə gözdüyür, bə kim qaldı, kim gəlmədi ki, mənim

qızım almanı atmadı? Deyillər, şah sağ olsun! Ola bilər hardasa kimsə qalıfdı. Şah əmr verer ki, bir-bir evləri axtarın, yoxluyun, görün hardasa subay oğlan qalıbmı? Mənim qızım almanı atmadı ki, mən istədiyim oğlan, yəni, ürəyimə yatan oğlan hələ keçmiyif burdan.

Bular axtara-axtara gəlellər, bir də göröllər bir kasıv komanın içində bir Fatma addı arvadın, qarının bir oğlu var, adı İsgəndərdi. O qədər qorxaxdı, o qədər tənbəldi ki, boylu-puxunnu, yarrı-yaraşıxlıdı, amma tənbəldi. Yerinnən qalxıf stolda oturuf yiməh yimir. Buna da deyillər ki, şah səni çağırer. Deyir, yox! Şah məsləhət görürsə, qızı mənim yanıma gəlsin! Mən şahın yanına getmərəm ki, onun qızı məni bəyənsin, ya bəyənməsin! Buna da əmr elellər, qorxax İsgəndəri çığırda-çığırda, çığırda-çığırda gətirif qızın qavağınnan keçirəndə, qız almanı götürör buna ater. Patcah dəli olor. Deyir, bir buna bax, özünə bax, seçdiyi oğlana bax! Bunda insannıx yox, bunda qəhrəmannıx yox! Bu nədi, mənim qızım... Deyir, qızım fikir-rəşginən! Təzdən almanı ater. Üç dəfə pütün oğlannarı onun qavağınnan keçirdellər, Qorxaq İsgəndər keçəndə almanı ater.

Patcah deyir, yaxşı, qızım, eybi yoxdu! Sən ki belə elədin, mən də səni saymejam! Get, Qorxaq İsgəndər səni dolandırsın! Böyük qıznan ortancıl qızına toy eliyir. Qəşəh toynan birini vəzirin, birini də vəkilin öyünə köçüröр. Kiçik qızı da aparer Qorxaq İsgəndərin öyünə, içəri qoyor, gəlir. Deyir, bura sənindi, dolanginan! Qız baxer ki, ev köhnə evdi, qoca bir qarıdı. Nə qədər eliyir İsgəndər yerinnən qalxmer. Deyir, yox! Mən bunu birdən-birə yox, yavaş-yavaş adam eləməliyəm! Onçun da başdıyır şirin dilə: "İsgəndər, nə yiyirsən, onu pişirəh? Nə istiyirsən, onu hazırrıyax? İsgəndər, indi dur burda otu. İsgəndər, orda otu". Yalannan yıxıler: "İsgəndər, dur məni qaldır!" Belə-belə, yavaş-yavaş, yavaş-yavaş İsgəndərə yataxdan qalxmağı örgəder, həyətə çıxmağı örgəder. Yavaş-yavaş ona süfrəni həyətdə açer,

ağacın divində. Arvad baxer ki, əməlli-başdı gəlin İsgəndəri yatağınnan qaldırıv uje hərəkət elətdirer. Get-gedə, get-gedə o qədər bunu elə aler ki, deyir:

– Ay İsgəndər, olarmı bir həyətdən çıxasan, küçədə yuxarı-aşağı baxasan, görəsən yolda kimlər var, kimlər yox! – deyəndə, bu çıxer küçəyə baxer, tez qapıyı örtör. Deyir:

– Yaman çox adamlar gedif-gəler, mən oruya gedə bilmərəm!

Deyir:

– Yox, mən demirəm getginən! Hər gün qapıdan çölə bax, neçə nəfər gedir, neçə nəfər gəlir onun sayını mana denən!

Belə-belə, belə-belə bunu öyrəder ki, qapının çöl tərəfində dursun adamlara fikir versin, say öyrənsin. Bir gün deyir ki, İsgəndər, biz nəynən dolanax? Qulağımda sırğa varıydı, satdım, yedih. Əlimdə üzüh varıydı, satdıx yedih. İndi nəynən biz dolanax? Gəl belə eliyəh, mən hər gün yumaxnan ip əyirim, sən onu apar bazarda sat, çörək, nəvilim, göy-göyərti al gətir, dolanax. Deyir:

– Yaxşı!

Qaynanasınnan kömәkli ip əyirir. Deyir ki, apar bu ipləri bazarda sat, puluna da nə alersan al, gətir!

İsgəndər götürör ipləri, geder bazara. Gedəndə görör kü, yolda bir pişiyi yaman döyüllər. Deyir ki, niyə döyürsünüz o pişiyi? Bu da elə bir vaxtda görör kü, satıfdı ipi, pulu əlinə alıfdı. Hə... Deyir ki, görmürsənmi, dağbedi[64] gedif qəssabın ətini yiirmiş! Onunçun da qəssab döör! Deyir ki, ala bu pulu verim ətin əvəzinə, pişiyi ver mana. Bu geder pişiyi də götürör, qayıder gəlir evə. Evə gələndə anası deyir:

– Oğul, nə aldın?

Deyir:

[64] Dağbedi – gizlicə

– Heç nə, pişiy aldım gətirdim.

Arvad ajıxlaner. Qız deyir ki, yox, ana, ajıxlanma. O pişiyi alıfsa, onun özü də bir işdi. Yəni, bunu da başardı! Biz elə eləməliyih, elə öyrətməliyih ki, İsgəndər yavaş-yavaş işə alışsın!

Onnan sonra, savağı günü yenə ip verellər. Aparer bazara bu ipləri sater. Satanda görör kü, bir nəfər deyir ki, kim işdəmək istirsə, üç aylıx pulunu da qavaxcadan vererəm, mənnən yarım illik, bir illik səyahətə çıxax. Elə bil mal aparıf mal gətirer, tacirdi, özünə köməkçi istiir. Üç aylıx haqqını qavaxcadan da verer deyəndə, İsgəndər deyir ki, yaxşı oldu, arvadım bu ipləri satmaxnan nə pul qazanajax! Yaxşısı budu üç aylıx haqqımı alem, verem, gedem yavaş-yavaş orda da öyrənərəm. Deyir, gəl gedəh mənim yoldaşımnan razılaşax. Yoldaşım razı olsa, mən siznən gedəjəm. Təzdənnən bunu görürör gəlir arvadının yanına. Deyir ki, bax, bu tacir məni aparmax istiir, üç aylıx pulumu da qavaxcadan verəjəhdi. Sən nə deyirsən? Mən gedimmi, getmeyimmi? Arvad da deyir ki, getginən, İsgəndər! Amma, ağlın başında olsun, nə iş tutsan, ağzınnan nə söz çıxartsan, əvvəl fikirrəş, sonra çıxartginən! Getginən, mən sana inaneram. Ona görə də ürəknən deyirəm ki, getginən.

Tacir buna da üç aylıx haqqını verer. İsgəndər deyir, gederəm, boş olanda nəynən məşğul olajam? Pişiyi də özünnən götürör kü, pişiyi də aparıf gederəm. Bu, pişiyi də götürör, arvadınnan, anasınnan sağollaşer. Çıxer yola, başdıyıllar getməyə.

Gedellər, gedellər, gah düzənnihnən, gah səhralıxnan, gah nəynən gedellər, demə, bu pişih də hamiləymiş, gəler pişiyin balaları olor. İsgəndər yolboyu pişiyə baxer, balalarına baxer, sığaller, tumarrer, pişihlərə qullux eliyə-eliyə geder nə qədər. Gəlir bir yerə çıxellar. Elə bil axşamüstü bir həyətdə qonax qalası olollar. Deyir, yeməyimiz var, içməyimiz var, amma yatacax yerimiz yoxdu. İcazə verin sizdə qonax qalax. Sizdi-bizdi bizim yeməkdən yeyək, həm də gejəni yatax

sizdə. Ev yiyəsi razılaşer. Bular gətirer yeməyi-içməyi ortuya qoyanda, ev yiyəsi, evin oğlu, gəlini, hərəsi əlinə bir ağac aler, əyağüstə buların başını kəsdirer. Deyir:

– Siz özünüz razılıx verdiniz biz oturuf sizdə çörək yeməyə. Yeməh-içməh özümüzdən, bu dəyənəhnən bizi döyməhmi istirsiniz? Fikriniz nədi?

Deyir:

– Yox! Bu saatca biz aralanan kimi gör siçannar sizə nətəər hücum elijəh.

Deməli, elə bular yeməyin ağzını açıv yeməyin iysi çıxan kimi, hər tərəfdən siçannar tökülör, nə tökülör? Allah, ev yiyəsi dəyənəhnən burda bunu vuror, orda onu vuror. Bunu görəndə, İsgəndər deyir:

– Dayanın, dayanın, sizin dəyənəyinizə ehtiyac yoxdu.

Gətirer pişihlərini açer, buraxer. Deyir:

– Bu saatca mənim pişihlərim sizin siçannarınızı tamamilə məhv elijəh.

Pişihlər başdıyıllar burda bu siçanı boğollar, orda o siçanı boğollar. Öy yiyəsi belə baxer... Demə, bular pişik nədi, pişiyin nə qabiliyəti var heç onu bilmellərmiş. Deyir ki, ay oğlan, bu nə yaxşı heyvandı. Olarmı onu bizə satasan? Deyir, vallah, bahadı! Mən baha satajam! Deyir:

– Neçiyə satsan biz alasıyıx. Bir biz yox, burda neçə qonşu var hamısı biz günnüdü. Hər qonşu birini alajaxdı.

Oğlan yaxşı pul deyir. Həmən pulu verellər, bunun pütün pişiklərini alellar. İsgəndərin xeylax pulu olor, sonra başqa yerə gedəndə o pullardan verer, parça, anrı-bəri aler. Deyir, münasib tüşəndə bunu arvadıma, anama göndərem. Bir az da pul göndərem.

Gəlellər bir düzəngah yerə çıxellar. Allah, su yoxdu yanellar, heyvannar yaner, özdəri yaner. Bir də göröllər səhrada bir quyu var, quyunun üzərinə yazılıf ki, gedər-gəlməz yoldu,

kim tüşsə, sağ çıxmıjax! İsgəndər oxumax bilmir. Karvanbaşı oxuyur, deyir ki, mən buruya kimi salem, kimi salem? Elə İsgəndəri salem. Onsuz qorxax şeydi, uzax başı yiyəsinə də deyərəm ki, qorxax şeydi, öldü. Deyir:

– İsgəndər, sən tüşüf su çıxarda bilərsənmi?

Deyir:

– Niyə tüşmörəm, tüşərəm!

Belinə kəndir bağlellar, bunu quyuya salellar. İsgəndər quyunun divində bir-bir vedrəyə suyu dolduror çəker, bular da heyvannarı sulollar. Heyvannarı-zadı sulollar. Axıra yaxınnaşanda bir də görür kü, quyunun divinnən bir dənə insan peydah oldu: bir əlində qızılgül, bir əlində də qurbağa. İsgəndər özünü itirmir, yəni bu quyunun içində bəyax heç kəs yoxuydu, burda suyudu, İsgəndəriydi. İndi adam da burda peydah oldu. Həmin adam deyir ki, İsgəndər, nağayrersan sən burda? Fikirrəşer ki, bu məni hardan taneer? Özünü o yerə qoymor, deyir ki, heyvannar susuzduxdan yanerdı, ağam da məni... – deyəndə, deyir:

– Səni ölümə göndərdi.

Deyir:

– Yox, niyə ki? Məni suya göndərdi.

Deyir:

– Yox, sənin ağan səni ölümə göndərdi. Çünkü bu quyunun üstünə yazılıf ki, bu quyuya tüşən qayıdıf sağ çıxmejax. Sən də, deyir, oxumax bilmədiyin üçün səni göndərif buruya.

Deyir ki, nə fərqi var, ya oxudum, ya oxumadım, heyvannar susuzuydu, kimsə buruya tüşməliydi. İndi mən tüşmüşəm, tüşmüşəm! İndicə də çıxajam. Deyir:

– Çıxajaxsan, ancaq bu şərtə ki, mənim sualıma cavab verəjəhsən. Verdiyin cavab xoşuma gəldi, səni çıxardajam. Xoşuma gəlmədi, başını kəsəjəm.

Sonra quyunun bir tərəfinnən belə munu aparer göstərer, deyir:

– Bu insan qalağını görörsənmi? Buların hamısı mənim sualıma cavab vermiyənnərdi. Kim ki mənim sualıma cavab verə bilmiyib, onun axırı belə oluf.

İsgəndər özünü itirmer. Deyir ki, yaxşı, sualını verginən! Deyir, bu saat! O gedir quyunun bir tərəfinə, ordan bir dənə qızılgül, üstündə də balaca bir qurvağa gətirer. Deyir ki, bu nədi? İsgəndər baxer, arvadının sözü yadına tüşör kü, fikirrəşginən, təmkinnən ağıllı sözdər işdətginən. Deyir, mən muna desəm ki, qurvağa, bəlkə də yaxşı çıxmadı, axı bu qızılgülün üstündədi qurvağa. Qayıder, deyir ki, dünya gözəli. Deyir ki, İsgəndər, yaxşı fikirrəş, sənin axırın ölümdü ha! De görüm, bu nədi? Deyir ki, vallah, o dünya gözəlidi. Deyir, İsgəndər, axırıncı dəfə deyirəm, verdiyin cavaba görə ölümə lap çataçatsan! De görüm ki, bu nədi? Deyəndə, deyir ki, istirsən öldür, istirsən öldürmə, mən bir dəfə demişəm, sözümnən də dönmüjəm! Bu dünya gözəlidi! Deyəndə, deyir ki, İsgəndər, sən ki qorxmadın, ölüləri də gördün, onların aqibətini də gördün, amma sözünü, fikrini dəyişmədin... Sən ki dedin bu dünya gözəlidi... Mən indi saa düzünü dejəm. Bəli, bu dünya gözəlidi. Bu, mənim həyat yoldaşımdı. Mən onu dünyalar qədər istəmişəm. Çox da gözəl qadın oluf, ancaq həyat yoldaşım mana xəyanət elədiyi üçün mən onu tilsimə salıf qurvağa eləmişəm, bu gülün üstündə yatırderam. Kimnən də soruşoram, kim ki ona eybəcər deyir, pis deyir, hayıfımı o insannan çıxeram, onun başını vurduroram. Amma hələ bunu tərifleef, mənim ürəyimi oxşuyan adam mənim qarşıma çıxmeef. Yeganə adam sənsən ki, sən onu təriflədin, ona dünya gözəli dedin. İndi mənnən nə istirsən? Deyəndə, İsgəndər deyir ki, mən heç nə istəmerəm. Nəyə ehtiyacım var, mən pişihlərimi satmışam, xeylax da pulum olufdu. Ona da parça, anama paltar almışam, göndərəjəm. Deyir:

– İsgəndər, onda mən də sana üş dənə nar verəjəm. O narrarı heç kəsin yanında nə göstərmə, nə kəsmə. Narrarı heç kim görməsin. Sən onu göndər evnizə.

İsgəndər deyir:

– Yaxşı!

Deyir ki, birdən tamah güj gələr narı dişdiyərsən, dişdəmə, eləcənə pütün göndər! Nə badə kimsə xəbər tutsun! Gətirer buna üç dənə nar verer. İsgəndər narı da götürör civində gizdəder. Kəndiri silkələeer, silkəliyəndə tacirbaşı görör kü, bu kəndiri silkələeer. Deyir:

– İsgəndər, çıxersanmı?

Deyir:

– Hə, çıxeram!

Çıxanda yuxarı deyir ki, nooldu quyunun divində, nəsə gördünmü? Deyir:

– Yox, heç nə görmədim, heç nə də eşitmədim! Nədi, quyunun divində nə olmalıydı ki? Bir mən, bir su! – deyəndə, deyir ki, heç nə, elə-belə derdim, görüm nəsə gördünmü, quyunun divində ayrı nəsə varmı?

Deyir:

– Yox, heç nə yoxdu!

Bir neçə gün keçənnən sonra bular çapardan geri pul göndərillər, orda işdiyənnər ayləsinə bazarrıx-zad göndərellər. İsgəndər də gətirer böyük bir bağlama qayırer, içinə anasına, arvadına aldığı pal-paltarı qoyor, bir də bu narrarı qoyor, göndərer.

Təzdənnən bular davam eliyillər getməyə. Çapar da gətirer bunnarı verer İsgəndərin anasına. Deyir ki, bunu İsgəndər göndərif. Arvad da baxer, deyir, yazığ oğlum! Nardan çox nə var burda. Bax, neynerdin sən bu narrarı göndəriv-eliyif. Bu narrarı stolun üstünə tulluyur. Arvadı gəler, deyir:

– İsgəndər nə göndərifdi?

Deyir:

– Ay qızım, heş nə! Üş dənə nar göndərif, – narrar da böyük narrar döyülmüş, – bir də, deyir, sana paltarrıx, mana paltarrıx. Nəvilim, pul, bazarrıx, belə şeylər göndərif.

Qız narın birini belə götürüf tişinə çəkif qopardanda görör kü, narın dənələri bahalı daşdardı. Qız patcah qızıdı, başı çıxer bundan. Bu görör kü, bu narın hər birinin nə boyda qiyməti var. Heç bir zərgər, kimsə bunu xırdalıya bilməz. Bunu sınamax üçün bu daşın birini götürör arvada verer. Deyir ki, ana, apar bu daşı zərgərin yanına, denən ki, xanımım deyir ki, bunu xırdalasın versin. Arvad deyir, ay qızım, bu nədi ki, bunun nəyi xırdalansın? Burda nə var? Deyir, sənin işin döy! Sən apar bunu zərgərin yanına.

Bu gəler zərgərin yanına. Deyir ki, xanımım deyir ki, bu daşı xırdalasın mənə versin. Zərgər baxer ki, o qədər qiymətdi daşdı bunun nə qədər var-dövləti var hamsını yığsa da, bunun daşının pulunu ödüyəmmijəh. Deyir ki, ay ana, bu bahalı daşdı, məndə o qədər pul hanı onu ödüyəm! Sən yaxşısı budu bunu apar patcahın xəzinəsinə, qoy patcahın xəzinəsində bunu xırdalasınnar! Deyəndə, arvad qulağına inanmer. Deyir, yaxşı!

Yavaş-yavaş geder utana-utana patcahın xəzinəsinin yanına. Xəzinədara deyir ki, xanımım deyir ki, bunu xırdalasın. Xəzinədar belə baxer, deyir ki, təkcəmi gəlifsən? Deyir, hə! Deyir ki, bə sən o boyda pulu nətəər aparajaxsan? Deyir, nə qədər puldu? Birtəər aparajam. Xəzinədar geder iki meşoy pul gətirer, arvadın yanına qoyor ku, al, bu iki meşoy pul sənin o dənənin qiymətidir. Apar birini qoy, sonra da gəl o birini apar. Arvad gətirer meşoyu qızın yanına. Deyir, ay qızım, sənin xəvərin varmı ki, o daş bu qədər qiymətdidi. Deyəndə, deyir ki, yox! Deyir, hə. Qız deyir, elə bumu elədi? Deyir yox, hələ pulun yarısı ordadı. Qayıder geder, pulun yerdə qalanını da gətirer. Qız deyir ki, ay ana, mən iş göröjəm, ancax sənnən təvəqqəm, xayişim odu ki, mən nə iş görsəm, soruşma da. Qoy

öz bildiyim kimi öz işimi görüm. Deyir, yaxşı. Deyir ki, gedərsən patcaha deyərsən ki, patcah sağ olsun, icazə ver, bizim evdən bir az anrıda çay axer, çayın üstündə körpü var, o da uçux körpüdü, qırılıfdı, camaat çayı keçməy üçün ayağını soyunor sudan keçer. İcazə ver, mən orda bir körpü saldırem. Patcah nə desə, sən onu gələr mana deyərsən.

Bu gəler patcahın yanına. Gələndə patcaha xəvər verellər ki, Qorxax İsgəndərin anası səni görmək isteer! Deyir ki, ona nə isteer verin, yəqin ki, ajınnan gəliflər. Ona bir az ənam verin, aparsın. Arvadın yanına gəlellər, arvad elə ağzını açıf deməy istiyəndə, deyillər bu saatca gözdə. Gedellər, bir qav anrı-bəri qavqarıf gətirellər ki, patcah dedi aparsın yesin, bir də mənim qapıma gəlməsin!

Arvad utandığınnan heç nə demer. Bu şeyləri də götürör, gəler qızın yanına. Deyir ki, dedinmi patcaha, nə dedi? Deyir, vallah, patcah heç məni qəbul eləmədi, soruşmadı. Əksinə, patcah dedi ki, onu verin, deyin, bir də mənim qapıma dilənməyə gəlməsin! Qız deyir, eləmi dedi? Bu deyir, hə! Deyir, yaxşı, eybi yoxdur, ana! İndidən sonra sən heç kəsə heç nə demə, nə də işin olmasın. Amma, deyir, gedərsən yaxşı ev tikə bilən, hörgü hörə bilən, hasar çəkə bilən ustalar tapar, mənim yanıma gətirərsən. Arvad deyir, ay qızım, hansı pulnan, sən nəynən tikdirersən? Bizim o qədər pulmuzmu var? Deyir, sənin işin yoxdu.

Arvad geder yaxşı ustalardan taper, gətirer. Deyir ki, bizim görüləcək işimiz var. Başqasına neçiyə hörürsüz, tikirsinizsə, ikiqat qiymətini verəjeyih! Yaxşı ustaların hamısını yığer gətirer. Qız yaxındakı qonşularının da evlərinin pulunu verer, hamısının evlərini satın aler. Ustalara deyir ki, pütün evləri sökərsiniz, bu evlərin yerində böyük bir imarət tikərsiniz! Elə bir imarət tikərsiniz ki, bir daşı qızıldan, bir daşı gümüşdən olujax! Qız hər tərəfə car çəker, bir-bir o nar dənələrini başqa-başqa şahlarda, başqa-başqa yerrərdə, xəzinələrdə xırdalada-

xırdalada dünyanın qızılını gətirtdirer, gümüşünü gətirtdirer, başdıyır ev tikdirməyə.

Deməli, patcah bir gün görür kü, gejədi, amma, evinə işıx tüşör. Deyir, bu nə işıxdı? Yaxşı, hər tərəf qarannıxdı, amma mən sarayımın bir tərəfinə gələndə görörəm işıxlaner. Aynadan baxer, görör nəsə par-par yaner. Deyir:

– Vəzir, bu nə işdi, o parıldıyan, yanan?

Deyir ki, şah sağ olsun, xəvərin yoxdurmu? Deyir:

– Yox.

Deyir ki, kiçik qızın ev tikdirir! Deyir:

– Nəynən tikdirer, nətəər tikdirer?

Deyir:

– Ayın işığı sənin kiçik qızının evinin üstə tüşör, ordan saraya tüşör. Ona görə də o parıldıyır. O, sənin kiçik qızının evidi[65]. Hələ yenicə qalxer.

Şah deyir, elə şey olmaz! Deyir, şah sağ olsun, gözdə, ev hazır olanda görərsən! Deməli, qırx otaxlı imarət tikdirer, hasar çəkdirer, çoxlu qulluxçu qaravaş yığer, evində hər cür şərait düzəlder, çayın üzərindən körpü saldırer, qarollar qoyduror. Qarollara tapşırer ki, bu çayın üstünnən, körpüdən birinci dəfə İsgəndər keçməlidi. Hər şeyi hazır eliyir. İl tamama yaxınnaşer. O biri tərəfdən də İsgəndərgil gedellər, mallarını satellar, təzə mallar alellar. Karvan gəler. Karvan gəlməmişdən qavax çapar xəbər gətirer ki, bəs deməzsənmi, karvan gəler, İsgəndər də içində gəler. Qız əmr eliyir ki, qapıçılar, hazır durun, İsgəndər gələndə, birinci dəfə körpüdən, İsgəndər keçməlidi. İsgəndəri keçirellər. Ordan gəlellər. İsgəndər küçələrinə gələndə görör kü, buların evi yoxdu, onun yerində imarət qalxıf. İsgəndər deyir, yəqin patcah buraları alıf ev tik-

---

[65] Söyləyici epizodları qarışdırır, əslində evi qızının tikdirməsindən padşah sonradan xəbər tutmalıdır.

dirif. Görən mənim anamı, arvadımı neynədi, harıya qovaladı. Təzdənnən evin yanınnan başıaşağı qanıqara keçəndə, qız da yuxarı küləfirənkdən baxermış. Görör kü, İsgəndər gəldi, evin yanınnan keçəndə bir köhsünü ötürdü, kirimişcənə düz keçdi. Qaravaşdarı göndərer ki, gedin İsgəndərin yanına, deyin ki, evini qoyuf harıya geder? Qaravaşdar gəler ki, ağam, xanım sizi çağırer. Deyir evi qoyuf hara geder? Deyir, xanımın kimdi? Deyir, şahın qızı. Deyir ki, bə mənim burda evim yox, eşiyim yox, şah qoyarmı ki, mən onun imarətinə girəm? Deyir, ağam, xanım sizi çağırer. Nə lazım olsa, xanım sizə dejəh.

Gətirellər, İsgəndəri birinci hamama salellar, çimizdirellər. Onnan sonra qəşəh şaha ləyax libas geyindirellər. Onnan sonra da yuxarı mərtəbəyə arvadının yanına çıxardellar. Yuxarı çıxanda görör ki, doğrudan da, bu öz arvadıdı, burda xanım kimi oturufdu. Qız qalxer əyağa, buna baş əyer. Deyir:

– Ağam, evinə xoş gəlifsən! Nətəər olur ki, sən evini qoyuf düz keçersən?

Deyir:

– Sən bu qədər varı-dövləti hardan aldın, bu imarəti tikdirdin? Axı sənin heç nəyin yoxuydu.

Deyir ki, düzdü! Mənim heç nəyim yoxuydu. Amma sən qazandın, göndərdin, mənim hər şeyim oldu. İsgəndər deyir, sən məni ələ salersan! Sən düz demirsən. Sən atannan alırsan bu var-dövləti! Ona görə də mən bu evi qəbul eləmerəm. Mənə anamın köhnə daxması lazımdı. Əgər mümkündüsə, biz gedək anamın köhnə daxmasında olax. Deyir:

– Ay İsgəndər, nə danışersan? Bu ev sənin qazancınnan tikilifdi. Sən özün qazanıf göndərifsən, mən də tikmişəm – deyəndə, deyir:

– Axı mən o boyda pul göndərməmişəm. Sizə pal-paltar göndərmişəm, nə göndərmişəm.

Deyir:

– Üş dənə də nar göndərifsən.

Deyir ki, nar göndərmişəm. Nar pul demək döyül! Deyir, İsgəndər, narı sana kim verib, nə cür qazanıfsan bilmerəm. Sənin o narrarının dəyəri elə bil dünyanın yarısı qədərdi. Hələ mən üç-dörd dənə nar dənəsi xərşdəmişəm! Qız başdıyır əhvalatı danışer ki, o narın içində belə dəyərri şeylər var. Sən onu hardan alıfsan? O da olanı danışer ki, məni ölümə göndərifləmiş quyunun içinə ki, ölsün, qalsın. Mənim də o sözümə görə, bu adam bu narı mana verdi, özü də məni quyudan çıxartdı. Qız deyir ki, daha bu sənin halal qazancındı, ağılnan, düşüncəynən qazanıfsan. Mən də tikif qurmuşam. İndi atamı bizim evə qonax çağırajam. Qoy atam gəlsin, görsün onun bəyənmədiyi kürəkən, bir də bəyənmədiyi kürəkənə verdiyi qız nə vəziyyətdədi.

Patcah imarətnən maraxlananda vəzir qızının tikdiyini demer. Deyir kimsə tiker. Patcahı da marax bürüyür ki, bu imarət kimindi, kimin döy? Nə qədər elellər heç kəs gedif bir məlumat topluya bilmir ki, bu imarət kimindi, kimə tikilir. Çünki hasarın içində iş gedif, heş kəs də demir ki, imarət kimindi.

Bir gün xanım adam göndərer ki, gedif patcaha deyərsən ki, kiçik qızın qonax çağırer səni. Patcah deyir ki, mən nağayrem? Evladımdı, kiçik qızımdı, bu qədər vəzirinkinə, vəkilinkinə kömək eliyirəm, sevəliyirəm. Amma mən o qızımı gözdən salmışam. Bu qədər də olmaz. Yazıxdı, gedem gönlünü alem. Deyir, vəzir, hazırraş, kiçik qızımın evinə qonax gederik! Bir az da ehtiyat, yemək-içmək, ərzaq-zad götüröllər, gəlellər. Patcah gəler, gəler, görör kü, böyük bir imarət tikilif, gözəl küçə, gözəl körpülər. Deyir ki, vəzir, bizi deyəsən bu evə qonax çağırıflar. Bura kimindi? Deyir, mən də bilmerəm. Gedək içəri, içəridə bilərik. Gəlellər, içəri girəndə deyir ki, şah sağ olsun, bizim sarayımızın qaydası, qanunu odu ki, birinci gərək girif hamamda çiməsiniz. Qız tafşırıf ki,

oları qəşəh çimizdirersiniz, yedirdersiniz, sonra mənim yanıma çıxardersınız.

Patcah deyir ki, vəzir, bu nə olan işdi? Deyir, girək çimək. Girellər ki, hamamın içindəki pütün əşyalar qızıldandı, gümüşdəndi. Deyir, vəzir, mən dəhşətə gələrəm! Bura baxanda, bunun sahibinə baxanda mənim varım yoxuymuş. Bir belə var-dövlət buna hardandı? Kimdi bu? Deyir, patcah sağ olsun, səbr eylə, öyrənəjeyih! Hamamnan çıxannan sonra bulara daş-qaşlarnan bəzənmiş libasdar gəler. Əyninə geyiner, sonra bulara süfrə açıler. Süfrədə pütün qavlar-qaşıxlar qızıldan. Deyir, yox, vəzir, daa mənim ürəyim yatajax! Mən öyrənməliyəm, görəm bunun sahibi kimdi, bu var-dövləti hardan tapıf? Yiif qutarannan sonra buları aparellar pərdəli bir yerə, orda kimsə oturuf. Patcah da bu tərəfdən vəzirnən gəler oturor. Bu pərdənin dalınnan deyir, xoş gəlifsiniz! Patcah deyir, sağ ol! Amma kimsən, üzünü aç bizə gösdər? Bir də kimliyini de, kimin evinə gəlmişik? Deyir:

– Siz Qorxaq İsgəndərin öyünə gəlifsiniz, – deyəndə patcah belə duruxor. Deyir:

– Ola bilməz! Necə yəni, bura Qorxaq İsgəndərindi?

Deyir:

– Bəli, Qorxaq İsgəndərin evidi. Ağılsız, fərasətsiz, tənbəl bildiyiniz Qorxaq İsgəndərin evidi.

Pərdeyi çəkəndə göröllər ki, qızınnan İsgəndər pərdənin dalında oturufdu. Patcah deyir ki, mən bir belə əyalətdə adam işdəderəm, qazaneram, ancaq mənim sarayımda sənin bu stolunun üstündəki qədər qızıl-dövlət yoxdu. Sən bunu hardan, nədən əldə etdin? Qız deyir ki, patcah sağ olsun, mən ər seçəndə, sən mana sərbəstdiy verdin. Mən də elə bir adamı ər seçdim ki, o insanın heç bir qabiliyyəti, fəsaratı olmasın. Mən onu təlim eliyiv, öyrədif pul qazandırajam. Sənin varında, dövlətində, malında gözü olmasın. Bu mənim tapdığım hamıdan qorxan,

fərasətsiz, Qorxaq İsgəndərim! Bu da mənim bu həddə gətirif çatdırdığım İsgəndərin varı-dövləti! Patcah belə baxer, deyir ki, sən onu bu həddə, bu vara-dövlətə çatdırıfsan, mən razıyam. Geyiminə, libasına baxeram, mən razıyam. Amma onun bir şeyi çatmer. Deyəndə, qız deyir ki, nəyi çatmer? Deyir, onun başının tacı çatmer! Mən, vəzirin də oğlunu gördüm, vəkilin də oğlunu gördüm. Yəni oların hər gün ağızdarınnan çıxan söz mənim şahlığıma nə vaxt keçəjəhləri olufdu. Amma sənin Qorxaq İsgəndərin... Mən indi sənin imarətinə baxanda, öz imarətimnən utaneram. Sənin imarətin şahlıx imarətidi. Ona görə də mən öz sözümü geri götürörəm. Qızım, səndən üzr istirəm, Qorxaq İsgəndəri də yerimə varis kimi patcah qoyoram.

Təzdən patcah deyir ki, qızıma toy eləməmişəm, amma indi qırx gün şadyanalıx eliyək. Qorxaq İsgəndər yox, patcah İsgəndər kimi də onu taxta çıxardax. Bunnan da nağıl kutarer.

**38[66].**

Bir İsgəndər varıydı, bu padşah idi. Bu İsgəndər həmişə oya çıxıf, oyda vəzirinnən hərrənerdi. Bir balaca oğlan qaratikən gətirif satıf çörəkpulu qazanardı həmişə özüçün, anasıçün. Yetim idi, atası yoxuydı. Bir gün padşah dedi ki, a bala, sənin adın nədi? Dedi:

– Mənim adım İsgəndərdi, – deyəndə nəzir verməh isteerdi, əlini saxladı. Padşah vəzirə dedi ki, mənim də adım İsgəndər olsun, bunun da. Dedi:

– A kişi, ad bostan tağıdı, dünyə doludu İsgəndərnən. Hamı qoya bilər.

– Bu nə deməhdi?

Bunun ajığı tutdu, saraya qayıtdı. Gəldi öydə qızına dedi kin, qızım, yaman ajığım tutuf, nervilənmişəm.

[66] Söyləyici bu nağılı “Yetim İsgəndər” adı ilə təqdim etdi.

– Nəyə görə?

– Ona görə ki, oya çıxmışdım, bir uşaxdan adını soruşdum, dedi adım İsgəndərdi.

Bu da vəzir kimi qayıtdı dedi:

– Ata, mehribanın olum, ad bostan tağıdı, kim istəsə qoya bilər. İsgəndər olanda noolor?

Kişinin ajığı tutur, qızını evdən qoaladı o biri İsgəndərin öyünə. İsgəndərin dərdi biriydi, oldu iki. İkiydi, oldu üç. Öz dərdinnən anasının dərdi ayrıydı, bu da gəldi, oldu üç.

Bir gün belə, beş gün belə. Bir gün karvan gəldi. Necə insannar Urusiyetə gedən kimi karvan gəldi. Dedi:

– Ana, mən gederəm pul dalınnan, qazanc dalınnan. Pul göndərəjəm, dolanın mən gələnətən.

Bu getdi karvana qoşuldu. Az getdi, üz getdi, dərə-təpə düz getdi. Çöl qoydu biyaban kəsdi, biyaban qoydu çöl kəsdi, gəlif çıxdı bir quyunun başına. Karvan düşdü. Dedilər:

– İsgəndər, səni quyuya salajeyih bu karvan susuzdu, vedrələri doldurarsan, biz çıxardax.

Bular heyvannarı suladı, karvannarı suladı, suluyannan sonra uje İsgəndəri çıxarası olmadılar. İsgəndər çağırdı ki, məni quyudan çıxardın. Olar çıxartmadılar. Karvan getməhdə olsun, sana hardan xavar verim, İsgəndərdən. İsgəndər quyudan o biri otağa keçəndə gördü kün, taxtın üstündə bir döy yater. Döy bundan soruşdu:

– Ay yetim İsgəndər, xoş gəlifsən, safa gəlifsən, həmişə sən gələsən. Nə yaxşı bu tilsim sana açıxdı? Saa bircə sual verəjəm, əgər sən mənim sualıma cavab verdin, dünya malınnan səni qəni elijəm. Yox, verəmmədin, səni parçalıyajam.

Bu fikirrəşdi ki, görən mana nə deyəjəh. Dedi kin, dünyədə nə gözəldi, nə şirindi? Dedi:

– Dünyədə göz tutan gözəl olar, şirin olar.

Döy altı göz nar, bir dənə cöyüzün içində iynə batmaz, qaçı kəsməz padşah paltarı verdi, burdan da çıxartdı işıxlı dünyaya. Dedi:

– Çıx get.

Baxdı kin, quyunun başında karvannan bir pişik qalıb. – Niyə İsgəndər ona dedi kin, göz tutan gözəl olar? Belə baxdı kın, taxtın əyağında qurbağa var. Ona görə elə dedi. Döylər həməşə qurbağaya aşiq olar. Döylərin toyunu çalan qurbağa olar. İynə batmaz, qaçı kəsməz padşah paltarı, altı dənə də nar verdi kin, burdan keç. – Baxdı kın, quyunun başında bir dənə pişih qalıb. Pişih miyıldıyır. Döydən bir qismət çörəh almışdı, onu atdı, pişih yidi. Gördü kün, bir karvan da gəldi. Gəldi, bunu suladı, bularnan da narı göndərdi. – "Al bunu apar, anama verərsən".

Bu burda sulamaxda olsun, üçüncü dəfə karvan gedənnən sonra özü də bulara qoşuldu getdi. Getdi gejə bir şəhərə çıxdı. Gördü kün, öy yiyəsi puloy pişirir. Hərəsinin əlində bir toxmax. Bu dedi:

– Nədi, bu niyə belədi?

Öy yiyəsi dedi ki, bizim əlimizdə toxmax olmasa, biz siçannarın əlinnən aşı yeyə bilmərik. Tez pişiyi torvadan çıxartdı. Pişiy bu siçanı burda öldürdü, o siçanı orda öldürdü. Kəndin adamları bu pişiyi istədi. Dedi:

– Yeddi dəvə yükü qızıl verəh, bu pişiyi bizə ver.

Bu, yeddi dəvə yükü qızılı aldı, pişiyi bulara verdi. Dəvələri yühlədi, yavaş-yavaş yol getməhdə olsun, gethaget gəldi çıxdı. Gördü kün, evlərinin yerində bir imarət var, padşahın imarəti bunun yanında qaz damıdı. Yaxınnaşdı, qaravaşa dedi ki, öy yiyəsinə denən ki, Allah qonağıyam, məni bu gejə qonax saxlasın, savah çıxıf gedərəm. Qaravaş gedif xazeynə diyəndə dedi kin, Allaha da qurvan olum, qonağına da, gəl. Bu içəri girdi, nə anasını tanıdı, nə yoldaşını tanıdı.

Təzdənnən otdular gejə söhbətə başdadılar. Danışdılar, danışdılar, sonra anası tanışdıx verdi. Dedi:

– Oğul, tanımadınmı ananı?

Dedi:

– Ana, bu damı, daşı nəynən...

Dedi:

– Oğul, sən göndərdiyin narın parasınnan tikdirmişəm. Dənələri ləli-cavahardı, onnan tikdirmişəm. Öz qazancındı.

Bular burda bir qədər dolanmaxda olsun. Gəvə toxuyannarın, cəhrə əyirənnərin, darax darıyannarın hamısını yığdı İsgəndər. Burda gəvə toxutdu, hər şey elədi.

Bir gün padşah İsgəndər oya çıxmışdı. Belə uzaxdan baxdı, gördü burda bir imarət var, kərpicinin biri qızıldan, biri gümüşdən. Dedi:

– Ay vəzir, bu mənim ya oğlum oloydu, ya göyüm[67] oloydu. Gəl orıya edəh. Gedəh, ajmışam, bir kısmat çörəh yiyəh.

Gəldilər oturdular, yidilər, işdilər, həmin sözü də təkrar elədi. Padşah dedi, bu mənim ya oğlum ola, ya göyüm. Deyəndə dedi:

– Ay ata, mehribanın olum, tanımadınmı? Həmin yetim İsgəndərdi.

Padşah İsgəndər başınnan tacını çıxartdı yetim İsgəndərin başına qoydu. Bu oldu padşah. Bu İsgəndər o qədər böyüdü, balıxdan, qarışqadan, sudan, aydan, günnən, hamısınnan xarac aldı. Xıdır Nəbiyə sual verdi ki, mən havaxt öləjəm? Dedi ki, sənin havaxt altın polat, üstün polat olajax, onda öləjəhsən. Daha sonra dedi, qoşun topla, get, abi-kövsər suyunnan içsən, ölməzsən.

Qoşun topladı, yola düzəldi. Dəvələr yühləndi. Dağlardan aşdılar, təpələrdən keçdilər, gəlif çıxdılar həmin dağın

[67] Göy – kürəkən

başına. Ağac yox, daş yox, bir düzəngahdı. Yeddi dəvə yükü samanı Xıdır Nəbi tökə-tökə getdi, İsgəndər də onun dalıynan. Yeddi gün, yeddi gejə gedif çıxdı abi-kövsər suyuna. Sudan doldurdu tuluğa. Dedi: "Arvadım da işsin, anam da işsin, özüm də içim, ölmüyüm". Tuluğu eşikdən asdı. Gün istiydi, tüfəngdən çadır qurdular, tüfəngdən taxt saldılar. İsgəndər üstünə çıxanda dedi ki, ay yandım, su verin içim deyəndə dedilər saxsağan tuluğu deşif.

Xıdır Nəbi dedi:

– Vəsiyyətini elə, əcəlin tamamdı.

Dedi:

– Anama deyin mənim ehsanımın altında o ağaşdan yandırsın ki, putağı düşməmiş olsun. Mənim üstümdə elə adam ağlasın, ölüsü ölməmiş olsun. Məni elə adam dəfn eləsin, dərdi-qəmi olmasın. Bir də mən öləndə əlimi qabırdan çölə qoyarsan.

Qəfleyi-qatır yühləndi, kəcavələr gəler. Anası uzaxdan gördü, qavağına çıxdı. Dedi:

– Ay Xıdır Nəbi, dərdin alem, oğlum nə vəsiyyət eleef?

Dedi:

– Ay ana, oğlun dedi ki, mənim ehsanımın altını o ağacın odununnan qalasın ki, putağı düşməmiş olsun. Üstümdə o adam ağlasın ki, ölüsü düşməmiş olsun. Məni o adam dəfn eləsin ki, qəmi olmasın. Bir də mən öləndə əlimi qavırdan çölə qoy.

Bular ağlaşdı, ehsan verildi. Dedi:

– Ay bala, bu nə deməkdi?

Dedi:

– Ana, sana təsəlli verir.

Apardılar salladılar, nə qədər elədilər əlini qavıra qoyammadılar. Xıdır Nəbi bir xışma torpax tökəndə əlini qavıra

çəkdi. Dedi, ay ana, oğlun gündən, aydan xarac aldı, axırı əliboş getdi, torpaxdan gözü doymadı.

## 39. BİR İŞ GÖRƏNDƏ FİKİRLƏŞ

Bir vilayətdə ədalətdi bir patcah var idi. Xalq arasında o qədər hörməti var idi ki, ona görə həmeşə onu patcah seçerdilər. Bir gün iş günü döyüldü, vəzirnən söhbət eliyirdi. Vəzirnən söhbət eliyəndə gördü şəhərin bütün əhalisi bir tərəfə eder. Dedi:

– Vəzir.

Dedi:

– Hə.

Dedi:

– Bu küçöynən camaat belə axıner. Get gör bu nədi ki, camaat o tərəfə geder.

Vəzir getdi, gördü pirani, nurani bir kişidi. Bir az hündürdə oturub, hərəyə bir söz deyir, pulunu aler cibinə qoyor. Bu da oçiretə durdu arxada. Hamı dedi ki, qoyun vəzir gəlsin. Söz deyib pul alan bildi ki, vəzirdi gələn. Bu camaat oçireti qutaranda oçiret vəzirə çatdı. Vəzir salam verdi. Dedi:

– Ağsakqal, sən nə alıf nə satersan?

Dedi:

– Vəzir sağ olsun, mən qiymətdi söz sateram.

Dedi:

– Sat da.

Gəldi, patcaha baş əydi, dedi:

– Patcah sağ olsun, bir qoja, nurani kişidi. Deyir mən söz sateram, qiymətdi söz.

Adam yolladı, dedi:

– O kişiyi gətirin.

Kişi gəldi, ədəb-ərkannan patcaha salam verdi. Patcah stul görkəzdi, dedi:

– Əyləş.

Dedi:

– Ağsakqal, sən nə alıf nə satersan?

Dedi:

– Patcah sağ olsun, mən qiymətdi söz sateram, – deyəndə dedi:

– Mana görə qiymətdi sözün varmı?

Dedi:

– Patcah sağ olsun, sizin adresi eşitmişəm, ədalətdi bir patcahsınız. Ona görə mən neçə illərdi söz sateram. Patcaha adi söz satmamışam. Bircə qiymətdi sözüm var, onu sana sataram.

Dedi:

– Sat, qiyməti neçəyədi?

Dedi, məsəlçün, min dollar. Padşah çıxartdı verdi, dedi:

– Buyur, eşiderəm.

Dedi:

– Patcah sağ olsun, ədalətdi patcahsan, birinə ajığın tutdu və yaxud biri çuğulluğ elədi ki, filankəs bədinə danışer, filankəs belə oldu, tez deyirsən dar ağacı qurun, bunu dar ağacınnan asın. Sonra məlum olor ki, bu günahsız asılıf və yaxud buna günahsız cəza verilif. Onda peşmançılıx çəkərsən. Bir iş tutanda fikirrəş tut, – deyəndə patcah vəzirə dedi ki, vəzir, nəmər ver kişiyə.

Kişiyə nəmər verdilər, kişi yoluna rəvan olub gedənnən sonra patcah elan verdi ki, kim nə iş görsə, fikirrəşsin görsün, gələcəkdə peşmançılığın çəkməsin. Bütün idarələrin qavağına, müxtəlif yerrərə yapışdırtdı.

Patcahın bir dəlləyi var idi. Ağac saplı ülgücnən patcahın başını qırxerdı. Büyün patcahın başını-üzünü düzəltmək vaxtıydı. Dəllək eşiyə çıxdı, hərrəndikcə gördü hər yerə yazılıb: “Kim nə iş görsə, fikirrəşsin görsün, sonra peşmançılığını

çəkməsin”. Gəldi dəlləkxanasının qavağına, gördü bura da yazılıb yapışdırılıf ki, sonra peşmançılığını çəkmiyəsən.

Vəzir gəldi, salam verdi:

– Ayə, dəllək, nə var, nə yox?

Dedi:

– Sağlığın.

Dedi:

– Ayə, dəllək, sənin vəziyyətini bilerəm, kasıb adamsan. Sənnən bir söz soruşum.

Dedi:

– Soruş.

Dedi:

– Əmbə öz aramızda qalsın, patcah bilməsin bunu.

Dedi:

– Canın üçün, bilməz. Niyə bilsin ki? Öz aramızda bir söz deyirsən.

Dedi:

– Patcah sənə nə qədər pul verer aylıx? – deyəndə dedi, bu qədər pul verer. Dedi:

– Ay zalım, axılın çatmır. Ayə, sənə bu qədər pul verməlidi. Bilersən niyə ucuz verer? Ona görə ki, sən ağaş saplı ülgücnən patcahın başını qırxersan. Patcaha qızıl saplı ülgüc lazımdı. Bu qızıl saplı ülgücnən patcahın başını qırx, sənə yüksək pul versin. Patcah deyir ki, mən böyük patcaham, başıma qızıldan, gümüşdən tac qoyuluf. Məni niyə ağaş sapnan qırxır? Onun üçün sənə az zəhmət haqqı verer.

Bu fikirrəşdi, dedi:

– Yaxşı, buyur.

Gətdi, dəlləkxanada güzgünün qavağına bunu qoydu, otdu fikirrəşdi, dedi: “Allah, eşiyə yazılıb ki, kim nə iş görsə, fikirrəşsin görsün, sonra peşmançılığını çəkməsin. Birdən bu qızıl saplı ülgüc korş olar, patcah mənim nəslimi kəsər. Ona

görə neynirəm qızıl saplı ülgücü". Həmin ülgücü bir kənara qoydu, başladı ağac saplı ülgücnən qırxmağa. Yarı başını qırxmışdı patcahın gözü qızıl saplı ülgücə sataşdı. Dedi:

– Ayə, dəllək, o nədi?

Dedi:

– Patcah sağ olsun, qızıl saplı ülgücdü.

Dedi:

– Mənim başımı niyə qırxmırsan onnan?

Dedi:

– Patcah sağ olsun, mənim dəlləkxanamın qavağına yapışdırıflar ki, patcahın əmridi, kim nə iş görsə fikirrəşsin görsün, sonra peşmançılığın çəkməsin. Bunu vəzir verib mənə ki, patcahın başını bunnan qırx, sana ağır nəmər verəjək. Mən də fikirrəşdim ki, birdən korş olar, sənə ziyan eliyər, sən də mənim nəslimi kəsərsən. Ona görə qırxmadım.

Tez köməkçisini çağırdı, dedi:

– Vəziri çağırın buruya.

Vəzir gəldi hökələşmiş[68]. Dedi:

– Bu ülgücü sənmi veribsən?

Vəzirin nitqi tutuldu. Dedi:

– Ə, gəl ustolda otur.

Ustolda oturtdu vəziri, ülgücü vəzirin başına qoyan kimi – zəhərli idi, – vəzir öldü. Dedi:

– Dəllək, bu günnən sən vəzirsən.

İndi, həqiqətən də, belədi. Məsəlçün, qapı qoyasıyıx, fikirrəşmədən bir mismar çalerıx. Fikirrəşmerik ki, bu hansı tərəfə açıler, qoyan kimi mismarı çalerıx. Ona görə də gərək bir iş görəndə fikirrəşif görəsən.

---

[68] Hökələşmiş – həyəcanlı

## 40. ÜÇ AĞILLI SÖZ

Biri var idi, biri yox idi, Allahın bəndəsi çoxuydu. Bir gün bir şah vəzirini də götürüf yolnan gederdi atdı. Gedəndə gördü kü, bir kişi yolun içində oturuf torpağnan külü bir-birinə qatıf, üç yerə topba-topba yığıf. Bu atı sürüf munun yanınnan gedəndə bu kişi dedi ki, ə, atını qıraxdan sür, torpağımı dağıdarsan.

Dedi:

– Nolar dağılanda, torpağını gənə yığarsan.

Dedi:

– O qiymətdidi, sən onu verif ödüyəmməzsən.

Dedi:

– Nədi?

Dedi:

– Hərəsi bir abbası qızıl pul. Özü də mənası çoxdu.

Dedi:

– Verərəm qızıl pulu, torpağın birini alaram.

Vəzirə işarə elədi, bir abbası qızıl pulu verdi, torpağı aldı. Dedi:

– Bu nədi?

Dedi:

– Bu, ağasına etivar eliyənin başına.

Dedi:

– İkinci quçqanı[69] de.

Dedi:

– İkinci quçqam da bir abbası qızıldı.

Dedi ki, abbasını ala, indi bunu de. Dedi:

– Bu da yaddan qardaş tutanın başına.

Dedi:

[69] Quçqa – topa, yığın, qalax

– Yaxşı.

Üçüncüyü də verdi. Dedi:

– Bu da arvadına etivar eliyənin başına, yad qızıdı.

Dedi:

– Yaxşı.

Bu vəzirə dedi ki, munun üçünü də tüş dağıt. Vəzir tüşdü torpağı dağıtdı, ələh-vələh elədi, içinnən heç nə çıxmadı. Dedi, elə mənalı sözdəri budu? Bular atı sürdü, getdi. Patcah dedi:

– Ey dəli başı batmış, haranın dəlisiydi. Verdik, verdik də, biz də kefqom adamlarıx.

Bular getdilər öz işdərinin dalınnan. Gün o gün oldu ku, vəzir muna dedi ki, mən ağamı sınejam. Yolda üç abbası pul verdik o torpaxları aldıx, görək bu nə deməkdi. Şahın bir sevimli ceyranı var idi. İşdən sonra axşamlar bu ceyranı oynaderdı, gününü keçirerdi. Bu istəkli ceyranını bir gün görməsə, ürəyi çatdıyardı. Şahın ceyranına vəzir baxırdı. Bu vəzir munun ceyranını oğurradı, apardı başqa bir yerdə gizdətdi. Bir dostuna dedi, bunu gizdət iki günnüyünə, işim var. Bir çəpiş aldı, kəsdi, pükdü ağa, qoltuğuna ötdü, arvadına getdi.

– Arvad.

Dedi:

– Bəli.

Dedi:

– Arvad, şahın ceyranını oğurruyuf gətmişəm, kəsmişəm, munu pişir, bir yaxşı yiyək.

Dedi:

– Öyün yıxılsın, şah səni şişə taxar, şahın ceyranını oğurramaxmı olar? Adam yidiyi çörəyə xəyanətmi eliyər?

Dedi ki, kəs səsini, qancıx. Sənin nə işinə qalıf? Öyün kişisi mənəm, mən bilərəm.

Dedi:

– Yaxşı.

Ətin yarısını doğradı qazana tökdü. Arvad bir ləzzətdi bu əti pişirdi. Arvad anrı – o birsi otağa geçif qab gətirməyə gedəndə vəzir durdu, əlini saldı, bir yekə çəngə duzu xörəyin içinə tökdü, tez qarışdırdı, gəldi yerində oturdu. Arvad gəldi, xörəyi çəkdi qavağa ətdi, əllərini uzadıf "pissimillah" deyəndə gördülər ilahi-pərvərdigarə, bu duzun içində qaynıyıf. Bu duzdan qırnəməko ağıza vurulası döy.

– Ağız, munu niyə belə eliyifsən?

Dedi:

– Vallah, mən muna belə...

Dedi:

– Vallah səni kor eləsin.

"Tfu" dedi arvada bir, beş, iyirmi beş yapışdırdı. Ağzın, burnun qanını bir-birinə qatdı, saçını yoldu, paltarını cırdı. – "Qancıx, mən bu ceyrana əziyət çəkmişəm, şah bilsə, mənim dərimə saman təpəjək". Arvad dedi ki, köpəyoğlu, gör sənin başına nə oyun gətirdəjəm. Səni bu saatca dama qoydurum, özün bil. Arvad öydən çıxıf qaçanda, vəzir gəldi munu tutdu, yalvardı, yapışdı. Nolojoydu? – Arvadın başı milcək olsa, divi qılcaxdı. Üzr istiyirəm. – Qılıxladı gətdi öyə. Ağzının, burnunun qanın-zadın yudu, dedi:

– Arvad, zərəl yoxdu, bir səyfdi eləmişəm, eləmişəm.

Bular yatdılar. Savah vəzir dedi ki, bu ətin yerdə qalanını da indi pişir. Arvad yenə bu əti pişirdi, xörək hazıra çıxanda arvad, nəvilim, eşikdən qav gətirməyə çıxdı, çağırana cavab verməyə çıxdı, vəzir bir qav soyux suyu götdü bunun üstünə əldən qoydu. Qaynıyıf hazıra çıxmış ət xörəyin üstünə soyux su tökmək – bu nə deməkdi? Bu oldu lılıx-mılıx bir heşnəmənə. Arvad gəldi, xörəyi çəkdi. Gördü bu deyən döy. Ürəyindəjə dedi, yekunum da burda vurulajax. Xörəyi stolun üstünə ətdi. Kişi əlini uzadanda dedi:

– Sənin ananı, atanı, qardaşıyın kürəyini... Axşamkını qırməməko elə, savahkını belə elə. Mən ceyran oğurroom gətirim, mənim başıma... Sənnən mana arvad olmaz.

Arvadı bir yaxşı əyaxladı. Arvad əlinnən çıxan tumanın balağı əlində şahın qapısına. Yüyürə-yüyürə, çığıra-çığıra gederdi. Şah küləfirəngidə oturmuşdu. Gördü vəzirin arvadı çığıra-çığıra gəler. Qulluxçulara dedi:

– Ə, gör o nədi, noluf? Vəzirmi ölüf? Vəzirin arvadıdı.

Qavağına endilər. Üstü-başı cırığ, ağzı-burnu qannı.

– Ağız, nədi, noluf?

Dedi:

– Mən şahın yanına getməliyəm.

Şahın yanına çıxır tənginəfəs. Dedi:

– Şah sağ olsun, ceyranın hanı?

Dedi:

– Ceyranım otaxda, həncəri hanı? İndijə də ərin yeməyini verif gətirəjəx, baxajeyih, oynojoyux.

Dedi:

– Get qapıyı aşdır.

Gedif qapıyı açanda gördülər ceyran-meyran yoxdu, otax boşdu. Qapı açıldı.

– Ay şah, ceyranın hanı?

Şah quruyuf əyağ üstə qalmışdı. Arvad dedi:

– Ceyranını axşamnan vəzirin oğurroof, kəsif aparıf. Axşam vəziyət belə yarandı, savah da belə yarandı. Axşamnan məni bir az da öldürdü, yoldan qaytardı gətdi. – Amma arvad demədi mən pişirmişəm. Özü pişirib hazırramışdı. – Savah da gedif şaha deyəjəm deyəndə məni üstümnən əyaxladı, öldürdü. Bu saat ət də qazanda, kişi də öydə.

Adam yolladı, getdilər gördülər vəzir öydə oturor. Düzdü, qazanda da ət var, elə lılıx-mılıx, heç hansını da atmıyıf. Vəzirin əllərini bağladılar, gətdilər. Şah dedi:

– Ay camaat, dar ağacı qurulsun, vəzir çəkilsin dar ağacına.

Camaat yığıldı, dar ağacı quruldu. İndi sana söylüyüm vəzirdən. Vəzirin bir dəsdə yaxşı qardaşdıxları var idi. Bir yerdə yiyif-içif "sən ölmə, mən ölüm" deyənnər, əl ştadıb[70] bakal qaldırannar, tulux açannar, şərab içənnər – bular hamısı əlini əlinə vuruf, qakqıldaşıf gülör kü, kül başına. Şahına, böyüyünə, xazeyninə haramlığ eləmiyeydin, elə də olmuyoydun. Çox haqq oluf. Sənin Nəsimi kimi dərin soyulmalıdı. Bu da eşiderdi. Dedi, yaxşı. Bir doğma qardaşı vardı. Bu da sayıldı, yazıq Bəhlul Danəndə kimi əlini qoynuna qoyuf o küşdə, bu küşdə bürüşüf ağlıyıf gözünün yaşını tökör ki, gənə hər nəydi bir qardaşım var idi, qardaşımnan da əlim cara çıxdı[71]. Bu qardaşı da burda. Arvad da patcahın böyründə oturuf, əyninə paltar-zad geyindiriflər. Ağzı-burnu yaralı-maralı. Deyir, köpöyoğlu, dədeyin goruna pox. Haqq elədimmi sana? Oğurramıyaydın, helə olmooydu. Vəzir baxdı, dedi:

– Ay camaat, neçə ildi mən bu şaha, bu adama itayət eliyirəm, qulluğ eliyirəm. Munun qulluxçusu, köməkçisiyəm. Dərdinə şərik olmuşam, öləndə ölmüşəm, diriləndə dirilmişəm. İndi mana cəllad amanı verin, mən danışajam.

Dedi:

– Nədi?

Dedi:

– Şah sağ olsun, filan ayın filan tarixində, filan vaxdı gedəndə biz yolda nə aldıx?

Şahın yadına tüşdü. Dedi:

– Üç harava torpax.

– Onun yiyəsi nə dedi?

Dedi:

---

[70] Əl ştatmaq – əl çalmaq

[71] Cara çıxmaq – əli üzülmək

– Birinciyə bir abbası qızıl verdik aldıx, dedi bu ağasına etivar eliyənin başına.

– İkinciyə nə dedi?

Dedi:

– Yaddan qardaş tutanın başına.

– Üçüncüyə nə dedi?

Dedi:

– Arvadına etivar eliyənin başına.

Dedi:

– Ay camaat, o külnən o torpax mənim başıma, sizin yox. Mənəm o. Ağama etivar eləmişəm – bir, arvadıma etivar eləmişəm – iki, yaddan qardaş tutmuşam – üç. İndi gedin, məsəl üçün, filankəsin damındakı qapıyı açın.

Bir dənə adam yüyürüf gedif ordan qapıyı açan kimi şahın ceyranı – bir az da vaxt keşmişdi, ajmışdı, – ordan çıxdı özünü camaatın arasınnan, burdan-ordan vurdu yarıxdı[72], gəldi şahın düz böyründə, dirsəyinin divində durdu. Şah əyağ üstə qalxdı, dili-dodağı əsə-əsə dedi:

– Ay, məni sınıyırmış. Məni istiyən, vəzirə xələt.

Dedi:

– Xeyir, mana xələt, nəmər lazım döy. Şahım, sənnən mana ağa olmaz, şah olmaz. Ay qardaşdıxlarım, gedin, sizdən mana qardaş olmaz. Ay arvad, sən də yad qızısan, get, səndən mana arvad olmaz. Ay mənim doğma, ana bir, ata bir yazıq, məzlum qardaşım, mənnən ötəri göz yaşı töküf əziyət çəkən.

Getdi qardaşının əlinnən tutdu, dedi:

– Mən bu ölkədən, bu məmləkətdən çıxmalıyam. Daa innən sonra mən burda qalmaram. Bu şahın üzünə baxıf mən bu diyarda yaşamaram.

Bunun da əhvalatı belə oldu.

[72] Yarıxmaq – özünə yol açmaq

## 41. QARAÇI QIZI

Bir gün bir oğlan gənə qız gəzermiş. Başının dəstəsiynən gələndə bir dəstə qız bulaxdan su aparmağa əldi. Gəldilər, çinar ağacının divində bir bulax var idi, burda durdular. İçdərində bir gözəl qız bu çinarın başına çıxdı, nəğmə oxuyuf bulara kansert vererdi. Bu qız o qədər gözəldi ki, şəkli suyun üzünə düşüf. Oğlan da başının dəstəsinnən gəldi, atını burda suluyanda at tımxırdı[73] geri durdu, suyu işmədi. Atı mahmızdadı, bir qamçı çəkdi, at tımxırdı geri durdu, tımxırdı geri durdu. Dedi: "Ayə, görən nədi?" O birsilər gəldi baxdı, dedi:

– Suyun üzünə şəkil tüşüf.

– Nə şəkildi?

Belə-belə baxdılar, boylandılar, gördülər çinarın başında bir qız var.

– Ay qız, çinardan tüş.

Dedi:

– Tüşmörəm.

– Ay qız, çinardan tüş.

Dedi:

– Tüşmörəm.

Dedi:

– Tüşmörsən, çinarı kəserik.

Əllərində balta var idi. Balteyi çinarın böyrünnən bir-iki dəfə tık-tık vuranda dedi:

– Kəsmiyin. Çinarı kəssəniz, çinar aşıb məni də öldürüjək, qoyun tüşüm.

Qız dedi:

– Əyil çinarım, əyil! Sana bir işim tüşüf. Sən də muraz üstəsən, mən də muraz üstəyəm, əyil çinarım, əyil.

---

[73] Tımxırmaq – imtina etmək, qaş-qabağını sallamaq

Çinar əyildi, bu qız ağacın başınnan aşağı tüşdü. Oğlan şah oğlu idi, bir könüldən min könülə bu qıza vuruldu. Başının dəstəsinnən qızı götdü, getdi öyə.

– Ana, qavağa çıx, gözün aydın olsun, gəlin gətmişəm.

– Həə, sağ ol, oğlum. Xoşbəxt olun sizi, gəti.

Gəlin çıxdı öyə, başdadılar burda yiyif-içif şad-xürrəm yaşamağa. Bir gün, iki gün, beş gün, bir də gəldi bu qız hamilə oldu. Hamilə olanda ara həkimləri muna baxdı dedi ki, bu gəlini yaylağa apar, munu yaylax havasında, dağ havasında gəzdir, saxla. Qoy uşağın yaxşı inkişaf eləsin, yaxşı olsun. Bu oğlan əmr elədi, kecava bəzəndi, qoşun atdandı hazırrandı, bir qədər qoşunnan bular dağa çıxıf yaylağa ederdi. Bir sıx meşənin içinnən gedəndə – bu da at aravasının içində oturuf, – belə baxdı, baxdı, dedi:

– Ah, nə gözəl ağaşdı, necə qəşəhdi, munnan nə ələh saxnağı olar, – deyəndə qoşun başçısına dedi:

– Əylə qoşunu.

Qoşunu əylədi, elə burda tüşdülər ki, qoşun dincəlsin. Qoşun dincəldi. Çadırlar quruldu. Qızın yanına gəldi, dedi:

– Ay qız, de görüm, sən kimsən, nəslin, əslin kimdi? Mən sənnən heç xavar almamışam. O nə sözdü? Ələh saxnağı olar nədi?

Dedi:

– O çox gözəl ağaşdı, onnan yaxşı ələh saxnağı olar. Mən gördüyümü deyirəm.

Dedi:

– Sənin əslin, nəslin?

Dedi:

–Vallah, mən əslimi-nəslimi bilmerəm. Xayiş eliyirəm anamı gətir, anamdan soruş. Mən nə bilim, əslim-nəslim kimdi.

Atdandılar, qasid getdi munun anasını çağırmağa. Getdi, anasını atın tərkinə ötdü, gətdi. Oğlan dedi:

– Arvad, düzünü mana de. And olsun Allaha, düzünü deməsən sənin boynunu elə vurdurojam ki, bircə damcı qanın yerə tüşmöjək.

Dedi:

– Nədi?

Dedi:

– Burdan keçəndə qızın belə dedi. Ona görə də bu qoşunu əyliyif burda dayanmışam.

Dedi:

– Oğul, and iç ki, səni öldürmöjəm.

Dedi:

– Nə səni öldürmöjəm, nə qızını öldürmöjəm.

Dedi:

– Oğul, mənim o vaxdı oğlum olordu, qızım yoxuydu. Ərim də çovan idi. Ərim mana dedi ki, bu dəfə sənin bir qızın olmasa, səni gələndə qoalıjam. Vaxdım yaxınnaşmışdı, üç-dörd gün qalmışdı. Ərim yoldaşdarınnan piçinə etdi. – O vaxtı gedif aran torpağında bəylərin yerlərində taxıl biçirmişdər. Oraxnan döyüf piçin haqqı sünbül, buğda alıf gətirif yiyirmişdər. – Gəldi vaxt tamam oldu, uşağa yatanda arvadın bir oğlu oldu. Bu mamentdə buların yanınnan qaraçı keçirmiş, ələh satan qaraçılar. – “Ay bajı, ələk alan, xəlbir alan, şadara[74] alan”, deyəndə arvad deyir ki, burdan gəl. Mən xəstəyəm, çıxammeram, yanıma gəl. Gəlir. Deyir ki, ay gəlinə gəlin, sənin dalındakı uşax nə yaman balacadı. Deyir: “A bajı, ayıf da olsa, bunu üç gündü doğmuşam”. Deyir: “Nədi o uşax?” Deyir: “Qız uşağı”. Bu başına gələn əhvalatı söylöör. Deyir: “Mənim bu dəfə də oğlum oluf. Ərim mana deyif qızın olmasa, səni boşujam. İndi məni öldürməsin, gəl mən oğlumu sana verim, sən qızını mana ver, dəyişək. Üstündə də nə qədər pul,

[74] Şadara – iri gözlü xəlbir, qarğıdalı ələmək üçün istifadə olunur.

qızıl verim sana”, – deyəndə qaraçıya nə var idi. Qaraçı deyir, daha yaxşı. Munun oğlunu qaraçı aler, bükör, dalına şəlleer, bu qızı da verer bu arvada. İndi bala, mən o qızı qaraçıdan almışam, o qız qaraçı qızıdı. Deyir:

– Bu çox gözəl, çox pakizə. Mən düşünördüm ki, əslində olan dırnağında bildirməlidi. Sənin qızın “bu ağaşdan yaxşı ələh saxnağı olar” deyəndə mən bildim ki, qaraçı qızıdı. Amma səni, bunun atasını tanıyırdım, inammırdım belə şey olsun. Ona görə səni çağırtdırdım.

İndi əslində olan dırnağında manşırdı. Əsil-nəsil nə üstə qurulufsa... Ata nətəərsə, oğul ona oxşojax. Ana nətəərsə, qız da ona oxşojax. Ot kökü üstə bitər.

## 42. HÖCƏT ARVAD

Bir nəfər oğlan evlənibmiş. Arvadı deyir, ay kişi, büyün atam evinə gedək. Deyir, nolar, arvat, gedək. Durollar, əllərinə gələnnən də götüröllər, yola düşöllər. Gedellər bir qarğılıxdan keçəndə qarşılarına bir tülkü çıxer. Oğlan deyir ki, arvad, arvad, tülküyə bax, tülküyə bax. Deyir:

– A kişi, tülkü döyül, dooşandı.

Kişi deyir:

– Ay arvad, tülküdü.

– Yox, yox, dooşandı.

Nə qədər kişi deyirsə, deyir, yox, tülkü döyül, dooşandı. əri onu bir yaxşıca əyağının altda saler, burda döyör, gənə də deyir, dooşandı. Axırı görör elə “dooşandı” deyir. Durollar gedellər atası öyünə. Atası baxer görör ki, qızının gözü yaşdıdı. Deyir:

– Ay qızım, niyə ağlıyıfsan? Saa nooluf?

Deyir:

– Yolda qarşımıza bir dooşan çıxdı. Mən deyirəm dooşandı, bu da deyir tülküdü. Hə, onun üstündə məni döydü.

Deyir:

– A qızım, dəli ha döyülsən, bu yekəlihdə adam tülküynən dooşanı tanımermi?

– Yox, – deyir, – ay ata, dooşanıydı.

– Neynək, dooşanıydı, dooşanıydı.

Bir, iki, üç gün də qalellar. Duruf gələndə həmən yoldan keçəndə deyir:

– A kişi, a kişi, dooşan burdan keşdi, bax, qavağımızdan.

Burda da bir yaxşı döyör munu. Burdan keçellər gələllər. Öyə gələn kimi arvad xəstələner, yıxıler oruya. Özünü bijdiyə qoyor. Ağzınnan köpüh daşdaner. Öldüm-öldümə düşör. Deyir:

– Arvad, niyə ölörsən? Nooldu sana? Gedim doxtur gətirim, dərman alım gətirim. Nə istersən, onu gətirim.

Deyir:

– Yox, yox, yox.

– Aaz, bə nədi, noluf, nə istersən?

Deyir:

– Yox. O yolda ki rast gəldik ha, bax o dooşanı. Sən denən o dooşanıydı. O dooşanıydı desən, diriləjəm.

Deyir:

– Elə onnan ötərimi ölörsən? Di öl, dünənnən öl.

Təzdənnən arvat xırıldıyır, boğazınnan köpük gələndə kişi qonşudakı molloyu çağırer. Molloyu qandırer ki, a molla, vəziyyət belədi. Bunun üstündə "Quran" oxu, gör nağayrersən. Molla gəler, bir yaxşı üstündə "Quran" oxuyur uja səsnən. Qutaranda deyir:

– Ay camaat, bu oğlanın arvadı ölüf, Allah rəhmət eləsin. Qonşudakı Fatma arvadı gətirin, bunun öyü dağılmasın, – deyəndə arvad çığırer, qalxer:

– Ölməmişəm, ölməmişəm, ölməmişəm, gətimə. Tülküydü, tülküydü, tülküydü.

## 43. DƏVƏ GÖRDÜNMÜ?

Bir kişi duruf gəzməyə çıxıfmış. Geder bir dərədə dörd dəvəyə irast gəler. Görör dəvələr yühlüdü. Dəvələri hayleer, gətirer dama saler, dəvələrin yükünü boşalder, dəvələri kəser, bir quyu qazer, ora tökör. – Həmin dəvələr də tacirrərin imiş. Tacirrər gəlif bir məkana tüşüflərmiş karvannan. Gejə yatellar, dəvələr duror aralaner, bir dərəyə gəlib çıxer. Buna da bu kişi rast gəler. – Dəvələri öldürör, bir quyuya tökör, qızılları da gizdeer. Arvada bir yaxşı toy eliyir. Arvadın ağlında varmış. Kişi bilirdi ki, gəlif ordan “ay xala, ay xala, dəvə gördünmü?” deyəndə, deyəjəh gördüm, ağrın alem, gördüm. – “Atan behişdih olsun, harda gördün?” Deyəjəh, bax budaha, kişi gətdi burda qırdı, dəvələri kəsdi, özünü də quyuya tökdü. Üstündəki qızılları da buruya yığdı. Onun dərdinnən kişi toy elədi ki, qoy arvad gələndə desin ki, toyum idi. Onda da arvadın səfehliyini başa düşüf aralanajehlər. Arvadın da ağlında varmış, hündüründə varmış.

Dəvə yəəsi axtara-axtara gəler, görör eşihdə bir arvad fırraner. Deyir:

– Ay xala, ay xala.

Deyir:

– Höy.

Deyir:

– Ay xala, biz dörd dəvə itirmişik, dəvələri bəlkə görəsən?

Deyir:

– Gördüm, ağrın alem, gördüm.

– Atan behişdih olsun, harda gördün?

Deyir:

– Toyum ili gördüm, toyum ili. Kişi gətdi, burda kəsdi.

Deyir:

– Bu səfeh qızı səfehdi. Bunun altmış yaşı var. Bunun toyu qırx il bunnan qavax oluf.

Onnan da kişi aralaner, geder. Dəvələrin yükü də qaler burda kişiyə.

## 44. ANASINI CÜTƏ QOŞAN OĞLAN

Bir kasıf oğlan varıymış. Torpağı varıymış, cütnən əkərmiş, onnan dolanarmışdar. Bir gün qurvannıx ayı gəler. Qurvannıx ayı gələndə kasıfçılıxdan qurvan kəsəmmellər. Arvada deyir:

– Ay ana, nağayrax, kasıflıxdı, qurbanımız boş keçer.

Deyir:

– Anan ölsün, gəti öküzün birini kəs, qurvannığı boş keçirmə, – deyəndə deyir:

– Ana, bəs yazda camaat yer əkəjəh, bizim yerimiz qalajax, onda nağayrajeyih?

Deyir:

– A bala, onda Allah yetirəjək.

Deyir:

– Ana, Allah yetirməsə nağayrajeyih? Bəlkə yetirmədi Allah?

Deyir:

– A bala, yetirər, Allah yetirər.

Deyir:

– Ana, onda daqavor yazeram, bura qol çək. Allah yetirməsə, səni qoşajam.

Deyir:

– A bala, neynək, gətir.

Yazer, arvad da qol çəker, barmağını baser. Gətirer öküzü kəsellər, öküzün ətinnən də qurvannıxlarını keçirellər. Yaz gəler, əkin vaxtı gəler. Oğlan görör, camaat yerini əkif qutarer, bununku hələ duror. Deyir:

– Ana, Allah yetirmədi, nağayrax bə?

Deyir:

– A bala, Allah yetirər.

Bir gün, iki gün. Deyir, Allah yetirər. Allah yetirmer. Yetirmiyəndə anasını aparer qoşor öküzün böyrünə boyunduruğa. Qamçıya "qoyma" deyif döşöör. Bu halda şah oğlu Şah Abbas vəzir Allahverdi xannan gəzməyə çıxıbmış. Uzaxdan görör ki, öküzün böyründə ağ bir şey duror. Öküzə oxşamer, cütcü qamçıynan döyüf onu öldürör. Şah deyir:

– A vəzir, atı səyirt, gör o nədi, qoyma öldördü öyü yıxılmış.

Gəler:

– Ə, salaməleyküm.

– Əleykümsalam.

Vəzir görör ki, öküzün böyrünə arvadı qoşof. Deyir:

– Ayə, ay qardaş, bu nədi, bu nəmənədi?

Deyir:

– A qardaş, salam da verdin, yeri çıx getginən. Hələ çox yerim qalıf.

Deyir:

– Əyə, bir dayan.

Onatan şah gəlif çater. Şah deyir:

– Nədi? Nəmənədi?

Deyir:

– Arvadı qoşuf öküzə.

Pul çıxarder civinnən – qızıl pul, verer, deyir:

– A vəzir, get ordan bir öküz al gətir.

Vəzir geder bir yaxşı öküz aler gətirer, boyunduruğa qoşor, arvadı açer buraxer.

Deyir:

– Əyə, indi de görüm bu arvadı bura nəyə qoşmuşdun?

Nə bilir ki, bu şahdı. Deyir:

– Bu mənim anamdı. Qurvannıx vaxtı qurvannığı keçirməyə pulumuz olmadı, qurvannığımız boş keçerdi. Anam dedi ki, qadan alem, oğlum, qurvannığı boş keçirmə, gəti öküzün birini kəs, Allah yetirəjəh. Mən də daqavor yazdım. Dedim, ana, Allah yetirməsə, səni qoşajam. Anam da qol çəkif, bax, budu burda. Bu qolu, bu da barmağı, basıb bura. Hə, indi Allah yetirmədi, anamı qoşmuşam.

Patcah deyir:

– Mən şah oğlu Şah Abbasam, a bala. Mənim bir tənbəl qızım var. Oruya yıxıler leş kimi. Dünya tökülör, nə əmələ gəlmer, nə sözə baxmer. Yiyir, oruya uzaner, yiyir, oruya uzaner. Öhdəsinnən də gələmmerik, bizi bezdirif. İndi onu saa versəh, əmələ gətirə bilərsənmi?

Deyir:

– Hə, onu mənə verin, əmələ gətirim.

Patcahın qızını kim almaz? Gətirer patcah toy eliyir, bu tənbəl qızı bu oğlana verer. Gəlellər, öydə yiyillər, içellər, oturollar. Qız yeyif içənnən sonra geder oruya yıxıler, deyir: "Heç hara getmərəm". Durmor yerinnən. Axırı oğlan anasına deyir:

– Bax, ana, sana tapşıreram, əgər sən muna mənnən oğruncax yeməh-zad versən, səni bir də aparıf qoşajam ora.

Anası deyir:

– Anan saa qurvan, qamçının dadını elə görmüşəm, qələt eliyərəm bir də sənin sözünə baxmasam. Ölsə, gənə verməRəm.

Axır bir beş gün, altı gün orda qaler. Hər savah da duruf oğlan işə gedəndə tapşırer:

– Ana!

Deyir:

– Can ana.

Deyir:

– Bax, dediyimi eşit ha.

Deyir:
– Yaxşı.
Axşam gələndə, deyir:
– Ana.
Deyir:
– Can ana.
Deyir:
– Nooldu iş?
Deyir:
– Anan ölsün, ordaca duror elə, durmor, tərpənmer.

Gətirellər surfa açellar. Özdəri yiyir, buna beş gün, altı gün yeməh vermellər. Axırda tənbəl qızın əlacı kəsiler. Bir gün görör ki, muna yeməh vermijəh. Duror, arvadın əlinnən süpürgöyü aler, öyün yarısını süpürör oruya topaleer, süpürgöyü də üstə tulloor. Geder, oruya döşəner. Axşam oğlan evə gələndə deyir ki, ana, nətəər oldu? Ana deyir:

– Anan ölsün, öyü yarıyacan süpürüf oruya qoyuf, süpürgöyü də üstə tulluyuf.

Deyir:
– Ana, ona bir çörəyin onda birciyini ver.

Bir çörəyin ujunnan bir kısmat kəser, verer. Tənbəl qız görör ki, bu, bu sufatnan bunu öldürəjək, buna yeməh verən döyül. Savah tezdən duror arvadın əlinnən süpürgeyi aler, öyü süpürör, zibili götürör, ojağı qaleer, heyvanı çölə hayler, çörəh pişirer, qapıyi-bajeyi təmizdeer, toyuğu yemleer, hər şey eliyir. Axşam gələndə oğlan anasınnan soruşor:

– Ana, nə var, nə yox?
Deyir:
– Anan ölsün, bütün işdəri görüf. Təmiz, elə qəşəh görüf ki, mənnən də yaxşı.

Deyir:
– Ana, onda gəlin.

Oturollar surfada, çörəh yeyillər.

Bir il keçer, iki il keçer. Patcah deyir:

– Ay vəzir, dur gedək, qızı o dəliyə verdik. Görək onu öldürdümü, qaldımı?

Durollar, gəlellər. Göröllər ki, gəlin vır-vır vırıldeer. İşdeer, pütün işdəri görör, gələndə atasınnan görüşör, vəzirnən görüşör. Buları evə dəvət eliyir. Oturollar. Oturanda gətirer bulara bir qazan su aser – xəngəl suyu. Bir cəm qartof gətirer atasının qavağına qoyor, bir cəm də soğan vəzirin qavağına qoyor. Deyir:

– Soyun! Bizdə işdiyənə çörəh var, işdəmiyənə yoxdu.

Bular da vuruşa-vuruşa, bir-birinə göz vura-vura başdellar soymağa. Bir də arvadın oğlu gəler. Gələndə deyir ki, ay üzün qara olsun, sən nə oyun çıxardıfsan? Bizi niyə biyavır eliyirsən?

Deyir:

– Üzün də qara olsun, gözün də. Qanunu sən qoyufsan. Bizdə işdiyənə çörəh var, işdəmiyənə yoxdu.

Bular da gülüşöllər. Patcah oğlanı o kəndə koxa qoyor, geder. Beləliknən, patcahın canı tənbəl qızdan qutarer, qız da oğul-uşax, ailə sahibi olor.

## 45. ÜZLÜ QONAQ

Bir kəntdə bir gözəl kişi, bir gözəl arvad varmış. Bular çox mehriban, səxavətdi, öz öyündə, öz aylәsində dolanermış. Evladları yoxuymuş. Bir gün bulara bir qonax gəler. Deyir:

– Ay qardaş, məni qonağ eliyərsənmi?

Deyir:

– Qonağ Allah qonağıdı.

Bir gün, iki gün, üç gün, beş gün bu qonax buların öyünnən gedəsi olmor. Allah verənnən pişirellər, tüşüröllər, yiyir-içer, evdə oturor. Da bu qonağın əlinnən bular bezer. Deyir,

nağayrax, neyniyək bu qonax çıxsın getsin? Kişi örgəder ki, arvad, sən suya et. Sudan gələndə denən ki, bulax başında danışdılar ki, sizin öydə olan qonağın kəndində qızılcıx xəstəliyi gəzer. Onun uşaxlarının hamısı qızılcığ olub, bərk qızdırmadan ağır vəziyətdə yatışellar. Bəlkə kişi munu eşidə, çıxa gedə. Deyir:

– Yaxşı.

Arvad geder sənəyi dolduror, gəler. Gələndə dizinə döyə-döyə deyir:

– Booy, a kişi, a kişi, bilirsənmi noluf?

Qonax da, kişi də deyir, noluf. Deyir:

– Bulağın başında dedilər sizin kəntdə qızılcıx xəstəliyi gəzer. Qonağın uşaxları, arvadı, öyü – hamısı qızılcığ oluf, qızdırmalı, ölüm əyağındadı.

Qonax deyir:

– Biy, sənin atan-anan behişdik olsun, qalannarın sağ olsun, ay bajı. Nə yaxşı munu mana dedin. Mən duruf getmək istiyirdim, indi munu mana dedin, getmijəm. Gedərəm, mana da dəyər. Elə burda qalmalıyam. Şen olmuşdaja[75] yiyif yateram.

Burda otdu. Bu kişi dedi ki, arvad, bu baş tutmadı. İndi nağayrax? Qərara gəldilər, arvad gənə suya etdi. Qayıtdı gəldi, dedi:

– A kişi, a kişi, gözün aydın olsun, qonağımızın uşaxları sağalıf.

İndi də belə xavar gəldi. Deyir:

– Biy, sənin ölənnərinə rəhmət, qalannarına can sağlığı. Mən duruf gedəjeydim, indi xavarı gətdin, daa ürəyim arxeyindi. Niyə gederəm? Şen olmuşda hazır mana yemək verersiniz, çörək verersiniz, palaz verersiniz yatmağa. Mən burda qalajam.

– Allah, nağayrax, neyniyək, nətəər eliyək?

Bir-iki gün aradan keçer. Arvad deyir:

---

[75] Şen olmuş – abad olmuş

– A kişi, qarşıdan bayram gəler. İndi biz bir şey bişirif yijeyik, içejeyik, özümüz də öydə mayallağ aşajeyih, donbalax qıçajeyih. Başdan donbalax qıça-qıça qapının ağzınatan gedəjeyik. Elə edək ki, qonax qapının ağzına çatanda ikimiz də itəliyək, munu qapıdan eşiyə çıxardax, qapıyı basax, içəri girəmməsin.

Deyir:

– Yaxşı.

Bular bunu qonağa deyir ki, biz belə. Qonax deyir ki, başına dönüm, o adət bizdə də var. Bizdə də donbalax qıçellar, adət hər yerdə birdi, amma siz başdan qapıya doğru gedersiniz, biz qapıdan donbalax qıça-qıça başa əlerik. Qonax başdıyır qapının ağzınnan donbalax qıça-qıça başa. Deyir, mən payımı qutardım. Bayramımı yerinə yetirdim, indi sizin növbənizdi. Bular da qıça-qıça gəlellər. Deyir:

– Arvad, bu da baş tutmadı. İndi nağayrax? Əlaş qalıf burdan köçməyə.

Haravalarını qoşollar, palazdarını, barxanalarını yığellar, özdəri də minellər munun üstünə. Deyir: "İndi biz yaylağa köçörük, üç ay gedif filan yaylaxda qalajeyih". Öydə nə bir qismət çörək qoyullar, nə bir xışma un qoyullar, nə bir qav qoyullar, nə bir qazan, nə bir kuruşka – nə var idi hamısını yığer, yola düşüf gedellər. Qonax deyir:

– Gedin.

Nolojax, qonax deyir, mana boş otax lazımdı. Boş otaxda oturor, gün üzü yolda yolotunnan, qulunəyağınnan, kəngərdən, nə bilim, ağaşların başındakı meyvələrdən – quşburnudan, onnan sonra əzgildən, quş almasınnan, yer almasınnan yığer yiyir, axşam gəler bu quru yerdən uzaner yater, burda qaler. Aradan bir müddət keçer. Bir ay, iyirmi gün keçəndə kişi deyir:

– Arvad, gedim bir öyə-eşiyə baxem, görüm qonax gedifsə, qayıdax öyümüzə.

Deyir:

– Yaxşı.

Kişinin atı var imiş. Atını miner gəler. Gələndə qonağ eşikdəymiş. Baxer ki, öy yiyəsi gəler. Bu geder bərk yerdə gizdəner, deyir, məni görüf tapmasın. Gəler, öyə baxer, eşiyə baxer, qapıya baxer, bajaya baxer, qonağı adınnan çağırer, görör, qonax yoxdu.

– Ay qonax, ay qonax, ay qonax.

Qonax yoxdu. Qayıder deyir:

– Arvad, muştuluğumu ver, qonax gedif.

Haravalarını qoşuf gəlellər. Varrarı, yoxları bir xoruzdarı var. İnək, camış, qoyun-quzu, bir xoruz. Deyir:

– Arvad, neçə vaxtdı özgənin qapısında öldük, qırıldıx aj-ajına, susuzuna. – Bu xoruzu kəser. – Bunu yol, təmizdə, bir yaxşı pişir, yiyək. Bu axşam rahat palazımızda yatax, canımız rahat olsun.

Deyir:

– Yaxşı.

Arvad bu xoruzu yolor, təmizdeer. Yaxşı bir puloy pişirer. Qazanı ortuya gətirim çəkem deyəndə kişi deyir:

– Arvad, o xörəklərini bir oruya qoy, sən canı, bir bəzənək-düzənək, görək biz kimə oxşoorux. Özümüzə bir şırqa[76] verək güzgünün qavağında. Kişinin bir dəst sarı paltarı var idi. Munu geyiner, ortasına tokqoyu çəker, çəkməsini geyiner. Aşın yağınnan da çəkməsinin üzünü-zadını yağleer, bığınızadını eşer. Deyir:

– Arvad, mən kimə oxşooram?

Deyir:

– Sən Nəsib[77] bəyə.

[76] Şırqa vermək – sığal vermək
[77] Tovuz rayonunda tanınmış bəylərdən biri olub.

İndi arvad saçını tüprüklöör, geri sığalleer, yağdan-mağdan çəker. Bir tumanı var idi, geyiner. Nəsibə nənəmki kimi bir kalağeyisi var idi, başına saler dolama, qollarını da qaldırer:

– A kişi, mən kimə oxşooram?

Deyir:

– Nəsib bəyin arvadı Xuraman xanıma.

Deyir:

– Onda bir süzək.

Öydə o başa, bu başa bir dövran vurollar. Munatan qonax gözünə dönüm, gəlif girmişdi taxtın altına, bərk yerə. Burdan qazannarı çəker, əti demer, aşı demer, dişinə çəker bu aşdan yidiyini yiyir, yimədiyini də siyirir taxtın altına tökör. Aş qazanını başına geyiner, ortuya çıxer. Deyir:

– Mən kimə oxşooram?

Deyir:

– Sən də aşı yiyif, – orda pis bir söz danışer, məni bağışdıyın – mənim ölümün goruna belə eləyənə. Aşı yidin, xoruzun ətini yidin, nə qədər vaxtdı başımıza oyun aşdın, bizim ölümüzün goruna...

Təzdənnən burdan qayıder deyir ki, innən sonra çıxıf gedərəm öyümə. Sizin də canınız qutarar, mənim də canım qutarar[78].

Kişi deyir:

– Bu qonaxdan canımızı qutaran döyülük. Dəniz kənarına köçək, bunu da aparax görək orda nağayrırıx.

Dənizin qırağında yiyif-içif oturollar, axşam bir yer salellar, yatellar. Kişi deyir:

– Arvad, qonax ujda yatajax, mən ortada, sən də mənim böyrümdə yat.

---

[78] Söyləyici bu hissədə nağılı tamamlayır, amma başqa söyləyicinin xatırlatmasından sonra nağılın ardı yadına düşür.

Deyir:

– Yaxşı.

Qonax bunu eşider. Bular yeri saler, yatağa uzananda qonax bij olor, duror arvadın böyründə uzaner. Arvad gejə:

– A kişi, anrı yat, mən yıxıldım, a kişi, anrı yat, mən yıxıldım.

Kişi anrı sıçıner[79], anrı sıçıner, anrı sıçıner. Yavaş-yavaş, yavaş-yavaş, gurpadan kişi dənizə düşör. Qışqırıx qopanda kişi dənizdə boğulor. Arvad da elə biler, qonaxdı düşən. Deyir:

– Of, nə canımız qutardı.

Qonax da deyir:

– A bajı, sənin də canın qutardı, mənim də canım qutardı. İnnən sonra sən mənimsən, mən sənin.

## 46. KEÇƏLİN EVLƏNMƏSİ

Bir Keçəl var imiş. Bir gün Keçəl anasına deyir ki, ana, məni öyləndir. Deyir:

– Ay bala, pulun yox, varın yox, yaxşı öyümüz yox, paltarın yox. Sana mən gedim kimin qızını alem, nə deyim?

Deyir:

– Ana, and olsun Allaha, ya səni qaldırıf yerə elə çırpajam ki, yeddi bölük olajaxsan, ya mana bir qız al.

Arvad düşör kəntdə bu qapı mənim, o qapı sənin qız gəzer. Munu qızlar görör, lağa qoyor, gülüşör. Bir də bir bayavoy qız var imiş – yaşdı qız, ərə-zada getmiyif. Deyir ki, mən gedəjəm Keçələ.

Deyir:

– Ana, məni oğluna alarsanmı?

Deyir:

---

[79] Anrı sıçıner – kənara çəkilir

– A qızım, alaram.

Deyir:

– Get oğluna denən məni alsın.

Gəlir deyir:

– Oğul, sana filan yerdə filankəsin öyündə bir qız tapmışam, gəl gedək.

Deyir:

– Ana, get danış, gör nə istiyir.

Keçəlin nənəsi geder qızın anasının, atasının yanına. Deyir:

– Oğlum əl çəkmer. Gözümün ağı-qarası bircə dənə oğlum var, qızınızı istiyir. Qızınızı verdiniz, verdiniz. Verməduniz, damınızı, daşınızı oddoof özümü də içinə atajam. Onsuz da mənim oğlumun axırı ölümdü, mən də ölüm.

Bu arvad kişiyə deyir ki, ə kişi, Keçəlin nənəsi gəlib, belə deyir. Nağayrax? Deyəndə deyir ki, arvad, Keçəlin qavağına elə kötüklər dığırrıjam, elə kötüklər dığırrıjam, Keçəl adını-ünvanını bilmijək. Denən verirəm. Deyir ki, verirəm. Getsin mana, məsəlçün, iki min manat pul gətsin, qızıma qızıl gətsin, üzük alsın, sinəbənd alsın, paltar alsın, bir də öyünü-eşiyini bir az babətdəşdirsin, toyun xarcını, bir də beş-altı erkək gətsin, toyu başdıyax. Deyir:

– Yaxşı.

Gəler, Keçələ deyəndə Keçəl deyir:

– Allah, qarınınkı "Quran"nan keçif. Onsuz da mana qaynatamgil bir belə şey deyif, mən buları hardan tapajam? Bu qaynatamnan qaynanəmə elə dağ çəkməliyəm ki, öləndə də desinnər Keçəl onun qızını istiyirdi, onun üstündə olara dağ çəkdi.

Anasına deyir ki, get qaynanəmə, qaynatama denən ki, nə deyir gətirəjəm, amma qızına cehiz qırx dənə dooşan verəjək. Deyir:

– Yaxşı.

Nolojax, bu kişi varrı kişi idi. Qırx dənə dooşanı tutduror, bir dama dolduror. Keçəli çağırer, deyir:

– Bu qızımın dooşannarını ata malı kimi toyatan apar kökəlt, toyda kəsəjəm dooşannarı.

Keçəl qapıyı açanda dooşanın biri hopbaner belə geder, biri elə, biri də belə. Dooşanmı tapılajeydı burda? Çöldən yığılan dooşan. Keçəl fikirrəşer, fikirrəşer. Əlini başına qoyor, çox fikirrəşənnən sonra deyir, qarınınkı "Quran"nan keçif, daa mənimki ölümdü. Amma fikirrəşim görüm, qaynatamnan qaynənəmin damqasını həncəri qoyoram. Olara bir damqa qoymalıyam.

Bir düdüyü var imiş. Bu düdüyü əlinə aler, yanqılı-yanqılı geder bir qayanın başında oturor, başdıyır düdüyü çalmağa. Düdüyü çalıf Keçəl belə baxanda örör kü, Allah, qayanın dörd tərəfində qırx dooşan nədi, bəlkə yüz dooşan var. Bu düdüyün səsinə hamısı buruya yığılıf. Keçəl qayadan tüşör, belə-belə ağaşnan-zadnan vuror, görör bular getmer. Daa düdüyü kəser, düdüyü buraxanda dooşan dağılır geder. Deyir, haa, sən öl, tapmışam. Otuz dokquz gün dooşan beləjə otdoojax, gündə bir dəfə, iki dəfə çalıf dooşanı başıma yığajam ki, görüm azalıbmı. Qırxıncı günü gedif toylada çalajam, kişinin dooşannarını təhvil verif toyu başdıyajam. Hələ munun qızıl pul yadına tüşmör.

Bu gəlir, deyir ki, yaxşı, mən şərikəm sənin dediklərinə. Dooşannarı buraxer, bu düdüyü çaler. İndi sana söylüyüm bu kişidən. Kişi deyir:

– Arvad.

Deyir:

– Haa.

Deyir:

– Arvad, gəl bəzənək-düzənək, gedək görək hansımız Keçəldən bir dooşan ala bilerik. Dooşanın biri əysik gəlsin, məsələn otuz dokquz dooşan olsun, qızı vermeef Keçəlin də boynun vurdurojam.

Arvad deyir:

– Yaxşı, amma qavaxca mən gedim.

Arvad bəzəner, düzəner, xanım kimi geyiner, pudralaner, kıraskalaner, civinə də puldan-muldan qoyor, gəler.

– Salamməleykü.

– Əleykümətsalam.

– Ay qardaş, deyirlər sənin çoxlu dooşanın var.

Deyir:

– Bəli, var.

– Mənim oğlum var, təpədəgöz bircə oğlum. Ağır xəstədi, ona dooşan əti, dooşan qanı buyuruflar. Nə qədər pul isteersən, var isteersən verim, mana bir dooşan.

Bir az Keçəl çəm-xam, naz-qınc eliyənnən sonra, deyir:

– Mənim bir şərtim var.

Deyir:

– Nədi?

Deyir:

– Gəti yanına bir damqa basem, dooşanı verim.

Bu arvad bir az fikirrəşer, deyir: "Ə, gedif heç öydə kişiyə də demiyəjəm. Kimdi məni görən, kıçamı açıf baxan? Mənim özümün ayləm var, ərim var, nə işinə qalıf, cəhənnəm olsun". Deyir:

– Razıyam, ay Keçəl.

Keçəl damqeyi qızdırer, arvadın kıçasına cızıpbadan damqeyi belə basanda bərk yandırmer dana, buruya həriflərzaddar düşənnən sonra düdüyü "düd" eliyir, dooşannar yığıler, bir dooşanı tutor arvada verer. Arvad söyünə-söyünə dooşanı gətirer, gəler. Gəler, qapılarına çatanda Keçəl də munun dalınnan gəler. Birdən düdüyü çıxarder, dü-rü-rü-rü. Dooşan arvadın qoltuğunnan part eliyif qaşdığınnan Keçəlin yanına. Arvad kirimişcə, kor-peşman içəri girer, başdıyır ağlamağa.

– A kişi, öyün yıxılsın, məni hara yolladın? Keçəl başıma bu oyunu gətdi, pulumu da aldı, kıçama da bir damqa basdı, dooşanı verdi. İntaası dooşan əlimnən sıçradı getdi. Mən nağayrım, mən neylim?

Deyir:

– A köpək qızı, günah səndədi. İndi özüm gedəjəm, sən dayan.

İndi kişi gedir. Kişi də bu vəziyətdə, yalvar-yapış, uzun həngamədən sonra kişiyə də bir dooşan verir. Dooşanı kişi gətirer. Gənə qapıya ələndə düdük çalıner, "di-ri-li-ri" deyəndə dooşan hopbaner, ya Allah. Kişi də ağlıya-ağlıya kor-peşman içəri girer. Deyir:

– Arvad, sənin atana rəhmət, gənə sən mənnən yaxşı idin. Mənim lap ürəyim yatdı.

İndı qızın ürəyi götürmör. Deyir:

– Dədə.

Deyir:

– Haa.

Deyir:

– Ay dədə, indi mən gedəjəm.

Deyir:

– A qızım, yox, səni qoymaram.

Deyir:

– Yox, vallah. Sən neynersən? Mənim nişannımdı, məni ona verersən. Mən gedəjəm, heç bəzənib-düzənmijəm, pul da vermijəm, damqa da basdırmıjam, dooşanın birini alıf gələjəm.

Qız saçınnan tuğ kəser, – uzun saçı var imiş, – bir dənə nəzik kəndir hörör, civinə qoyor, geder.

– Keçəl, salamməlöykü.

– Əlöyküməssalam.

Deyir:

– Ay Keçəl, sən bilersən ki, mənim təpədəgöz bircə qardaşım var. Qardaşım ağır xəstədi, dooşan əti buyuruflar. Bu dooşanın birini verməlisən.

Deyir:

– Ağız, dooşan da sana qurvandı, hələ tülkü də böyründə. Niyə vermerəm? Sən gəlifsən, xanıma hər şey qurvandı. Dooşanı sənnən ötəri bəsdeerəm.

Dooşanı tutuf verəndə qız deyir:

– Bu dooşanın əyağını bu gətdiyim kəndirnən möykəm-möykəm sən tutorsan, mən bağleeram.

Qız dooşanın əyaxlarını möykəm-möykəm bağlıyır, qoltuğuna vuror, ya Allah. Geder qapılarına çatanda Keçəl nə qədər düdüyü çaler, dooşan nə qədər partdıyırsa, çıxammer. Qız qoltuğunda dooşan içəri girer. Deyir:

– Dədə.

Deyir:

– Haa.

Deyir:

– Dooşanı gətdim. Ala, bu da dooşan.

Kişi dooşanı bir dama saler, qapıyı qıfılleer, gəler Keçəlin yanına. Deyir:

– Keçəl, dooşannarı çağır, sayax.

Dooşan düdüyü "dürü-lö-rö-röt" eliyəndə qırx dooşan idi, indi munun başına altmış dooşan yığıler. Deyir:

– Ayə, mənim öz dooşannarım...

Deyir:

– A kişi, öz dooşannarım nədi? Mənim də dooşanım var, içinə qatmışam, otdoor. Seç, dooşanını götü. Sən dooşanını tanımayanda, mən sənin dooşanını hardan taneeram? Mənim bircə dooşanım var, sənin öyündədi, gətirəjəm. Mən onu taneram. Kişi bir az buana baxer, bir az oana. Qırxını, əllisini munun belə ayırtdırer, aparer dama saler.

Deyir:

– Arvad, bu baş tutmadı. A Keçəl, bizə beş-on gün möhlət ver. Allah, nağayrax, neyləyək?

Bular fikirrəşer ki, bir qurğu qurax, bu dooşan planı tutmadı, bu Keçəldən munu alax. Keçəl də qaratikənnərin başınnan yun yığıb, içi dolu tir-tikə, zir-zivil. Yerə tökülən, eşiyə tökülən, zivilxanalara tökülən yunnarı gətirif gündə anasının qavağına qoyuf munu didiv özdərinə, mübarək olmamış, toy palazı qayırellar. İndi Keçəl: "Allah, mən nağayrım, neyliyim? Mana bir iş qoyajaxlar[80], yaxşısı budu bu işdən çıxım". Kişi gəler, arvadın da gətirer. Deyir ki, gedək görək Keçəl nə iş görör. Gəler görör kü, Keçəlnən Keçəlin anası yun didir.

– Salamməlöykü.

–Əlöykümməsalam.

– Bu nə yundu, nağayrersınız?

Deyir:

– Bu yunu didif, təmizdiyif palaz qayırırıx Keçəlin toyluğuna. Sən qızına cehiz verən kimi mən də oğluma cehiz qayıreram.

Deyir:

– Yaxşı, savah gəlif biz də kömək elijeyik sizə. Qonşu qonşuya tən gərək, tən olmasa gen gərək. Gəlib biz də kömək elijeyik.

Deyir:

– Quda döyülükmü, gəlin.

Savah bular gələndə qız da bulara qoşulor gəler. Gəlellər, okqədər yun didellər, okqədər hərəkət basellar ki, bir də baxellar ki, ağızdarınnan köpük gəler, ajellar. Amma bu qız duror bir axtafa su götürör, çileer, bu Keçəlin öyünü siler süpürör, yığer. Peçi qaler, bir-iki kirri qav var imiş, onu yuyur,

[80] İş qoymaq – kələk qurmaq

buraları təmizdeer. Buraları elə eliyir gülə-gümüşə döndərer. Bilmerəm Keçəlin anası da nə pişirifmiş. Bunnan da bir damcı oralarda taper bu qız özü yiyir, deyir, anamnan dədəm özü bilər, cəhənnəmə olsun, nağayrasıyam olara. Hə, bu kişi arvada işarə eliyir ki, arvad, biz ajınnan öldük, hənirimiz kəsildi, dur gedək. Bular duror, yığışanda arvad deyir:

– Dərdin alem, xörək pişirmişəm. Oturun bircə qırıx yiyin, gedin, – deyəndə gedif qavın ağzını açanda qız deyir:

– Ay ana, onun içində bir damcı yimək var idi, onu mən yimişəm. Yoxdu heş nə.

Arvadnan kişi deyir:

– Nağayrax?

Qız deyir:

– Öyünüz tikilsin, bular elə bir adamdı ki, iş tutmuyana əpbək vermellər. Bax, mən öyü gümüş təki yığdım, süpürdüm, təmizdədim, bu öyü qayırdım, siznən barabar yun diddim, mana yimək verdi. Gərək burda işdiyəsiniz.

Deyir:

– Onda yaxşı, bizim işdəməyimiz qaldı savağa.

İndi bular isteer ki, munun içinnən nəsə bir şey çıxsın, bular qızı verməsin, bahanə eləsin. Savah buruya gələnətən Keçəl geder ağaşdarın başınnan, zivilxanadan, burdan-ordan gənə yarım meşoy yun yığer. Gətirer bu yunun içinə iynə qırığı, sancax qırığı, şüşə qırığı – nə varsa dolduror. Qızın anası gəler, dədəsi gəler. Deyir ki, ay Keçəl, yununuz varsa, gətirin didək, işiniz varsa, görək, biz varıf günörta gedəjeyik ayrı yerə. Bir qohumumuz ölüf uzax yerdə, oruya gedəjeyik. Keçəl gətirer yunu buruya qoyanda kişi yunun üstə oturanda iynə-zad kıçasına bater. Şüşənin qırığı əlini-əyağını kəser, filan-pesmə-kan, kişi qızıl-ala qanın içində. Arvad ağlıya-ağlıya, gözünün yaşını tökə-tökə, kişinin birtəəri qolunamı girer, sürütdüyə-sürütdüyəmi öyünə aparer. Kişiyi yüyüllər, dərmənniyillər,

kişi yerdə inildeer. Keçəl də eşider ki, qaynatası xəstələnif. Güya bilmer, özünü bilməməzdiyə vuror. Bir dəstə loğman paltarı geyiner, başına-gözünə də kimnənsə taper bir papax qoyor filan-bəsməkan, indi kişinin yanına gəler. – “Mən loğman, qapı-qapı gəzerəm”. Qaynənəsi deyir:

– Mənim yoldaşım xəstələnifdi, ona bax.

Gəler onun yanına. Baxanda deyir ki, munun bircə dənə müalicəsi var.

– Munun maalicəsi nədi?

Deyir:

– Munun maalicəsi bir qurvağadı. Bir qurvağa tapersan, qurvağeyi kəsersən, pişirdif yidirderik bu kişiyə, bunnan da bu yara, bu xora siyriler, süpürülör, varer geder.

Qurvağeyi də taper kəser. Bu qurvağeyi-zadı da muna yidirder. Bu kişinin vəziyəti daha da pis olor. Savah Keçəl gəler qapıya anasınnan. Deyir:

– Qızı mana verirsinizmi, mənim başıma hələ çoxmu oyun açajaxsınız? Camaatı yığıf sizi camaat içində bədnam elijəm.

Kişi deyir:

– Ay arvad, bu Keçəlin əlinnən çıxammıjeyih, qoy bizə üç çual yalan danışsın.

Fişkalar[81] qayrıler hündür, Keçəli çıxardellar başına. Birinci çualı verellər. Deyir:

– Ay camaat, bilin, agah olun, qaynatamı aldatdım dooşanı verdim, bir belə pulunu aldım, varını aldım, kıçasına damqa basdım. İnanmersınız, açın baxın.

Kişi utandığınnan deyir:

– Keçələ keçəl, çual doldu ey, hara yığırsan? Ağzını bağla bəri tulla, bəri tulla, bəri tulla.

---

[81] Fışka (vışka) – qüllə

Ağzını bağleer tulloor. İndi qaynənəsini deyir. Arvad da deyir:

– Öyün yıxılsın, məni camaatın içində biyavır elədin. Qardaşım-zadım burdadı, mən öldüm, bağla bəri tulla.

İndi qızı deyəndə deyir:

– Ay camaat, bilin agah olun, bu qız mənimdi, mən munu aleram. Namusu əppəyə büküf itə tulloofsan, it yimiyif. Mən namusumu çölə atıf bu qızın başına oyun açardım. Gül təki bir qızdı, dooşanı verdim dooşanı da apardı, dədəsi də kəsif yiyəmmədi. Atası gəldi dooşanı istədi, qırx dooşanın yerinə altmış dooşan verdim. Bu kişi mənnən nə istiyir? İndi ya bu kişiyi öldöröjəm, ya qızı versin.

Arvad kişinin üzünə baxer, kişi arvadın üzünə baxer. Deyir:

– A kişi, canın üçün, uzun paza rast gəlmişik. Bu bilinməz dərtdi. Yaxşısı budu ki, qızı verək.

Qızı verellər, yaxşı da cernən-cehiznən qızı yola salellar. Keçəl toy eliyir, qızı aparer.

## 47-48. KEÇƏLİN OĞLAĞININ QIZIL QAZANMASI

Keçəl deyir, ana, get mana arvad al. Gəzer, arvad muna bir yaxça qız taper, amma bu qız deyir ki, mana qızıl, gümüş, hər şey gəlməlidi. Bir oğlaxları var idi. Keçəl deyir, oğlağı aparıf bazarda satajam. Bu Keçəl başına sələsini qoyor, oğlağı qoltuğuna ötürür, bazara çıxer. Bazarda Keçəlin oğlağı ağzını uzader munun qavağınnan bir ispanağın qanadını qoparder, onun qavağınnan bir kartof xırtdader, munun qavağınnan bir ləpə xırtdader, munun qavağınnan bir alma. Hərə Keçələ bir dürtmə vuror, oğlağa bir dürtmə vuror.

– A Keçəl, bu oğlax nədi gətirifsən? Malımızı yidi, ağzının heliyini tökdü. Ağzını vurdu, camaat irgəndi, zay elədi.

Bu Keçəl ağlıya-ağlıya bazarın qırağına çıxanda örör kü, bir xanım yanında üç-dörd sumka burda duror. Deyir:

– A Keçəl, niyə ağleersan?

Deyir:

– Ay bajı, bazara əlmişdim, pulumu civimnən oğurradılar. Allahdan gizdin olmuyan bəndədən nə gizdin. Öyümüzə gedəmmerəm, qalmağa da bir yerim yoxdu. Onçun ağleeram.

Deyir:

– Gəl mənim sumkalarımı götür, gedək bizdə qalarsan. Toylada yatarsanmı?

Deyir:

– Yataram.

Deyir:

– Əpbək, su verəjəm, yi, iç, oğlağını da yanına bağla, toylada yat, savah da çıx get.

Deyir:

– Yaxşı.

Keçəli gətirer öyə. Keçəl sumkaları öyə yerrəşdirer. İçəri girəndə örör arvadın öyündə yimək, işmək, hər şey hazır, stolun üstünə düzülüf.

Deyir:

– A Keçəl, o tərəflərə əlini vurma, stolun qırağındaja otur. O üjdə sən, bu üjdə mən. Hərəmiz bir qav bu yiməkdən yiyək.

Bular oturuf yiməyi yiyəndə qapı tıkqıldıyır.

– Kimdi?

Deyir:

– Aaz, ərinəm, gəlmişəm, qapıyı aç, – deyəndə deyir ki, yox, yimək-zad hazırramışam, əynimin paltarını dəyişirəm. Hələ qapıyı açammaram.

Keçəl deyir:

– Nağayrım?

Deyir:

– Öyün yıxılsın, canına azar qayır. Tez ol oğlağını da qucağına ötür, anbara tüş.

Anbar varmış içərdə. Keçəl oğlağını da qucağına aler, anbarın içinə tüşör. Divə çəkilif ordaca bürüşüf, oğlağın da ağzını bağlıyıf duror. İndi qapıdan bir bığıburma kişi girer. Bu, sən demə, arvadın elə-belə yannan tutma adamı imiş, əri-zadı döyülmüş. Yaylığını-zadı, bağlamasını oruya qoyor. Oturollar, munnan da çay içellər, çörək yiyillər. Yiyif-işmə qutarmamış qapı yenə tıkqıldıyır.

– Kimdi?

– Ərinəm, az, gəlmişəm, qapıyı aç.

– Nağayrım?

Deyir:

– Dur, anbara tüş, amma yavaşca tüş haa, anbar dərindi, kıçın-zadın qırılar.

Yəni belə deyif Keçələ eşitdirer ki, adam var, oruya düşəjək, oğlağı-zadı anrı çək. Birdən üstünə hopbanar, oğlax çığırar-eliyər, məni də öldürəllər, səni də. Oğlağı Keçəl qırağa çəker. Bu kişi oruya tüşəndə Keçəl deyir:

– Ə köpəyoğlu, hardan gəldin, oğlağın kıçını qırdın.

– Ə, atam sana qurvan, dillənmə.

Deyir:

– Başın üçün, mana min manat verəjəksən. Ya verəjəhsən, ya bu saat qışqırıf, car çəkif səni də öldörtdürəjəm. Deyəjəm məni də gətirif buruya bu salıf.

Deyir:

– Atam sana qurvan, bazarda filan yerdə mal satanam, savah mənim gözüm üstə.

Deyir:

– Yox, indi civində nəyin var, ver.

Civindəkini təmiz aler, bu da düşör o küncün birinə, gizdəner. İndi biri gəler, üçüncü gəler. Keçəldi, bir də budu.

Üçüncüyü də bu vəziyətdə eliyir. Gənə anbara salanda bir elə pulunu aler, indi dördüncü gəler. Dördüncü arvadın həqiqi öz əridi. Gəler, içəri girer. – “Salam!” – “Əleyküməsalam”.

– Ay arvad, gejənin bu vaxdı nə stoldu, nə kampaniyadı?

Deyir:

– A kişi, gördüm gej gəldin, ürəyim qübar elədi, büyün də mənim yaşımdı, ad günümdü. Bu yimək-işməyi hazırradım, oturuf qərar tutammeram. Bu böyrünnən bircə qırıx yiyif səni gözdöörəm.

Deyir:

– Yaxşı.

Oturollar, yiyillər, içellər. Deməli, bu kişi dəmlənif qıravata uzanıfmış. Birdən Keçəl oğlağın qulağını ağzına saler. Oğlax “bəəəə” eliyəndə kişi dik sıçrer. Deyir:

– Arvad, burdan oğlax səsi gəler.

Deyir:

– Öyün yıxılsın, oğlax nədi, yuxu görüfsən. Dəlisənmi?

Keçəl padvaldakılara deyir:

– Köpəyoğlu, biriniz çəkmeyi, biriniz kəstumu, biriniz papağı soyunuf verirsiniz verin, vermirsiniz bu saat oğlağı bəyirdif sizi qırdıreram.

Kəstumu da, sapoğu da, papağı da – hamısını soyunor verellər. Keçəl altdan geyiner üstən qıfıllaner, üstən geyiner altdan qıfıllaner. Kişi yatıf xorulduyanda burdan çağırer. Deyir:

– Ağız, məni çıxart.

Deyir ki, birinci sənsənmi? Keçəl deyir, birinci məni, onnan sonra da buları çıxart, kişi yatmışkən biz bir-bir qaçax. Munu çıxarder. Görör ə, sən öl, Keçəl bir geyinib, bir kejinif. Keçəl arvada deyir:

– Qardaşıyın kürəyini belə eliyərəm. Ərin qazanıf civində nə gətirif, öyündə nə var verirsən ver. Vermirsən, and olsun

Allaha, bu saat oğlağın qulağını dişdiyif, bəyirdif, ərini də durğuzuf deyəjəm məni də bu gətirif, o anbardakıları da. Səni tikə-tikə doğratdırajam. Arvad öydə-eşikdə nə var imiş hamısını muna verer.

– Atam sana qurvan, a Keçəl, xavar eləmə, yeri, çıx get.

Keçəl çıxer geder. Onnan bular bir-bir, bir-bir ağarışdaner[82]. Bular gəlir. Gəlellər, yolda sudan keçəndə kimsinin əyağı yalın, kimsinin götündə şalvar-kastum yox, kimsinin başında papax yox, suya tüşöllər, nağayrellar. Addıyıf gedellər bazara. Bazarda hərəsi əyninə bir cırıx paltar taper, geyinerkejiner, indi çıxellar. Belə baxer, bu deyir: "Ə, sən öl, dünən oğlağı mənim almamı yiyən Keçəldi bu". O biri deyir: "Ə, sən öl, oğlağı mənim göyümü yiyən Keçəldi. Ə, bu kəstumu, şalvarı, papağı hardan aldı?" Keçəl deyir:

– Ə, köpəyuşağı, nə danışersınız? Mənim dünən filan qədər pulumu alıfsınız. Ya verin, ya da gedif qazıya şikaat eliyif sizin hamınızı tutduroram. Nişanım, sübutum da var.

Anbara tüşənnərin üçünə də damqa basıf həmən Keçəl. Bu yazıxlar qazandıxlarını, yığdıxlarını bu Keçələ verer, Keçəl "aşığın ay qavağı Qarabağ" deyə-deyə, fışqırıx çala-çala geder öyünə.

Anasının neçə gün idi gözü yoldoydu. Qara damın belinə çıxer, əlini gözünün üstə qoyor. Bir belə baxer, bir belə baxer. Deyir: "Anan ölsün, ay Keçəl, harda öldün qaldın, gəlif çıxmadın? Ay Keçəl, ay Keçəl" – deyif gümüldənermiş[83]. Bir də görör ki, yolnan bir qaraltı gəler uzaxdan. Bir az da gəler, arvad muna baxer dikqətnən, deyir: "Sən öl, Keçəldi, o da oğlağı, amma canın üçün, bu Keçəlin belə paltarı yoxuydu, belə papağı yoxuydu. Yox, Keçəl döy. Yəqin oğlumu öldürüf,

[82] Ağarışdanmaq – aradan çıxmaq
[83] Gümüldənmək – zümzümə etmək

oğlağı da gətirif mana xavar eliyir ki, oğlun ölüf. İndi oğlağı verəjək, mənnən, nə bilim, pulmu alajax, nə bilim, nağayrajax, neynijək". Gəlhagəl, gəlhagəl, gələndə görör Keçəl.

– Anan ölsün, hardan gəlersən?

Deyir:

– Anan da ölsün, atan da ölsün, köpəkqızı. Bu saat get qaynatama denən ki, köpəyoğlu, qızı verirsən ver, vermirsən səni timsana[84] vererəm. Səni öldürtdürörəm. Paltar məndə, pul məndə, qızıl məndə, gümüş məndə. Nə qədər pul deyirsən məndə.

Geder kişiyə deyir:

– Ay kişi, belə-belə. Keçəl qazanıf gətirif. Pulu da gətirif, qızılı da gətirif, hər şeyi gətirif. Oğlum deyir toyu başdasın.

Kişi gəler, gözünnən görör, deyir:

– Bir belə pul gətirsin.

Pulu gətirer verer, onnan sonrasına qızılı gətirer verer. Deyir:

– A Keçəl, sənnən bircə şey soruşum. Sana and verirəm o ananın döşünnən əmdiyin südə, de görüm sən bir belə qızılı, pulu hardan aldın?

Deyir:

– Başın üçün, o qızılı mənim oğlağım qazanıf.

Təzdənnən qırx gün, qırx gejə toy eliyir, yaxşı cehiznən, varnan, döylətnən, nazı-nemətnən qızı verellər Keçələ. Keçəl qızı gətirer, o da olur keçəlin yarı. Olar yidi yerə keşdi, biz də yidik döörə keşdik. Siz sağ, biz də salamat.

**48.**

Bir arvadın bir keçəl oğlu var imiş. Özü də qart keçəl imiş. Deyir ki, keçəl var noxudu keçəl, keçəl var xondu keçəl, keçəl var qavlama keçəl, keçəl var qart keçəl. Yanı başının bu

---

[84] Timsana – məhkəməyə

tərəfini qaşıyanda buanı əldən gedermiş, bu tərəfini qaşıyanda buanı. Bu, bir varrının qızına aşiq olor. Anasına deyir:

– Ana.

Deyir:

– Ha.

Deyir:

– Ana, filankəsin qızına elçi gedersən.

Deyir:

– Ay bala, vallah, getməyinə gedərəm, amma bir iş var də. Sən özün bilersən, biz bir həsirik, bir Məmmədnəsir. A bala, nəyimiz var, nəynən elçi gedək, nəynən toy eliyək? Div qurvağaya aşiq olan kimi, sən gör kimə aşiq olufsan. Ay bala, bizim heş nəyimiz yoxdu.

Deyir:

– Ana, niyə yoxdu? Keçim varmı? Gözəl, bordağ bir keçim var. Sən belə elə. Sən get elçi, gör o kişi nə istiyir, nə tələb eliyir. Mən onun öhdəsinnən gələjəm, o dediyi şeylərin hamısını tapıf düzəldəjəm.

Arvad kor-peşman gəler, elçi daşının üstə oturor. Bir də deyillər ki, ağa sağ olsun, elçi gəlif. Deyir:

– Əşi, nə elçi gəlif, kimdi o? Yəqin səyf salıf, aparın ona bir-iki şahı verin, qoyun çıxsın getsin. Bəlkə yolçu daşın üstə oturmağ istiyif.

Arvad deyir:

– Yox, qadanız alem, ağaya deyin ki, elçi gəlmişəm.

Deyir:

– Çağırın gəlsin.

Arvad içəri girer, deyir:

– Ay bajı, xoş gəlifsən. Nə yaxşı gəlifsən?

Deyir:

– Vallah, dərdin alem, ifliyi üzülsün, bizim bir gədə var keçəl, sənin qızına aşiq oluf. İndi, vallah, bilmerəm nə deyirsən?

Kişi çox tamahkir imiş. Deyir ki, ay bajı, keçəl olanda nolar? Allah işidi. Amma mənim də qızım gözəl, göyçək qızdı. Mənim xüsusi tələblərim var. Əgər o dediyim şeylərin hamısını oğlun ala bilersə, yerinə yetirə bilersə, mən böyük məmuniyyətnən qızımı verərəm.

Deyir:

– Nə istiyirsən, qadan alem? Biz nə eləməliyik?

Deyir:

– Neyləməlisiniz? Bir üş min manat pul verməlisiniz, bir belə yağ, bir belə qənd, bir belə düyü, erkəyi, anrısı, bərisi, pal-paltar, qır-qızıl. O qədər sanıyır ki, buna dünya-aləm pul lazım olor.

Arvad kor-peşman gəler. Deyir ki, ay oğul, mən saa nə dedim? Deyir:

– Ana, nə dedin?

Deyir:

– Hazır saa dedim ki, biz bir həsirik, bir Məmmədnəsir. O qızı almağa bizim güjümüz çatmaz.

Ağa dediyi şeylərin hamısını arvad bir-bir sadalıyır. Keçəl deyir:

– Ana.

Deyir:

– Ha.

Deyir:

– Toyun vaxtını təyin elə. Get zurnaçıya xavar elə, savah keçiyi bazara çıxarderam.

Deyir:

– Ay ifliyin üzülsün, o keçiyə nə verəjəhlər?

Deyir:

– Yox, ana, sən mən dediyimi elə.

Savah tezdən keçiyi də yanına saler, gətirer bazara. Bazara girən kimi görör kü, qəssaf yaxşı heyvannarı kəsib – erkəh-

ləri, toğluları. Ətdəri yerbəyer eliyif, içalatını ayrı. Bir az aralıda da bir manqal qalıyıf. Bu qəssaf keçiyə baxer, görör kü, keçi pula gedən keçidi. Deyir ki, ayə, qardaş, bu keçinə nə verim?

Deyir:

– Vallah, indi nə verərsən, verərsən. Hələ bir mənim qarnımı doydur. O içalatdan bir az kabab çək, yiyim, sonra razılaşarıx.

Qəssaf fikirrəşer, deyir: "Ə, bu nə qədər içalat kababı yeyər?" İçalat kababı adamı tez tutandı. Bir üş-dörd şiş içalat kababı çəker, gətirer. Nolojax? Keçəl bunu beş dəyqədə həzmi-rabedən keçirer.

Deyir:

– Qəssaf qardaş, yaxşı içalatdı, amma elə bil bekara ötürörsən, acca yandırersan munu.

Deyir:

– Sən nağayrersan?

Deyir:

– Əşi, hələ mən bunun elə-belə tamına, duzuna baxeram. Hələ bu nədi ki?

– Adə, keçini də götür, burdan cəhənnəm ol. Sən nətəər tamına baxersan ki, iki-üş kilo içalatı yiyifsən, hələ gənə istiyirsən?

Deyir:

– Yox, yox, bizim söödamız baş tutmadı. Qarnımı doydurmadın ki, keçiyi sana satam.

Gəlir görör kü, halvaçı yaxşı halva çalıf. Elə keçi də yanında saymazyana keçəndə, halvacı baxer görör, ə, keçi heş keçiləsi şey döyül.

– Ayə, qardaş, bu keçinə nə verem?

Deyir:

– Bilersənmi nə var? Bu sooda elə bir şeydi ki, mən də halvanın üstə əlmişəm, bir az halvaynan qarnımı doydur, sonra söhbətimizi eliyərik, məzənnəmizi kəsərik.

Nolojax, bir-iki boşqaf halva qoyor. Keçəl halvadan yi-yir, deyir:

– A qardaş, yaxşı halva çalersan, halal olsun saa. Amma elə bil acca şəkərini az eliyirsən.

Deyir:

– Qardaş, nətəri?

Deyir:

– Mən bunun hələ elə-belə tamına baxerdım, sən o biri boşqafların acca şəkərini çox eliyərsən.

Halvaçının cin təpəsinə vuror, deyir:

– Ədə, belə filan şüdə, keçini də götür, cəhənnəm ol.

Bu, bazarkomun yanınnan keçəndə, belə bir şey də gənə bu bazarkomun başına əler. Bazarkomnan da bilmerəm nə isteer, nağayrer, neyneer, bular razılaşmer. Kor-peşman keçi də yanında, axşamın toran düşən vaxtı gedermiş. Bir də görör kü, ayə, gözəl bir gəlin külafirəngidə duruf ətrafı seyr eliyir. Belə aşağı baxer, görör kü, keçəldi, yanında da keçi geder. Deyir:

– Ayə, keçəl qardaş, harya edersən?

Deyir:

– Ay xanım, vallah, bazara əlmişdim bu keçiyi satmağa. Keçiyi də satammadım, kor-peşman çıxıv öyümə ederəm.

Keçi bu gəlinin yaman xoşuna əler. Deyir: “Ayə, bunu kə-sib yarısını pörtdəmə eləmək olar, yarısını kavaf çəkmək olar”.

Deyir:

– Bəlkə qonağım olasan?

Deyir:

– Nolar, böyük məmuniyyətnən.

Deyir:

– Yuxarı çıx.

Yuxarı çıxer. Bir az çay-çörək, anrı-bəri. Birdən qapı döyülör. Qapı döyüləndə, deyir ki, ay bajı, bu nə səsdi, nə tıkqıltıdı?

Deyir:

– Allah öyünü yıxsın, ərimdi gələn. İndi bilmerəm nağayrax.

Deyir:

– Atam, anam saa qurvan, ərin gəldisə, öyüm yıxıldı, məni gizdət. Məni də, bu keçiyi də. Bir qələtdi eləmişəm.

Arvad bir oana baxer, bir buana baxer, deyir:

– Vallah, elə bir yerimiz yoxdu. O şfaneri görörsənmi, içi boşdu. Keçiyi də götü, o şfanerin içinə gir.

Keçiyi də götürör, şfanerin içinə girer. Arvad qapıyı açer. Pah, qapıyı açanda gözəl, göyçək, şux geyimli bir kişi içəri girer. Keçəl açar deşiyinnən belə baxanda örör, ayə, bu kişi muna tanış gəler. Baxanda görör, sənin canın üçün, bu büyünkü qəssabdı.

Bu əhvalat qəssavnan da təkrar olur, yemək-işmək, elə təzəcənə süfrüyü arvad yığışdırmağ istiyəndə qapı döyülör. Qəssab deyir:

– Öyüm yıxıldı, kimdi gələn?

Deyir:

– Ərimdi.

– Bə nağayrem?

Deyir:

– Vallah, elə bir yerim yoxdu, o şfanerə gir.

Şfaneri açıf girəndə görör, ayə, keçi də burda, keçəl də. Yavaşca əlini belə tutor, deyir, səs eləmə. Bu dəfə halvaçı gəler. Halvaçıynan süfrəyə oturmuşdu ki, qapı döyülür. Halvaçıyı şkafa göndərer, sonra bazarkom gəler. Axırda bunun öz əri gəler. Öz əri gələndə, bu bazarkomu da göndərer. Nolojax, dörd cannı adam, bir keçi, dar da şfaner, bir-birinin üzünə

baxa-baxa qalıflar. Amma axırda gələn arvadın halal-hümmət əri olor. Bu keçəl bərk fikirrəşer. Bij olar keçəllər. Deyir ki, mən o ağa istiyən başdıx parasıdı, nəvilim, ət puludu, nəvilim, üzükdü, qızıldı, munnarın hamısın burda əldə eliyə bilərəm. Savağa yaxın imiş. Deyir:

– Qardaşdar, bilersinizmi nə var?

Deyir:

– Nə var?

Deyir:

– Bu ifliyi üzülmüşün, bu keçinin axmax xəsiyəti var.

Deyillər:

– Nə xəsiyəti var?

Deyir:

– Bu, savağa yaxın o başdan bir dəfə məliyir.

Deyillər:

– Keçəl, atamız, anamız saa qurvan. Ayə, mələmək nədi, öymüzü yıxma, yazığıx.

Deyir:

– Vallax, nağayrım, bu ədət eliyif, savağın o başınnan hökmən bəyirir, məliyir.

Deyir:

– İndi bir təhər eliyəmməzsənmi bu mələməsin?

Deyir:

– Nəvilem, qoy bir soruşom, göröm nədi, nə döy.

Munun başını sığallıyır, yalannan ağzını qulağına diriyir. Deyir:

– Vallah, deyir mələmərəm, adama beş yüz maat pul olsa, ağzımı bağlıyajam.

Bir az keçəndən sonra deyir:

– Yoo, uje keçi çatdıyır.

– Ayə, bu nə istiyir?

– Vallah, deyir ki, içəri çox istidi, paltarlarınızı soyunun.

Buları alt paltarında qoyor. Paltarlarını da soyunduror. Sonra fikirrəşer ki, ətdiyə də bir belə pul lazımdı. Bu pulu gənə aler bulardan. Yükünü tutor, toy eləməh üçün nə lazımsa hamısını aler. Savağa yaxın lap yuxunun şirin vaxtı keçəl görör kü, sən öl, buların üçü də mürgülüyür. Qatdıyır, keçinin qulağını ağzına aler. Nətəər dişdiyirsə, keçidən bir bəyirti çıxer, bütün öydə olan nə varsa, şakqıldıyır. Qapıyı açer, şfanerin qapısını:

– Ay keçi alan, – deyəndə, kişi qalxer.

– Adə, belə filan şüdə köpəyoğlu, nə keçi alan? Ayə, mənim öyüm bazardımı?

Deyir:

– Ay kişi, belə filan şüdəsən də, hələ artıxsan da. Qəssab burda, bazarkom burda, halvaçı burda. Ayə, bazar hara olar?

Keçiyi də götürör, aradan çıxer. Gəlir, deyir:

– Ana.

Deyir:

– Canına azar, hardeydin a keçəl, ay ifliyin üzülsün? Savağa kimi yatmamışam.

Deyir:

– Ana, ağa dediyi nə qədər pul, anrı-bəri varsa, ala. Zurnaçılara da xavar eliyifsən, bax, indi toyumuzu elijeyik.

Nolojax, ağanın qızınnan toy baş tutor, qəşəh toy eliyillər. Zifaf gejəsində deyir ki, ay xanım, sana demədimmi ki, bu keçəl başı gora aparmıjam, amma sənnən bir yastığa baş qoajam. Doğrudan da, onnan bir yastığa baş qoyor.

## 49. KEÇƏLİN FƏNDİ

Bir gün Keçəl şahın elçi daşının üstündə oturor. Xəbər verillər ki, elçi daşının üstə bir adam oturor. Şah deyir ki, çağırın gəlsin! Gəler:

– Salamməleyküm!

Diribaş keçəliymiş.

– Əlöykəssalam!

Şah deyir ki, mənim üçün qullux! Deyir:

– Şah sağ olsun, yaman kasıflamışam. Yazginan bu şəhərdə neçə pinəçi var, yamax yamıyan varsa, hərəsi mana bir manat versin.

Yazer ki, bu şəhərdə neçə pinəçi varsa, hərəsi keçələ bir manat versin. Yazer, peçətini vuror. Keçəl deyir:

– Mən ölüm, yaz ki, kimin qızı çoxdusa, o da bir manat versin.

Yazer:

– Kimin qızı çoxdusa, o da bir manat versin.

Deyir:

– Bir də yaz!

– Nə yazem, a bala?

Deyir:

– Yazginan kimin arvadının adı Tellidisə, o da bir manat versin.

Yazer ki, kimin arvadının adı Tellidisə, o da bir manat versin.

Deyir:

– Mən ölüm, yaz ki, kimin bir uzunqulağı varsa, o da bir manat versin.

Yazer:

– Kimin bir uzunqulağı varsa, o da bir manat versin.

Deyir:

– Mən ölüm, yaz, kimin başı keçəldisə, o da bir manat versin.

Yazer ki, kimin başı keçəldi, o da bir manat versin.

Deyir:

– Kimin adı Söyündüsə, o da bir manat versin.

Bunu da yazer ki, kimin adı Söyündüsə, o da bir manat versin. Axırda deyir:

– Mən ölüm, yaz, kim Xanqululardandısa, o da bir manat versin.

(Bizdə Xanqulular var. Bu qaravəllini havax söyləsəm, deyillər bizəmi gəlif bu?). Kağızı aler, anbar oğlağı kimi hop-baner. Gələndə örör kü, şəhərin qırağında bir pinəçi dütdələnə-dütdələnə işdiyir.

– Salamməlöykü!

– Əlöykəssalam!

Deyir ki, ə kişi, bir manat verişsən. Deyir ki, nə manatdı, ə?

Deyir:

– Bu şahın peçatı, bu da fərmanı. Şahın əmridi, bir manat verişsən.

Deyir:

– Ə, şahın da öyü yıxılsın, sənin də. Bir bölüy qız külfətim var. Oları dolandıra bilerəm ki, sənə bir manat verim?

Deyir:

– Ə, külfətin qızdımı? Sən öl, iki manat verişsən.

Deyir:

– Ə, mən Telliyi öldöröm ki, niyə qız doğufsan?

Deyir:

– Ə, arvadın adı Tellidimi?

Deyir:

– Hə!

Deyir:

– Sən öl, üş manat verişsən.

Deyir:

– Ə, bircə eşşəyim var. Haşa, onu satem, sanamı verem?

Deyir:

– Ə, eşşəyin də varmı? Sən öl, dört manat verişsən.

– Ə, aralan-filan!

Bu deyir ki, nə aralan ə! Şah qol çəkif, peçat vuruf. Hələ yazıf ki, kimin başı keçəldisə, o da bir manat verəjəh. Ə, başın keçəldimi?

Pinəçi deyir:

– Hə!

Deyir:

– Onda beş manat verişsən.

Deyir:

– Ə, Söyün ölər, sana bir manat verməz. Sən öl, vermərəm!

– Ə, adın Söyündümü?

Deyir:

– Hə!

Deyir:

– Sən öl, altı manat verişsən.

Deyir:

– Ə, elə bu Xanqulular tirəsinəmi gəldi?

Deyir:

– Ə, Xanqululardansanmı?

Deyir:

– Hə!

Deyir:

– Sən öl, yeddi manat verişsən.

Yeddi manatı da aler, varer geder.

## 50. NAŞI BİÇİNÇİ

Bir tənbəl varıydı. Elə bir tənbəliydi ki, ver yiim, ört yatem, gözdə mana soyux dəyməsin. Belə bir tənbəliydi. Gəzə-gəzə gəldi bir varrı kişinin həyətinə çıxdı. Varrı kişi dedi:

– Əyə, əlinnən nəəler?

– Mənim, – dedi, – əlimnən o gəler ki, yeddi nəfərin bir sutkaya gördüyü işi mən iki saata görör, qutareram.

Dedi:

– Əyə, onda yeddi adam saxlamaxdansa, elə bir adam saxlıyım dana. Elə mana sən lazımsan.

Bu, tənbəli öyündə əylədi. Tənbəl, nolasıdı, Allah verənnən yiir, içer, yater, yiir, içer, yater. Bir də gəldi, deyir, taxıl vaxtı, taxılın yerinin əkilmək vaxtı, səpilmək vaxtı oldu. Dedi:

– Gedəh taxılı əkək, səpək, – deyəndə, dedi:

– Ağa, əkinə-səpinə nə var ki, əkdin, səpdin, qutardı. Zülüm onun suyudu. Qış əyağını çirmə, buz təki suya gir. Qışın soyuğunda ən çətini onun suyudu.

Dedi:

– Eləmi?

Dedi:

– Hə!

Nolasıdı, taxılı bir başqasına əkdirdi, səpdirdi. Gəldi su vaxtı çatdı. Su vaxtı çatanda dedi:

– Gedək indi taxılı suluyax.

Dedi:

– Ağa sağ olsun, su işinə nə var ki. Qılçamı çirmələdim, lapatkeyi götdüm, beş dəyqəyə suluyuf qutarajam. Çətini yayın günündə onu piçməhdi.

Dedi:

– Yaxşı!

Nolasıdı, bir başqa adama sulatdı. Gəldi piçin vaxtı oldu. Piçin vaxtı olanda, dedi:

– İndi piçinin vaxtıdı. Gedəh taxılı piçəh, – deyəndə, dedi:

– Oldu. Əzələ, məni savağa bir-iki saat qalanda vaxtlı qaldır, bir. İkinci, səkgiz qulaş kəndir, bir də bir uxarrı[85] balta götör.

Həmin o varrı adam illər uzunu taxıl pişdirif, taxıl döydürüf. Balteynan, səkgiz qulaş kəndirnən taxıl piçildiyini gör-

---

[85] Uxarrı – itilənmiş

müyüf. Fikirrəşer ki, bu deyir yeddi adamın işini iki saata görörəm, nəysə bu iş bu balteynan bu kəndirdədi.

O başa yaxın[86] nökəri qaldırdı.

– Ayə, qalx, əynini geyin.

Qayıtdı üzü yerə uzandı. Gördü, əyə, elə bu yerdə oturuf tısıldıyır, fısıldıyır. – "Ə, bu nağayrer belə. Ə, geyindinmi, nooldu, vaxt keçer?"

Dedi:

– Ağa, vallah, əyağımın birini geyinmişəm, dəyişih geyinmişəm, qoy soyunum o birinə geyinim.

Bunun əyağını geyinməyi saat dokquza çəkdi. Əmbə yeməyi əlüstüydü. – "Ə, buna bir az yeməh verin". Gətdilər bir qav qatıx, bir də bir xamralı[87]. Xamralıyı qatığın üstə doğradı, qarışdırdı, tokqanın altını bərkitdi. Ağasına dedi:

– Balteyi də ötü, kəndiri də, gedəh.

Getdilər zəminin qırağına. Baxanda ördü qəşəh taxıl yetirif, piçin vaxtıdı. İndiki kimi kombayın yox, əlnən, oraxnan piçellər. Bu da balteynan kəndir gətirif. Varrı adam da fikirrəşer, bu balteynan, kəndirnən nə iş görəjəh. Qəşəh qajın üstündən – çox su tutan yerdən bəndəm[88] bağladı. Gördü kü, bəndəmi elə gözəl bağladı ki, dağdan da dığırrasan açılası döyül. Bəndəm bağladı, yerə sərdi. Kəndirin ujunu bir dənə sünbülün boğazına bağladı, dedi:

– Ağa, kəndiri çək.

Belə çəkəsi oldu. "Tfu, ya Həzrət Abbas" elədi, bircə dənə sünbülü vurdu balteynan. Dedi:

– Apar o bəndəmin üstünə qoy.

Birini, beşini, on beşini. Bu kişi dedi:

– Əyə, öyün yıxılsın, nağayrersan? Bir-bir havağa qutarar bu taxıl. Sən nağayrersan?

---

[86] O başa yaxın – səhərə yaxın, dan yer ağarana yaxın
[87] Xamralı – sacda bişirilmiş qalın çörək
[88] Bəndəm – dərz, sünbül dəstəsi

Dedi:

– Ağa, tələsirsənsə, ikisini bir eliyim, ikisini bir bağlıyım.

Dedi:

– Ə, belə-filan, sürüş burdan, bir ildi yiif yatersan.

Xüləs, bunu qovalıyası oldu. Bunu qovaladı, bu getdi. Fəhləyə, piçin bajaran adama pişdirdi taxılı. Dərz bağlatdı, penciyə vurdurdu, döydürdü. İndi xırmanda taxılı tığ yığıf, başını da taxılın üstə qoyuf, gejə yater. Gejənin bir vədəsi oğru gəldi taxıla. Üş-dört nəfərdilər. Biri qılınc əlində kəsdi bunun başının üstünü. Bu biriləri də çualları gətdilər, doldurollar. Bu gördü əyə, başının altdan taxıl axıf geder. Gözünü belə açanda ördü, ə, biri qılınc əlində başının üstünü kəsif. Dedi, vallah, səs-küy eləsəm, bu mənim başımı vurojax. Mən nağayrem? Özünü yuxuluğa vurdu. Guya ki, indi vəəğa görür, səyaxleer. Başdıyır səyaxlıyan kimi:

– Oy Allah, yekələneydim.

Oğru deyir:

– Ə, səyaxleer, doldor.

– Cavan bir oğlan oloydum, bir arvad aleydim. Arvatdan bir oğlum oloydu, adını qoyoydum Allahqulu. Çağıreydim Allahqulu, Allahqulu (söyləyici səsinin tonunu qaldırır – top.), – diyəndə Allahqulu dedi:

– Bəli.

Dedi:

– Ayə, qoyma, taxılı apardılar.

Təzdənnən oğrular qaçdılar, çuallar qaldı.

Nolasıdı, Allahqulu da əldi, Heyrətalı da əldi, Qulamhüseyn də əldi, xırman doldu.

– Ə kişi, nədi?

Dedi:

– Ə, görmörsənmi çuala doldurub aparerdılar.

İndi bu oğrular anrıdan baxer. Deyir:

– A belə-filan, niyə səni qoyordux yekələnerdin, cavan oğlan olordun, bir arvad alerdın, arvatdan Allahqulu adında oğlun olordu, oğlun sənin harayına gəlerdi, mənim də çualım qalerdi, özüm boş gederdim. Sənin gərək başını əvvəlcədən vuroydum.

## 51. BİÇİNÇİ VƏ OĞRULAR

Bir kasıf kişi olur. Taxıl yerləri olur buların. Taxılı əkellər, piçellər, xırmana gətirellər, xırmanda döyöllər. Xırmanda döyənnən sonra soorollar. Qıpqırmızı buğda, xırmanda tığ vurollar. Bunun gəlini də, oğlu da, arvadı da xırmanın qırağında yatışellar ki, savah duruf işdəsinnər, həm də taxılı oğurruyan olmasın. Kişi yayın ortasında taxılın üstündə – lap belində üstünə bir ədyal saldırer, tığın üstə yater ki, oğru gələndə bilem. Taxıl da isti olan şeydi axı. Yornuğ adam, taxılın üstündə uzanan kimi gözünə yuxu geder. – Mərdimazar elə o zaman da, bu zaman da var. Allah mərdimazarın öyünü yıxsın. – İki mərdimazar deyir:

– Ə, nağayrax, gəlsən gedək adama bir meşoy ordan buğda oğurruyax.

Əl-ələ verellər, – bu saat da var, elə o zaman da oluf, – gəlellər. Biri xançalı belə sıyrer, kişinin başının üstünü kəser. O birinə deyir: “Ə, doldur!” Əzəl bir meşoyu dolduror, onnan o biri meşoyu dolduror. Hazır olanda kişi gözünü açer. Biler da, hənirti var. Gözünü açanda görör ki, xançal düz alnındadı. Mən nağayrem, həmi məni öldürməsinnər, həmi taxılım getməsin? Mən nağayrem, neylem? Bu kişi başdeer gözünü yumor, səyaxleer. Deyir:

– Oy, ay Allah, oy, ay Allah, yekələneydim, bir arvad aleydim, onnan bir oğlum oloydu, adını qoyoydum Allahqulu. – Oğlunun adı da Allahquludu, uşaqların arasında yater. – Çağıreydım: “Allahqulu, Allahqulu, Allahqulu”. Birdən bağırer: “Allahqulu, Allahqulu” – deyəndə deyir:

– Höy, höy!

Bu oğrular meşoyu burda qoyor, geder. Gəler, Allahqulu deyir:

– A kişi, nədi, noluf sana?

Deyir:

– Ə, hancarı noluf? Öyün yıxılsın, meşoylara bir bax! Sən öl, səyaxlamasam, meşoylar getmişdi.

İndi oğrular anrıdan baxıf tamaşa eliyir. Oğrular deyir:

– A belə-filan oğlu! Səni niyə qoordum yekələnerdin, arvad alerdin, onnan da bir oğlun olordu, adını Allahqulu qoyordun, çağırerdın, Allahqulu sənin hoyuna çaterdı, bizim də çuallarımız xırmanda qalerdı. Niyə qoyordum səni arvad almağa?

Yəni çatan kimi öldürmədim. Həmi kişinin başı salamat olor, həm taxılı getmer, həm də oğul-uşax salamat qaler.

Allah rəhmət eləsin bunu deyən kişilərə, bilənnərə.

## 52-53. QAZ BÖLGÜSÜ

Kişinin bir qazı varıydı. Qaza elə tumar eliyirdi ki, elə bilerdin Koroğlu Qıratına tumar vuror. Yaman əli əysikliyə tüşmüşdü. Gördü dolanammer. Fikirrəşdi: "Ayə, mən neynim, nağayrem?" Axır dedi:

– Ay arvat, o qazı başı da üstə, qolları da üstə, qənətdəri də, qılçaları da üstə yaxşı qızart mana ver, onu aparıf xana peşkəş çəkəjəm. Nə qədər insafsız xan olsa, çıxardıf bir beşdənonnan verəjəh.

Nolasıdı, arvat gətdi qazın başını kəsdirdi. Qəşəh qıfqırmızı qızartdı, püs-pütün hazır olanda, dedi:

– A kişi, hazırdı.

Bir padnosa qoydu da. Kişi padnosun üstünə bir şey salıf getdi xanın həyətində otdu, elçi daşının üstdə. Dedi:

– Kim lazımdı?

Dedi:

– Belə-belə, xannan görüşməh isterəm.

Xana xavar getdi ki, bir qoja kişidi, gəlif elçi daşının üstdə oturuf, siznən görüşməh istiyir. Dedi ki, burax gəlsin. Gəldi, xoş-beşdən sonra dedi:

– A kişi, xeyir ola? Nə işə əlifsən?

Dedi:

– Başına dönüm, sizə qaz gətimişəm.

Belə padnosun üstündən dəsmalı götdü, xan baxdı gördü ki, həqiqətən də, elə gözəl qızardılıf. Dedi:

– A kişi, bunu gətmək şərt döyül. İki qızımdı, iki oğlumdu, bir də arvatnan mənəm. Ən əsası, bunu bölməkdi. Bunu indi elə bölginən ki, bizim heş birimizə artıx-əysik tüşməsin.

Kişi fikirrəşdi, dedi:

– Onda cüt-cüt olun.

Nolasıdı, kişiynən arvat bir durdu, sonra qızdar durdu, sonra oğlannarı durdu. Qazın başını qopartdı xana verdi. Dedi:

– Bu öyün başçısı sizsiniz. Bax, bu başı sizin.

Qənətdərini qırdı qızdara verdi. Dedi:

– Büyün-savah onsuz da qənət bağlıyıf bu öydən kiməsə uçuf getməlisiniz.

Qılçalarını da kəsdi oğlannarına verdi. Dedi:

– Bu da sizin, çünkü dədəniz, ananız sizin qılçanıznan yeriyir, sizin həvəsinizə uçor.

Yerdə qaldı göydəsi. Göydəsini də özü qucağına ötdü, dedi:

– Bu da mənim.

Xan fikir verdi, gördü, əyə, ələ əlməz yerini olara dağıtdı, lazım olan yeri göydəsiydi, göydəsini də özü götürdü. Gördü çox fəsarətdi kəntçidi. Dedi:

– Məni istiyən, buna xələt.

Bir az puldan-paradan verdi, kişi yumarrandı özünü saldı arvadın yanına. Arvat gördü, kişi elə əler elə bilersən ki, yepələh[89] kimi. Gəldi.

– A kişi, nədi belə?

Pulu belə ortuya töhdü. Dedi:

– Öyün yıxılsın, oğurruxmu elədin, bankmı yardın, bu nədi?

Dedi:

– Yox, canın üçün, qaza ətmişəm. Belə-belə oldu, qazı verdim, böldüm, hələ qazın ətini də qaytarıf gətmişəm.

Qonşuda bir nəfər eşitdi ki, deməzsənmi, xana bir nəfər qaz peşkəş eliyif, bu qədər ənam alıf. Beş dənə qaz qırdırdı həmən qonşu. Qazdarı möhkəm qızartdırdı, pişirtdirdi, getdi elçi daşının üstdə otdu. Xana xavar çatanda dedi:

– Ə, buraxın gəlsin.

Dedi:

– Xoş gəlifsən, nədi, xeyir ola?

Dedi:

– Sana qaz gətimişəm.

Xan o dəyqə fikirrəşdi: "Ayə, bunun qulağı pul sədası eşidif. İndiyətən niyə ətirmerdi bu qazı?" Dedi:

– Qazı gətmək şərt döyül. İki qızım, iki oğlum, iki də arvatnan mən. İndi bu qazı elə bölgünən, bizim heş birimizə artıx-əysik tüşməsin.

Kişi fikirrəşdi ki, əyə, beş qaz, altı adam, mən munu nətəər bölüm. Dedi:

– Xan sağ olsun, mən onu bajaran döyüləm. Eləjə qəbul eliyirsən, elə, eləmersən də… – deyəndə, dedi:

– Əyə, o kasıb kəntçiyi buruya çağırın.

Nolasıdı, kəntçiyə xavar getdi. Kəntçi yepələh kimi özünü yetirdi.

---

[89] Yepələh – yelpələng

– Xan, eşiderəm.
Dedi:
– Beş qazdı, yenə oğlannarımdı, qızdarımdı, mənəm. İndi bu qazdarı bizə elə bölgünən ki, bizim heş birimizə artıq-əysiy düşməsin.
Dedi:
– Mənim gözüm üstə. Cüt-cüt oturun.
Nolasıdı, qızdar bir tərəfində, oğlannar bir tərəfində, arvatnan kişi də ortada durdular. Qazın birini qılçasınnan tutdu, ərri-arvatdı bulara verdi. Dedi:
– İki siz, bir də qaz, siz oldunuz üç. Elədimi?
Dedi:
– Hə!
Birini də oğlannarına verdi. Dedi:
– İki siz, bir qaz, siz də oldunuz üç.
Birini də qızdara verdi. Dedi:
– İki siz, bir qaz, siz də oldunuz üç.
Yerdə iki qaz qaler. Dedi:
– Bu iki qaz, bir də mən, biz də oldux üç.
Gənə, kişiyə çoxlu nəmərdən, puldan-paradan, xələt-dən… Məni istiyən kişiyə xələt. Kişi yumurradı, özünü öyə saldı. – "A kişi, bu nə puldu, öyün yıxılsın?" Dedi:
– Vallah, belə-belə oldu, filan qonşumuz qaz aparmışdı. O böləmmədi, mən böldüm. Bu ənamı da ona görə almışam.

**53.**

Bir yoxsul kişi olor. Odun şələsi gətirif satarmış həmeşə, onnan dolanarmışdar. Bir də arvad deyir:
– A kişi.
Deyir:
– Nədi, arvad?
Deyir:

– Get patcahı qonax gəti bizə, camaat hamısı patcaha qonaxlıx verer, biz də bir qonaxlığ eliyək, nolar.

Kişi deyir ki, ay arvad, bizim oturmağa stolumuz yoxdu, təmiz otağımız yoxdu. Patcah gəlif harda oturajax, harda çörəh yiyəjəh?

Deyir:

– Onda bir toyuğumuz var, o toyuğu kəs, pişirem apar.

Amma burasını da deyim, arvad çox dadlı yemək pişirən arvadıymış. Gözəl yeməklər pişirermiş. Gətirer kişi toyuğu kəser, arvad bir gözəl, yaxşı bunu pişirer. Bir dəsmala pükör, aparer. Gedif patcahın elçi daşının üstündə oturor. Patcah görör ki, elçi daşının üstündə bir kişi oturuf. Deyir:

– Ayə, görün nəyə gəlif o kişi?

Gəlellər, gətirellər.

– A kişi, nəyə gəlifsən?

– Patcaha yemək gətmişəm, qadan alem.

Deyillər:

– Patcah sağ olsun, sana yemək gətirif.

Deyir:

– Bəri gətirin onu.

Gətirellər. Deyir:

– A kişi, surfoyu aç, görüm nəmənədi?

Açer, görör ki, toyuğu pişirif. Patcah böyrünnən bir-iki kısmat alanda görör ki, yeməlidi, çox gözəldi. Bunu təmiz siler, süpürör. Deyir:

– Ay kişi, saa bir sual verəjəm. Ona cavab versən, burdan irazı gedəjəhsən.

Deyir:

– Nədi, patcah sağ olsun?

Deyir:

– Toyuğun yeməli yeri harasıdı?

Deyir:

– Toyuğun yeməli yeri dərisidi, dərisinnən də gerisi (Toyuğun quyruğunun üstü həqiqi də yeməli olur).

Deyir:

– Məni istiyən buna bir qızıl.

Hərə bir qızıl tulloor papağına. Geder özünə yaxşı ev tikdirer, gözəl varraner, böyründəki varrıları keçer.

Varrı, addı-sannı bir qonşusu olor. Onun da bir camışı varmış. Deyir ki, ayə, bu bir toyuxnan gəldi bu qədər varrandı. Mən camışı kəsəjəm, camışnan gör patcah maa nələr verəjəh.

Camışı kəser, camışın budunnan bir qab yemək pişirer, üstünə də bir parça gön pişirer qoyor. Eşidifmiş ki, toyuğ aparan üstə gön qoyuf. Aparer patcaha. Patcah deyir ki, görün gələn kimdi? Gətirellər. Deyir:

– Ay kişi, nə gətirifsən?

Deyir:

– Patcah sağ olsun, saa yeməh gətmişəm.

Deyir:

– Aç görüm nədi?

Açır, açanda deyir:

– Bu nədi?

Deyir:

– Camış ətidi.

Deyir:

– Harasınnandı?

Deyir:

– Budunnandı.

Deyir:

– Bə üstündəki nədi?

Deyir:

– Üstündəki də bir parça göndü.

Deyir:

– A kişi, saa bir sual verəjəm. O gönü götür, özün yiyərsən onu. De görüm camışın yeməli yeri harasıdı?

– Budunun ətinnən gönü.

– Ayə, bu kopoğlunu vurun.

Bunu vura-vura aparellar samannığa salellar. Deyir:

– Ədə, tüstü verin bu köpəyoğluna.

Hə, burda bir ay, iki ay qaler. Tüstü verellər ona. Bir də deyir ki, ayə, gedin mana toyux gətirən kişiyi buruya ətirin. Toyux gətirən kişiyi gətirellər. Gətirəndə deyir ki, ay kişi, de görüm camışın yeməli yeri harasıdı?

Deyir:

– Patcah sağ olsun, camışın yeməlisi qaymağıdı, bir də qatığıdı.

– Ayə, bunun papağını qızılnan doldurun.

Papağını qızılnan doldurollar. O biri kişiyə də bir-iki çəker, aparer. Padşah deyir, aparın onu dama salın. Onu da dama salellar.

## 54. BİZİM QULUNU GÖRDÜNMÜ?

Deməhdə, yenə bir kişi qəşəh taxılı pişdirer, döydürör. Xarcına, borcuna, kimə nə verəsidi verer. Axırı bir ağzı yarımçıx bağlama qoyor ku, bu oruşdux ayınındı. Bir az da pul verer arvada ki, ay arvad, bax, bu taxılı da saxla, bu pulu da saxla. Orucundu, istifadə eliyərih.

Belə olor, aradan bir nə qədər keçənnən sonra Oruc adında bir kişi gəzə-gəzə gəler buruya çıxer. Kişi də öydə yoxdu. Arvad soruşor:

– Kimsən sən, adın nədi?

Baxer görör kü, bu arvad nəsə yersiz soruşmaz bunu. Deyir:

– Adım Oruşdu.

Deyir:

– Bıy, atam-anam sana qurvan, bə hardan gələrsən?

Deyir:

– Cəhənnəmnən, gordan.

– Bıy, a kişi, – bunun da qırx il munnan qavax bir qardaşı ölüf Qulu adında, – bizim Quluyu da gördünmü?

Deyir:

– Gördüm, hə, elə orda bir yerdəyik. Həmi yimək-içməyi yoxdu, həmi də yaman zəyifliyif, pulu-parası da yoxdu, – deyəndə deyir:

– A kişi, sən xoş gəlifsən, vallah, toyux-cücə dağıder bu taxılı. Sana kişi bir az taxıl qoyuf, bir az da pul. Bax, bu taxılı da sana qoyuf, bu pulu da. Ala bu pulu da, taxılı da götür, getginən.

Nolasıdı, kişi söyünmüş taxılı da ötürör, pulu da ötürör, yeriyir küçə aşağı, başdıyır getməyə. Bu yola tüşənnən sonra, kişi atdı hardansa qapıya çıxer. Deyir:

– Arvad, nə var, nə yox?

Deyir:

– A kişi, sağlığın. Deyir, a kişi, cəhənnəmdən, gordan Qulunun yanınnan adam gəlmişdi, adı da Orucuydu. O taxılı da verdim, pulu da.

Görör arvad gölü-suyu axıdıf. Deyir:

– Həə... Bə ha tərəfə etdi?

Deyir:

– Bu küçə aşağı etdi.

Atı bunun dalınnan saler. Buna çata-çatda bu da özünü bir dəyirmənə yetirer. Dəyirmənə çatan kimi tez üzünü-başını unnuyur. Dəyirmənçiyə deyir:

– Öyün yıxılsın, filan kəndin padşahı ağır xəstədi, ona dəyirmənçi başı buyuruflar. Tez ol özünü gizdə.

Dəyirmənçi deyir:

– Ayə, harya gizdeem?

Deyir:

– Nağayressan, özünü donuzduğa ver.

Bu özünü donuzduğa verer. Bu, üzü-başı unnu dəyirmənin qavağında oturor. Kişi atdı gəler. Baxanda örör, dəyirmənə girdi bu. Atdı gəler, atı qapya bağlıyır.

– Buruya gələn adam nejoldu?

Deyir ki, bax, o dəyirmənin qapısınnan içəri girdi. Kişi qapıdan içəri bunun arxasınnan girən vaxtı, nolasıdı, həmin adam bağlameyi götürör atın belinə qoyor. Kişinin atını açer miner, bağlameyi də qucağına aler, ya Allah.

– Ayə, hardasan?

Belə baxanda örör bu. Deyir ki, ə kişi, mən dəyirmənçiyəm, o gələn adam eşihdəkiydi.

– Ayə, nə danışersan?

Deyir:

– Vallah!

Qayıder çıxanda örör, gələn adam atın belində eder.

– Ayə, haana edersən? Ayə, haana edersən? Atı aparma.

Nə atı aparma? Sürör bu geder. Kişi suyu süzülə-süzülə gəler. Arvad baxanda örör kişi gəler, əmbə at yoxdu. Deyir ki, a kişi, öyün yıxılsın, atı niynədin?

Deyir:

– Qulunun goru belə-belə olsun, at da ismarrıyıbbış, atı da apardılar.

## 55. BİR KİŞİNİN SƏRGÜZƏŞTİ[90]

Bir kişi pul qazanmax məqsədinən evdən çıxdı. Getdi, gəzdi, dolandı, çörək pulu qazanammadı. İndi əliboş, üzüqara geri nejə qayıtsın? Qayıdammadı. Gəldi bir kəntdə kimin qapısına getdi, munu qonağ eləmədilər. Getdi bir samannıx varıydı.

---

[90] Söyləyici bu mətni qaravəlli nümunəsi kimi təqdim etdi.

– Keşmişdə samannığ olordu, içinə saman, xəzəl yığerdılar ki, qış möykəm gəlsə, lazım olor da. Bu nöqteyi-nəzərdən samanı saxlıyırdılar. Belə bir misal var: “Saxla samanı, gələr zamanı”.
– Heş kəs bu kişiyi qonağ eləmədi. Getdi bir kişinin samannığına girdi, burda gizdəndi ki, soyuxdan daldeylansın. Bir az keşmişdi, gördü bir balaca səs gəler. Qulağını dinşədi samanın içinə, gördü kü, bir xanımdı, bir də bir kişi. Əllərində bir sumka, bir də bir süfrə gəldilər, bu samannığın böyrünü süpürdülər, burda süfrə aşdılar, çörək yiyə-yiyə başdadılar dərtdəşməyə. Bu dedi:

– A kişi.

Dedi:

– Ha.

Dedi:

– Məni harda bəyənifsən?

Dedi:

– Mən səni filankəsin toyunda oynuyanda bəyənmişəm.

Dedi:

– Sən məni harda bəyənmisən?

Dedi:

– Yadına əlermi, qoyunu dağın döşünə vermişdin ey. Qara eşşək orda sözünə baxmadı, kürrük elədi, qara eşşəyə bir çomax vurdun. Qara eşşək əyildi, yerə dəydi, qalxdı. Onda qoluyun qüvvəsinə bəyənmişəm. A kişi, sən Allah, o vaxtlar yadıma düşdü, ürəyim cövr verdi. O samana bir çomax vur, görək, saman da qara eşşək kimi qatdaşajax[91].

Samanın içində gizdənən kişi fikirrəşdi ki, çomax munun təpəsinə dəysə, munun başı yarılajax, öləjəh. Tez başını samannan qaldırdı:

---

[91] Qatdaşmaq – əyilib-qalxmaq

– A kişi, mən sənin qara eşşəyinəmmi? – deyəndə buların ikisi də qorxdular, təşvişə düşdülər, yiməyi burda qoydular, qaşdılar. Bu nolan şeydi? Samanın içində ciniydi, şəyatin idi, nəydi.

Bu, yiməkdən yidi, fikirrəşdi ki, surfanın yiyəsi qayıdıf gələjək. Durdu getdi başqa bir samannığa girdi. Orda bir səvət var idi. Səvətin altında gizdəndi. Gördü indi də ayrı xanımnan bir oğlan gəldi bu səvətin böyrün-başın süpürdülər. Bular da gəldi, süfrə aşdılar. Yimək ərəfəsində başdadılar bir-biriynən dərtdəşməyə. Arvad dedi: – “Sən məni harda bəyəndin?” Kişi dedi: “Sən çayda paltar yuyurdun, orda bəyəndim. Bəs sən harda bəyəndin?” Arvad dedi ki, yadına əlermi, İmam Hüseyn müsibətiydi, orda ağ köynək bəzəmmişdin? Bax orda ağ köynək bəzənəndə, səni onda bəyəndim. Şaxsey-vaxsey təpirdin, başına-gözünə döyürdün. Sən allah, bir şaxsey-vaxsey təp, o vaxtlar yada düşdü.

Kişi qalxdı sinəsinə vurdu, şaxsey-vaxsey, imamı ağlıyırdı. Bu da başında səvət ayağa qalxdı.

– Ya Hüseyn, – deyəndə bular dəli oldular ki, ayə, bu cansız səvət öz-özünə həncəri göyə qalxdı?

Bular da yiməyi burda qoydu, qaşdılar. Durdu bu yiməkdən yidi, bir də aralandı ki, yox, bunun yiyəsi gələjək. Getdi başqa bir imkannı şəxsin qalxoz təyası vardı, ot təyası vardı. Ot təyasının arasına girdi gizdəndi ki, soyuxdan ölməsin. Gejədi, nağayrsın? Ot təyasının arasında gizdəndi.

Kasıvın birinin malının otu qutarmışdı. Fikirrəşdi ki, bu imkannı yatıf, getsin munun otunnan bir şələ oğurrasın, ot gətisin, malına versin. O başa yaxın idi, savağa yaxın. Getdi bunu bilmədən qarannıxda ota pükdü – otun arasına gizdənəni, şələyə vurdu, dalına ötdü. Dalına ötürəndə, munun əyaxları şələdən yuxarı, təpəsi aşağı düşdü. Bu şəliyi dalına vurdu, götürəndə gördü, yeriyəndə bir fısıltı gəler. Şələ dalında belə fırrandı, gördü heş nə yoxdu, belə fırrandı, heş nə

yoxdu. Gəldi, kəndə yaxınnaşanda başdadı kəndin itdəri hürüşməyə. Hürüşəndə şələdəki qayıtdı ki, a qardaş, sən allah, məni də yuxarı götü, it məni yijəh. Deyəndə bu şəliyi tulladı qorxusunnan ki, şələ niyə dilləndi? Qorxdu, qaşdı. Bu biri də şələdən çıxdı. İşıxlaşdı, titrədə-titrədə yolnan gederdi. Gördü bir xanım əlində vedrası su gətməyə geder. Dedi:

– Ay bajı, ajmışam. Allah rızasına, mana bir tikə çörək.

Dedi:

– A qardaş, öyüm o tana. Yeri otu, su gətirif gələrəm.

Bu gəldi içəri girdi. Girəndə gördü öydə heş kəs yoxdu. Buruya baxdı, oruya baxdı. Yükün altını qaldıranda gördü kü, yükün altında üş-dörd dənə yumurta var – toyux yumurtası, cəmin içində. Toyux yumurtasını götdü papağının içinə qoydu, papağı başına qoydu, gizdədi. Buana baxdı, oana baxdı. Şkafın sürməsini açanda gördü, orda bankada bal var. Barmağını batırdı, bir yaladı, iki yaladı. Gördü yalamaxnan bir şey getmer. Əlini içinə saldı ki, ovcunnan bir alsın. Birdən öy yiyəsi gəlin qapıdan girdi. Girəndə əlini çıxardammadı, tez əlini arxasında gizdətdi.

– Qonax qardaş, gəl əlinə su töküm, bir kısmat çay-çörək verim də, Allah qonağısan, ye.

Dedi:

– Yox, ay bajı, əlimdən dolama[92] çıxıf.

– Ə, qonax qardaş, gəti.

Əlini belə çəkəndə gördü, bal bankası əlinə girif. Əlindəki parçnan kişinin təpəsinə vuranda, yumurtalar qırıldı kişinin üzünə, başına töküldü. Qadın qorxdu, qışqırdı ki, Allah öyünüzü yıxmasın, bir kişi gəlmişdi, parçnan vurdum, beyni darmadağın oldu. Qonşular tökülüf gələndə gördülər ki, əşi, dağılan bu öyü yıxılmışın beyni deyil. Bu oğrudu. Yumurtta qırılıf sifətinə, başına tökülüf. Gülüşə-gülüşə munu yola saldılar, vardı getdi.

---

[92] Dolama – dırnağın iltihabı

## 56. TACİR DOĞAN İLİ

Bir kəntdə varrı-döylətdi tacir olor. Tacir harda yaxşı qadın varsa, onu aler. Pulu çoxdu. Gətirer on gün, on beş gün saxler, buraxer. Ayrısını aler, gətirer. Bir yeddi-səkgizini aler gətirer, buraxer. Aler-boşoor, aler-boşoor... Yeddi qardaşın pəhlivan kimi bir bacısı olor. Atalar deyib ki, aslanın erkəyi, dişisi olmaz. Bu qadının bu boşanannara hayfı gəler. Deyir ki, ədə, belə-filan, buların suçu nədi ki, buları sən saxlamersan, buraxersan? Bu, qardaşdarına deyir ki, ay qardaş, mana icazə verin, mən o tacirə gedem. Deyir, aaz, başın batsın, o neçəsini alıf buraxıf. Deyir, məni buraxammaz.

İndi, tacir elçi getmək əvəzinə, qızın adamları tacirə deyir:

– Ə, başın batsın, alıf buraxdığınnan da yaxşıdı filankəs. Yeddi qardaşın bir bacısı var. Onu gətsən.

– Əyə, gələrmi?

Deyir:

– Gələr.

Elçi göndərer, bu yeddi qardaşın bacısını aler, gətirer. Öyə gətirer. Tacirin iş yeri varıymış, iş yerinə eder. Yolnan gedəndə örör ki, bir uşaxdı, əlində üç-dörd balıx, belə sallıya-sallıya... Əyə, burdan gəlin! Deyir ki, ə, balığı neçiyə verersən? Deyir, məsələn, bir manata. İki manat verer, deyir:

– Bunu apar o öydəki gəlinə ver. – Gəlin büyün gəlif ha, hələ axşamlamıyıf. – Deyir, apar bunu mənim həyat yoldaşıma ver. Denən, tacir dedi ki, bunu pişirsin, axşam gələndə yijəm.

Gəlin balıxları təmizdiyir, içini çıxarder. Qəşəh öz isməttinnən, öz qadınnığınnan bu neçə balığıydısə, üçmü-dördmü, balığın bir hissəsini soyutma pişirer, bir hissəsini qızartma pişirer, bir hissəsini kavaflıx qoyor. Deyir ki, birdən gəldi dedi ki, mən balıx yimirəm, ayrı şey yiirəm. Duror bir sini xəngəl pişirer, bir sini xaşıl pişirer, bir sini filan şey pişirer.

Hər şey pişirer, qoyor boşqava, cərgəsinnən düzör şkafa. Öydə pişən şeyin hamısını qadın pişirer. – Uzür isterəm dinləyicilərdən də, elə hamıdan da, sənnən də. – Bu boşqavın birinə də quru peyin qoyor.

Gəler tacir:

– Balığı pişirdinmi?

Deyir:

– Pişirdim.

Soyutmuyu gətirer qavağına qoyor. Deyir:

– Belə-filan qızı, böyün mən soutma yimijeydim, qızartma yijeydim.

Deyir:

– Buruya bax, belə-filan oğlusan da, hələ artıxsan da. Soutma yimirsən, ala qızartma. Bə niyə söyürsən?

– Bəlkə mən qızartma yimijeydim, kavaf yijeydim.

Deyir:

– Ala, bu da kavaf.

Deyir:

– Mən hər gün balıx yiirəm. Böyün balıx yimijeydim, sulu xəngəl içəjeydim.

Deyir:

– Ala, sulu xəngəl.

– Xaşıl yijeydim.

– Bu da xaşıl.

– Filan yijeydim.

Deyir:

– Ala, bu da filan.

Nə pişirmişdisə, hamısınnan dedikcən gətirer qavağına qoyor. O qədir tacir yaner, məhətdəl qaler ki, nə bəhanə eliyim. Axırda deyir ki, belə-filan, bəlkə mən peyin yijeydim. Deyir, ala, bu da peyin.

Bular axşam yatası olor. Yatası olanda bu kişi məhətdəl qaler ki, mən nağayrem, neylem? Bunu nə bəhaneynən buraxem? Tacir deyir ki, arvad!

Deyir:

– Bəli!

Arvad yeni gəlif axı. Deyir:

– Arvad, yaman sancılanmışam.

Deyir:

– A kişi, Allah eləməsin! Axşam bir az çox yiifsən əlbət!

Deyir:

– Allah haqqı, onnan döyül, bu ayrı şeydi.

Gəler qadın bunun qarnını-zadını sığaller, yoxloor. Deyir:

– Allah mana ölüm versin, uşağın var, – deyəndə deyir ki, belə-filan qızı, kişi də doğarmı? Deyir:

– Kişi doğmaz, tacir doğar. Gənə kişi başını bürür, yater. Arvad da yadınnan çıxer, gətdiyi də yadınnan çıxer.

Ələsgərin, məsələn, bir körpə uşağı oluf. Arvad geder, deyir ki, bircə saatdığına o körpə uşağını mana ver, bircə saatdan sonra qaytarıf gətirəjəm. Körpə uşağı gətirer. Tacirrərin də o zaman şalvarrarının balağı gen olormuş. Aparer uşağı qoyor tacirin iki qılçasının arasına. Tacir yuxudan qalxanda örör ki, ə, qılçasının arasında uşax qımıldeer.

– Arvad, arvad!

Deyir:

– A kişi, nədi?

Deyir:

– Öyün yıxılsın, o dediyin oluf!

– A kişi, nə danışersan?

Deyir:

– Canın üçün oluf! Öyümüz yıxıldı, gəl!

İndi, arvad götürör, yürgəyi aser. Uşağı yürgəyə qoor, boyunu söör[93].

Başına dönüm, baş alanda,
Əyilif qazannan aş alanda.
A munu verən, tayını ver,
Oxunu gizdət, yayını ver.
Birini qora dərən ver,
Birini könül görən ver.
Ay munu verən,
Çiyninə sarı kürk də ver,
Başına qara börk də ver.
Ninnini balam, ninnini.
Allah, buna qurban olum,
Nə gözəl şeydi bu.

Tacir məhətdəl qaler. Deyir:

– Ay arvad, nə danışersan, nə söylörsən?

Deyir:

– Nə söylörəm, a kişi? Bə uşağa canına azarmı demək olar? Yalvarallar, laylay çalallar, boyunu söərlər.

Tacir deyir:

– Nə verem ki, onu mənnən aralıyasan? Bu işi bir Allah bilsin, bir sən, bir də mən. Qələm-kağız gətirer tacirə, deyir ki, yaz! Evim, eşiyim, malım, mülküm, həyətim, bağım, baxçam – nəyim var hamısı sənindi. Altınnan qolu çəker, peçətini vuror. Kağızı civinə qoyor. Aparer uşax yiyəsinin uşağını özünə verer. Deyir, arxeyin ol, get işinnən məşğul ol! İndi, tacirin tükənnəri var, dörd-beş tükəni. Dura bilərmi? Deyir:

– Arvad, nağayrem, mən gedemmi? Durom işə çıxem dana, tükənə çıxem, məni gözdööllər orda.

Deyir:

---

[93] Söör – səvələyir, oxşayır

– Allah mana ölüm versin! Harya edirsən? Sən zahısan, pozularsan, öyüm yıxılar! Sən nə danışersan? Qoymaram getməyə!

Kişi deyir:

– Vallah, məndə heç nə yoxdu.

Deyir:

– Di yaxşı, gedersən get, amma mənim bu dal şalımı çiyninə sal, soyuxdan özünü gözdə.

Əmbə alaqarannıxdan qasidin əlinə beş-üç manatı gəlin verer, deyir: "Gedif Touz rayonunun bəri başınnan düşörsən, o başınnan çıxersan ki, tacir beyjə bir oğlan doğuf. Car çəkərsən hər yerə". Qasid geder hər yerə car çəker, qayıder gəler:

– Əmrini yerinə yetirdim.

Deyir:

– Sağ ol!

Tacir şal çiynində geder birinci tükəninə girer. Girən kimi müştərilərin biri deyir ki, ay tacir əmi! Deyillər, beyjə bir oğlan doğufsan, düzdümü? Deyir:

– Ə, oğlan nədi?

O biri deyir:

– Tacir əmi! Deyillər, beyjə bir oğlan doğufsan. Düzdümü?

Baxanda görör kü, pütün şəhər biler bunu, bu işi. Əlli-əyaxlı geder, iter.

İyirmi beş ildən sonra qayıder ki, indi yaddarınnan çıxıf. Gələndə örör həmən kəndin böyründə iki cüt əkən biri-birinnən dalaşer. Deyir:

– Bura mənimdi.

Deyir:

– Ə, yalançının öyü yıxılsın, mənimdi.

O deyir ki, vallah, bura mənimdi. Ə, atamın-anamın goru haqqı, tacir doğan ilinnən bura mənimdi. Tacir də qulax aser ha! Görör, ə, bu əkin əkənin yadınnan çıxmıyıf, o birilərin

yadınnan çıxarmı? Qayıder tacir hələ eder. Həmən qadın da, tacirin pütün malına, mülkünə, hamısına yiyə duror.

## 57. KİMİN LÜTÜ BƏRK QAÇIR

Bir gün kişi deyir, arvad! Deyir, ha! Deyir ki, arvat, bu kəntdə bizim adımız var, sanımız var. Eşitmişəm sənin əyağın sürünçəhliyif. Sən ateyin goru, mən varıf gederəm qomandirovkaya, bir az özünü gözdə. Deyir:

– Ə, qardaşdarı goru haqqı, məndə elə şey yoxdu, dəlisənmi?

Deyir:

– İt qızı, belə şeyə görə qardaşımın goruna niyə and içersən? Öz qardaşın goru haqqı deyəmmersən?

Deyir:

– Ə, qardaşdarımın canı üçün, məndə elə şey yoxdu.

Deyir:

– Bax, mən gederəm.

Geder. Kəntdən bir az çıxanda yadına düşör ki, ə, buların nəhrəsi qırığıydı, nəhrənin qapağı yoxdu. Aparem bunu qapatdırem. Qayıder gəler, qapının deşiyinnən baxanda örör içərdən gurultu gəler. Görör arvat, bir də bir lüt kişi var içərdə. Qapıyı döyən kimi arvat bunu nəhrənin içinə soxor, qapağını da başına qoor, çüyün ikisini də taxer. Deyir:

– Kimsən, a kişi!

Deyir:

– Aaz, mənəm, nəhrə qayrılan kənddən keçəjəm, nəhrəni aparem başını qapatdırem.

Deyir:

– Ə, qapağı özüm düzəltmişəm.

Deyir:

– Köpəy qızı, nəhriyi buruya əti[94].

Çatıyı gətirer, nəhrəni dalına şəlliyir. Gəler o Göy qayanın başı kimi bir qayanın başına. Görür ə, çayın qırağında bir arvat yunu yuyuv ordadı – sudadı. Qavağında bir kişi çimizdirer. Deyir: “Arvad köpəyqızı belə olmazmı? Kişiyi qavağına qoyuf çimizdirər dana”. Bir də örör kəndin əyağınnan – Ağbulaxdan anrı qara daylaxlı bir kişi geder. Arvat bu kişini görən kimi çimizdirdiyini aparer yunun altına soxor. Kişi deyir: “Sən öl, bu kopoğlu da mən günnüdü”.

Qara daylaxlı kişi gəler, deyir:

– Öyü yıxılmışın qızı, suda qaldı əlin-əyağın, – deyəndə deyir ki, ə kişi, zərəl yoxdu, barxanıyı yığ apar, mən də yunu sudan çıxardem, qayıdıf gəlif yunu da apararsan.

Deyir:

– Hə, hə, hə! Atam sana qurvan, arvat, yaxşı.

Kişi atdan aşırılıf belə baxanda görör, ə, qayanın başında bir nəhrəli kişi oturor. Deyir:

– Ə, kopoğlu, bəlkə mənim arvadım burda çimer, nəyşə baxersan ordan?

Deyir:

– Kopoğlusan da, eşşək oğlusan da. Yaxşı eliyirəm.

İndi bunu qızışdırer. Deyir:

– Ə, atamın goru haqqı, gəlif o nəhriyi aşağı dığırrıyajam.

Deyir:

– Ə, atamın goru haqqı, o nəhrəyə əlin dəyən kimi, gəlif yunu dağıdajam.

Deyir:

– Heç qırıq da dağıdammazsan.

Deyir:

– Heç qırıq da nəhriyi tərpədəmməzsən.

---

[94] Buruya əti – bura gətir

Bu bunu qızışdırer ki, gəlsin nəhriyi buna atsın. Gəlinin əri qaya yuxarı yürör, nəhriyə çatanda, kişi gəler yunu başdıyır vızhavız atmağa. Bir də örör nəhrə qırıldı, nəhrənin içindəki lüt çay aşağı götürüldü. Bu yunun altdan da biri çıxdı bunun dalınnan getdi. Deyir:

– Ay daylaxlı qardaş!

Deyir:

– Höy!

– Gə görək, – deyir, – kimin lütü bərk qaçer.

## 58. ƏRİNƏ ÇUXA TOXUYAN ARVAD

Mən ağılda, mən yaşda, mən başda bir arvad varıymış. Bu arvad ərinə deyir ki, ərim, sən varıf işdəməyə gedersən. Sən gələnətən mən beş-altı ay buralarda nə iş görüm? Kişi deyir:

– Gedif sana bazardan əlli kilo, yüz kilo yun alıf gətirəjəm, mən sezonnan qayıdıf gələnətən mana bir yaxşı çuxa toxuyarsan.

Deyir:

– Baş üstə, mənim gözüm üstə.

Kişi geder yunu aler, gətirer arvadın yanına qoyor. Kişi varer geder işdəməyə. Arvad bu yunnan bir əlçim, iki əlçim dareer, görör ə, bunun hövsələsi gəlmer, munun başı ağreer. Deyir, sənin yununun da içinə pox, çuxeyin də. Mən toxuyufeliyən döyüləm. Eşiyə çıxer, bir az belə hərrəner, bir az elə hərrəner. Bir də örör yolnan bir kişi geder. Bu kişi buna deyir ki, aaz, ay bajı, nə vurnuxursan? Baxer görör kü, bir az aralıda olan qonşuları İrvaham kişidi. Deyir:

– Ay İrvaham qağa, and olsun Allaha, başım elə ağrıyır, elə ağrıyır, elə ağrıyır. Ərim də mana üç-dörd meşoy yun alıf, deyif munu dara, əyir. Darıyıf əyirəmmerəm. Yunun da bir

iysi var, bir qoxusu var, Allah görkəzməsin. İysinnən, qoxusunnan cəhrənin yanına qoyuf bir çəngəsini darıyammeram.

İrvaham kişi baxıf gülümsünür. Bu da it oynadanın biridi. Deyir ki, ağız, indijə çərçi[95] gələjək. Pulun yoxdu, buğdadan, taxıldan ver, onnan dəyiş[96] al. Kanfetdən, noğuldan al yanına qoy, bir cəhreyi tırıldat, bir ağzına tulla. Beləliknən, darıyıf əyirəjəhsən. Deyir:

– Yaxşı.

Arvad əlini gözünün üstünə qoyuf yola baxerdı, bir də gördü haravalılar gəldi.

– Salaməleyküm.

– Əleyküməsalam.

– Ay qardaş, nədi?

Deyir, filan şey, filan şey. Deyir:

– Mənim pulum yoxdu. Buğda, taxıl varımızdı, verərsənmi?

Deyir:

– Yaman verərəm.

Geder vedreyi çəker çuvaldan, buğdanın, taxılın, qarğıdalının canına tüşör, gətirer, nə bilim, neçə vedrə muna verer. Munnan aler fındıxdan, qozdan, kanfetdən, kişmişdən, xurmadan, aparer cəhrənin böyrünə qoyor. Arvad başdıyır bir əlçim yunnan darıyıf bunnan birini-ikisini ağzına tullamağa. Bir az darıyır, bir az əyirer. İki-üç gün keçənnən sonra İrvaham kişi bir də bu yolnan gəler. Bu yolnan gələndə arvad eşiyə çıxıfmış. Deyir:

– Ay bajı, nətəərsən?

Deyir:

– Sağ ol.

---

[95] Çərçi – alverçi

[96] Dəyiş – mübadilə, dəyiş-düyüş

Deyir:

– Cəhreyi əyirə bilersənmi?

Deyir:

– Ay İrvaham qağa, dərdin alem, bu canım sana qurvan, o canın üçün, cəhrənin iysi-qoxusu elə çəkilif, elə çəkilif, elə çəkilif. Bir darıldaderam, bir ağzıma tullooram, bir dırıldaderam, bir ağzıma tullooram, bir quruldaderam, bir ağzıma tulooram. İysi-qoxusu yoxdu.

Deyir:

– Əyir.

Yunu əyirer qutarer, meşoyun içinə yığer. İndi bu bir toxuyan gəzer – gəvə toxuyanmı, kilim toxuyanmı, çoraf toxuyanmı, ərinə çuxa toxudajax. Bu, yolunu əlinə aler bu kənddən o kəndə gedəndə yolun qırağında bir gölməçə var imiş. Bu gölməçənin qırağınnan gedəndə örör kü, bu gölməçədə çoxlu qurvağalar quruldaşer. Yaydı, qurtaqurt düşüflər. Deyir:

– A qurvağalar, nəyə quruldaşersınız?

Bular bir də quruldoor.

– A qurvağalar, manamı gülüşörsünüz?

Bir də quruldoollar.

–A qurvağalar, sizə bir işim tüşüf, desəm olarmı?

Bir də quruldoor. Deyir:

– Mənim ərimin ipi var, ona filan vaxdatan çuxa toxuyun, sizə nə istəsəniz verəjəm.

Qurvağalar quruldaşer. Deyir:

– Aha, razıdılar, gəl-gəl deyir.

Geder meşoyu dalına şəlleer, üst-üstə qoyor, gətirer gölün qırağına. Kələfləri götürör, götürör, gölün içinə əldən qoyor, üstünnən də bir-iki ağacnan-mağaşnan vuror. Nolojax, qurbağalar ipmi çözəlijeydi, muna çuxamı toxuyojoydu?

Burda olsun, arvad geder qapıda, qonşuda, burda-orda gəzməkdə. Aradan üç ay keçer, dörd ay keçer, birdən yadına

tüşör kü, haa, payızdı, ərimin gəlmək vaxtıdı. Gedim göldən çuxoyu gətirim. Geder gölə, gölün qırağına buan, oana. Görör bir dənə "qırr" eliyən yoxdu.

– Ay qurvağalar.

Çağırer, görör yoxdu.

– A sizi Allah qırsın, a atanıza, ananıza nəhlət, sizi qırajam, cavab verin.

Görör yoxdu. Deyir:

– A köpək qızdarı, görün sizin başıza nə oyun gətirirəm, bu saat.

Tumanın balağını çərmeer[97], əyağını soyunor, özünü verer gölə. Bu divə, o divə, bu divə, o divə, əli-əyağı donur, qırağa çıxer. Bir az siler, bir az bükör, bir də özünü gölə verer. Çünki arvad nervili gəlif, həm də ərinnən qorxor, öldöröjək. Bir də özünü oruya-buruya verəndə gölün içinnən bir toxmax taper. Deyir:

– A sizin dədənizin ağzına pox. İndi sizin toxmağınızı mən oğurruyuf apararam, görüm nəynən toxujaxsız.

Toxmağı əlinə ötürör, siler, qoltuğuna bükör, geder öyə. Munu siler, əri gələnətən bir yerdə gizdeer. Əri gəler. Salam, kəlam.

– Arvad, çuxoyu toxudunmu?

Deyir:

– A kişi, başıma bir müsibət gəlif.

Deyir:

– Nədi?

Bu oluru qaydada kişiyə düzünü söylöör. Deyir, belə oldu, belə oldu, qurvağalar mana cavab vermədi, nə də köpək qızının birini tapmadım öldürəm, hayıfımı alam. Höyələrini[98] oğurradım gətdim. Deyəndə deyir:

---

[97] Çərmeer – çirmələyir
[98] Höyə – toxmaq

– Aaz, yeri bura ətir.

Gedif toxmağı gətirəndə kişi baxıf görör bu qızıldı. Arvada heş nə demer. Deyir: “Ağılsızdı, bunu götürüf oana-buana verəjək”. Deyir:

– Arvad, munu saxla, bu yaxşı şeydi. Aparıf munu bazarda iki çuxoya dəyişəjəm, biri sənin, biri mənim. İkimiz də baravar geyinək.

Deyir:

– Yaxşı.

Arvad munu gizdiyif, kişi də varıf işə geder.

Arvad oturordu qara damın belində. Bir də gördü haravalar qırtaqırt yolnan gəler.

– Nə satersınız?

– Çoxlu qav-qaşığ.

– Qav-qaşığ nədi?

– İstəkən, nəlbəki, cəm, boşqaf, saxsı qavlar.

– Neçəyə verersiniz?

Deyir:

– Bir beləyə.

Deyir:

– Ay bajı, ay qardaş, mənim ərim öydə yoxdu, pulumuz da yoxdu. Mənim bir toxmağım var. Gətirif sizə versəm, alıb bu qavdan mana verərsinizmi?

Deyir:

– Gəti görək həncəri şeydi.

Gedif toxmağı gətirəndə göröllər qızıldı. Bu ona göz vurur, o buna göz vurur, işarə eliyir, deyir:

– Ala, bu haravanın birini sana vererik, bu qavın-qaşığın hamısını apar. Boşqafdı, cəmdi, istəkəndi, nəlbəkidi, filandıpesməkandı öyünə düz, öyünü bəzə.

Arvad gəler, bir vedrə suyu gətirer, öyə çileer, suloor, süpürör. Yekə boşqafları buxarı uzunu belə kruqnu düzör,

onun qavağınnan cəmlərdən düzör. Belə-belə bir harava qavın hamısını öyə düzör. Bir də görör kişi gəldi. Kişi gəlif içəri girmək istiyəndə deyir:

– İçəri girmə, içəri girmə, qavları qırajaxsan.

Belə baxanda görör öy al-əlvan çaler.

– Arvad, bu nə qav-qaşıxdı, bu nədi? – deyəndə deyir o qurvağaların qardaşının goruna pox. O qurvağaların toxmağını verdim, munu aldım.

Deyir:

– Elə sənin də qardaşıyın kəlləsinə pox, sən də bir köpəkqızı döyülsən. A köpəkqızı, o qızıl idi, adam da onu verif belə şeylər alardımı?

– A kişi, qızıl nədi, zad nədi? Bir belə qav almışam. Hələ onun axlı yoxdu ki, mana bir belə qav-qaşıx verif.

Təzdənnən arvadı da kişi bir-iki əzer. Əzənnən sonra da ta kişi hareyi gəzsin ki, ay qav satan, mənim toxmağımı ver, arvadımnan toxmağ alıfsan. Arvad qurvağalara ərinin çuxasını belə toxutdu.

## 59-60. KƏKƏN, KÜKƏN, HƏDİ, HÜDÜ, SALAMAN OĞLU SADIQ VƏ MƏN

Günnərin bir günündə Kəkən idi, Kükən idi, Hədiydi, Hüdüydü, Salaman oğlu Sadığ idi, dayım idi, mən idim, oya[99] getdik. Getdik gördük pitməmiş kol divində doğmamış bir dooşan balası yater. Dayım dedi:

– Gəlin munu vurax.

Kəkən atdı dəymədi, Kükən atdı dəymədi, Hədi atdı dəymədi, Hüdü atdı dəymədi, Salaman oğlu Sadığ atdı dəymədi. Dayım atanda mən tüfəngi götdüm elə atdım dooşan

---

[99] Oy – ov

darambadan yıxıldı. Munun başını kəsməyə pıçax lazım idi. Hamımızın civini tökdük, ora-burasını tökdük, üş dənə pıçax tapdıx. İkisi qırıx, birinin qədəyi[100] yox. Qədəyi yox pıçaxnan dooşanı boğazdadılar, soydular, doğradılar, yığdılar. Munun ətini pişirməyə tua[101] lazımdı. Bura tua, ora tua. Baxdıx gördük ordan bir tüstü çıxer. Tüstü çıxan yerə getdik, gördük tüstü çıxan yerdə üç öy var. İkisi uçux, birinin xımı[102] yox. Bu xımı yox öyün qapısını döydük, üç arvad çıxdı: ikisi kar, birinin gözdəri yox. Gözü kor arvatdan tua istədik, üç tua çıxartdı: ikisi qırıx, birinin götü yox. Götü yox tuayı gətdik, əti içinə doldurdux. Ojağı qaladıx qoyduğ üstünə. Ət pişdi, hərə bir tərəfdən yedi. Bu tuanın divində ətin yağı qalmışdı. Əlimi uzatdım ki, bu yağdan belə götürəm çəhmələrimi yağlıyam. Yağdan götürüf çəhmənin birini yağladım, oruya qoydum, birini də yağlamağa əlimi uzadanda gördüm çəkmə yoxdu. Bura çəkmə, ora çəkmə, nə qədər gəzdik tapammadıx. Saxsı iynəsini qırx arşın quyunun divinə saşdım, başına çıxıb baxanda ördüm çəkmə İsfahanda çüt əker. Getdik: "Ay çəkmə, bizim əyağımızı yalın qoyuf nə əzersən burda? Nağayrersan, neynersən, navar? Gəl gedək səni yağlıyım. Belə, helə". Dedi: "Çox danışma, get piçinçi gəti, taxılını pişdir". Baxdıx ki, dünyoyu əkdirif, becərtdirif, şumloof. Bir yannan taxıl əkiler, bir yannan piçiler, bir yannan da dərz bağlaner. Taxılı nağayrax, neyniyək? Bir də baxdıx ki, bir dənə donuz taxılın böyrünnən tüşüf yiyir. Bir qırıx çin var idi. Bu çini belə götdük, atanda çin getdi bu donuzun buduna batdı. Donuz qaşdı "vay" çığıra-çığıra. Donuz qaşdı, çin pişdi, donuz qaşdı, çin pişdi, donuz qaşdı, çin pişdi. Baxdıx ki, taxıl piçilif töküluf. Biz də bir böördən tez dərzdəri bağladıx, yığdıx. Savah

[100] Qədəy – tiyə
[101] Tua – tava
[102] Xım – bünövrə

munu döyməyə konbayın-zad lazımdı. Dedik, savağa qalsın, gejədi. Birtəri yatdıx. Savah açıldı. Savah baxdıx, həmən donuz gəlif tayanın böyrünnən tüşüf yenə yiyir. Çini götdüm, ajıxlı-ajıxlı muna atanda donuzun dişinə dəydi, dişinnən bir qığılcım parıldadı. Taxılın tayasına düşən "par" elədi taxıl alışdı. Taya başdadı yanmağa. Nə qədər yüür əlinə yava al, nağar, keçirəmi bilərsən tayeyı? Taya yandı qutardı. Hayıfsına, hayıfsına, kirimişcə ah çəkə-çəkə taxılın külünü başdadıx qarışdırmağa. Bu üzünnən o üzünə, o üzünnən bu üzünə, bəlkə bircə dənə sünbül çıxa, toxumlux qalmış ola bunnan. Munu toxum tutojoox. Gördük yavanın burnu bir ağır şeyə keşdi. Munu dartadart, çıxartaçıxart, baxanda gördük burdan bir yekə palan çıxdı. Palanın arasını açanda gördük bir yalan çıxdı. Bu yalanı da nağayrax, neyniyək? Çivin mindik Kür keşdik, dəmir yavaynan dooğa işdik. Heş belə palan görməmişdim, heş belə yalan görməmişdim. Nağıl burda bitdi.

**60.**

Deyir ki, Hətəm idi, Hütəm idi, Koroğluydu, Kosaçıydı, Zurnaçıydı, əmim oğlu Həsəniydi, məniydim. Bir gün yığılıf söhpət eliyirdik. Dedik hər yeri gəzdik, dolandıx, bir dəfə də gəlin ova çıxax. Belə məsləhət elədik ki, bazar günü hamımız bazarın yanına yığılerıx, oya gederik. Hərə öz silahını götürdü, bazar günü savax ertə getdih. Gedəndə gördüm Hətəm də gəlif, Hütəm də gəlif, Koroğlu da gəlif, Kosaçı da gəlif, Zurnaçı da gəlif, əmim oğlu Həsən də gəlif, mən də gəldim. Kiminin çaxmağı var, kiminin toxmağı var, kiminin lüləsi var, kiminin pıçağı var, kiminin tətiyi var. Hərənin bir şeyi var. Hamımız yaraxlanıf yasaxlanmışıx.

Dedih yola çıxax, gedək. Getdih düzəngah bir yerə. Bir də gördüh ki, bitməmiş yooşanın divində bir dənə yaranmamış dooşan var. Dooşanı görən kimi, hərə bir tərəfdən pus-

quya durdu ki, gəlin bu dooşanı vurax. Hətəm atdı dəymədi, Hütəm atdı dəymədi, Koroğlu atdı dəymədi, Kosaçı atdı dəymədi, Zurnaçı atdı dəymədi, əmim oğlu Həsən elə atemmı deyəndə, mən vurdum. Vuran kimi, dooşan yaralandı. Dooşan yaralananda, başdadı yaralı-yaralı, qanı axa-axa qaçmağa. Hətəm qaşdı, tutammadı, Hütəm qaşdı, tutammadı, Koroğlu qaşdı, tutammadı, Kosaçı qaşdı, tutammadı, Zurnaçı qaşdı, tutammadı, əmim oğlu Həsən elə əlini atıb tutommu deyəndə, mən onnan tez dooşanı tutdum. Dooşan nə dooşan, nə boyda: piy, palan, yağ. Dooşanı götürdüh, pıçaxnan başını kəsdih. Nağayrax, neyniyəh? Dərisini soydux, ətini doğradıx. Mən də əyaxqavılarımı götdüm, dooşanın yağınnan yağladım, günün altına qoydum ku, əyaxqavılarım qurusun, yumşalsın. Getdih bir uçux karvansaradan bir götüyox qazan tapdıx. Əti doğradıx içinə töhdüh, asdıx. Yemək burda pişdi, yidik-içdik, dağıldıx hərəmiz öz öyümüzə. Mən də gəldim qapının ağzına çatanda, istədim əyağımı soyunam, yadıma tüşdü ki, əyaxqavılarımı orda qoymuşam. Heç əyağıma geyinməmişəm. Deyir, dedim bu nə işiydi mən tüşdüm. Mən gedem əyaxqavımı qaytarem gətirem. Getdim, deyir, oy elədiyimiz yerə çatanda, gördüm, mənim əyaxqavılarımı biri kotana qoşuf yer əker.

– Ayə, neynersən? Bə mən bunu yağlıyıf günün altına qoymuşam. Bu mənim əyaxqavımdı.

Dedi:

– Bağışda, bilmədim, əvəzində mən sana darı verərəm. Apararsan, əyaxqavının işdətmək hakqınan razılaşarıx.

Mən də, deyir, darıyı götürdüm. Mana bir para yarım darı verdi. Mən bu darını nətəri gətirem, nətəri gətirem? Birdən, deyir, bir dənə atdı qarışqa çıxdı qavağıma. Atdı qarışqa qavağıma çıxanda, dedim ki, heç olmasa, bu atdı qarışqanın belinə yüklüyüm, atdı qarışqaynan gətirim. Nolojax, yükü atdı qarışqanın belinə yüklüyərəm, özüm də üstünə minərəm,

çıxaram yol gəlməyə. Gəldim, gəldim, gəldim, gördüm yoldan bir qarı nənə keçer. Nolojax, at xam, üstündə yük, mən də gələrəm. Başdadım qışqırmağa: "Ay qarı nənə, qaç, at xamdı! Ay qarı nənə, qaç, at xamdı!" Qarı nənə qaçmadı. Demə, qarı nənə karıymış. Qarışqa, deyir, gəldi, qarı nənənin yanına çatanda hürkmədimi? Hürkən kimi darı yerə töküldü, oruynan bir oldu. Mən nağayrem, neynim? Mən bu darıyı nətəər yığışdırem? Deyir, dedim, elə yaxşısı budu ki, bu darını burda əkim, suluyum, qoy darı elə burda çıxsın. Darını əkdim, suladım, sonra da yavaş-yavaş yolu əlimə aldım, öyə gəldim. Yenicə girif elə rahatdaşerdım ki, bir də dedilər ki, bə deməzsənmi, patcahın donuzdarı darıya tüşüfdü, darıyı yiif dağıder. Deyir, dəli oldum ki, mən o boyda darı əkmişəm, nətəər mənim darımı yiif dağıder? Eşiyə çıxdım. Əlimi atdım ki, əlimə bir şey götürəm, əlimə bir orax keçdi. Orağı götürdüm, deyir, qaça-qaça gəldim. Gəldim darıya yaxınnaşanda, gördüm kü, donuzdar xortaxort elə yiir, elə yiir darıyı. Dedim, yox, belə şey olmaz! Orağı, deyir, geridən atdım. Atan kimi, deyir, orax donuza dəymədi, başdadı darıyı piçməyə. Darıyı pişdi töhdü, pişdi töhdü. Axırda, deyir, pütün darıyı orax pişdi yığdı. Qaldım belə, mən nağayrem, neyliyim? Bir belə darı burda. Bunu, deyir, dərz bağladım, taya elədim ki, qurusun, havaxsa gələrəm, daşıyaram, apararam. Dərzi, deyir, bağladım, gəldim. Öydə yenicə uzanıf bir az sakitdəşməh istirdim, deyir, bir də gördüm ki, qapımı dööllər ki, öyün yıxılsın, nə yatıfsan? Patcahın atdarı dərzi dağıder. Etmə-eləmə tənbəllih, deyir, çıxdım çölə. Hirs vurdu başıma. Əlimi atdım, əlimə bir daş keçdi. Daşı götürdüm, gəldim. Ata, deyir, yaxınnaşanda nətəər atdımsa daşı, daş getdi, atın nalına dəydi. Nalına dəyən kimi ordan qığılcım tüşdü darı dərzinə. Başdadı, deyir, taya alışıf yanmağa. Yandı, yandı. İrəli durdum üzüm yandı, geri durdum canım yandı. Nə dərzi kutara bildim, təmiz yandı, yandı, kül

oldu. O yanıf kül olannan sonra, deyir, canım o qədər istiləndi, o qədər istiləndi, ürəyim durmadı. Əlimə bir ağac aldım, başdadım bunun külünü eşələdim, eşələdim, eşələdim, gördüm külün içində bir palan var. Yavaş-yavaş, deyir, palanın arasını açdım ki, munun içində bir kitab var. Kitabı açıf oxuyanda, gördüm kü, mənim danışdıxlarımın hamısı yalanıymış.

## 61. YAXŞILIĞA YAMANLIQ

Bir yaxşı kişi – Haja getmiş, Məkkə görmüş, "Quran" oxuyan, namaz qılan, oruc tutan, kənd ağsakqalı, el ağsakqalı kişi yolnan gederdi. Yolnan gedəndə gördü kü, yolun qırağında bir qara tikənlik var. Qara tikənlik dörd yannan alışıf yaner, amma ortasında bir ilan var, başını qaldırıf çığırer: "Ay mana kömək, ay mana kömək". Bu kişi hasasının ujuna kisəsini bağlıyır, ilana uzader ki, Allahın dilsiz-ağızsız heyvanı, gəl bu kisənin içinə gir, bu aloydan, oddan səni çıxardım, yoxsa mən oda girəmmərəm. Bu haseyi uzadanda ilan gəler munun kisəsinə girer, kişi çəker bu ilanı çıxarder, ağzını da buzuyur. Bir xeylax da yolnan gedənnən sonra indi haseyi yerə qoyor, kiseyi munun başınnan çıxarder. Kisənin ağzını açer, deyir:

– Ay ilan, indi çıx get.

İlan deyir:

– De görüm sənin... – Amma kişinin bir atı var imiş yedəyində. – De görüm sənin atınımı vurum, özünümü vurum? Hasınızısa vurmalıyam.

Deyir:

– Allahın dilsiz-ağızsız heyvanı, mən sana yaxşılığ elədim. Etmə-eləmə, məni niyə vurorsan?

Deyir:

– Yox, yaxşılığınkı yamannıxdı. Mən ya səni, ya atını vurmalıyam. Bizim də xislətimiz çalmaxdı də, biz beləyik.

Deyir:

– Gəl bəni-insan tapax, ona gənəşək. İnsan ağıllı olor, görək nə deyir. O nə desə, onnan gedək.

Bular yolnan getdikləri yerdə qavaxlarına bir heyvan çıxer.

– Salaməleykim.

– Əleykiməsalam.

Deyir:

– Ay heyvan qardaş, belə bir yaxşı iş görmüşəm, bax, bu ilanı azad eləmişəm. İndi bu ilan deyir ki, yaxşılığınkı yamannıxdı, de görüm, sənimi vurum, yoxsa atınımı vurum, – deyəndə bu heyvan qayıder deyir:

– İlan düz deyir, yaxşılığınkı yamannıxdı. Eləmiyəydin yaxşılığı. Ya səni vurmalıdı, ya atını. Elə ikisin də vursan lap yaxşı olar, – deyəndə bu kişi yerdən bir daş götürör bu heyvana çırpan kimi heyvan orda ölör. Kişi ilana deyir:

– Gəl gedək.

İlan kisənin içində, bu da burda. Bular gedellər. Bir qədər gedənnən sonra buların qavağına bir dəstə quş çıxer. Bu quşdar da məleykələrdi, quş libasında gəzellər.

– Salaməleykim.

Deyir:

– Əleykiməsalam.

Deyir:

– Ey gözəl quşdar, ey qanadlarınızın al-əlvanına qurvan. Mən sizə bir şey gənəşmək istiyirəm. Siz dünya gəzersiniz, hər yeri görörsünüz.

Deyir:

– Nədi?

Bu kişi başına gələn əhvalatı söylüyür. Deyir:

– Belə oldu. Yolnan gəldim, bu ilanı tafdım, onu yanmaqdan xilas elədim. İndi o məni çalmaq istəyir. İndi siz deyin, – deyəndə bu göyərçinnər əlini əlinə vurur gülür. Deyir:

– Ey Allahın insanı, ey bəni-insan, ey adəm, sən də bil, hamı da bilsin ki, yaxşılığınkı yamannıxdı. Yüzdə-mində bir adam yaxşılığa yaxşılıx görə bilər, o da ya qismət ola, ya olmuya. İndi ay ilan, ya atını vurmalısan, ya özünü. Atını vursan birtəhər ölüm-zulum, yarı iməkləmə, yarı yüyürtmə bu gedif mənzilinə çatar. Amma özünü vursan, nə atı bir yer tanıjax, nə özü bir yer tanıjax. Atını vur.

Bular dediyinnən "pır" eliyif göyə uşduxları bir olur. Bu insan deyir ki, ey Allahın heyvanı, ey gürzə, bir bəni-insan qavağımıza gələnətən gedək. Bəni-insan ağıllı olor. O bəni-insan nə desə, onnan gedəjeyik. Deyir:

– Yaxşı.

Bir qədər gedellər, yorulollar, əyləşellər, oturollar. Bir də gedellər, göröllər bir bəni-insan gəler, amma boğazında bir dəyirmən daşı. Bu insan bir dəyirmən daşını boğazına keçirif.

– Salaməleykim.

– Əleykiməsalam.

– Ay qardaş, kimsən, nəçisən?

Bunnan salamlaşanda deyir:

– Mən bir dəyirmənçiyəm, dəyirməndə dən üyüdördüm. Bir də gördüm bir kişi gəldi, dən əvəzinə bir meşox sümük gətmişdi. Dedim, a kişi, munu dəyirmənimə həncəri töküm? Bu sümük üyünəndə daşın gözdərində qalajax, orda pis üfunət verəjək. Bu kişi dedi ki, yox, sən munu üyütməlisən. Ya munu üyüdəjəksən, ya səni öldürəjəm. Deyir, dedim, ölsəm də munu üyüdəjəm. Mənimki ölümdən onsuz da keçif. Sana and verirəm, səni yoxnan varın arasında xalq eliyən bir Allaha, mana de görüm bu nə sirdi, bu nədi? Dedi: "Əli sirri olsun, mənim kəndimdə keçəl var idi. Bu o keçəlin başıdı, sümükləridi. O qədər hamıya hayıf qoymuşdu, hamıyı allatmışdı, başına oyun gətmişdi. Onu neçə il idi axtarerdıx. Tafdıx, öldürdük, kəsdik, sümüklərini qurutdux – başının sümüyünü. İndi bunu quruduf

un halında camaata satajam. Kimdə hayıfım var, ona satajam, qoy unnan yisin ölsün", – deyəndə dedim, yaxşı. Gətdim bu sümükləri tökdüm dəyirmənə. Dedim: "Ay Allah-taala, sana agahdı, bəndənə qarannıx. Mənimki ölümdü, əlacım yoxdu. Əl mənim, ətək sənin". Bu sümükləri üyütdüm. Axırıncı bir xışması divində qalmışdı ki, bu, qulağımın divinnən vurduğunnan tavağın böyrünə yıxıldım. Vay, vay, vay, vay. Bu, ununu da yığmışdı torvasına. Bu, ununu çiyninə götdü, qaşdı getdi. Mən də durdum, dedim: "Ay Allah-taala, sana agahdı, bəndənə qarannıx. Mən bu dəyirmənnən yiyirdim çörəyi. İndi ki mana qismət olmadı, dəyirmənin alt daşını götürəmmədim, ay bala, bu üst daşını götürüf boğazıma salıf, gəniyif[103] çıxıf gedirəm.

Deyir:

– Çox yaxşı. İndi sən mana de görüm, yaxşılığınkı deyirsən yamannıxdı. Mən bu ilana bir belə yaxşılığ eləmişəm. İndi bu ilan mana neyləməlidi?

Deyir:

– Sən yalan deyirsən, a kişi. İlan o dınqılı[104] kisənin içinə girə bilərmi, əl böydə kisənin içinə?

Deyir:

– Bəli, girər.

Deyir:

– Xeyir. Göz nəyə inanar? Gördüyünə, əlinnən tutduğuna. Dərə burda, qara burda. Biz burda, kisə burda. İndi sən kiseyi bağla, bir ojax qalıyax. Dörd tərəfini ojax qalıyax, ortasında bir quru yer eliyək, ilanı oruya qoyax. Onu alışdırax, hər tərəfdən od vurax. Sən kiseyi uzat, göröm, o tələsikdə odunyaloyun içinnən ilan o kisəyə girə bilərmi? – deyəndə ilan deyir:

– Yaxşı.

---

[103] Gəniyif getmək – baş alıb getmək

[104] Dınqılı – balaca, kiçik

Bular qaratikannan yığellar, dörd tərəfini qayırellar, ortada bir quru yer qoyullar. Hasaya da kiseyi bağlıyır, hazır tutur. Muna od verer, haseyi uzader ki, ilan girsin içinə. Haseyi uzadanda, ilan kisənin içinə girəndə bu dəyirmənçi him eliyir ki, kəndiri çək. Kəndiri çəker, kisənin ağzını boğor. Ağzını boğan kimi kişiyə deyir ki, ə köpəyoğlu, tulla ojağın içinə. Əlinə bir şax aler, bu ojağın körünü-kösöyünü, hamısını ortuya tonqarrıyır[105], ilanı tulloor içinə. İlan orda yaner, kül olor. Deyir:

– Onu bilginən ki, a kişi, yaxşılığınkı yamannıxdı. Cəhd elə heş kimə ürəyin yanıf yaxşılığ eləmə. Yaxşılığınkı yamannıxdı. Səni də bu qannan-xatadan qutardım, mən də o qannan qutarmışam. İndi mana gəl yoldaş ol, gedək dəyirmənin alt daşını tapax, silək, təmizdiyək. O kəntdə yox, ayrı kəntdə dəyirmənimizi qurax, üyüdək, uşağımızı, ailəmizi dolandırax.

Bu da bu kişinin nağılı.

## 62. TÜLKÜ VƏ DƏVƏ

Bir kəndçi olor. Kasıb adam olor. Bir neçə il işdeer, bir dəvə aler. Kəndçinin də beş-altı uşağı olor. Dəveyi kirayə verməklə bu dolaner. Ay geder, il geder. O qədər işdeer ki, dəvənin beli yağır olor. Payızın günü həmi dəvə xəsdələner, həmi qojaler, yeriməyə halı olmor. Kişi deyir ki, arvad, bu dəveyi aparıb çölə buraxajam. Yoldaşı deyir ki, a kişi, indiyə qədər bizi bu dolandırıf, insaf da yaxşı şeydi. Dəveyi aparıf buraxma. Bu qışı çıxsın, ölər, qapıda ölsün. Arvadı danleer, deyir:

– Yox, mən aparıb dəveyi çölə buraxajam.

Dəveyi aparıb bir dərəyə buraxer. Dəvənin qılçaları tutmor yeriməyə, payızın son ayı. Bir tülkü gəler, görör kü, burda bir dəvə yater. Dilini çıxardıf, dil bu uzunnuxda. – Dəvə-

[105] Tonqarramaq – yığır, topalayır

nin dili qədər heç bir heyvanın dili olmaz. – Tülkü geridən baxer-baxer, deyir: “Təki onun dilini mən yemiş olam”. Bu dəvənin yanına ələndə deyir:

– A dəvə, niyə burdasan?

Başına ələni söylöör. Deyir:

– İşdədim, işdədim, bu hala düşdüm. Xazeynim məni gətirib bura buraxıb.

Deyir:

– Bir şərt bağlıyax sənnən.

Deyir:

– Nə şərt.

Deyir:

– Mən zağa[106] yeri bilerəm, aparım səni ora qoyum. Otdan-alafdan gətirem verem, sən diril, yazbaşı çıxanda, otduyanda dilini mana ver, – deyəndə dəvə fikirrəşer. Deyir: “Yazatan böyük iş var, qoy razı olum”. Tülkü bir az kömək eliyir, dəvə qalxer geder. Zağaya saler dəveyi. Tülkü başdeer qayalardan, qapçığalardan[107] otdan-zaddan gətirer, dəvə diriler. Yazbaşı dəvə başdeer otdamağa. Elə bil dəvə cavannaşıb. Tülkü seviner ki, indi dilini mana verəjək. Gəler deyir:

– Ay dəvə!

Deyir:

– Eşiderəm.

Deyir:

– Şərtimiz var, biz şərt bağladıx. İndi dili mana verməlisən, – deyəndə deyir:

– Verim də.

Ağzını belə ayırer, deyir:

– Gəl qopar.

---

[106] Zağa – mağara

[107] Qapçığa – əlçatmaz qayalıq yer

Deyir:

– Qorxoram axı.

Deyir:

– Yox, qorxma.

Deyir:

– Yox, özün qopar dilini mana ver.

Bular spor eliyəndə deyir:

– Vallah, gedif canavarı gətirəjəm. Canavar səni yijək, dilini də mən yiyəjəm.

Geder görör arıq, qoja canavar var, tərpənnəmer. Canavara söylöör vəziyyəti mən söylüyən kimi. Deyir ki, dəvə yeri bilirəm, gedək dəveyi ye, bu şərtlə, dili mənimdi. Deyir:

– Yaxşı, gedək.

Canavar gələndə dəvə fikirrəşer ki, onsuz canavar da ölüdü, məni yiyəmməz.

Canavar dəvəyə deyir ki, şərt bağlıyıfsız, tülküyə dilini niyə vermersən? Deyir:

– Vererəm. Dizlərimi yerə qoyum, gəlsin hopbansın dilimi qoparsın.

Tülkü seviner. Hopbananda dəvə tülkünün boğazınnan tutor, tülkünün başı dəvənin ağzında qaler. Dəvə yuxarı qalxanda tülkü belə-belə hopbaner düşör. Dəvə tülkünün boğazını sıxer, yerə tulloor. Canavar deyir:

– Ay tülkü, hakqın batası oldu, gəl gedək.

## 63. TÜLKÜ VƏ XORUZ

Bir tülkü görör kü, bir xoruz uşdu bir ağacın putağına tüşdü. Tülkü quyruğunu şiviyir, özünü ağacın divinə çatdırer. Deyir:

– Ay zemləmer[108] qardaş!

---

[108] Zemləmer – yer ölçən

Deyir:

– Nədi, ay tülkü qardaş?

Deyir:

– Çox oğurrux eləmişəm, talamışam, çapbışam. İndi qojalmışam. Tüş burdan mana üş-dört sot yer ver. Mən də burda bir qaraltı qayırım, burda dolanem.

Xoruz deyir:

– Ay tülkü qardaş, mən zemləmer döyüləm. Zemləmer, bax, o ağacın divindədi, bax, orda.

Tülkü quyruğunu şiviyir, özünü ağacın divinə verəndə örör kü, alabaş burda yater. Alabaş harr-horr eliyir, istiyir tülkünü tuta, tülkü qaçer aradan çıxer. Gəler deyir:

– Ay zemləmer qardaş!

Deyir:

– Nədi?

Deyir:

– Neçə ki bu alabaş burdadı, bizə gün-saat yoxdu, nə də torpax yoxdu.

# LƏTİFƏLƏR

## 64. XORUZ YOLDA DA BANLAYAR

Bir kişi bir yerdən başqa yerə geder. Öylərinə gəlməyə imkanı olmor munun. Bir öyün sahibinə yaxınnaşer ki, qardaş, mən filan kəndə gederəm, qarannıxdı, məni bu gejəliyinə qonax saxlıyarsınız? Kişi bərk fırıldaxnan məşğul olan imiş. Harda qonax qalsa, orda oğurrux eliyərmiş. Kişi axşamnan burda qonax kimi qalır. Allah verənnən yiyir-içellər. Kirimiş yatışıllar. Kişi durur gejəynən xoruzu götürör, yola düşör. Heç nə olmamış kimi aparır bir az aralıda ayağını bağlayıb qoyor qırağa. Gəlib ev yiyəsin durğuzor:

– Ev yiyəsi, sağ olun, salamat qalın. Daa mən gederəm, yolum uzaxdı.

Ev yiyəsi deyir:

– A kişi, hələ gejə uzundu. Heç olmasa, xoruz bannasın, onnan sonra gedərsən.

Deyir:

– Eybi yoxdu, qadan alem, xoruz yolda da bannıyar.

Ev yiyəsi sabah duror, görör ki, xoruz yoxdu. Məlum olur ki, kişi xoruzu aparıf gedif.

## 65. EŞŞƏK YUMURTASI

Bir kişi bir dəfə geder bazara. Bazarda görör ki, qarpız satellar. Bu da qarpız görmüyüf. Soruşur ki, ay bunun yiyəsi, bu nədir, nolan şeydi? Belə deyəndə qarpız satan deyir ki, eşşək yumurtasıdı. Bu, qarpızın birini alır. Bu kişi də eşşək həvəskarı olor ku, hələ mən yumurtdayan eşşək görməmişəm. Görüm bu nətəər olan şeydi.

Meşəynən gedir. Meşəynən gedən vaxtı qarpızı yerə qoyor ki, əyilib bulaxdan su içsin. Bu vaxtı qarpız dığırranır,

gedir bir ağaca dəyir. Qarpız qırıler, – ağacın divində də dooşan yatermiş, – dooşan qaçer. Dooşan da bərk qaçanda kişi deyir:

– Hayıf əldən çıxdı. Yaman cins eşşəyimiş, indidən belə qaçan gör gələcəkdə nə eliyərmiş.

## 66. YEMƏK YEYƏNDƏ BIĞLARI QIMILDANIRDI

Kişi oğlannarını çağırır, deyir ki, oğlum, gəlin oya gedək. Gedirlər oya. İzindən bilillər ki, mağarada ayı var. Böyük oğluna deyir ki, oğlum, ayının qulağınnan tut, çıxart. Oğlu qayıdıf deyir ki, mən qorxoram. Ortancıla deyir:

– Oğul, sən çıxart.

Deyir:

– Yox, mən də qorxoram.

Balaca oğluna deyir:

– Bala, onda sən çıxart.

Deyir:

– Yox.

Üç oğlun heç biri razı olmor. Kişi deyir:

– Mənnən oluf mənə oxşamıyan qurumsaxlar. Kəndiri bağlıyın belimə. Kəndir tərpənəndə bilin ki, ayını tutmuşam. Çəkin çıxardın.

İçəri girən kimi kişinin başını ayı qoltuğuna aler. Bular da darter. Kişinin başı qopor ayının yanında qaler, bədən çıxer. Böyük oğlu deyir:

– Ay qağa, qağam gələndə başını üstündəmi gətirmişdi, yoxsa öydəmi qoyuf gəlif?

O biri oğlu deyir:

– Bilmerəm.

Ordan çıxellar təpənin başına, çağırellar analarını.

– Ay ana, ana.

Deyir:

– Höy.

Deyir:

– Ləläm başını öydəmi qoyuf gəlif, yoxsa başı üstündöydümü?

Bunu eşidən qonşu tez cavab verir ki, onun anadangəlmə başı yoxuydu, amma sabah yemək yeyəndə bığları qımıldıyırdı.

## 67. PİS VƏRDİŞ

Kişi oğurruğa o qədər vərdiş eliyif ki, harda olsa oğurruğ eliyirmiş. Günnərin birində öz qızının öyündə qaler. Öz qızının öyündə qalanda bu, oğurruğ eləməmiş yuxuya gedə bilmer. Qapıdan çörək pişirilən sajı oğurruyur, aparer gizdeer, qayıdır gəler yater. Sabah qız duror sajı gəzer ki, sajı assın, çörək pişirsin. Kişi deyir:

– A bala, nə gəzersən? – deyəndə deyir ki, sajı gəzerəm çörək pişirməyə.

Deyir:

– A bala, saj filan yerdədi, get gəti.

Deyir:

– Ay qağa, o saj orda nəəzer?

Deyir:

– A bala, elə vərdiş eləmişəm ki, oğurruğ eləməsəm, gözümə yuxu getmer. Mən oğurradım apardım ora qoydum ku, rahat yata bilim.

## 68. KORLA SAĞLAM

Kornan sağlam ikisi də at minib gedermişdər. Korun əlinnən qamçı tüşör. Atdan tüşör, başdeer qamçıyı gəzməyə. Əlinə ilan keçer qamçı əvəzinə. Salamat adam bunu görör kü, əlinə götürdüyü ilandı. Hələ savağın sərin vaxtıdı, ilan yatıf.

Aradan bir balaca keçənnən sonra ilan bunu çalajax. Deyir ki, ayə, əlindəki ilandı, qamçı döyül. Deyir:

– Eyy, dəlisən, qamçıyı mən tulluyam sən götürəsən?

Bir balaca keşmiş ilan ayılır. Ayılanda koru vuror öldürör.

## 69. KAR, KOR, TOPAL VƏ LÜT

Bir kar, bir kor, bir topal, bir lüt – bular yoldaşıymışdar. Bir yerdə axşamlellar. Kar deyir ki, şıkqıltı gəler, nəsə bir səs gəler. Kor deyir ki, ayə, budaha, gəlif yetiriflər. Topal deyir ki, durun qaçax. Lüt də deyir ki, tərpənmeyin, adam soydurarsınız.

## 70. İSLANIBSA, YAĞIR

Qaynata gəlini çağırer. Qarannığ olor çöl, işıq-zad olmuyan vaxt olor. Deyir:

– Ay qızım, çıx bax, gör yağış yağermı?

Bu halatda gəlin qapıyı açer, iti içəri çağırer. Qaynata deyir:

– Ay qızım, mən sənə demədim iti içəri çağer. Dedim, gör yağermı?

Deyir:

– Ay qaynata, əlini itin belinə vur, gör isdanıfsa, yağer, isdanmıyıfsa, yağmer.

## 71. VAQONDA ADAM VARIYDI Kİ?

Bir kişi, deyir, poyuza oturor, oğlannarının yanına Bakıya geder. Bileti yuxarı yerə olor, çıxır yuxarıda öz yerində yater. Poyez silkələnəndə poyuzdan yıxıler, başı yarıler. Oğlu bunun qabağına çıxer. Görür ki, dədəsinin başı yarılıf. Deyir:

– Ay ata, bu nə sufatdı sən düşüfsən?

Deyir:

– Heç, a bala, yerim yuxarı yer idi, poyez silkələnəndə yıxıldım, başım yarıldı, – deyəndə qayıder deyir ki, ay kişi, bir cavan adam yoxuydumu vaqonda yerini dəyişif aşağı yerdə yateydin, yıxılıf bu sufata düşmüyöydün?

Deyir:

– Eh, vaqonda adam varıydı ki, mən onnan da yerimi dəyişeydim?

## 72. GİLAS YEMƏYƏ TÖVBƏLİYƏM

Bir kişinin Gilas adında arvadı olor. Bunnan yola getmer, ayrılellar. Ayrılannan sonra bir yerə qonaxlığa gedellər. Burda mer-meyvələrdən gətirellər. Gilasın da təzə yetişən vaxtıdı. Gilası qoyollar kişinin qabağına. Deyir:

– Yox, Gilasın əlinnən o qədər dad-amandayam ki, o gilasın meyvəsini yeməyə də toobalıyam.

## 73. GİLASDI, BƏSDİ

Bir dəsdə adam dağ yerində yaşeellar, aran yerinə gilas yeməyə gəlellər. Yarı yolda biri görör kü, yerə bir-iki dənə gilas düşüf. Gilası götürör yiyir, deyir:

– Mən qayıtdım dala.

Deyir:

– Ə, bəs getmerikmi arana?

Deyir:

– Ə, gilasdı bəsdi, naxavardı, bir heylə yolda yedim.

## 74. ÖLƏNLƏRİNİN EHSANINDA OLSUN

Kişi birinə deyir ki, ə, bizim cavan qonağımız olanda ona yaxşı yimək vererik, işmək vererik. Ancax qoja olanda qavağına nə zirdən-zivildən, sürdən-sümükdən olsa, tökörük,

yiyir. Kişi qayıder cavab verer ki, ay bala, mənim bildiyimə görə, ev yiyəsi qonağa hörmət eliyər. Öy yiyəsi yiməyə nə versə, qonax yiyib qutarannan sonra deyər ki, ölənnərinin ehsanında olsun.

## 75. QABIĞI DA YEMƏLİYMİŞ

Bazarda bir erməni bir qədər xiyar aler, başdıyır bu xiyarı soyuf yiməyə. Bir müsurman da buna baxermış. Deyir:

– Ə, bu kopoğlu bir belə xiyarın hamısını ha yimijək. Bir-ikisi qalar, onu da mən yiyərəm.

Gəler axtarer, görör kü, xiyar yoxdu, eləcə ancaq qavığıdı. Bu müsurman da ajığınnan bunu murdarrıyır, çıxer geder. Erməni doymur. Deyir ki, ə, gedim görüm xiyardan heç qalıbmı. Görür ə, xiyardan heç qalmıyıf, başdıyır bunun qavığını yiməyə. Deyir:

– Ə, elə bunun qavığı da yiməliymiş ki.

## 76. QIRMIZI TURP

Biri qonax geder. Gətirellər qırmızı turpları qoyollar ustolun üstünə. Bu qonax da turpun ağını görüb, qırmızısını görmüyüb. Deyir:

– Ay qağa, bunun ərinməz-ərinməz hamısını bura nəyə kıraskalıyıf yığıfsınız?

## 77. HANSI KASIBIN EVİDİR?

Kəndə ilk dəfə avtobus gəler. Kəndin camaatı da avtobus görmüyüfmüş. Biri o birinə qayıdıb deyir:

– Ayə, görəsən bu hansı kasıbın öyüdü, uçub bəri gəler?

## 78. ÜÇ YOLDAŞ

Üç nəfər yoldaş olor, yolnan gedellər. Gedəndə bunun biri tez-tez başının qoturun qaşıyırmış, biri də tez-tez burnun silirmiş. Bu yanındakı da bulardan diksinir. Deyir:

– Sən başını qaşıyırsan, sən də burnunu silirsən. Bu vərdişlərinizi tərgitməsəniz, ikinizi də vurub öldürəjəm.

Bunun qorxusunnan özlərini saxlıyıllar. Burnunu silən görür dözə bilmir, deyir:

– Ə, babamın elə bığları var idi – əlini burnuna çəker, – burdan belə uzanıf bu qulağına getmişdi, burdan da belə uzanıf bu qulağının divinə getmişdi.

Başını qaşıyan deyir:

– Ə, sən onu deyirsən. Mənim babamın dəyirmanı – papağı başında fırrıyır, – bax belə-belə, belə-belə fırranerdi.

## 79. SƏN DƏ SUS, MƏN DƏ SUS

Qaz damına bir oğru girir. İçəri girəndə bu qaz istər-istəməz öz adəti üzrə "sus" eliyir. "Sus" eliyəndə bu oğru elə biler bunnan qavax bir oğru da girib buruya. "Sus" eliyən oğrudu, yəni səs eləmə. İndi bu oğru da deyir ki, ey, sən də sus, mən də sus, lazım olanı da götürəh, varax gedəh.

## 80. BULAMANI BULA, BULADIQCA YALA

Bir gün bir şahın oğlu özünə qız gəzerdi. Bu, başının dəstəsinnən çıxdı getdi ki, başqa kəntdərə gedirəm. Harda gözəl qız tapsam, gətirəjəm. Getdi bir başqa kəntdə bir gözəl-göyçək qız tapdı. Sən demə, bu qız çovan qızı olor. Qızı tapdı.

– Ay qız, mana gələrsənmi?

Baxdı gördü gözəl bir oğlandı, dedi:

– Gələrəm.

Dedi:

– Gəl atın tərkinə min.

O vaxdı helə idi. Bircə kəlmə: “Mana gəlirsən, gəlmirsən?” Atın tərkinə mindirdi, gəlini gətdi evə. Buların evi şah evi, yimək, içmək, dolanmax, otmax, yümək, yığmax, yaxşı geyinmək. Bu da çovan qızı idi. Daa bu üç-dörd gün bu öydə işdiyənnən sonra hələhsidi[109]. Görmüyüf axı bu işdəri. Dedi ki, bu nədi?

Bulamancı bularam,
Buladıxca da yalaram.
Gündə puloy, gündə çuloy,
Zəhləmiz getdi bunnan.

Munu oğlan eşitdi. Dedi:

– Aaz, bu nə sözdü danışersan?

Dedi:

– Düz deyirəm. Mən dədəm öyündə bulamancı buloordum, buladıxca da yaleerdım. Bu nədi, gündə puloy, gündə çuloy! Zəhləm gedif daa.

Dedi:

– Yaxşı.

Aradan iki-üç gün keçənnən sonra şah oğlu dedi:

– Hazırraş, səni dədən öyünə apareram.

Bu hazırraşdı, oğlannan hərəsi bir ata mindi, dədəsi öyünə gətdi qoydu. Dedi: “Mən gederəm öyə, bir həftədən sonra gəlif səni aparajam”. Buların qonşusunda bir adam var idi, oğlan getdi munnan danışdı, damın üstündə gizdəndi. Ordan baxırdı, gördü kü, bu qız getdi qoyunu, keçiyi sağdı, südü süzdü bir qara qazana. Buxarıda ojağı qaladı, gərmədən, çördənçöpdən altını doldurdu, içinə də bir xışma un tökdü, südün içinə də yarım vedrə su tökdü. Əlinə aldı bir oxloyu, başdadı

---

[109] Hələhsimək – əldən düşmək, yorulmaq

bulamağa. Bunu buladı, buladı, buğlanıf qıraxlarınnan pıq-pıq eliyəndə oxloyu çıxartdı barmağınnan sıyırdı, munu yaladı. Bir də barmağınnan sıyırdı, munu yaladı. Hə, indi ürəyim dincəldi, ürəyim səkin oldu. Bulamancı buladım, buladıxca da yaladım.

Oğlan damın üstünnən dedi: “Bu nə həngamədi?” Ordan düşdü, qızın üzünə baxdı, dedi:

– Bu nədi?

Dedi:

– Mana bu xoşdu. Yoxsa sizinki kimi. Gündə puloy, gündə çuloy. Əlim yağa bulanıf, yağda qalıf.

Onnan sonra oğlan qızı aparmadı, qız qaldı dədəsi öyündə. Dedi, elə burda dədeyin öyündə bula da, yala da.

## 81. BURADAN ÇUXALI KİŞİ KEÇDİMİ?

İki qonşu arvad varıydı. Bu arvatdarın ərrəri ayrı yerlərə qazanca getmişdilər, işdiyif, fəhləlik eliyif uşağına taxıl gətirməyə. Arvatdar dedi ki, kişilər gələnətən nağayrax bizi çox istəsin, gələndə özümüzü şirin salax? Yun, ip aldılar, hərəsi başdadı ərinə çuxa toxumağa. Biri gözəl, yaxşı bilerdi, naxışdar saldı, ilmələr çəkdi, çuxoyu toxudu. Camaat, görən-bilən, şəhər, kənd, dünya munun toxuduğu çuxoya balet eliyif, munun baxımına gəlirdi. Biri də mənim kimi ağıldan quyrax şey idi, ilmənin ikisini bir iynəyə atdı, birini bir iynəyə atdı, ikisini arada buraxdı, üçünü birdən bir iynəyə aldı. Kimsini belə, kimsini helə. Birtəri olmasın, bir dərtnən çuxoyu toxudular qutardılar. İkisi də toxudu qutardı, qatdadı oruya qoydu. Ərləri piçinnən gələndə arvatdar çuxaları verdi ki, a kişi, sizin hərənizə bir çuxa toxumuşux. Kişilər baxdılar, çuxoyu geyindilər, bazara çıxdılar. Bazara çıxanda bu yaxşı çuxa toxuyan arvad o birsi arvada dedi ki, gəl kişilərin dalınnan gedək. Görək qavağımızdan kim gəler, bu kişiləri gördülərmi, buların çuxasını tərifliyən varmı? Gördülər qavaxlarına bir kişi gəldi.

– Salaməlöykü.
– Əlöykümәssalam.
– Ay qardaş, qavağınnan iki kişi getdimi?
Dedi:
– Getdi.
– Əynində çuxası varıydımı, çuxalıydımı?
Dedi:
– Dəyəsən, çuxalıydı.
– Gördünüzmü nətəər çuxalıydı, rəngi-rufu nətəər idi?
Dedi:
– A xala, sən allah, başımı ağrıtma. Nə bilim, əynində çuxoydu da, keşdi getdi yolnan.

Yaxşı, munnan aralandılar, getdilər. Bir az aralanıf gedəndə qavaxlarına bir oğlan gəldi. Munnan da xavar aldılar:
– Oğul, qavağınnan iki çuxalı kişi getdimi?
Dedi:
– Getdi.
– Onun çuxası nətəər idi?
Dedi:
– Xala, nə bilim, nətəər idi? Mən kamisiya idimmi, yoxlanışmı aparerdim? Çuxoydu da əynində, çıxdı getdi.

Axırı naəlaş qaldılar, bular qayıtdılar evə. Çuxoyu yaxşı toxuyan arvad baxdı ki, burda yaxşıynan yamana qiymət qoyan yoxdu. Çuxadı deyif ötör. Dedi, hayıf mənim zəhmətimə. Mən o kişinin çuxasına o boyda zinət vurdum, heş məni təriflәyən olmadı.

## 82. İKİ BACININ BƏHSİ

İki bajı olor, bular bir-birinin bəhsinə düşör. O deyir, mən yaxşı dolanem, bu deyir ki, mən yaxşı dolanem. Birinin əri qazanan, vuran-tutan, biri də kasıf, bir kısmat yuan çörəyi

tapanda Allah sana şükür deyif uşağını başına yığıf yiyənimiş. Bir gün bu varlı bajı kasıf bajının öyünə gəlir ki, gedim görüm nətəərdi. Gələndə görör kasıf yığıf yığışdırıf, silif süpürüf ordaja oturuf. Bir kısmat çörəyi yoxdu ki, gətirif bajısının qavağına qoya.

– Aaz, ay bajı, niyə beləsən?

Deyir:

– Nağayrem, Allah sana elə verif, mana belə verif. Hərənin bir qisməti, bir baxtı var.

Deyir ki, gəl mən səni örgədim, sən də qazan, sən də al yi. Deyir:

– Vallah, mən heş nə örgənəmmərəm, heş nə bilmerəm.

Deyir:

– Yox, əgər mən dediyimə irayət eləsən, sən də biləjəhsən, sən də örgənəjəhsən. Oğurrux da əlinnən gələjəh, pis yol da əlinnən gələjəh, qazanc da əlinnən gələjəh, hər şey də. Eləməsən, yox.

Deyir:

– Nədi?

Deyir:

– Ərin çölə edif. Yeri get qonşudan borc bir cam un al, gətir bir qazan xaşıl bişir. Xaşılın üstünə tökməyə bir qaşıx yağı, bir qaşıx balı da mən gətirim. Xaşılı pişir, uşağınnan yi. Qavı-qaşığı da yu, sil, oana tök. Ərin axşam gələndə desə ki, nə pişirifsən, denən heş nə. Nə pişirməmişəm, nə yiməmişəm. Qonşuya da tapşır munu deməsin. Əgər ərin munu bilməsə, sən hər yola gedəjəhsən, hər şeyi qazanajaxsan, hər şey də başınnan tökülöjəh. Eləməsən, yox.

Deyir:

– Vallah, mən eliyəmmijəm. İntaası deyirsən, qoy özümü sınıyım, göröm nədi?

Gedir qonşudan un aler gətirer, su qoyor. Uşax da söyünör. Xaşılı bişirer, uşağı başına yığer. Siniyə çəker, bir az bu yiyir, bir-iki bamba[110] da bajısı yiyir. Xaşıl bunun gözünnən gəlsin, yadınnan çıxer, oxloy xaşıllı puxarının böyründə sancılı qaler. Kişi gəler axşam.

– Arvad, nə var, nə yox?

– Sağlığın.

– Arvad, nə pişirifsən?

Deyir:

– Allah öyünü yıxsın, nə var nə pişirəm. Savah bir kısmat yuan çörəyimiz var idi, hamı aldı, səni gözdüyürük görək sən nə tapıf gətirəjəhsən.

– Arvad, elə şey olmaz. Vallah, ürəyim keçer, mana bir şey ver.

Deyir:

– Heş nə yoxdu.

Kişi duror buruya, oruya baxanda örör kü, puxarının qırağında bir xaşıllı oxloy dik yuxarı duror.

– Arvad, bu nədi?

Deyir:

– Mən bilmerəm.

Bu xaşıllı oxloyu götürör, nə yiyifsən, turşulu toyuğ əti deyif arvadı vuror.

– Ağız, bə munu kim gətdi qoydu? Qonşudanmı gəlif, özgə adammı gəlif, bizə qonaxmı gəlif? Kim xaşıl pişirif?

Uşaxlar deyir:

– Həə, ay dədə, anam bir yumuşax şey pişirmişdi, yidik, hamımız da doydux, sana da saxlamadıx.

Bu arvad ağır vəziyyətə tüşor, yerdə yater, inir-inir inildeer. Bajısına xavar geder ki, bajın ölör, gəl. Bajısı gəler. Deyir:

---

110 Bamba – tikə

– A sənin günün qara əlsin, sənin taleyin ağzı üstə dönsün, sana dedimmi kin, elə eləynən ərin munu bilməsin.

Deyir:

– Ay bajı, mən də sana and işdimmi ki, mən onu eliyəmmijəm? Mən tor-topal, mar-matalax şeyəm. Mən o işdəri başarammeram. Ərim bildi də, məni axşam bu günə saldı, indi də ölörəm.

Bu yazıx da ölör, varer geder, uşax da yetim qaler.

İndi başarıf-başarmamax hər adamın işi döy. Deyir, iyid odu ku, qaça canını qutara. Qoçax odu ku, nə fırıldağa əl atsa, qarnını doydura. Yaxşı adam ona deyiflər ki, pis-yaxşı dilənə, dolana, uşağını saxlıya. İndi kimi elədi, kimi belə.

## 83. VARLI VƏ KASIB BACI

İki bajı olor. Bajıların biri varrı olor, biri kasıb olor. Kasıb bajı varrı bajının öyünə geder. Gedəndə görör kü, bajısı – köhnə vaxtı küllü kömbə bişirerdilər sajın altında, – bir küllü kömbə bişiref. Bajısını görəndə kömbəni götürüf götünün altına qoyor. Bajısı da bunu görör. Kömbə götünü yandırer, yandırdıxca qurcuxor, qurcuxor. Qurcuxanda kasıb bajısı deyir ki,

Baxçada güllər bajı,
Ötər bülbüllər bajı.
Götünü kömbə yandırdı
Keçərmi günnər, bajı?

## 84. GƏLİN-QAYINANA DEYİŞMƏSİ

O vaxdı qaynənələr yaman kür olormuş. Gəlinin ixtiyarı nəydi balatıyı[111] kəssin, nəhrəyə qatıx töksün.

---

[111] Balatı – xamır mayası

Bir gün təzə gəlmiş gəlindən qonşu bir qadın soruşor ki, a qızım, nə var, nə yox? Həncəri dolanersan? Deyir:

– Ay nənə, dolanerıx da.

Deyir:

– Qaynatannan, qaynənənnən necə dolanersan? Sana qarşı nətəər münasibətdədilər? Qoja nənənəm, bilməliyəm.

Deyir:

– Ay nənə, bir ayağını saxla, deyim.

Qaynənəm dəmir darağ,
Dın-dın ötür, mən neynim?
Baldızım çuvaldızım,
Tək tək batır, mən neynim?
Qaynatam qara köpək,
Qapıda yater, mən neynim (günü qara əlmiş gör nə yaxşı təsvir eliyir)?
Qaynım sərv ağacı,
Qapıda bitif, mən neynim (qaynınnan qorxor ki, cavandı, bunu vurar öldürər)?

Axırda da qaynənəni təsvir eliyir. Deyir ki,

Damda dirək, qaynənə,
Arxana kürək, qaynənə.
Oğlu evə gələndə
Hamıdan zirək qaynənə.

Qoja arvad da deyir ki, a qızım, əyləş, sənin bu sözünün müqabilində birini də mən deyəjəm. Gəlin qaynənəsini pisdiyəndə bu arvad yanıf-tökülür. Bu özü də qaynənədi axı. Deyir:

Gəlin gəler, xan gəler,
Evləri yıxan gəler
Əlində ülgüş-pıçax
Başdarı qırxan gəler.

Gəlin də payını alır, burdaja kiriyir.

## 85. GƏLİN KÜNDƏNİ BÖLÜR

Bir qaynənə çörək pişirerdi. Gəlini çağırdı, dedi:

– Ay gəlin, kündələri tökmüşəm, kündələmişəm, sajı asmışam, gəl çörəyini pişir.

Dedi:

– Yaxşı.

Arvad kündələri qayırmışdı, bir az iri-iri tökmüşdü. Məsələn, otuz-qırx kündəsi var idi. Gəlin də gəldi baxdı, dedi:

– Bu qaynənəm iri-iri töküf kündöyü.

Kündənin ikisini birrəşdirdi, ikisinnən üç kündə elədi. Xeylax kündələrin üstünnən aldı, bir beş-on dənə çörək artırdı. Çörəyi pişirdi, arvad da harasa getmişdi. Mənzilinə çatdı, qayıdıf gələndə dedi:

– Çörəyi pişirdinmi?

Dedi:

– Pişirdim.

Çörəyi əlinə götürüf baxanda gördü kü, çörəklər onun tökdüyü kündələrdən əmələ gələn döy, nazik-nazikdi. Dedi:

– Ay gəlin, sən mənnən üstün oldun, sən mənnən bijvar[112] oldun. Mən kündöyü iri tökdüm az elədim, sən də kündöyü böldün çox elədin.

## 86. DOĞRA, DOYUNCA YE

O vaxdı qaynənələr kür olurdu, onnansa indiki zamana yaxşıdı. Qaynənə kündöyü tökör, çörəyi pişirer. Gəlinə deyir:

– Ay gəlin, nə paraya dəymə, nə pütünə dəymə. Mənim adım Ünnəkdi. Doğra bu çörəkdən, doyuncax yi.

Gəlin fikirrəşer ki, ə, mən nətəər doğruyum doyuncax yiyim? Bu çörək pütün, bu çörək də para. Bütünnən kəsəjəm,

---

[112] Bijvar – zirək

arvad gəlif əhədimi vurajax. Paradan kəsif yijəm, qutarajax? Mən onnan nə yiyim qarnım doysun? Bir az fikirrəşənnən sonra deyir: “Tafdım”. Geder pıçağı əlinə götürör, pıçağı çəker kruqnu çörəyi kəser, ortasını götürör, qıraxları qaler. Deyir: “Nə paraya dəymədim, nə pütünə dəymədim”. Ortoyu götürör, doğroor, doyuncax yiyir.

– Ay qaynənə, surfanın arasında çörəyin ordaja durur.

Arvad gəler baxer, deyir:

– A qızım, doğrudan da, sən məndən bijvaraxsan. Doğradın doyunca yedin, nə paraya dəyifsən, nə pütünə. İkisi də yerindədi.

## 87. CƏNNƏTƏ DÜŞƏN BACILAR

İki bajı olor. İki bajının biri vuran, tutan, gözəl-göyçək, işdiyən, qazanan, biri də gözəl olmağına gözəl olor, amma üzr istiyirəm, pozğun, əxlaqsız olor. Yaxşı bajı deyir ki, aaz, a günün qara əlsin, bu çirkin əməllərinnən əl çək, bir gün ölöjəhsən. Deyir, o qədər yaxşılığ eləmişəm ki, cənnətin birinci küçəsində mən yatejam, sən get cəhənnəm ol. Deyir, eləmi? Deyir, elə.

Aradan bir müddət keçer, bular gəzellər, dolanellar, ərə gedellər, oğul-uşaxları olor. Günnərin bir günündə bu çirkin bajı, yaxşı əməlin yiyəsi xəstələnir. Çirkin olanda nolar. Deyir:

Əzizinəm, gözəl alma,
Yeməyə gözəl alma.
Çirkin olsun, əsl olsun
Bedasıl gözəl alma.

Bu xəstələner. O birsi bajısına xəbər geder ki, bajıyın vəziyəti ağırdı, gəl yanına. Deyir, yaxşı. Bu bajısının yanına edəndə deyir:

– Ay bajı, sana nooldu?

Deyir:

– Ay bajı, tarixim tamamdı, vaxtım çatıf. Mən ölöjəm, mən gederəm. Mənnən üç il, beş il sonra da sən gələjəhsən dalımnan.

Deyir:

– Yaxşı.

Yaxşı əməlin yiyəsi olan bajı ölör. Bu gözəl oluf pozğun olan bajı qaler. Munu aparellar dəfn eliyillər. Deyillər:

– Aaz, o bajın yaxşı idi. Yaxşı gedər, pis qalar, yerində his qalar. A günün qara əlsin, düz yola əl.

Deyir:

– Siz görərsiniz.

Bir gün bu bajı da xəstələner, ölör. Öləndə deyillər, əşi, aparax bu iti quyluyax. Quyluyax, ayıvını qara torpaxsa da örtsün.

Birinci bajı da basdırılıf, gedif düşüf cənnətə. Deyillər ki, təzə ölü gəler. Hamı munu qarşılamağa çıxanda baxer ki, gələn bunun öz bajısıdı. Bu dözə bilmer, qavağa çıxer. Deyir:

– A günün qara əlsin, sən bu əməlin yiyəsisən, sən bu işdərin yiyəsisən. Sən hardan gəldin çıxdın buruya? Səni niyə ətdilər?

Bu qız o qədər nervilənir ki. Deyir:

– Ey, ay bajı, ay bajı, gördüm darvazanın ağzında duran keşikçi bir yaxşı kişidi. Ona bir göz basdım, bir qaş basdım, o məni qapıdan buraxdı, gəldim buruya. Cənnətin birinci küncü mənnən ötəridi, odu bax yerimi orda hazırrıyıflar.

O biri bajı baxer, deyir:

– Vay mənim kül başıma, elə yurtda qalan mən imişəm.

## 88. ÖZÜM ÖZÜMƏ ELƏDİM

Deyir, keşmiş vaxtlarda bir kişi meşəyə oduna geder. Nəsə, qarannığa qaler. Görör, yox, kəndə gedif çatammıjax.

Deyir, elə ojax qalıyım meşədə qalım. Bu, möykəm ojax qalıyer, olan-qalannan burda başdıyır yeməyə. Bir də görör ki, meşədən bir tüklü məxluq çıxdı. Deyilənə görə, meymuna oxşar bir şey çıxdı, gəldi bunnan qavax-qavağa otdu. Bu kişi istədi qaça, ayağa dura, bu da durdu. Bu oturor, bu da oturor. Əlini ağaca atmağ isdiyəndə o da əlini ağaca atmax isdeer. Bu kişi neyleersə, bu da eliyir. Bunun bir az keçi piyi varmış, özünnən götürübmüş orda isidif yiməyə. Bu piyi qızdırer, bu kişi belə-belə qoluna sürtəndə həmin məxluq darter bunun əlinnən aler, öz qoluna sürtör. Sonra bu kişi bir kösöyü götürör yerdən, yaloylu-yaloylu qoluna tutor. Kişinin qolunda nə tük var idi, nə yaneydi. Bu tüklücə də kösöyü yaloylu-yaloylu qoluna tutanda bütün göydəsi alışer. Bağıra-bağıra meşəyə səs saler:

– Ay aman, yandım, ay aman, qoymuyun.

Bunun həmcinsdəri tökülöllər başına.

– Səni kim elədi, nooldu?

Deyir:

– Özüm özümə elədim.

Deyillər:

– Özün özə eliyifsən, cəzandı çək. Biz gedək kimin xirtdəyinnən tutax?

## 89. BUYNUZU QIRIQ KEÇİ[113]

Bir kəntdə üş kar kişi var idi. Kar kişinin birinin üş-dörd dənə qoyunu varıydı, içində də bir buynuzu qırıx keçi. Sürünü itirmişdi, ha gəzerdi tapmerdı.

Bir gün səhər-səhər qoyunu gəzməyə gedəndə, o biri kar kişiynən rastdaşdı. Salam verdi, salam aldı, almadı öz məssəflərinnən. Kar kara qayıtdı:

---

[113] Söyləyici bu mətni qaravəlli nümunəsi kimi təqdim etdi.

– Ə qardaş, mən bir həftədi qoyunu itirmişəm. Bəlkə mənim qoyunumu, keçimi görəsən?

Bu da elə bildi ki, munnan yol soruşur. Əlini uzatdı ki, belədədi. Qoyunu itən kişi elə bildi ki, qoyunu buana edif. Qayıtdı muna dedi ki, qardaş, Allaha and olsun, bir həftədi ki, gəzerəm. Əgər qoyunu, keçiyi tapsam, qoyunun içindəki buynuzu qırıx keçiyi sana verəjəm haa, sana hədiyə elijəm.

Bu nöqteyi-nəzərnən getdi. Getdi təsadüfən qoyunu, keçini tapdı, gətdi. Muna minnətdarrığ elədi. Keçinin buynuzunnan tutuf gətirdi. Bu kar kişiyə dedi ki, ala, bu da sana hədiyyə elədiyim keçi.

Bu da qayıdıf dedi:

– Ə qardaş, Allah haqqı, mən qırmamışam.

Bu da elə başa düşör ki, bu deyir keçinin buynuzunu sən qırıfsan. Üçüncü bir kar gəldi.

– Ayə, qardaş, niyə elə elersiniz?

Deyəndə bu kar deyir:

– Bu keçiyi mən muna hədiyyə eləmişəm, denən alsın.

O biri kar deyir:

– Ayə, qardaş, Allah haqqı, mən qırmamışam.

Üçüncü kar deyir:

– Ə, sizin veşiniz məni maraqlandırmer, qoyun varem mən işimə, dərdimə edem. Siz nə alver eliyirsiniz?

Bu da elə bildi ki, satmax üstündə sözdəri çəpləşib. Dedi:

– Satın, alın, özünüz bilərsiniz, mən varıb işimin dalınnan gederəm.

## 90. PUÇ OLMUŞ XƏYALLAR

Bir gün bir uşaq çöldə keçi otarermiş. Yolun qırağında görör bir arvad əlində dörd-beş dənə toyux aparer satmağa. Toyuğun birinin ayağı açıler, qaçer dərəyə kolluğa girer. Arvad nə qədər qoalersa, toyuğu tuta bilmer. Deyir:

– A bala, yaxın gəlin.

Görür ki, bu uşaq bunun qohumudu. Deyir ki, bax, sənin anan mənim qohumumdu. O toyux da qaşdı dərəyə girdi. Mən də bazara tələserəm. O toyuğu verdim sana, get tut, apar. Bu uşaq nə qədər toyuğu qovalersa, tuta bilmer. Geder evlərinə.

– Ana, – deyir, – filan yerdə sənin arvad qohumun var, bazara toyux aparerdi. Biri əlinnən qaşdı, dərəyə girdi, tuta bilmədi. Maa dedi ki, sənin anan mənim qohumumdu, get toyuğu tut, saa halal eliyirəm.

Bular da öydə beş qardaşdılar. Beş qardaş hərəsi bir ağac kəser, əllərinə salavey[114] aler, bir də ataları. Belə qərara gəlellər ki, toyuğu tutsunnar, pişirsinnər, yesinnər. Bir az gəlibmişdər, birdən bunun biri deyir ki, indi toyuğu nətəər pişirəjeyik? Biri deyir ki, toyuğu sulu pişirək, o birsi deyir, qızartma eliyək, o birsi deyir, soyutma eliyək. Mübahisə qızer. Davanın kəskin yerində, – evdə də iki qızı varmış, – qızın biri evdən qışqırer ki, ay filankəs, gör onu diri tutuf gətirə bilersinizmi? Olar yaman yumurttağan olor. Təzdən mübahisə qızer. Bir-birini döyüf qırellar, toyux da yaddan çıxer. Toyuğa getmək də ləğv olor.

## 91. ŞƏHƏRƏ GƏLDİN, SMETAN OLDUN?

İki dənə ayrım şəhərə qartof aparer satmağa. Qartofu satellar. Bir qonax evində bular həmeşə axşamlermışdar, pastayannı gedif orda çörək yiyirmişdər. Gedillər çörək yeməyə. Afisiant gəler, deyir:

– Əmi, eşiderəm.

Deyir:

– Yeməyə nə var?

Sanıyır ki, bozbaşdı, kababdı, filandı-pəsmandı, axırda deyir, smetandı. Deyir:

[114] Salavey – paya, ağac qırığı

– Adama iki porsiya smetan gəter.

Bilmillər ki, smetan porsiyaynan satılmer. Afisiant geder dörd dənə smetan, iki dənə qaşıx, iki dənə tarelka podnusun içinə qoyor, gətirer buların qabağına qoyor. Gənə bir-birinin üzünə baxıllar: “Nə məzəli şeydi, nədi görəsən?” Kauçuk stəkana baxıllar. Bunun biri darter ağzının qapağını qopardır. Görür üzünə gömgöy su yığılıf. Deyir:

– Ayə, sən dağda qatıx döydünmü, gəldin şəhərdə smetan oldun?

## 92. ALLAH UMUDUNA GEDİRİK

İki ayrım gedir çıxır Türkiyəyə. Deyillər ki, ə, deyəsən, burda iki mərtəbəli avtobus var. Deyir, hə! Deyir, gə minək. Qavax qapıdan minən birinci mərtəbəyə, dal qapıdan minən ikinci mərtəbəyə çıxır. Yuxarı çıxan görür kü, şoferin yerində bir sideni[115] var, amma boşdu. Tez aşağıdakına zəng eliyir. Deyir:

– Ə, yer tapıfsanmı?

Deyir:

– Hə, tapmışam da, otumuşam da.

– Şoferi varmı?

Deyir:

– Biri var, sürür, amma bilmerem qavaxda rolu-zadı var, ya yox.

Deyir:

– Sizi bilmerem, biz Allah umuduna gederik, burda şofer-zad yoxdu.

---

[115] Sideni (rusca) – oturacaq

## 93-94. YAĞMADI QAR, İTMƏDİ İZ

Tatnan kürd möhkəm dost olollar. Kürd varrı-hallı adamıymış. Tatın da cırıx kiliminnən başqa, öyü yıxılsın, nəyi var. Deyir:

– Arvad!

Deyir:

– Ha!

Deyir:

– Kürdün inəyini oğurrujam. Bizdən oğurrux görməz.

Deyir:

– Ə kişi, ayıfdı, qardaşıx, dostux.

Deyir ki, aaz, yox, gediv oğurrujam. Bizdən oğurrux görməz.

Gejə duror, geder. Bu Kürdün görör qapısında toylanın ağzı keçirilidi. Toylanın ağzını açer, zinciri saler, inəyi götürör yavaş-yavaş gəler. Qar yağmağa başdeer. Deyir: "Qar yağıf izi itirəjəh, nolojaxdı". Bu gələ-gələ qar kəser. İz tüşə-tüşə gəler qapısına. Tat çatan kimi inəyi kəser, hərmələrdən[116] aser budunu-zadını. Qarın-qartadan, ciyərdən pörtdəder yidirdir uşağa.

Savah tezdən Kürd deyir:

– Ay arvad, əziz gündü, bayram vaxtıdı, dur get inəyimizi sağ, gətir bir yaymadan-zaddan pişirginən. Axşam da bayramdı, Allah kərimdi.

Deyir ki, yaxşı! Bu arvad gəler deyir:

– A yiyən ölsün, inək yoxdu!

Deyir:

– A, nətəər yoxdu? Axşam dama salıf, toyluyun ağzını bağlamamışammı?

Deyir:

– Atəən goru haqqı, yoxdu!

---

[116] Hərmə – evin tavanında yanlardan qoyulmuş ağac mil

Deyir:

– Aaz, kiri!

Deyir:

– Ə, qardaşdarıyın goru haqqı yoxdu!

Deyir:

– Aaz, qardaşıyın goruna nəhlət, nətəər yoxdu? Axşam inəyi dama bağlamışam.

Deyir:

– Gə gedəh bax!

Gələndə örör inək yoxdu. Kişi duror yavaş-yavaş izə tüşör geder. Gedəndə örör Tatın qapısını çalğılıyıflar[117], amma inəyin dal əyağının izi burdadı. Deyir: "Aha, tapbışam!"

– Ay Tat qardaş! Ay Tat qardaş!

Çıxanda örör, Kürd qardaşdı.

– Ayə, xoş gəlifsən.

Deyir:

– Xoş günün olsun.

– Bayramın mübarək olsun, ay qardaş. Bəri gəlsən.

– Əyə, yox, – deyir, – bir itiyimiz var.

– Ə, nədi?

Deyir:

– İnəyi aparıflar. İz buratan gəlif, burda yoxdu.

Gəler belə əlini gözünün üstə qoor, baxır, deyir ki, ə, yiyən ölsün, dəlisənmi? Bu dooşan izidi. Bəri gəl, çaydan-zaddan iç, taparıx. İçəri girəndə örör, əyə, ət içərdə hamısı lejandı[118]. Deyir:

– Ə, bə deyirsən inəyi gətiməmişəm? Bu nədi?

Deyir:

– Uşaxlar İrannan bir çil xoruz gətirmişdi, onun ətidi.

Deyir:

---

[117] Çalğılamaq – süpürmək

[118] Lejan – həddindən artıq, bol

– Qardaş, gedejeyih qazının yanına. İnəyi oğurruf gətimisən, qazının yanına edək.

Deyir:

– Gedək!

Qapıdan girəndə deyir:

– Salaməlöyküm, qazı ağa!

– Vay əlöykümərssalam! Eşiderəm ağayi!

Deyir ki, qazı ağa, bax bu kişi mənim inəyimi oğurruyuf gətirif. İzi qapıda tutmuşam, deyir dooşan izidi. Əti öydə tutmuşam, deyir xoruz ətidi. Bax, buna sən nə deyirsən? Bu tatın da yüz manatı varıymış. Bunu da civinə qoor ki, görüm orda nətəər eliyim. Tat görör iş xarafdı, inəyi aldırajaxlar buna. Deyir, qazı sağ olsun!

Getdim düz,
Gəldim düz.
Yağmadı qar,
İtmədi iz.
Civimdə var yüz,
Bu Kürdün əlini
Yaxamdan üz.

Qazı fikirrəşer ki, əyə, bu Tat gedif bu Kürdə qırx inək də alsa, mana əlli qəpik xeyri yoxdu, hazırca bu yüz manatı verer dana bəri başdan. İndi bunu qazı tez-tez deyir ki, Kürd başa düşməsin. Deyir:

Getdin düz,
Gəldin düz.
Yağmadı qar,
İtmədi iz.
Civində var yüz,
Boz kilimin altda düz.
Dal qapıdan vız,
Qalax Kürdnən ikimiz.

Kilimin altına yüzü yerrəşdirer. Tat qapıdan çıxanda, Kürd bunun qılçalarını qucaxlıyır ki, atam sana qurvan, a qazı, getdi, qoyma. Deyir:

– Ə, görmürsən oğluun başına and içer, inək-zad görmööf. Get itiyini axtar.

Deyir:

– Dədəmin goru haqqı, inəyi buratan gətirmişdim. İndicə dız-vızda cəmdəyi batırdınız, vardı getdi. Mənim öyümü yıxdınız.

**94.**

Bir Əcəm bir Kürdün öyünə eder. Gedəndə örör ə, bu Kürdün bir gözəl inəyi var, elə yaxşı qış yuannığı olar. Əyə, mən bunu nağayrem, neynim? Fikirrəşer, fikirrəşer, deyir, bu qalsın qar yağan vədiyə. Elə olsun ki, mən inəyi oğurruyannan sonra qar yağsın, izi itirsin. Qışın elə bu vədələri, oğlan vaxtı, geder Kürdün inəyini çıxarder. Kürdün inəyini çıxarder, gətirer, kəser, qonuya-qonşuya, özünə və ilaxır dağıder. Savah Kürd baxanda örör inəh yoxdu. Qar da yağmer. Bu fikirrəşmişdi ki, qar yağıf izi itirəjək. Qar da yağmer, kəser. Çəhlimin izinnən düz gəler kişinin öyünə.

– A kişi, mənim inəyimi sən gətirifsən?

Deyir:

– A kişi, mənim xavarım yoxdu.

İndi qazıya şikayətə eder. Qazı Kürdü də çağırer, Əcəmi də – hər iksini çağırer. Deyir:

– Bu Kürdün inəyini sənmi oğurrofsan?

Deyir:

– Vallah, qazı ağa,

Getdiyim düz,
Gətdiyim düz.
Yağmadı qar,

İtmədi iz.
Mənnən sana
Qara bir yüz.
Məni bu Kürdün əlinnən üz.

İndi qazı fikirrəşer. Deyir:

– Ayə,

Getdiyin düz,
Gətdiyin düz.
Yağmadı qar,
İtmədi iz.
Sənnən mana
Qara yüz.
Qara yüzü
Kilimin altda düz.
Sən dal qapıdan vız,
Burda qalax Kürdnən biz.

## 95. AŞAĞI POLKA, YUXARI POLKA

Müharibə yeni kutaran vaxtı olufdu. Poyez-zad təzə-təzə icad olur. İki nəfər ayrım burdan poyezə minif gedellər Moskvaya. Moskvaya bir az qalmış bu poyez dayaner pereqonda. Düşəndə öröllər bir urus arvadı qulaxlı papax sater. Bular bunu söylədir, söylədir, bu on manata deyir. Endirillər əlli qəpiyə, iyirmi qəpiyə. Deyir: "Radi boqa, ver apar", – deyəndə, poyez varıf gedifdi. İyirmi qəpiyə papağı alellar. Buların öz qatarı gedif, yerinə Moskva-Bakı poyezi dayanıf. Buların da yeri aşağı yeriymiş. Minellər poyezə, göröllər iki qoja arvad var. Deyir:

– Əşi, siz yatın burda, biz çıxarıx uxarı.

Gəlellər. Keşliyə çatanda urusun biri deyir ki, ooy, günəşli Azərbaycan! Bu yuxardakı deyir ki, kopoğlun hökümən

gör nə texnika çıxardıf. Aşağdakı polkalar Bakıya eder, yuxardakılar Maskvıya.

## 96. BAŞIN QOLTUQ GÖRMƏYİB

İki qaleyçi, deyir, dağın döşünnən gedillər yavaş-yavaş. Hərəsinin dalında bir meşoy qazan qırığı danqıradanqır. Bir pezəvəng çovan buların üstünü kəser. Deyir:

– Ə, nəçisən?

Deyir:

– Can qardaş, mən qalayçı ola var!

Deyir:

– Ə, nədi qalayçı?

Deyir:

– Qavı-qaşığı ağardır.

Deyir:

– Hə, yaxşı keçifsən əlimə. Qavağıma tüş, gedəh qaleyla.

Cavan tayını qavağına saler, aparer alaçığa. Qavağına bir xamır tavağı qoyor, deyir:

– Qaleyla!

Deyir:

– Can qardaş, bu ağac ola var! Bu qaley tutmuya var!

Deyir:

– Ə, sana deyirəm qaleyla!

Deyir:

– Can qardaş, vallah, ağac qalay tutmuya var!

Deyir:

– Ə, sana deyirəm qaleyla!

Deyir:

– Can qardaş, qalay tutmaz, – deyəndə, ləzginin süysünü[119] bu çovanın qoltuğuna keçer. Sıxanda deyir:

---

[119] Süysünü – boynu

– Can qardaş, burax, qaleylim.

Buraxer, deyir, bunun boynunu. Ağaşda isdahat[120] qoymur. Qalayladıxca yanıf, oxalanıf yerə tökülür. Qoja ləzgi deyir:

– Ay üstünüzə od ələnsin, nağayrersan?

Deyir:

– Qaleyleram dana, öyün yıxılsın.

Deyir:

– Ə, yiyən ölsün, ağac qaley tutarmı.

Deyir ki, nə vejinədi, başın qoltux görmüyüf, görsə, qaleylıyarsan.

## 97. HACI DAYI DURURMU?

Üç dörd Böyük Qışlaxlı geder Şəkiyə çıxer qartof satmağa. Gedellər stalovaya, oturuf çörəh yiyirmişdər. Kişinin biri afisianta deyir ki, qadan alem, bala, buruya gəl görüm. Gəlir. Deyir ki, Hajı dayı durormu? Deyir:

– Yox, yox, ölütdü, rahat çörəyizi yiyin.

Bir az keçir aradan. Gənə bunun biri deyir ki, burya əl qadan alım. Deyir:

– Nədi?

Deyir:

– Oğlu-zadı varmı?

Deyir:

– Yox, yox, rahat çörəyizi yiyin.

Bir də çağırer bu uşağı.

– Buruya gəl.

– Nədi, ay kişi, nə istiyirsən? Qoy da qulluğumu eliyim.

Deyir:

– Nüyəsi-zadı[121] varmı?

---

[120] İsdahat – salamat yer

Deyir:

– Kopoğlu, çörəh yiməyəmi gəlifsən, g..ünü oynatmağamı? Deyirəm yoxdu dana.

## 98. TANKIN İÇİNDƏ GETDİ

Müharibə vaxtı olur. Bir kişinin kürəkəni müharibədeymiş. Kişi öydə oturupbuş, bir də örör, bu gədə çiynində bir durba əler. Deyir:

– A bala, bu hökümətin başına soldat qəhətdimi sən boyda serjantın çiyninə bu durbuyu qoyuflar?

Deyir:

– Ay əmi, bu durba döy.

– Ə, bə nədi?

Deyir:

– Bu tank vurandı.

Deyir:

– Ə, yox!

Deyir:

– Sən öl hə!

Deyir:

– Ə, özün öl!

Deyir:

– Ə, sən öl, hə!

Deyir:

– Bax, fərz elə ki, o əyağyolu tankdı. Onu vur görüm.

Qıranatı burdan qorruyan kimi göyə uçuror tualeti. Oturollar, kürəkən deyir ki, əmi! Deyir:

– Ha!

– Əmi, qaynənəm hanı, bir çaydan zaddan versin?

---

[121] Nüyə – nəvə

Deyir:

– Dərdin alem, qaynənən tankın içində vardı getdi.

## 99. İKİ MUZU

İki nəfər muzu, qıymaz adamlar yoldaş olullar, yolnan söhbət eliyə-eliyə gedillər. Biri o birinə deyir ki, ə, qardaş, bilirsənmi, bizi yaman dil-ağıza salıflar.

– Nədən sarı?

Deyir ki, deyillər olar muzudular. Deyir:

– Nə deməhdi muzu?

Deyir:

– Yanı, misalçun, mənim bir manatım çıxanda az qalır canım çıxa, qıymaz adamam. Belə adamlara muzu deyillər.

– Eeh, – deyir, – mən də deyirəm görən nədi? Sənin bir manatın çıxanda az qalır canın çıxa, o sənin öz malındı. Vermirsən, malını vermirsən, malının üstündə möhkəmsən. Amma mənim yanımda özgənin bir manatı çıxanda, ürəyim az qalır yata.

## 100. ALA QIRQOVUL HƏR DƏFƏ MƏNƏ DÜŞÜR

Bir erməniynən bir müsəlman ovçuluğ eliyirdilər. Danışmışdılar, biri, misal üçün, günbatana tərəf, biri gündoğana tərəf gederdi. Axşam səfərdən qayıdanda buların vədə yeri varıymış, burda tapışıllar, hər ikisi nə vurduğunu qoyor ortuya, azlığına, çoxluğuna baxmıyarax tən yarı böləllərmiş.

Günnərin bir günü bu erməni heş nə vura bilmir. Ancaq müsəlman bir qırqoul vurur, bir də bir saxsağan vurur. Gəlillər, axşam vədə yerinə çatanda, erməni deyir:

– Ayə, a qardaşım, a dostum, mən heş nə vura bilmədim. Ovuma şikar gəlmədi, – deyəndə, bu deyir:

– Zərəl yoxdu, iki qırqoul vurmuşam: biri sənin olar, biri mənim olar. Savah da gələndə genə vurarıx, bölərih.

İndi ayrılmax yerinə gəliflər. Bu, deyir, gəti görək. Bu ovçu torvasını çıxardır. Erməni baxır ki, biri doğrudan qırqouldu, ancaq ikinci quş bir ala quşdu, yarım metrə də quyruğu var. Bu bunu tanımır, saxsağanı ha.

– Ayə, a kirvəcan, indi bax bunu tanıyıram, bu qırqouldu. Bəs bu nədi?

Deyir:

– Bu da ala qırqouldu də.

– Yaxşı, nətəər böləh?

Deyir:

– Hərəmiz birini götürək.

Bu müsəlman qırqoulu özü götürür. İndi saxsağanı buna vermək istiyir.

– Ayə, nətəər böldün?

Deyir:

– Hərəmizə biri düşür. Bax, bu qara qırqoul mənim, ala da sənin. Bu təzə quşdu, bunu sana verirəm.

Erməni duruxur, çünki tanımır axı saxsağanı. Deyir:

– Ayə, necə böldün mən bilmədim?

– Ayə, tərsməssəf erməni, nejə böldüm? Ya ala qırqoul sənin olsun qara mənim, ya da mən qarıyı götürüm, sən alıyı götüginən.

Üş dəfə bunu təkrar eliyənnən sonrasına erməni duruxur, gənə götürmür. Müsəlman deyir ki, ə, nə tərsməssəf ermənisən? Götürürsən götür, götürmürsən, gederəm. Erməni deyir:

– A kirvəcan, mən pikir[122] eliyirəm, sən nətəər bölörsən ki, hər dəfə hərrəner, fırraner, ala qırqoul mana düşör.

[122] Pikir – fikir

## 101. BELƏ AĞIZA SÖYƏRLƏR

Bir danəndə kişi olur, bunun da on beş-on altı yaşında bir oğlu olur. Çox gözəl, tərbiyəli uşax olmağına baxmıyarax bunun bir eybi olur. Bir şey olan kimi adamın ağzına söyür. Bu kişi fikirrəşir ki, ayə, mən nağayrım, nətəər eliyim buna tərgidim. Həm də hələ sənəti yoxdu, hələ cavandı. Bu hərrənir, fırranır, bir axund tapır. Deyir:

– Axund, belə bir iş var, mənim bircə oğlum var, özüm də çox istiyirəm. Onun bir xəsiyyəti var, onu ona tərgitməh lazımdı, bir də bir axundluğu, məəllimliyi, aşıxlığı ona örgətməh lazımdı, sənəti olsun. Sən də axundsan, bilihli adamsan, elin ağsakqalısan. Olarmı haqqını verəm, onu oxudasan? Elmi, axundluğu ona örgədəsən.

Deyir ki, uşağı gəti baxım, sonra deyərəm. Uşağı gətirir, oturullar atası da, bu axund da:

– Oğlum, adın nədi?

Misalçun, Məhəmmətdi. Söylədir, buna bir-iki sual verir, görür ə, elə sərras uşaxdı kı. Danışıllar, misal üçün, üç illih muna kurs keçəjəm öydə, sənnən də üş min manat alajam. Pulumun yarısın əvvəlcə alajam, yarısını qutarannan sonra. Diplomunu verəndə pulumun qalanını alajam. Yox, işdi, oxuyammasa, yarımçıx getsə, onda sənin verdiyin yarı pul batajaxdı. Bax, özün fikirrəş, çünki mən onsuz da zəhməti çəkirəm də. Belə razılaşıllar, gətirir uşağı buna təhfil verir, əl təmanna eliyir. Pul da indi nə qədər verir işim yox. Ayə, bu axund fikir verir bu uşağa, görür, elə tərbiyəli, elə mədəni, elə qılıxlı, ağıllı oğlandı ki... Ağıza söyməh nədi, yersiz söhbət nədi, yersiz oturufqalxmağ nədi. Səliqəli, tərbiyəli. Üç il tamam olanda deyir:

– Oğlum.

Deyir:

– Bəli.

Deyir:

– Get atana deynən özü də gəlsin, iki nəfər bilihli ağsakqal da gətsin, hamımız bir yerdə oturax səni imtahan eliyəh. Olar özdəri sual versinnər, mənim sana örgətdihlərimnən nə desələr, sən bilirsənsə, cavabını verəjəhsən, bilmirsənsə, pulun batajax, bax, – deyəndə deyir:

– Mənim gözüm üstə.

Oğlanın özünə gümanı gəlir axı. Molla görür, ağzınnan çıxanı sən diktafona yazan kimi oğlan beyninə yazır, elə qəşəhdi. Gedir səhər tezdənnən. İki nəfər ağsakqal kişi, özü üç, oğlan da dörd, axund da beş. Gəlillər, beşi də cəmlənillər, oturullar burda, söhbət eliyillər. Kişi deyir ki, uşax nətəərdi, axund? Axund deyir:

– Mən bildiyimin hamısını ona örgətmişəm, hamısı da bunun yaddaşında muncuğu iyniyə, sapa düzən kimi ordadı. Bax, kim nə sual istiyir versin. Buna "Quran"nan, kitabdan, peyğəmbərdən, imamdan, şəriətdən suallar verillər, indiki dilnən desək, hamısına beş cavab verir. Elə bu söhbətin şirin yerində qapıdan bir buraxmanın biri girir. Tez əlini civinə salır salamsız-kəlamsız.

– Axund əmi, bu iyirmi beşdiyi tut.

Tutur, deyir:

– Nədi, a bala?

Deyir:

– Mənim bir niyətim var, ona baxginan, gör nətəərdi. Yaxşı gəlsə, sana iyirmi beş də verəjəm.

Molla ikinci iyirmi beşdiyin adını eşidəndə daha da fərəhlənir, iyirmi beşdiyi civinə qoyor, kitabı gətirir açır.

– Ananın adı nədi?

– Belədi.

– Özünün adın nədi?

– Belədi.

Yazır, pozur, deyir:

– Oğul, nə yaxşı, nə gözəl həyatın var, filan var. İndi sən deyirdin ki, mənim bir niyətim var, o niyətin nədi, hasıdı?

(Gənə üzr istiyirəm sənnən). Deyir ki, mənim bir qaynanam var, yaman gözəldi, özü də mənnən ötəri ölür, mən də onnan ötəri ölürəm. De görüm, "Quran"da, şəritədə o günahdımı, savabdımı? Bu adamlar da məhətdəl qalır ki, ə, bu kopəyoğlu nə danışır? Axund özü də məhətdəl qalır. İndi bu iyirmi beşdiyi hərriyir ki, buna nə deyim ki, iyirmi beşdiyi alım. Soruşur ki, qaynananın adı nədi, anasının adı? Belədi. Yazır. Deyir:

– Oğul, sənnən bir şeyi də mən soruşum.

– Nədi?

Deyir:

– Sən deyirsən ki, qaynanamnan beləyəm. Sən onu istiyirsən, o da səni istiyirmi?

Deyir:

– Bə nədi. O mənnən də bərk istiyir məni.

Deyir:

– A bala, "Quran"da, kitabda yazır ki, iki konul bir olsa, kimin ona sözü var. Ona şəriyət, "Quran" nə deyəjəh. Sən zorramırsan ha, ikinizin də bir-birinizə məhəbbəti var, – deyəndə deyir:

– Axund əmi, mana elə bu lazım idi.

Pulun verib çıxmağ istiyəndə, oxuyan oğlan tez əyağını qavağa verdi – padnoşka demillərmi, – bunu yıxdı. Deyir, – üzr istiyirəm, – ağzını belə-belə eliyim, nə dedin? Deyəndə, qalxır şarp buna birini ilişdirir. Bu, eşiyə qaçır. Axund deyir ki, a bala, a bala, ağıza söyməh olmaz. Deyir, sənin də axund ağzını belə eliyərəm ha, o hansı "Quran"da yazılıf ki, qaynanaynan əlaqən ola, o günah yazılmıya", – deyib, bir də söyəndə, deyir durun çıxax. Eşiyə çıxanda bular deyir:

– Nahax gəldih, nə pis iş oldu.

Atası da deyir:

– Ay bala, filan qədər pul verib səni beş ildi oxutmuşam, niyə elə deyirdin?

Deyir:

– Ay dədə, məni beş il yox, iyirmi beş il oxudasan, belə ağıza həmişə söyəjəm.

## 102. BİZDƏN ADAM OLMAYACAQ

İki qonşu olur. Biri o birinnən xayiş eliyir ki, çöldə qartof çıxartmışıx, uzunqulağı bizə verginən, bir adam da köməhçi ver, sənin də işin olanda biz köməh eliyəjeyih. Deyir:

– Yaxşı. Görüm ulax boşdu, öydə kimi taperam, filan eliyirəm, savah tezdən saa hə-yoxunu deyərəm.

Axşam yatıllar, savah qalxıllar. İndi xayiş eliyən adamın qızı öydən çağırır:

– Heey, a Zülfəli, ay Qaratel.

Deyir:

– Höy, höy, nə deyirsən, a Sona, nə deyirsən?

Deyir:

– Aaz, axşam dədəm dədənə eşşəh demişdi, olojaxmı, olmojaxmı? Adam da demişdi, olojaxmı, olmojaxmı? – deyəndə bu deyir:

– Ağız, ağız, bizdən eşşəh olojax, adam olmojax.

Yanı eşşəyi gəlin aparın, amma köməkçi olmojax.

## 103. ÜÇ HƏKİM

Keşmişdə üş nəfər tibb alimi, yanı həkim yolnan gedirmiş harayasa. Bir də görüllər ki, yolun qırağında bir nəfər yaşdı adam yıxılıfdı, heş danışa bilmir. Elə güjnən ağzını tərpədir, "hə-hə-hə" eliyir. Başa düşməh olmur ki, nə deyir.

Bular üçü də həkim olduğu üçün deyir, görəsən bu adam çovanmı olub? Bəlkə burda yolun qırağında heyvanın yanındeymış, yıxılıb belə olufdu. Gəlin müəyyənnəşdirəh. Birinci həkim yaxınnaşır, deyir:

– Ə, bu çovan olmuş olsa, bunun davanını – çarığın üzəngisi deyillərmiş o vaxdı, – üzəngi yara eləmiş olajax, yanı döyənəh.

Çarığın birin çıxardır, coravın da çıxardır, baxır görür kü, əyağının altında heş bir nişanə yoxdu. Elə bil, evdən eşiyə çıxmıyıfdı. Bu adam nəsə çovan döyül, əyağ üstə çox olmuyuf, çarıx geymiyif. Deyir:

– Yox, bu adam çovan olmuyuf.

İkinci həkim yaxınnaşır. Deyir ki, əyə, qoy görüm, mən biləjəm. Çiynini açır, deyir:

– Ayə, bu hambaldısa, mütləq palanın kəndiri çiynini mazol etməlidi.

Açır baxır, görür bunda da o nişana yoxdu. Deyir ki, bu hambal da olmuyuf. Vallah, nəçi oluf diyəmmirəm. Üçüncü yaxınnaşır. Deyillər, sən fikrini de. Bu, yıxılmış adamın çənəsinnən tutur, belə-belə qurdalıyır oana-bana. Görür kü, çənəsi yerində düz döyül. Deyir:

– Mən bildim. Bu ya aşıx olufdu, ya da məəllim oluf. Söyləməhdən çənəsi çüyünnən çıxıf, yerində durmur. Mən onnan müəyyən eliyərdim.

## 104. GƏLƏN İL O BİRİ AYAĞINI UZADARSAN

Gənə bir kasıf kişi olor, arvadı da təmbəl olor. Qonşuluxda toya çağırellar kişiyi. Əmbə kişi göröр kü, arvad buna coraf hörör. Kişi deyir:

– Arvad, neçə aydı corav örörsən. Məni toya çağırıflar. Corafları gəti, geynem dana. Əyağımın burnu eşiyə çıxıf.

Deyir:

– Allah mana ölüm versin, a kişi. Bircə tayı hazırdı.

Kişi fikirrəşer, deyir:

– Atana Allah rəhmət eləməsin, elə o bir tayını gəti.

Bir tayını gətirer. Kişi geyiner, biri köhnə, biri təzə. O zaman da stol-zad yoxuymuş dana, yerdən oturollarmış. Kişi gəler bir yerdə oturor. Köhnə əyağını qatdıyır, üstündə oturor, təzə əyağını irəli uzader. Yaxın imiş toy öyü. Arvad deyir, gedem göröm kişinin vəziyyəti nətəər keçer. Gəler, aynadan baxanda örör, kişi təzə əyağını uzadıf, köhnə əyağı görühmür, altda qoyuf. Arvad durmor, elə aynadan deyir:

– A kişi, Allah mana ömür versin, ölmüyöydüm, gələn il o biri əyağını uzadeydın.

## 105. BİZİM DƏ HALIMIZA BAX

Qulluğunuza ərz elijəm Hajallı Aşıx Qəhrəmannan Qaravəlli Səməddən. İkisi də həmyaşıdıydılar, ikisi də bir aşığıydı ha. O hancarı aşığıydısa, o da elə aşığıydı. Gedellər Balakənə, Qaraçöpə. Qaraçöpdə o zaman birinin öyündə qonax qalermışdar. Beş-üç adam çağırellarmış, oxuyollarmış, olara döyran yığellarmış. Belə-belə, gedif çıxellar Balakənə. Balakəndə, bizim Touzdan köçmüş öylər var, min dokquz yüz on ikinci ildə köçüflər. Arvadın adı Gülçiçəkdi, yoldaşının da adı Mürsəldi. Telli Əsədin qardaşı Mürsəl. Allah verənnən gətirellər, toyuxdan-cücədən kəsellər. Səmədnən Qəhrəman yiyir-içer. Yiiv-içənnən sonra Qəhrəman kişi deyir (özü də birtəhər danışerdı):

– Ay Gülçiçək!

Deyir:

– Can, ay Qəhrəman, nədi, dərdin alem?

Deyir:

– Ay Gülçiçək, beş-on gündü çıxmışıx öydən. Yaman kirrənmişəm. Bir vedrə su qoyginan, başıma tököm.

Gülçiçək içindən gülör. Deyir:

– Ay Qəhrəman, sana su qoymamışdan qavax, qoy sana bir söhpət eleem, onnan sonra qoyajam suyu.

Deyir:

– De göröm, ay Gülçiçək!

Deyir:

– Bir kasıf kişiynən bir döylətdi kişi dost olollar. Bu kasıf döylətdinin öyünə əler həməşə arvadınnan, uşağınnan. Nolojax, şükür olan-olmuşa. O qədir bunun malı-döyləti, yiməyi, içməyi. Hər gələndə aşan-daşan, yimək-içmək... bu kasıvın qavağına tököllər, yiyir.

Günnərin bir günü bu döylətdinin arvadı deyir ki, ə, bu kasıf qardaşının, gəlsən, bir öyünə edək, görəh nə cür dolaner, hancarı dolaner? Nolojax, arvadın sözünə baxer kişi. İkisi də gəler kasıvın öyünə. Gələndə öröllər, Allah göstərməsin, kasıf kasıfdı da. Kasıbın arvadı deyir ki, a kişi, nağayrax, öyün yıxılsın, neyliyək bulara? Pişirməyə bir şey yox, yeməyə bir şey yox! Bular da oturor. Arvadnan döylətdilər ikisi biri-birinin üzünə baxer. Gətirer bir kirri surfa saler. Yekə soğannarı varıymış. Soğanı halğa-halğa doğruyur, üstünü də duzduyur, boşqava qoyor, gətirer qavaxlarına qoyor. Qarğıdalı cadınnan da balaja-balaja kökələr pişiribbiş da. İki-üş də cad qoyullar buruya. Döylətdinin arvadı ərinə deyir:

– Oy, ay kişi. Halğa-halğa soğana bax, halğa-halğa cada bax, – deyəndə bu kasıv arvadı deyir ki, Allah mana ölüm versin, bizim də halımıza bir baxsan. Varını verən utanmaz. Bizim də bir halımıza bax!

İndi, – deyir, – ay Qəhrəman, mənim teleqreykama[123] bax! Teleqreykanın üstünnən belimə bağladığım şalıma bax, başımın çalmasına bax, əlimin hasasına bax, mənim günüməzadıma bax! Ə, öyün yıxılmasın, bajarersansa, sən mana su

---

[123] Teleqreyka – içərisi pambıqlı üst geyimi

qoy, başıma tököm! Mənim, günümü-sanımı görmörsənmi? Mənim durub sana su qoyajax halımmı var?

## 106. İNŞALLAH

*Məclisdə söz, gaf, danışıx alınana qədər biz qaravəliləri danışerdıx ki, camaatı sakitdəşdirək, camaatın diqqətini aşığa çevirək. İşimizin başlanğıcı olduğuna görə sizə belə bir qaravəlli deyəjəm.*

Arvatnan kişi, deyir, əyləşmişdilər könül xoşduğunnan. Bir də kişi dedi:

– Arvad, mənim könlümə bir ploy tüşüf. Gəti bir ploy pişir, yiyəh.

Arvad dedi:

– A kişi, onda bir inşallah de, – deyəndə, kişi yaman tərs kişiydi, dedi:

– Ay arvat, nə inşallah bazdığdı. Dur, pişir deyirəm, pişir.

İstər-istəməz qadın durdu, düyüyü artdadı, suyu qazana töhdü, dedi:

– A kişi, bir inşallah de.

Dedi:

– Yox, lazım döyül, nə inşallah deyəsiyəm.

Aşı süzdü, dəmlədi, daralkiya çəkimmi deyəndə, qapı döyüldü:

– Gəl, kimsən?

Qapıyı açanda gördü kü, xanın yasouludu. Dedi:

– Qadan alem, xoş gəlifsən, gəl, arvat ploy pişirif, yiyəh.

Kişinin boynunun dalınnan bir zıxma[124] vurdu, qavağına qatdı, dedi:

– Ə, nə ploylu-çuloylu çıxıfsan? Dur qavağıma tüş.

---

[124] Zıxma – yumruqla vurulan yügünlvari zərbə

Kişiyi apardı. Arvat peşmannadı, dedi: "Əyə, bu bədbaxta mən dedim bir inşallah de, bu demədi. Axırı da belə alındı". Qazanın ağzını örtdü, oana qoydu ki, indi havaxsa gələr onda yiyərih. Gözdə, gözdə, gözdə, kişi gələsi olmadı. Arvat yerinə uzandı yatmağa. Gejənin bir vaxtı işi nəydisə, kişiyi buraxdılar. Kişi gəldi qapıyı döydü. Arvat soruşdu:

– Kimdi?

Dedi:

– Ərinəm, inşallah.

Dedi:

– Qapıyı açemmı?

Dedi:

– Açarsan, inşallah.

– Yiyəhmi?

– Yiyəh, inşallah.

– Yataxmı?

– Yatax, inşallah.

Yazıx kişi qorxusunnan bir həftə inşallah dedi.

İndi sizin tutduğumuz iş, yazmaq istədiyiniz kitab, inşallah, yaxşı olar.

## 107. ÇAŞ ARVAD

Kişinin arvadı çaşıymış. Bir gün kişi buna bir çüt çivyək[125] alıf gətirer. Deyir:

– A kişi, atam sana qurvan, qazancın artıx olsun. Ninerdin bunu iki çüt alıf.

Kişi öz-özünə deyir: "A yiyən ölsün, gərəy mən bunun bircə tayını aleydım. Onsuz da bu bir şeyi iki görör". Üç-dörd günnən sonra kişi fəhləliy eliyif işdən qayıdıf gəlir. İçəri girer, görör arvad orta ojağın qırağında, köznən, çöpnən oynur. Deyir:

[125] Çivyək – yumuşaq ayaqqabı

– A kişi, atam sana qurvan, sən niyə ikisən?

Deyir:

– A yiyən ölsün, hər şeyi iki görsən yaxşıdı, məni bircə görginən. Birdən iki görərsən məni, ayrı kişi gələr yanına.

## 108. DALINDA QURAN QAÇIRDI

Bir kişi gəler mollanın yanına. Mənim kimi səy şeymiş. Deyir:

– Axund!

Deyir:

– Bəli!

Deyir:

– Dədəmin goru haqqı, dilinnən çıxan noolsa verəjəm, maa "Quran" örgət büyün.

Deyir:

– A yiyən ölsün, dəlisən-divanasan? "Quran" birgün-nüh, ikigünnüh döy. Dəlisənmi?

Bu görör, yox, bu əl çəkmer. Deyir:

– Yaxşı! Savah beş yüz manatı da əti, gəl.

Deyir:

– İndi veremmi?

Deyir:

– Yox, savah gətirərsən.

Savah beş yüz manatı da ətirer, gəler. Molla geder kırı-şaya çıxer, iki sərnic eşşək arısını yığer. İçinə dolduror sər-nicin, ağzını da bağler, gətirer stolun üstə qoyor. Deyir:

– Malın butana, götü.

Beş yüzü qoyor. Deyir:

– Dədəmin goru haqqı, yaxşı olsa, beş yüz də verəjəm.

Deyir:

– Bunu nağayrem?

Deyir:

– Neçə nəfərsiz öydə?

Deyir:

– On nəfərih uşaxlı arvatdı.

Deyir:

– Gedin hamınız böyük çadırın altda lütdənin, durun, olun anadangəlmə. Quranın ağzını açın, bədəninizə yerisin.

Deyir:

– Yaxşı!

Gəler kişi, deyir:

– Lütdənin, dolun çadırın altına!

Hamı dolur. Sərnicin ağzını açer, arı gurp eleer. Daz buna, vız ona, dız buna. Əldən qopan – öyün dalı meşeymiş, – meşiyə qaçer. Kişi tuman-paça oannan qayıdanda qızı qavağına çıxer. Deyir:

– Ay qağa, cijimi gördünmü, nejoldu?

Deyir:

– Cijin yuat yerində yatmasın, dalında bir dəstə Quran dərə aşağı getdi.

## 109. SƏNİN KİMİ CENTİLMENDİ

Deyir, bir gün kəndə cavan oğlan gəler. Axşamlıyır, şəhər uşağıdı dana. İndi bu jurnalistdi, nədi, nəvilim mən. Deyir ki, ay xala, Allah qonağıyam. Deyir ki, dərdin alem, vallah, bir balaja damımız var, özümüz güjnən yığılmışıx, yer yoxdu, filan. Bu on-on beş qapıya geder. Bir də gəlir bir qapıyı tıkqatık döyür. Çıxer bir gözəl gəlin, deyir ki, eşidərəm, ay qardaş, nədi? Deyir:

– Allah qonağıyam, məni bir gejə…

Deyir:

– Ə, vallah, mənim ərim yox, uşağım yox, qaynənəm yox, qaynatam yox, tək qadınam. Mən səni qonax saxlıyammaram.

Deyir:

– Vallah, mən centilmen adamam, ali təhsilli jurnalistəm. Mana bir gejəliyinə yatmağa yer ver.

Gəlinin də bunnan xoşu gəler. Deyir:

– Yaxşı! Gəl içəri.

Bunu içəri keçirer. Gedir, deyir, yeməh-zad qayırer, yedirder-içirder. Yerini salır ki, get o toyda yatginan. Gejənin bir vaxtı görör gəlin yanına əlif deyir:

– Anrı yat, mən də yatem.

– Ay bajı, mən centilmen adamam, olmaz. Yox, yox, yox, mən çörək kəsmişəm, filan.

Gəlin deyir:

– Centilmeninə də ildırım tüşsün, özünə də, dur rədd ol cəhənnəmin gözünə.

Arvad geder öz yerində yater. Alaqarannıxdan qalxer, deyir:

– Kopoğlu, camaat qalxmamış dur vızqırt. Tez ol e. Dur getginən, camaat görər səni.

Aşağı tüşəndə örör qapıda altı xoruz var, bir toyux. Deyir:

– Ay bajı, öyün-eşiyin şirin olsun, məni yaxşı yerləşdirdin, yedim-işdim qəşəh, amma məni bir sirdən agah elə.

Deyir:

– Nədi?

Deyir:

– Görmüşük altı toyux olar, bir xoruz. Niyə sizdə altı xoruz bir toyuxdu?

Deyir:

– Dədəən goruna p.., onun beşi sənin kimi centilmentdi.

## 110. VƏSSALAM

İranda bir haravaçı kirə daşıyırmış. Bir kirəçi də gəler deyir ki, ay qardaş, mənim də veşim var. Onu da apararsanmı? Deyir:

– Nəyin var?

Deyir:

– Beş qıravatım var, vəssalam! Beş çual taxılım var, vəssalam! Bir şifanerim var, vəssalam! On dəst yorğan-döşəyim var, vəssalam!

O qədər saner ki, kirəçi görör kü, bu qədər veşi bunun haravası götürmör. Deyir:

– Ay qardaş, aparmeram, vəssalam!

## 111. İNSANLARIN AĞZINI YIĞMAQ OLMUR

Molla Nəsrəddinin oğlu deyir ki, ay dədə, sənnən savayı kişi yoxdumu? Hara ederəm sənnən danışellar. Bizi xalxın içində başı qarınnı eliyifsən. Deyir:

– A bala, – bazar günüymüş, – gət eşşəyi palanna, bazara gedək. Əmmə qavaxdan gələnnər kim nə desə, onu yaz.

Deyir:

– Yaxşı.

Eşşəyi palanner, Molla Nəsrəddin miner, uşax da dalınnan yeriyə-yeriyə gəler. Qavaxdan gələnnər deyir ki, kopoğlunun kişisinə bax, özü eşşəyi minif, uşağı yerider. Deyir:

– A bala, eşitdinmi?

Deyir:

– Hə.

Deyir:

– İndi mən tüşöm, sən min.

Molla Nəsrəddin tüşör, uşağı mindirer. Qavaxdan gələn deyir:

– Kopoğlunun uşağına bax, qoja kişiyi yerider, özü də eşşəyi minif!

Deyir:

– A bala, eşitdinmi?

Deyir:

– Hə.

Deyir:

– A bala, camaatın ağzı ayran torbası döy kü, çəkəm büzəm əlimə alam. Camaat nə olsa danışajax.

## 112. İŞİNİZ DÜZƏLİR DEYƏ GÜLÜRSÜNÜZ

Molla Nəsrəddin qırx lotulardan geder bir gəvə aler, gətirer. Vədə verer ki, bir ildən sonra gəvənizi verəjəm. Qırx lotular bir ildən sonra gəler:

– Ay Molla, salam!

– Əleykəssalam!

– Ay Molla, bizim gəveyi bə niyə vermersən?

Yalvarer, xayiş eliyir ki, qadanız alem, onu düzəldəmmədim. Arvad xəstələndi, uşax xəstələndi. Min bəhanə düzəlder, qırx lotuları yola saler. Deyir, gedin bir-iki aydan sonra gəlin gəvənizi aparın. İki aydan sonra qırx lotular gəler. Gələndə görör kü, Molla Nəsrəddin yolun qırağında dirək basdırıf tikannı məftil çəker. Deyir:

– Ay Molla, nə iş görörsən? Bunu nəyşə çəkersən?

Deyir:

– Əyə, bunu çəkerəm ki, Çeyran çölünnən qoyun sürüsü gəlif keçəndə, yununu bu tikannı məftil yonsun, yunu yığıf sizin gəvənizi toxudom, – deyəndə, qırx lotular gülüşöllər. Gülüşəndə Molla deyir:

– Gülərsiniz, gülərsiniz, işiniz düzəler deyən gülüşörsünüz.

## 113. BƏHLUL DANƏNDƏ

Bəhlul Danəndə bir gün bazar qavağında oturuf ağlermış. Hökümdar da onun qardaşıymış. Vəzir, vəkil, sarayın yolunu gedif gələnlər deyir ki, Bəhlul Danəndə orda ağlıyır, bizi biyavır eliyir. Axırı baş vəzirini göndərir ki, get çağır onu, gəlsin görək dərdi nədi. Bəhlul Danəndəni gətirillər. Patcah soruşur ku, a qardaş, dərdin nədi? Camaatdan fərqli olaraq sənin dolanacağın yaxşı, bu boyda saray sənin əlində, xəzinə bizim əlimizdə. Nə deyirsən, sənin ürəyindən nə keçir de, mən eliyim. Gedif camaat içində ağlıyıf niyə məni biyavır eliyirsən? Deyir:

– Ay qardaş, uşaxlıxda anamız bizi çılpaxlıyıf, başımızdan su töküf çimizdirirdi. O yadıma düşüf. İstiyirəm sənnən hamama gedəm.

Deyir:

– Bunu gəl denən, mən də göndərim, hamamı qızdırsınlar, gedək çimək.

Əmr eliyir, hamamı qızdırellar. Qardaşdar paltar soyunan vaxtı Bəhlul deyir kin, ay qardaş, ala bir qəpik verim, mən istiyəndə mənim qəpiyimi verərsən. Deyir ki, ayə, qəpiyi at oruya, gedəndə sana xəzinədən qızıl verim, nə deyirsən verim. Qəpik nədi? Deyir:

– Yox, əl ələ hökm eliyər. Bax, munu manşırramışam,[126] böyrünnən xətt çəkmişəm. Mən qəpiyimi istiyəndə maa verərsən.

Deyir:

– Ə, at oruya, kimdi gəlif oğurruyan? Padşahdan şey oğurruyajaxlar?

Deyir:

– Yox, əl ələ hökm eliyər. Ala tut, mən istiyəndə pulumu verərsən.

---

[126] Manşırramaq – işarələmək, nişan qoymaq

Bu qəpiyi götürör, atır oruya – paltarının üstünə. Girellər içəri. Bədənnəri isdanannan sonra qamçını çəker, başdıyır patcahı döyməyə ki, mənim qəpiyimi qaytar. Deyir:

– Ə, axmağ olma, burda mən qəpiyi sana hardan alım? Gedəndə sana qəpiyini də verəjəm, hələ üstündə bir meşox qızıl da verəjəm.

Deyir:

– Yox ey, mənim öz qəpiyimi bu dəyqa ver.

Deyir ki, hardan alım lüt-çılpağ sana qəpiyi verim?

Deyir:

– Əgər sənin gücün çatıf bir qəpiyi mana verə bilmirsənsə, bu lüt camaata niyə bu qədər vergi yüklöörsən?

## 114. BƏHLUL DANƏNDƏ VƏ BAĞDADİ-XƏLİFƏ

Bəhlul Danəndənin qardaşı Bağdadi-xəlifə patcah imiş. Bu Bağdadi-Xəlifəni məclislərdə, mərəkələrdə Bəhlul Danəndə yaman utandırarmış. Elə eliyirmiş ki, bu cavab verə bilmirmiş. Bu Bağdadi-xəlifə yaman fikirrəşer, deyir:

– Ə, bunu öldürəjəm, camaat maa nifrət eliyəjək ki, ə, qardaşını öldürdü, filan elədi, bəsməkan elədi.

Bir qarı gördü ki, yaman fikirrəşer bu patcah. Dedi:

– Ay patcah, nə dərdin, bəlkə mən də saa kömək elədim?

Dedi:

– Ay qarı, görürsən də əhvalatı, Bəhlul Danəndə toylarda, şənliklərdə məni yaman utandırer. Öldürsəm də, xalq maa nifrət eliyəjək, öldürə bilmirəm, nə bilim, nağayra bilmirəm.

Dedi:

– Ə, onu mən öldürrəm.

Qarı dedi ha. Patcah dedi:

– Öldürsən, saa belə nəmər verərəm, filan-bəsməkan. Bə nejə?

Dedi:

– Yaxşı, mən bilirəm nejə!

Getdi zəhər aldı, gətdi, çörəyə qatdı. Bu Bəhlul Danəndə, deyir, dəli şeyiydi, dəliydi dana. Qamışı minif sabah çölə edirdi. Qarı dedi:

– Ay Bəhlul, ay Bəhlul.

Dedi:

– Ha.

Dedi:

– Ə, mən saa çörək nəzir eləmişəm, bu çörəkləri gəl al, götü dana, mənim nəzirimdi.

Dedi:

– Ay qarı, götürrəm çörəyi, əmmə bir şərtnən. – Bəhlul bilirdi ki, bırda bir şey var. Hə – Bir şərtnən ki, xeyri də sənin, şəri də sənin. Atkaz eləmirəm.

Götürdü çörəyi, örüşə sarı xeylax getmişdi ki, ördü yolun qırağında üç dənə adamdı, biçin biçillər. Bular Bəhlula dedilər:

– Ay Bəhlul, bilerik, kənddən gələrsən, çörəkdən-zaddan nəyin var, biz yaman ajmışıx?

Dedi:

– Ay qardaş, vallah, yolda bir arvad maa çörək nəzir elədi, alın yiyin.

Buların sən demə, biri arvadın əri olur, biri qardaşı olur, biri də qaynı. Çörəyi yidilər, yiyəndə gördü ki, ayə, bıların üçü də öldü. Arvad axşam gördü ki, Bəhlul Danəndə altında qamış gəler.

– A Bəhlul, çörəyi neylədin?

Dedi:

– Ay bajı, filan yerdə üç adam biçin biçirdi. Dedilər, ay Bəhlul, yaman ajıx, çörəyi ver bizə, bizə çörək gətirəndə saa verərik. Mən də olara verdim, yeyif yatıflar.

Day demir, ölüflər. Arvad dizinə-başına vuror ki, biri ərimdi, biri qardaşımdı, biri qaynımdı. Haray, qışqırıx qopdu. Nolojax, arabaynan, öküznən tərpəndilər getdilər. Sabah mərəkə quruldu, camaat yığıldı. Bəhlul dedi:

– Ay camaat,

Dedilər:

– Ha...

Dedi:

– Bu arvad öz əliynən öz ərini də, qaynını da, qardaşını da öldürdü.

Dedilər:

– Nətəri oldu?

Dedi:

– Bax, belə oldu, elə oldu, maa çörək verdi, istədi məni öldürə, mən də çörəyi olara verdim. Olar da yedi öldü.

Sonra üzünü tutdu arvada dedi:

– Arvad, saa demədimmi çörəyin xeyiri də sənin, şəri də sənin. Bax, sən özün öldürdün, mən öldürmədim ha....

## 115. İNKİRİ ÖLDÜRMÜŞƏM, MİNKİR QAÇIB

Deyir, biri ölübmüş. Qavırı qazellər, ta bu gün dəfn edəsi olmullar, qalır savaha dana. Deyillər, ayə, a çovan, qavırı gecə tək buraxmaq olmaz. Onsuz da burdasan, qoyun otarırsan burda, elə bu qavırın böyründə yatarsan, gözdüyərsən. Bir on manat da, iyirmi manat da saa pul verək.

Nolojax ki, iki dənə lotu eşider ki, məsələn, çovan on manat pul alıf. O vaxt da pul güjdüymüş. Qanundu, boş qavırı tək buraxmax olmaz. Bu lotular ağ paltar geyinellər, gedellər ikisi də çovanın yanına. Bunun yanına çatanda deyillər ki, rəbbin kıst? Deyəndə çovan başın qaldırer görör ki, iki dənə ağ şey var. Birin ha eliyir, ağaşnan, çomağnan nətəri vurursa

elə orda qaler. Biri uzananda, biri qaçer. Çovan düşör bunun dalına. Qaçanda bu gəler girer kəntdə, nə bilim, bir töylüyə, samannığa. Çovan da camaatı qıylıyır ki, ə, gəlin, inkiri öldürmüşəm, minkir burda gizdənif. Elə bilif ki, bular İnkir Minkirdi. Gəlin bunu da öldürək, canımızı qurtarax. Camaat gəler tökülör. Bu lotu başdıyır yalvarmağa ki, ayə, ağrın alım, dərdinizi alem, mən filankəsəm, məni öldürmüyün.

## 116-117. DOBROVOL QASIM

Günnərin bir günündə bir kəndə Dobrovol Qasım qonax gedir. Kəndin, adətən, mərkəzi yeri olur. Yaşlılar bir dəstə yığılır, oturub söhbət eliyillər, cavannar bir dəstə söhbət eliyillər. Olar, adətən, bir-birlərinnən bir xeyli aralı söhbət eliyillər ki, bir-birrərinin söhbətdərinə mane olmasınnar. Baxmıyarax ki, indi belə hallara az təsadüf olunur, cavannar abır elədihlərinnən yaşlılardan bir qədər aralı söhbət eliyillər. Çünki, oların söhbətinin mövzusu ayrıdı, buların söhbətinin mövzusu ayrıdı. Kənd sakinnərinin içərisində Qasım kişi də bularnan oturmuşdu. Hamı tanıyırdı, Qasım kişinin dünyagörmüş adam olduğuna bələdiydilər, şirin söhbətdərinə bələdiydilər. Ona görə də Qasım kişiyə qulax asırdılar. Cavannarın yığıldığı yerə bir kənd sakini yaxınnaşıf. Deyif ki, ay uşaxlar, ordakı o papaxlı kişi elə bil bizim kəntdən döyül, yad yerdəndi. Tanıyannardan biri deyir ki, hə, o filan kəntdəndi, Dobrovol Qasım deyillər ona. Deyir, o nə deməhdi? Deyir, ə, yaman sözə yazınmaz[127] adamdı. Deyir ki, nətəər sözə yazınmaz? Mən indi gedif ona elə söz deyərəm ki, o, maa cavab verə bilməz. Deyillər ki, özünə yazığın gəlsin. Aparıb ətəyini kalın buynuzuna keçirtmə. Deyir, ə, bir halda ki, elə deyirsiniz, indi

[127] Sözə yazınmaz – söz altında qalmayan

mən lap maraxlandım. Gəlin gedək mənnən bərabər, görün, mən ona nə deyəjəm, o nə eşidəjək. Cavannar da maraxnan yığışıf gəlillər bu qojaların dayandığı yerin yaxınnığına ki, görsünnər söhbət nəynən başdıyıf nəynən qurtarajax. Bu cavan deyif ki, ay Qasım əmi, eşitdiyimə görə, sən dünyagörmüş adamsan. Mənim bir çətin məsələm var. Mana bir ağsakqal məsləhəti versən. Deyəndə, Qasım kişi başını qaldırıb cavanın üzünə baxıf deyir, de görüm, qadan alım. Cavan deyif ki, a Qasım əmi, mən on dənə eşşək almışam, bordamışam, yaxşı köhdülər. Onları kəssəm, sizin kəntdə alallarmı onların ətinnən? Qasım kişi bir annıx fikirə gedir və deyir, hə, belə elə də sən, a bala. Onun hamısını birdən-birə kəsmə. Almazdar, birdən ziyana düşərsən. Sən birini kəs, apar. Alallar, alallar. Almazdar da nə itirersən, qaytar gətir dədənə ehsan ver.

**117.**

Qasım kişi həm də sınıxçıydı. Günnərin bir günündə bir nəfəri onun yanına gətirillər. Qıçı ombadan sınmışdı. Qasım kişi sınığın yerini müəyyənləşdirmək üçün bu sınıx olan yerə əlini toxundurdu və sınığın dəhşətini hiss eliyib dedi:

– Bay-bay-bay, a bala, bunu niyə belə eliyifsən?

Sınığı olan adam zarıya-zarıya dedi:

– Ay Qasım əmi, Allah haqqı, düzcə yollan getdiyim yerdə yıxıldım, – deyəndə:

– Ə, bədbəxt oğlu, qırx ildi əyri yollan gedersən, bax, o düz yolda sənin nə işin varıydı?

## 118. BAZARINIZA ŞOR SATAN GƏLSİN

Bir nəfər savadsız qarı ömrü boyu bir inək saxleerdi. İnəyini sağerdi, çalxeerdi, pişirerdi, düşürördü, şorunu, yağını qayırerdi, aparıf bazarda nəlvəkiynən başdıyırdı şor satmağa.

Nəlvəkisi də on qəpik. Qarının o qədər bu alverə başı qarışmışdı, kim soruşsa, deyirdi şor sateram.

Rəvayətə görə, bir gün qarı dünyasını dəyişdi. Deyilməyə görə, o dünyada insannarnan sorğu-sual olor, İnkir-Minkir gəler. Qarı dünyasını dəyişif dəfn olunannan sonra İnkir-Minkir gəldi, qarıyı qaldırdı, soruşdu ku, qarı, rəbbin kis? Yəni Allahın kimdi? Qarı dilləndi ki, şor sateram. Bu İnkir-Minkir toppuznan vurdu, qarıyı yandırdı, təzdən qaytardılar bir də insan sifətinə saldılar.

– Qarı, rəbbin kis?

Dedi:

– Nəlbəkiynən sateram.

Bir də yandırdılar. Yandıranda üçüncü dəfə soruşdular:

– Qarı, rəbbin kis?

Dedi:

– Kül başınıza, elə eliyin ki, bazarınıza bir də şor satan gəlsin. Mənnən nə istiyirsiz? Mən şor satmaxdan başqa ayrı şey bilmerəm.

## 119. GƏLƏN DƏFƏ MÜSƏLMAN KİMİ YEYƏCƏYƏM

Müsürmannan erməninin keşmişdə dostdux elədiyi vaxtdar oluf. İndi olmasın. Savet dövründə bizim müsürmannan bir nəfər maşının içinə beş-altı yeşik qoyor, üzüm satmağa aparer. Geder Ermənistanda bu üzümi sater, bunun iki yeşik, bir yeşik üzümü qaler. Bir erməni yaxınnaşer, deyir:

– Ə, müsürman qardaş, sana nə verim ki, bu üzümnən məni doydurasan? – deyəndə müsürman fikirrəşer ki, bu, yeşikdən qoy iki kilo üzüm yesin də. Nə qədər yijək? Deyir ki, beş manat ver, nə qədər yiyirsən, yi. Erməni götörör salxımı ağzına bir belə, bir belə çəker. Müsürman baxer ki, erməni üzümün axırına çıxer, yeşiyi qutarer. Deyir:

– Ə, erməni, nooldu, heyvan kimi yiyirsən üzümü.

Erməni deyir:

– Can qardaş, bu dəfə heyvan kimi yiyirəm, gələn dəfə müsürman kimi yiyəcağam.

## 120. ÖZÜM TOVUZLUYAM, EŞŞƏYİM BAKILI

Keşmişdə lətifə ustası bir nəfər gəler Touz rayonuna. Touz rayonunda bir nəfər də lətifə ustası olor. Həmişə eşşəyini miner, bulaxdan stalovalara su sater, beş manat çörək pulu qazanerdi. Bakıdan gələn şəxs Touzda bir nəfərə qonax olor. Ev yiyəsi fikirrəşer ki, eşşəknən su daşıyan nəyə qadirdi. Yolnan getdikləri yerdə görör kü, bu kişi eşşəynən gənə su aparer. Eşşək arabasında oturuf mürgü vurur, eşşək vərdiş eliyif, yolnan özü geder. Touzdu Bakıdan gələnə deyir ki, sən canı, gör bunu bağlıya bilirsən? Bakılı maşını saxlıyıf böyründə siqnal verir.

– Qardaş, – deyəndə hazırcavab kişi başını qaldırer.

Deyir:

– Eşiderəm.

Deyir ki, haralusuz? Kişi fikirrəşer ki, bu bakılıdı, buna sataşer. Deyir:

– Qardaş, qadan alem, özüm touzduyam, eşşəyim bakılıdı.

## 121. YEMƏK KİMƏ ÇATIR?

Bir müsürman, bir yahudi, bir erməni – üçü yoldaş olullar. Üçünün bir nəfəri doydurası yeməyi olor. Fikirrəşellər ki, ə, bunu üçümüz də yisək, üçümüz də aj qalajeyih. Nağayrax, neyliyək? Müsürman hiyləyə əl ater. Deyir ki, qardaş, gəlin yatax, görək kimin peyğəmbəri kimə yaxşı nəsiyətdi söz desə, savah danışax bir-birimizə. Hansı peyğəmbərin sözü nəsiyətdi olsa, yiməyi o yisin. Birimiz yiyək, ikimiz də aj qalax, zərəl yoxdu.

Bu minvalnan gejə yatışellar. Gejə yatışanda yahudiynən erməni yater, müsəlman qalxer. Yiməyi yiyir, rahat yater. Savah yahudi qalxer. Deyir, mənim peyğəmbərim gəlmişdi, mana belə bir rəvayət danışdı. Xaçpərəs deyir ki, mənim peyğəmbərim gəlmişdi, mana belə bir rəvayət danışdı. Müsürman deyir:

– Qardaş, sizin peyğəmbəriniz gəldi rəvayət danışdı, mənim peyğəmbərim gəldi dedi ki, aj qarına yatma, dur yiməyi yi, rahat yat. Mən də durdum yiməyi yidim, rahat yatdım.

## 122. ERMƏNİ XAÇA YALVARIR

Çovan gederdi. Gedəndə gördü, – üzdən irax, erməni xayin olar da həmişə, – erməni müsürman qavırsannığında qavırın üstündə oturor, buloor. Erməni gördü kü, müsürman munu gördü. Tez papağını götdü, nəcisin üstünü örtdü kü, çovan görməsin. Çovan da munu görördü. Gəldi soruşdu:

– Ayə, burda nağayrersan, a belə filan? – deyəndə dedi ki, heş nə. Elə yorulmuşam, qardaş, dincəlerəm. Dedi:

– Papağın altdakı nədi?

Dedi:

– Quş tutmuşam.

Dedi:

– Yalan deyirsən.

Papağı qurdalıyanda nəcisi gördü. Çomağı çəkdi, erməninin üstünə dirəndi ki, dur get. Erməniynən müsürman qavırsannığı yanaşıydı. Keşmişdə dost oluflar, indi olmasınnar. Erməniyi oturtdu öz xaçının üstündə. Çomağa qoyma dedi ki, xaçın üstünü bulamalısan. Xaçın üstünü buluyannan sonra çovan çıxdı getdi, hayıfını aldı. İndi erməni qalxıf yalvarer:

Ey xaç,
Pırnın olum[128]!

[128] Pırının olum – qurbanın olum

Çovan idi,
Zalım idi,
Çomağ idi,
Dalım idi.
Vurdu mana,
S..dım sana.
Məni bağışda.

## 123. ERKƏK EŞŞƏK XODUQLU GƏZMƏZ

Hamıya məlumdu, şəkililər sözəgəlməz olor. İki şəkili fikirrəşer ki, Bakıda bir nəfər yaxşı lətifə deyən şəxs var, hazırcavabdı. Bular ikisi də poyuza miner Bakıya gəler ki, gedək söznən onu bağlıyax. Gəlellər, axtarellar, həmin şəxsin öyünü tapellar. Qapıyı döyüllər, xanım çıxer.

– Ay bajı, salamməlöyküm.

– Salam.

– Ay bajı, filankəsin öyü budumu?

Deyir:

– Bəli, budu?

Deyir:

– Hanı?

Deyir:

– Hamama gedif.

Deyir:

– Biz gederik onu axtarmağa. Onu həncəri tapax, – deyəndə deyir:

– Nəvəsinnən gedif. Əlində hamam sumkası, nəvəsi də yanındadı. Çoxdan gedif, yağın indicə qayıdıf gələr, – deyəndə bular fikirrəşer ki, əlimizə yaxşı fürsət düşdü, gəl bəri başdan buna deyək ki, erkək eşşək xoduxnan hərrənməz. Görək, bizə nə cavab verəjək.

Gedellər, kişiynən rasdaşellar. Baxellar, kişi əlində hamam sumkası nəvəsinin əlinnən tutub gəler.

– Salam, qardaş.

– Əleykəssalam.

– Biz Şəkidən gəlmişik. Biz eşitmişdik ki, erkək eşşək xoduxlu hərrənməz. İndi gördük ki, erkək eşşək xoduxlu hərrəner, – deyəndə kişi hazırcavablığını yerə qoymur. Tez deyir ki, qardaş, mənim xanımım mana dedi ki, büyün Şəkidən iki eşşək gələjək bura. Sən olara qarışıf dəyişik düşərsən, ona görə xoduğu mənim yanıma qoşdu ki, xoduxnan get, səni tez tanıyım. Ona görə mən xoduxnan gəzerəm.

## 124-125. XORUZU APARANDA PULU VERƏCƏK

Seyid Saat Qaradaş seyidlərinnən olub. Başqa bir yerə geder. Görör kü, bir dənə gəlindi, toyuxlara yaman ajığı tutuf, qışqırer. Deyir:

– Toyuxları satarsanmı? – deyəndə deyir ki, sataram.

– Neçiyə? – deyəndə qayıder deyir ki, neçədən alersan? Burda da toyuğ ucuz qiymətə olor. Seyid Saat deyir:

– Birini bir manatdan.

Arvad deyir:

– Aha, yaxşı oldu, onun puluna iki dəfə çox toyuğ alaram. Yaxşısı budu ki, bu toyuxları buna satım, pulum çoxalsın.

Toyuxların hamısını yığır-yığışdırer, gətirer. Seyid Saat xoruzu orda saxlıyır. Deyir:

– Qızım, bunun hamısını götürə bilmerəm, gedim həm pulumu gətirim, həm də xoruzu aparım.

Əri evə gələndə arvad deyir:

– Kişi, toyuxları satdım, getdi.

Deyir:

– Arvad, neçədən?

Deyir:

– Bir manatdan.

Deyir:

– Gətir pulunu.

Deyir:

– Gəlib xoruzu aparanda pulunu verəjək.

Deyir:

– Səni yaman alladıb ha.

**125.**

Seyid Saat babanın qonşu Başkənddə erməni dostu oluf. Bu ermənininin də toyuğu, cücəsi, atı, inəyi, qoyunu çox imiş. Seyid Saat babanın bir günnəri hərrənif gələndə toyuxlara gözü tüşər. Erməniynən danışar, deyər bu toyuxlardan bir əlli dənəsini ver, atın belinə bağlıyıf aparım. Pulum yoxdu, pulunu da gətirərəm. Erməni zıkqıldeer ki, bəs mən bunu nağd pula verəjəm. Deyir:

– Dininnən dönəsən.

Əlli dənə toyuğu da ata yüklöyüfmüş. Otuz dənəsini düşürör, deyir:

– Bax, bu otuz dəneyi girov saxla, apardıxlarımın pulunu gətirəndə gəlif buları da aparajam.

Seyid Saat gəlif çıxıf öyünə. Hələ də erməniyə toyux pulu aparajax, gənə də.

## 126-127. DEYƏRDİM MƏNİM ATIMDIR

Bir gün Seyid Saat bir erməniynən yoldaş olor, yolnan geder. Erməni bir at yükü xiyar aparermış. Ermənidən soruşor ki, ayə, erməni, apardığın nədi? Deyir:

– Xiyar.

Deyir:

– Ə, hava istidi, ondan bir-ikisini gətir, yeyək.

Deyir:

– Vermerəm, olmaz.

Bir qədər gedənnən sonra Seyid Saat deyir:

– Vermədin vermədin. Mən burdan belə gedəjəm, ancax sənə bu atın bir xasiyyətin örgədəjəm.

Deyir:

– Nədi? – deyəndə qayıder deyir ki, sən atınnan ehtiyatdı ol. O, arada gülgəbaz olor.

Deyir:

– Ə, gülgəbaz nədi?

Deyir:

– Bir formadan başqa formuya düşör. Cin-şəyatin formasına, nə bilim, it formasına düşör.

Ermənі fikirri-fikirri geder at yedəyində. Seyid Saat da paltarın dəyişer, kəsə yolnan geder buna çater. Atın başınnan qantarğasın çıxarder öz başına taxer, atı burda qoyor, otduya-otduya qaler. Gedellər bir qədər. At gözdən itəndə Seyid Saat ayağını diriyir. Erməni deyir: "Nolur ə, bu tərpənmer?" Dala baxanda görür ki, yedəyində at əvəzinə insana oxşuyan bir şey var. Erməni yıxıler, özünnən geder. Seyid Saat da qantarğanı başınnan götürör, gəler atın başına keçirer, aparer geder.

Ermənіnin öyünü də tanıyırmış. Günnərin birində ermənіnin öyünün yanınnan keçəndə erməni atı görüb deyir:

– Aa, at yedəyimdə cin olmasaydı, elə deyərdim bu mənim atımdı.

**127.**

Məşədi Saat qardaşı Məşədi Cəlilnən qərib imam Rzanın ziyarətinə getdiyinə görə onların hər ikisinə məşədi deyiflər. Olar öz devrlərində çox əzab-əziyyətnən yaşamış seyiddər oluflar. Qəlbi yumşaq, insanpərvər insannar oluf, amma maddi vəziy-

yətdəri pis oluf. Ona görə də hər fırıldağa, hər yola əl atarax aylələrini idarə eliyiflər. Seyid Saadın dokquz qızı, altı oğlu oluf.

Seyid Saat ağanın Başkənd deyilən yerdə mənfur qonşulardan dostu oluf. Həmin dostunun atı, toyuğu, cürbəcür ev heyvannarı oluf. Seyid Saat həmişə ermənini hərifliyifmiş. Ona deyərmiş ki, bu atı sat, vaxtkən canını qurtar əlinnən. Erməniyə deyərmiş ki, bu at gülgəbaz olacax və səni yiyacax.

Nəhayət, günnərin bir günündə erməni dəyirmənnən gələn vaxdı Seyid Saat bunu izdeermiş. Çayın qırağında palçıxlı yerə girərək təmiz paltarını soyunuf gizdiyif, üzünü-gözünü palçıxlıyıf. Yayın günündə, erməni murgülüyə-murgülüyə atı çəkif yavaş-yavaş getdiyi yerdə, atın noxtasını çıxardıf öz başına salır, atın döşünə vuruf, atı geri qoalıyıf. At əyləşif orda otdamağa. Erməni bir müddət gedənnən sonra, bir-iki təpə aşannan sonra Seyid Saat əyaxlarını diriyif, qantarğadan tutuf geriyə doğru çəkif. Erməni geri çöyrülüf arxaya baxanda görör kü, yedəyindəki bir eybəcər insandı, dişdəri ağara qalmış. Erməni burda özünü tez yerə vurarax huşunu itirif, deyir:

– Vay, Seyid Saatcan demişdi, elə atım gülgəbaz oldu, məni yiyacax.

Onnan da erməni Seyid Saatı orda buraxıf qaşmışdı. Seyid Saat həmin günü atı gətirər evə, atın üstündəki unu, dəni boşaldar. Sonra qoyun qırxan qırxılıx qayçısını götürüf atın quyruğunu da qırxar təmiz, yalmanını da qırxar. Evdə süzmə varmış, arvad ayran süzübbüş, qatı süzmə. Həmin süzmöynən ata təpəl düzəldər, ağzına, böyürrərinə alabəzək düzəldər, əyaxlarına səkil düzəldər, evin böyrünə hörüklüyər. Erməni, dostuna dərdikməyə[129] gələr ki, gedim görüm Seyid Saat bəlkə atın yerini bilə, aparanı görə. Bir dua yazdırım ona ki, atım gülgəbaz olub, bəlkə

[129] Dərdikmək – dərdləşmək

qayıda gələ. Daha doğrusu, dua yazdırmağa gələr. Gələndə görər ki, döşdə bir at hörühlənif otdoor. Gələr Saatın yanına, deyər:

– Ay Saatcan, bilersənmi nə var?

Deyir:

– Yox.

Deyir:

– Ə, at gülgəbaz oldu. Sən mana çox deyirdin, mən eşitmədim səni.

– Ə, dininnən dönəsən, at nətəər at idi?– erməniyə deyir.

Deyir:

– Bax, sənin o atına oxşoordu. Sənin o atıyın belə təpəli olmasa, yalmanı, quyruğu qırxığ olmasa, əyağının səkili olmasa, məssəb haqqı, deyərdim mənim atımdı.

## 128. BİR BAMBA SÜZMƏ, YOXSA UŞAQ

Seyid Saat baba Çənbərək bazarına səfərə çıxar. Çıxanda Düzrəsillidə Maşad Şəkər koxa deyilən koxanın gəlini bazarda yağ, süzmə, şor, pendir satırmış. Seyid Saat baba bir kısmat çörək tapıb əlində gələr ki, bir bamba süzmədən mənim bu çörəyimin üsdə çək, qızım, yiyim. Bu qayıdar buna nataraz söz işlədər. Bu qadının da yanında iki-üç aylığ körpə uşağı oluf, çağası oluf. Hərrənər arxa tərəfdən, çağeyi çuxanın ətəyinə bükər, oğurroof gətirər evinə. Seyid Saadın qızdarı, arvadı, uşağı bu çağaya baxallar burda. Ağlaşma, vay-şüən qopur ki, gəlin çağasını Çənbərəkdə itirif gəlif. Evdə bunu çox incidəllər ki, uşağı kimə verdin, neylədin? Axırda Kalvay Zeynaloğlu Cabbar deyilən bir nəfər şəxs olur. Öz devrinin savatdı adamı oluf. O deyər ki, gedək bir Seyid Saatdan soruşax, onun dostu-tanışı çoxdu, bəlkə tapa bildi. Seyid Saadın yanına gələndə deyir, çətin hak-hesafdı, axtarış eliyim, görək hardan taperıx. Çox nəhayətdən sonra Seyid Saat deyir:

– Uşağı tapmışam, çox xarc istellər. Məsəlçün, deyir, on inək, on qoyun, nəvilim, bir at, on put yağ, qənd, çay – bu şeyləri ver.

Kərbalayi Zeynal oğlu Cabbar deyər ki, gəl munu yarı eliyək. Munun hamısını verdim, sən apardın çağa oğrusuna verdin, bəs sənin burda xeyrin nədi?

Deyir:

– Onda mənim payımı ver, aparım evimə qoyum, onun payını sonra verərik.

Bu minvalnan Seyid Saat həmin adamlardan istədiyi qədər hak-hesavı alıf, uşağı çuxasının ətəyinə bükərək aparıf sahibinə təhvil verer. Burda böyük bir şənlik yaraner. Şənlik yarananda bunnan xayiş eliyillər ki, Seyid Saad ağa, düzün de görək, bu uşağı kim aparmışdı, kimdən aldın? Seyid Saat burda sirrin üstün aşmer. Eləcə deyir ki, gəlinnən soruşun, görək bir uşaxmı yaxşıdı, yoxsa bir bamba süzməmi?

## 129. "QURAN" BU CANA DƏYSİN

Seyid Saat Düzrəsilli deyilən yerdən o devrin böyük vəzifəli adamının yeddi ilin qısırı bir düyəsini oğurroof gətirer. Munu kəsif işə keçirməmişdən üstünü kəsiflər. Buların gəldiyini görəndə Seyid Saat baba öyünün yaxınnığında olan bulaxdan bir dənə qurvağeyi götürüf köynəyin döş cibinə qoyuf, ağzın düyməleer. Bular gəler, dirənillər ki, ya inəyi ver, ya "Quran"a and iç. Deyir:

– Yaxşı, "Quran"a and içif sizi küllü-küf eliyərəm. "Quran"ı çıxardıf, əlini "Quran"ın üstə qoyuf deyir:

– Bu "Quran" – o biri əlini də döşündəki qurvağanın üstünə qoyor, – bu cana qənim olsun mənim sizin malınızdan elmi-güman xəbərim varsa.

Bunnan da mal yiyəsi inanıf öyünə qayıdır.

## 130. ŞƏRİKLİ ƏKİN

Maşadı Saat mənim atamın ana babasıdır. Onun külfəti böyük olduğuna görə, oğurruğ eliyərmiş, ancaq oğurruğ eliyənnən əvvəl və yaxud sonra kimnən oğurrofsa, onun halallığını alarmış. Üç arvaddan, deyilənə görə, iyirmi üç uşağı oluf onun. Dokquz bajı, iki qardaş axrıncı arvadınnan oluf. Amma deyilənə görə, Tovuz rayonunun Vahiddi kəndində bir arvadı oluf, Şınığın Cücənni kəndində də bir arvadı oluf, olardan da uşaqları oluf.

Maşadı Saat hardan nə götürsə, onun sahibindən halallığını alarmış. Ona görə ona halal oğru Maşadı Saat deyiflər. İndilərdə də deyillər Halal Saat. Bizim o tərəflərdə rayon mərkəzinə bir neçə çıxış var. Onun biri Şınığın Hajılar, Qaralar və Çinar kəndinnən – indi Çinarik qoyub ermənilər adını, – keçirmiş, ordan Şəmşəddin mahalına gəlellərmiş, harava yolu varmış. Bu yola Muncuqlu yolu deyillər. Bir yol da Kirən yolu deyillər, biri də Zəyəm çayının qırağınnan Xınna şamlığınnan yol gəlermiş.

Bir gün Saat kişi atını miner Şəmşəddinə gedermiş Çinar yolunnan. Orda bir çinar var imiş, ona görə o kəndə Çinar kəndi deyillərmiş. O çinarın divinnən bulax çıxermış. Arana gedənnər, arannan dağa gələnnər orda dayanıf istirahət eliyif, çörək yiyif, su içif ordan da yollarına davam eliyərmişdər. Saat kişi gəler. Gələndə görör ki, bir nəfər öküzdərini buraxıf, oturuf çörək yiyir. Bu da öz süfrəsini açer, bir yerdə oturor, çörəyini yiyir. Qalxanda bu kişi deyir ki, mən xayiş eliyirəm səndən, kömək elə öküzün yan samılarını boyunduruğa keçirim. Bu da kömək eliyir buna.

– Nə iş görəjəksən?

– Yer şumlooram.

Deyir:

– Yaxşı.

Boyunduruğa keçirənnən sonra öküzün başını çəker, bu kişi də xışı tutur. Beş cərgə o yana, beş cərgə bu yana yeri şumluyannan sonra kişiyə deyir ki, oldux şərik. Deyir:

– Oldux.

Gedir Şəmşəddin mahalında işdərini görör, bir neçə gün qaler. Qayıdıf gələndə görör kü, yenə kişi oturuf çörək yiyir. Bu da oturor çörəyini yiyir, atını buraxer, at bir az dincəler. Kişi duror ki, taxıl səpməyə. Deyir:

– İndi səpersənmi?

Deyir:

– Hə.

Çanağı götürör, beş çanax taxıldan səper. Deyir:

– Sən düz səpmersən, bax, belə səpmək lazımdır.

Beş çanağı səpib qutarannan sonra deyir:

– Olduxmu şərik?

Deyir:

– Oldux.

Gedir. Ətrafında yaşıyannara, Şəmşəddin mahalına gedif gələnnərə deyir ki, taxıl piçini vaxtı mənə xəbər verin ki, taxılın piçilən vaxtıdı. Gəlir buna xəbər verellər, bu da orağını, azuqəsini götürör, geder. Gedəndə örör ki, bu kişi taxıl pişməyə başdıyıf. Bu da bir tərəfinnən düşüf başdıyır pişməyə. Bir neçə gün piçin davam eliyir. Piçin qutarannan sonra kişi geder dörd təkər harava gətirer, dərz bağladığı taxıldan bir harava, iki, üç, dörd. Axırıncı haravadan yarımçıx qaler bu kişinin bağladığı dərzdər. Keçir ki, bu tərəfdən halal oğru Maşat Saatın bişdiyi dərzlərdən götüsün. Bu deyir ki, yox, biz danışıx danışmışıx, şərikik. Bunu mən pişmişəm, mənimkidi.

– Əyə, etmə, eləmə.

Bir qədər mübahisə eliyillər, söhbətdəşellər, Saat yola gəlmer. Axırı deyir ki, gəl belə eliyək, savax qazının yanına gedək.

Hava da bulutduğuymuş. Bular belə razılaşanda bu kişi bir az uzaxlaşmışdı, deyir:

– Gedək bizdə qal.

Seyid Saat deyir:

– Yox, qalmeram, elə burda – taxılımın üstə qaleram. Mən getsəm, taxılı gəlib apararsan. Amma hava soyuxdu, əynindəki arxalığı ver, əynimə geyinim, gejə mana soyux olmasın.

Kişi arxalığın çıxarder verer Saada, geder evə. Səhər vədələşdikləri kimi gedellər qazının yanına. Saat birinci bu kişini qavağa buraxer. Nətəər oluf kişi danışer. Sözünü qutarannan sonra Saada söz veriləndə Saat deyir ki, mən ki bu kişidə bu hayasızdığı görörəm, indi deyəjək əynindəki arxalıx da mənimdi. Elə bu sözü deyəndə kişi yapışer ki, nətəər mənimdi?

Deyir:

– Yaxşı, bu səninsə, mənim əynimdə nəəzer?

Beləliknən də, pişdiyi taxılı Saata verellər, taxıl yiyəsi də pərt vəziyyətdə qaler.

## 131. MƏN DƏ BAXDIM SƏNİN KİMİ

Bir gün Maşat Saat sürgünnən gəlermiş. Deyilənə görə, Gədəbəyin Saratovka kəndinnən Başkəndin arasında bir ağacın divində bulağ olor. Piyada, əzinik-üzünük, pis vəziyyətdə... Sürgünnən çıxan nətəər olar? Gələndə örör ki, bir kişi oturuf çörək yiyir, atını da örühlööf, at qıraxda otdoor. Gəler əl-üzünü yuyur, uzaxlaşmamış kişi deyir:

– Ay Allahın adamı, mən çörək yiyirəm, gəl otur sən də bir tikə çörək yi.

Oturor, çörək yiyir, su içer. Bir ah çəker. Ah çəkəndə kişi deyir:

– Ay qardaş, dərdin nədi, nəyə ah çəkersən?

Deyir:

– Ay qardaş, soruşma.

– Ə, qurvan olum, başına dönüm, de görüm, bəlkə mən əlac elijəm sənin dərdinə.

Deyir:

– Vallah, bir vaxt var idi mən də oturuf sənin kimi belə çörək yiyirdim. Biri də gəldi mənim kimi bax beləsinə üzünü yüdü, mən də təhlif elədim sənin kimi, o da gəldi otdu mənim kimi. Otdux çörək yidik.

Deyir:

– Bəs sonra?

Deyir:

– Sonra o durdu mənim kimi, mən də baxdım sənin kimi. Yaxınnaşdı ata mənim kimi, mən də baxdım sənin kimi. Atın rəşməsini açdı mənim kimi, mən də baxdım sənin kimi. Qantarğayı bağladı mənim kimi, mən də baxdım sənin kimi. Qantarğanı atın başına hərrədi mənim kimi, mən də baxdım sənin kimi. Əyağını üzəngiyə qoydu mənim kimi, mən də baxdım sənin kimi. Qamçıyı vurdu mənim kimi, mən də baxdım sənin kimi.

Ata qamçıyı vurur, gəler Başkəndin içərisinnən keçer. Orda iki yol var. Göyəbaxan yolunnan üzü yuxarı qalxanda örör kü, bir sürü mal otdoor, içərisində bir cöngə var. Götürör cöngənin başını kəser, dərisini çıxarder, baş-ayağı, qarını dərinin arasına qoyor. Götürör cöngənin qanınnan dananın gönünə yazer ki, mənim adım Kazımdı, əti bizə, gönü sizə lazımdı. Əti xurcuna dolduror, gətirer. Camaat yığıler, şaddığ eliyir.

Bir müddət keçer, cöngə yiyəsi şikayət eliyir. Axtarellar… Kazım, Kazım. Tovuz rayonunun Böyükqışdax kəndinnən Kazım addı birini tapellar. Deyillər cöngəni bu oğurroof. Kazım deyir ki, mənim şahidim, subutum var. Nə bilim, mən flan yerdə olmuşam. Axırı deyillər, a kişi, başını ağrıtma. Bir inək ver, bu kişiynən barış. Şikayət olsa, səni sürgün eliyəllər. İnəyinin

birini aparıf bu kişinin qapısına bağler. Üsdən bir müddət keçənnən sonra Saat kişi cöngəsi itən adamnan qavaxlaşır. Deyir:

– A qardaş, bə mənim cöngəmi apardı filankəs, əvəzinə bir inək aldım, neylədim.

Deyir:

– Ə, sən ona şər atıfsan, cöngəni mən aparmışdım.

Deyir:

– Ay Saat, sən aparıfsansa, sənin halalın olsun. Bə niyə Kazım yazılmışdı ora?

Halallığı orda qazanıf da.

## 132. SƏN ALDIN DƏNDƏN, MƏN ALDIM UNDAN

Seyid Saat haraveynan Rəhimlidə suqarışan yerdə dəyirmana taxıl aparer. Axşam geder ki, gejə dənimi üyüdüf səhər-səhər gələrəm. Gedəndə örör kü, bunnan qavax da bir haravaynan gəliflər, dəni töküflər dəyirmanda dənniyə, dəyirman üyüdör. Haravalardan öküzdərin boyunduruğunu çıxarder, yerə qoyor. Bu kişinin də öküzdəri dəyirmanın yanındaymış. Deyir:

– Sənin öküzünü də haylıyım, yolun üstündə yaxşı otdux var, getsin orda otdasın, sonra gətirərik.

Bu yönünü çöyürür, öküzdəri haylıyıf o tərəfə aparanda örör kü, bu kişi gəldi bunun çuallarının ağzını aşdı, hərəsinnən bir çanax... Dörd çualdan dörd çanax dən götdü, apardı öz dəninin üstünə tökməyə. Öküzdəri keçirer yolun o tərəfinə, meşənin içərisinə. Qayıder gəler, heş nə demir kişiyə. Səhərə yaxın kişinin dəni üyüdülör qutarer, nööbə gəler çatır Maşadı Saada. Kişi geder öküzdəri gətirməyə. Bu da çualları açer, hər çualdan bir çanax unu götürör öz çualına boşalder. Kişi gəler xayiş eliyir, deyir:

– Kömək elə boyunduruğu qaldırıf öküzdərin boynuna qoymağa.

Qoyor, samısını geyindirer, yola düşör. Kişi bir xeylax gedənnən sonra Saat bunu çağırer, deyir:

– Ay qardaş, sən mana bir sirri izah elə, görüm, bu nolan şeydi?

Deyir:

– Nə sirridi?

Deyir:

– Sən aldın dənnən, mən aldım unnan, nə çıxdı bunnan?

## 133. SEYİD SAADIN PARÇA ALMASI

Çay Rəsillidə Mehdi adında biri tacirrik eliyirmiş. Yağ, şor, nə bilim, pendir, qurut, kənd təsərrüfatı məhsullarını yığarmış, gətirif Gəncəbasarda, Şəmkirdə, Touzda parçaya, kənddə nə tələb olunur ona dəyişərmiş, onnan dolanarmış. Yanında da bir şəyirdi varmış. Saadın yazbaşı pulu olmor. Gəler görör mağazinin içərisində camaat alver eliyir. Girir içəri, deyir:

– Ay Mehdi, mana uşaxlar üçün parça lazımdı tuman-qofta tikdirməyə, nə bilim, başına yaylıx lazımdı, əyağına nə lazımdı. Bə buları ver, ancax pulum yoxdu, – deyəndə bu qaş-qavağını tökör.

Deyir:

– Görmörsənmi sənnən qabaxda nə qədər adam var?

Saat dinməzcə çıxer. Mehdi də bu camaatdan yığdığı yağı, şoru, pendiri samannığa yığermış. Saat gedir samannıx-dan iki qarın[130] yağı götürör, qoltuğuna vuror, gətirer Mehdi-nin qavağına qoyor. Deyir:

– Ə, mən səni sıneerdım. İki qarın yağa yetdik mana parça ver.

---

[130] Qarın – yağı qurudulmuş qoyun qarnının içində saxlayırlar.

Bu da heş nə demir, qarınnarı çəker. Şüphələner ki, ə, bu çəkilər mana tanışdı. Biri otuz beş kilodu, biri otuz iki kilo. Heş nə demir. Əlacı kəsiler bu kişiyə yağın müqavilində lazımı şeyləri verer, Saat çıxer geder. Yaylağa köçöllər. Payız vaxdı yaylaxdan gələndə Saat iki qarın yağ gətirer. Gəler. Deyir:

– Eşiderəm, ay Saat.

Deyir:

– Sana borcum var idi, o borcumu gətirmişəm, odu, atın üstündədi. O şəyirdinə denən getsin onu götürsün.

Deyir:

– Nə borcun?

Deyir:

– O iki qarın yağ öz yağın idi, samannıxdan götürüf sana çəkdirmişdim. Sən qaş-qavağı tökəndə mən də getdim sənin öz yağını gətirdim, özünə çəkdirdim, əvəzində filan şeyləri aldım. İndi borcumu gətirmişəm, onu götü.

## 134. HIÇQIRAN MƏHƏMMƏD

Hıçqıran Məhəmməd bir günnəri rayon ərazisinnən gəler meşəliyə çater. Başqa bir kənddə bulax başında görör ki, bir dəstə adam yiyif-içellər. Meşəbəyidi, filandı – bular oturuf yiyif-içellər. Bunnan da tanış imişdər. Deyir:

– Ay Məhəmməd kişi, gəl oturax bir yerdə çörək yiyək, uzaxdan gələrsən.

Oturub bularnan çörək yiyir. Deyir:

– A Məhəmməd, bunnan da gəlsənə bir istəkan içəsən.

Bu vaxta kimi də bu, içki içmiyifmiş. Buna götürüb bir istəkan kanyak verellər işməyə. İçənnən sonra bu gəyirir bir balaca. Deyir ki, ay Sədiyar, bu nə yaxşı soyuxdu. Ateyin ehsanında. Adam içənnən sonra gəyirir, mədəsi dincəler.

– Ay Məhəmməd əmi, gənə verimmi?

Deyir:

– Ayə, dərdin alem, ateyin ehsanında olsun, birin də ver, yaxşı şeydi.

İkinci istəkanı içənnən sonra kişi kefli halda yol gəldiyin də bilmer, əyağı-əli suda-filanda. Bu, kefli vəziyətdə gəler. Çayqırağı yol gəler. Öyə gələndə deyir:

– Ayə, ay Nağı!

Deyir:

– Nədi, ay dədə.

Deyir:

– Ayə, a kopoğlu, o kanyakdı nədi, niyə onnan indiyə kimi mana almıyıfsan? Adam onu içəndə heç yol yeridiyini bilmer.

## 135. HAVAXTDAN İT OLUBSAN?

Məhəmməd kişi itdən yaman qorxan oluf. Yolnan getdiyi yerdə biri ağacın dalına girer. Məhəmməd gəlif yanınnan keçəndə bunun it kimi üstünə hürör. İt kimi hürəndə bu, yolun altına tərəf qaçer. Burda da biri qapısına it bağlıyıfmış. Gedib həqiqi itin üstünə çıxer. Adam səsinnən qorxor, it də burdan buna hucum eliyəndə bir az da bu aşağa qaçer, itdən canını kutarer. Baxanda görör ki, ayə, bunu birinci qorxudan it yox, adamdı. İt kimi hürüb bunu qorxuzuf. Deyir ki, ayə, a kopoğlu, havaxtdan it olufsan?

## 136. SAQQAL ƏMANƏTİ

Molla Əhmədalı babam təkcə Böyükqışlaxda yox, ətraf kəndlərdə də addı-sannı adam oluf. Hüzr yeri olanda çalışerdılar ki, hüzr yerinə Molla Əhmədalını aparsınnar. Bir qonşu kənd var. Bir gün gəlellər axunu ata mindirellər ki, axun, gedək, bir ölü yeri var, onu yola sal, sonra gətirəjeyik. Bu molla

da bir az bijəltəh molloymuş, çox fağır molla döyülmüş. Geder, bu ölü yerində görör kü, gözəl-göyçək gəlin hərrəner. Baana hərrəner, aana hərrəner, çay süzör, quluğ eliyir axunun qavağında. Bu hərdən bir göz vuror, iki göz vuror. Arvad görör kü, yox, bu axun heç sakitdəşmer. Yoldaşına deyir ki, ay kişi, bu nə Allahın bəlasıydı gətdin buruya. Anrı ötörəm mana göz vuror, bəri ötörəm mana göz vuror.

– Arvad, heylədimi?

Deyir:

– Bəli.

Deyir:

– Darıxma.

Ölüyü aparıf basırellar, qayıdellar. Oturanda bular məsləhət eliyir ki, axunu öldürsünnər. Sonra oların axsakqalları deyir ki, yox, Quşçu camaatı ağır camaatdı. Bir axuna görə biz olarnan düşman ola bilmərik. Nağayrax? Sakqal da, bığ da o vaxtdı da, indi də müqəddəs şey sayıler, kişilik rəmzi sayıler. Deyillər, sakqalını qırxax, kəntdə biyabır olsun, ona bəsdi. Axunun sakqalını qırxer, gətirellər gejə, bıraxellər öyə. Bu da qalxanda ağzını-burnunu möhkəm sarıyer.

– Axun, noluf?

Deyir:

– Bala, dişim ağreer, elə bir şey döyül.

Aradan bir müddət keçer, yenə o kənddə ölü düşor. İndi bu özü gedəsi olmor, oğlu Ağceyi göndərer, çünkü özünü qəbul eləmijəklər. Oğlu heyvəsinə "Quran"ınnan, kitabınnan, qələm-dəfdərinnən qoyor. Ata minəndə deyir:

– Oğul, Ağca.

Deyir:

– Həə.

Deyir:

– Hər şey cəhənnəm, sakqal amanatı. Gözdə, sakqalı bada verərsən.

## 137. DƏDƏNDƏN QALAN ZÜLFÜQAR BUDUR

Məhərrəmlik ayında Əhmədalı babamın kəndinə başısarıxlı iranlı molla gəler. Deyir: “Məni bura şəbih çıxartmağa yolluyuflar, mən baş mollayam”. Molla Əhmədalı deyir: “Neynək, gedək evə”. Molla Əhmədalı bunu yoxlaşdırer, görör bunun başında beş qəpiklik şey yoxdu, amma İrannan gəlif deyə camaat bunu tutor. Oturollar, çörək yiyillər, söhbət eliyillər. Molla Əhmədalı deyir:

– Ay qardaş, sənin ateyin peşəsi noluf? O da oxumuşmu oluf?

Deyir:

– Yox, qadan alem, o, dəllək olufdu.

Molla deyir:

– Yaxşı, yatax.

Əvvəllər dəlləklər uşağa sünnət eliyəndə qamışdan düdük kimi şey düzəldirdilər. İndiki kimi dərman yoxuydu. Pambığı yandırıf onu baserdılar, sonra ülgücnən kəsermişdər. Molla Əhmədalı bir az pambığı bir siniyə qoyor, qamış, onnan sonra ülgücü buruya qoyor, uşaqlarının birinə verer. Tapşırır ki, mən “verin” deyəndə gətirərsiniz.

Camaat meydana yığıler. İrannan gələn molla İmam Hüseyn rolundadı. Atın üstünnən deyir ki, mənim atamdan qalan zülfüqarı gətirin. Molla Əhmədalı da bunun köməkçisidi. Bu, atın üstünnən deyəndə ki, mənim atamdan qalan Zülfüqarı gətirin, meydan ağlaşer: “Oy atam sana qurvan, ay axun”. Bir də deyir: “Sana demədimmi, atamdan qalan zülfüqarı gətir”. Molla Ağca kişi uşaxlardan yolloor. İrannı ağzın açer ki, dəllək ləvazimatıdı. Deyir:

– Kişi, bu nədi, mənim başıma oyun açersan?

Deyir:

– Bala, sənin dədənnən qalan zülfüqar budu. Sən dədənnən qalanı istersən, mən də onu vererəm.

## 138. MƏNİM DƏDƏMƏ BU UZUNLUQDA "QURAN" LAZIM DÖYÜL

Molla Ağca kişi rayonnan gəlermiş. Rayonnan da bizim kəndin arası qırx beş kilometr olar. İndi asfalt yol var, maşınnan gediler, gəliner. Onda qayalıxlarnan gedif gəlinerdi. Atnan iki günə gedilif gəlinerdi. Ağca baba rayonnan gələndə qonşu kənddə Rüstəm kişi var, bunun da atı oluf. İndi Ağca kişi piyada gəler, bu atdıdı. Bir az gələnnən sonra deyir ki, ay Rüstəm kişi, bilersən nə var? Deyir:

– Nə var?

Deyir:

– Onsuz da nööböynən minəjeyih atı. Ver atana bir "Quran" oxuyum, qutarannan sonra sən minərsən.

Deyir:

– Nolar, Ağca qağa, oxu da. Elə dədəmə "Quran" lazım idi.

Ağca kişi atın üstündə "Quran"ı hancarı başdıyırsa, bunu buna culoor[131], onu buna culoor. Rustam kişinin də gözü üzündə qaler ki, Allah, görüm bu havaxt qutarajax. Kəndə çataçatda deyir:

– Ay Rustam kişi, bir salavat çöör, "Quran" qutardı.

Deyir:

– Ağca qağa, atana qurvan olum, mənim dədəmə bu uzunnuxda "Quran" lazım döyüldü.

[131] Culoor – calayır

## 139. QOYUNUN ÜRƏYİ YATIB

Dağda Məhər adında bir kişi oluf. Çox hazırcavab adam olur. Günnərin bir günü kalxoz sədri deftor deyirdilər, buna qoyun yığırmışdar. Yəni kalxozun qoyunnarı qırılıf, indi onun yerini doldurmağ üçün camaatdan qoyun yığıllar. Birqadiri yolluyuf ki, get yığ. Məhər kişinin də bir qoyunu varmış, çox arıx, xəstə bir qoyun oluf. Həmin qoyunu maşına qoyuf ki, aparsın. Onda da yataxlar Ceyran çölündə oluf. Maşın gedif oruya çatanda baxıllar ki, qoyunun biri ölüf. Soruşullar birqadirdən ki, ə, bu qoyunu kim vermişdi? Deyir:

– Məhər kişi.

Kəndə qayıdanda kalxoz sədri çağırtdırır Məhər kişini yanına. Deyir ki, ayə, ayıf döyüldümü, mən onsuz da dilənerdim də. Ölü yığerdımsa, səni neynirdim? Ceyran çölü qoyun leşiynən doludu. Bu nədi? Deyir:

– Sədr, o başın üçün, mən onu maşına qoyanda o salamat idi. İkidən-birdən mənim qoyunum maşına minməmişdi. Deyirəm, bəlkə yol tutuf, ürəyi yatıb.

## 140. ONU İCBARİ İŞ ELƏGİNƏN

Kənddə Məhər kişini aparıllar ot tayası yığmağa. Məhər kişi ot tayasının elə yerində duruf ki, kalxoz sədri bunu görmür. Yavıyı çaxıbdı ota, yalannan hay-küy salır, ah, oh, hay-küynən ki, guya işdiyir. Kalxoz sədrinə başa salıllar ki, Məhər kişi yalannan eliyir, işdəmir. Kolxoz sədri baxanda görör ki, doğrudan da, Məhər kişi yavaya söykənif, yalannan ah, uf eliyir. Çağırtdırır ki, bura gəl. Gəlir. Deyir:

– Bu hərəkətinə görə sənə, oğlumun canı üçün, dörd il iş kəsdirərəm.

Deyir:

– Sən oğluyun canı, heç olmasa, onu icbari iş eləginən.

## 141. ÇƏNƏN BOŞ DURMASIN

Ağdam kəndində Roza adında ağbirçək arvad oluf. Ustası var imiş bunun. Usta səhər-səhər daşı-zadı qırıf, əl-üzünü yuyannan sonra oturur çörək yesin. Gözdüyüf görür, çörək gəlmir, verən yoxdu. Roza arvad gəlir, ustolun üstünə iri bir sakqız qoyor. O vaxtdı ağ sakqız yox idi, qara sakqız qoyor, qır deyirdilər. Deyif:

– Ala bunu çiynə, çənən boş durmasın, Sineyvər dəərmənə gedifdi.

Sineyvər də munun qızıdı. Yəni Sineyvər dəərmənnən gələsi, çörək bişirəsi, usta yiyəsi, onnan sonra da iş görüləsi. Elə o vaxtdan məsəl qalıfdı. Biri bir şeyi uzadanda, eləcə deyillər, al bu sakqızı, çənən boş durmasın.

## 142. HAZIRCAVAB BAYRAM

Ağdam kəndində Bayram adında bir kişi oluf. Bu, bir şərikinnən başqa kəndə alver eləməyə gedir. Nəsə, iş elə gətirir ki, bular axşama qalıllar. Bir evdə munu qonax saxlıyası olollar. Nəsə, axşam olanda otağın birini qonaxlara göstərillər ki, burda yatarsınız. Bu otaxda da bir taxt olur, bir də bir kıravat. Bular da üş nəfər olullar. Öz aralarında razılaşıllar ki, ikimiz bir yatarıx, birimiz də bir. Bulardan biri tək yatması üçün, rahat yatması üçün ortuya söz tulluyur ki, ayə, vallah mən adamnan yata bilmerəm. – Belə deyir ki, buna desinnər zərəl yoxdu, sən tək yat, biz bir yatarıx. – Mən tək yatajam. Bu vaxt Bayram kişi deyir ki, ə, dərdin alem, sən cüt yatammersansa, sənin arvadınnan kim yater?

## 143. QABIN YERİNİ DEMƏSƏYDİN, ÇAYI STƏKANDA İÇƏRDİN

Bayram qızına toy eliyirdi, axırda çalğıçıların birinnən hesablaşmalıdı, yəni, pulu nə qədər eliyir. Bular zurnaçıynan çörək yeyəndə arvadına deyir ki, savah özünəbəylər[132] gələjək. Onda da adət imiş, özünəbəy gələndə nəsə oğurruyurmuşdar, qəbahət sayılmermış. Qav-zad çatışmıyan dövr imiş. Bayram kişi deyir ki, arvad, qavları bir yaxşı yerə qoy, gələndə özünəbəylərin əlinə keşməsin. Yoxsa, hamısını qırıb, sındırıb, qalanını da aparajaxlar.

Onda da zurnaçının adı Məhəmməd olur. Məhəmməd görür kü, qavları sandığa qoydular, ağzını örtdülər, üstünə də samavarı qoydular.

Səhər özünəbəy dəsi[133] gəlini aparmağa gələndə Məhəmməd bu dəsə deyir ki, ayə, qavlar sandıxdadı, üstündə də filan şey var. Bu özünəbəylər bu qavların qırdıxlarını qırıllar, qırmadıxlarını da aparellar. Nəsə, aradan bir həftə, on gün keçənnən sonra yolda Məhəmmədnən Bayram kişi qavaxlaşer, yəni zurnaçıynan qızın atası. Qızın atası Məhəmmədi öyünə qonax çağırer. Deyir:

– Ə, dərdin alem, gedək öydə bir çay içək.

Əl çəhmir. Məhəmməd də ayıbını bilir ki, bu nəsə bir qisas alajax. Nəsə, Məhəmmədi öyə aparer. Öydə deyir:

– Arvad, bir yaxşı çay qoy.

Samavar qaynıyıb hazır olanda Bayram özü qalxer. O vaxtı mis qavlar var imiş. Mis qavın birində cam olur bilmirəm, qavlama olur bilmirəm, bunda çay süzür, gətirir. Məhəmmədin qavağına qoyor ki, iç. Məhəmməd də baxır ki, qaynar, mis qavda çaymı içilər? Adamın dodağı yapışar.

---

132 Özünəbəy – bəy və bəyin sağdişi, soldişi
133 Dəsi – dəstəsi

Deyir:

– A Bayram əmi, bu qavlamada çay işmək olarmı?

Deyir:

– Ə, qavların yerini demiyeydin, olar da qırmıyeydi, stəkanımız oloydu, mən çayı sana stəkanda verəydim. İndi qırdırıfsan, məjbursan bunda işməyə. Daha ayrı variant yoxdu.

## 144. ADIMI MƏRİFƏTLİ DEDİN, QALDI DƏDƏMİN ADI

Bir erməni gəlir çıxır kəndə. Görür orda bir ağsakqal kişi oturuf. İndi munnan tanış olmaxmı istiyir, nəsə tanışlıq verməkmi istiyir, deyir:

– Ağsakqal, adınız nədi?

Deyir:

– Mənim adım Rüstəm ağa, – deyəndə deyir:

– Osuftim ağa, bə dədeyin adı nədi?

Deyir:

– Ə, sənin xaçını belə-belə eliyim. Adımı çox mərifətdi demişdin, qalmışdı dədəmin adı. Hələ bir dədəmin adını da soruşorsan.

## 145. RƏİYƏTLƏ OTURUB YEMƏK YEYİRSƏN

Rahat seyid olmuyan adamlara deyillər. Mənim babam rahatdı, nənəm seyid qızıdı. Babam seyid qızınnan öylənənnən sonra, munu qaynatası öyünə qonax çağırır. Burda da öz qaynatası tərəfdən də qonaxlar olur. Yəqin ki, o vaxdı qav azdığınnanmı, nə bilim, nədənmi, indiki dövr kimi döyül. Aş pişirillər və bu aşı sinidə, məcməyidə və başqa şeylərdə qoyullar. İki bir, üç bir belə qoyuluf. O cümlədən babamnan bir məcməyidə, sinidə aş yiyəsi adam seyid oluf. İndi babam təzə kürəkən, bir az utancağ adam. Bu da bir ağadı, bəydi, bir

hampa kişidi. Amma səhərdən də söhbət gedirmiş ki, ay biz bəyik, biz ağayıx, biz beləyik, eləyik. Babam da kirimişcə duruf qulax asır. Babam görür kü, bu, qollarını çirməliyif aşa elə girişif ki, babama imkan vermir bir kısmat ala. Babam soruşur ki, siz doğrudanmı ağasınız, yəni seyidsiniz?

Deyir:

– Həə, bə nə? Nəslim belə, kököm belə, babam filankəs, nənəm flankəs. Biz təmiz seyidik, miriyik filan.

Deyir:

– Bə sən nətəər seyidsən ki, rahatnan qavax-qavağa oturuf bir sinidən aş yiyirsən?

Bu sözdən sonra o ağa əlini sinidən çəkir qırağa, tay əlini uzatmer. Bu, rahatca siniyi qavağına çəkir təkcənə yiyir.

## 146. ANAM MƏNİ O CAMA OTUZDURURDU

Bir gün kənd yeriymiş. Öyün xanımı yuxa salermiş. Bir nəfər nəvələnd[134] adam da yoldan belə keçermiş, kiminsə evi lazım imiş. Deyir ki, ay bajı, bərəkətdi olsun.

Deyir:

– Sağ ol, ay qardaş.

Deyir:

– Əhmədalının öyünü gəzerəm.

Deyir:

– Vallah, bu uşax göstərər Əhmədalının öyünü saa, amma gəl bir isti-isti yuxa ye.

Deyir:

– Yox, əziyyət olar.

Deyir:

– Yox, sən allah, yuxa üstə əlifsən.

[134] Nəvələnd – nabələd

Bir fətir saler, kişiyi dəvət eliyir. Deyir ki, qonax qardaş, bu fətiri yinən, onnan sonra bu uşax sana Əhmədalının öyünü göstərəjək.

Kişi bardaş quror oturor, fətir də qavağında. Uşağı yanına çağırer, deyir:

– Ay qızım.

Deyir:

– Ha.

Deyir:

– A qızım, bu fətirnən yiməyə bir şey varmı?

Deyir:

– Ay dayı, niyə yoxdu? Yaxşı bəhməzimiz var.

Deyir:

– Onnan bir az gətsən, bu fətirnən yiyəm.

Gedir bir iri cəmi dolduror bəhməznən, gətirer. Kişi fətiri bəhməznən yiyir, görör, doğrudan da, ləzzət eliyir. Elə olor ku, bəhməz qutarer, fətirdən bir az qaler.

Deyir:

– Ay qızım, bu bəhməzdən gənə varmı?

Deyir:

– Ey, ay dayı, içinə siçan düşüf, yeyən də yoxdu. Nə qədər deyirsən, var.

Deyən kimi, bu qaldırır cəmi yerə vuror. Uşağ oturur zırhazır ağleer. Deyir:

– A qızım, niyə ağleersan?

Deyir:

– Ey, ay dayı, Allah işini heç uvand eləməsin.

Deyir:

– Niyə?

Deyir:

– Anam məni hər axşam bax, o cəmə çiş tutordu, indi nolojax mənim axırım?

## 147. ÜÇ PƏLTƏK BACI[135]

Bir kişinin üş dənə gözəl qızı var imiş. Qızdar həddinnən artıq gözəlimiş. Doğrudan da, elə bilermişsən, tale xoş günündə, xoş saatında bunun qələmini çəkib də. Bir dənə eyibləri yoxuymuş. Amma buların çox gizdi qalan bir sirrəri var imiş: bu qızdarın üçü də pəltək imiş. Elə anası bu qızdara baxer, deyir ki, ay kişi, tale bizə belə gözəl qızdar bəxş eliyib, indi nağayrax ki, buların üçü də pəltəkdi. Allah buların kısmatını yetirsin, Allah bulara bir yaxşı ömür-gün yoldaşı nəsib eləsin. Elə bir adam olsun ku, heş buların pəltəhliyini hiss eləməsin.

Nəsə, ay keçir, il dolanır. Bir gün kişi sevincək gəlir ki, arvad, bilirsənmi nə var? Deyir:

– Nə var?

– Qızdara elçi gəler.

Deyir:

– A kişi, nağayrax?

Deyir:

– Nağarjeyıx? Allah verənnən hazırra, elə, qızdarı da geyindir, kejindir, bəzəndir, yuyunsunnar, daransınnar, gəlsinnər. Bax, belə orda qəşəh otursunnar, elçilər də gəlsin baxsın, bu üçünnən birini seçəjəhlər. Ancax tapşır danışmasınnar, danışsalar pəltəhlikləri bilinəjəh.

Bu kişi dediyi kimi arvad bu qızdarı səliqə-səhmana saler, üçünü də yanaşı oturtduror. Elçilər gəler. Baxer görör kü, ayə, üş dənə qız, üçü də bir-birinnən gözəl. Elçi gələn arvad deyir ki, a kişi, sən canı, baxersanmı? Nə gözəl qızdardı bular. Oğlannarımız çox olsa, elə buların üçün də alardıx.

---

[135] Söyləyici "Üç pəltək bacı", "Tramvay məsələsi" lətifələrini və "Keçəlin evlənməsi" nağılını qaravəlli nümunəsi kimi qələmə verdi. Dediyinə görə, atası qaravəlli ustası kimi tanınırdı, çox vaxt ona Qaravəlli Qədir deyə müraciət edirdilər. Söyləyici danışdığı qaravəlliləri ondan eşidib.

Deyir:

– Arvad, seçəh, elə birini alağ evdəki oğlumuza. Allah xoşbəxt eləsin, çox gözəl qızdardı.

Bu məqamda bir qurvağa hardansa hopbana-hopbana ortuya çıxer. Çıxanda böyük qız özünü saxlıyammer, deyir ki, ay bacı, quuuvağaa. Deyəndə, elçilər bir-birinin üzünə baxer. Ortancıl uje dayanammer, deyir ki, a cünü qara, anam saa deməmmi dimbalax? Balaca qayıdıf deyir ki, a bacu, anam dedi dimbalax, elə mən də dimbalax.

Elçilər duror, kirimişcə, suları süzülə-süzülə gedellər.

## 148. TRAMVAY MƏSƏLƏSİ

Həddinnən artıx gözəl bir qız bir gün tramvay dayanacağında durufbuş. Bir də bir oğlan hardansa bu tramvay dayanacağına yaxınnaşır. Görür ki, pah, bir gözəl qız tramvay gözdüyür. Qız o qədər gözəlimiş, o qədər gözəlimiş ki, insanı valeh eliyirmiş. Qız munun çox xoşuna gəlir. Bilmir bunu nətəri danışdırsın, bunnan nətəər ünsiyyət qursun. Yaxınnaşır, deyir ki, xanım qız, bağışdıyın, sizdən bir şey soruşmağ olarmı? Qız deyir ki, niyə olmur, ay qardaş, buyurun. Deyir:

– Ay bajı, burdan bir nömrəli tramvay keçəjəhmi?

Deyir:

– Ay qardaş, keçəjəh.

Bu başqa bir şey deyəmmer, nitqi tutulor. Geder bir az hərrəner, hərrəner, gəler, deyir:

– Bajı.

Deyir:

– Buyur, qardaş.

Deyir:

– Burdan iki nömrəli tramvay da keçəjəhmi?

Deyir ki, ay qardaş, keçəjəh. Genə heş nə deyəmmer, nitqi tutulor. Geder, bir az da hərrəner, gəler. Deyir:

– Ay bajı, sən Allah, məni bağışda, üç nömrəli tramvay da keçəjəhmi?

Deyir:

– Ay qardaş, keçəjəh.

Oğlan bu minvalnan on bir nömrəli tramvaya kimi çater. Çatanda qız bunun fikrini başa düşör. Bir də yaxınnaşer, soruşor.

– Ay bajı, burdan on bir nömrəli tramvay keçəjəhmi?

Deyir:

– Ay qardaş, bircə dəyqə dayan. Vallah, burdan bütün nömrəli tramvaylar keçəjəh, amma sənin nömrən yox.

## 149. İTLƏR HƏMD-SURASINI BİLİR Kİ?

Bir gün bir din xadimi dunyadan gedənnərinə ehsan təşkil eliyir və lazımı adamları çağırer. Bir nəfər şəxs, vaxtilə vəzifədə işdəmiş şəxs, indi vəzifədən çıxıf, təsadüfən bu din xadiminin öyünün böyrünnən keçermiş. Görör burda ehsandı də, camaat yığılıf, samavar asılıf. İndi nə toy döy burda qırmızı ola, nə şan döy. Çalğı yox, bir şey yox. Yəqin ki, bu din xadimi ölənnərinə ehsan verer. Ürəyinnən keçer ki, bu din xadimi məni də çağırsa, yaman olar, bir qarın yiyərəm. Ehsandı də. Çox gözdöör, bu din xadimi munu dəvət eləmer, keçer geder ürəyində qırıla-qırıla. Kəndin arasında gəler – başqa bir din xadimi olor, – muna yaxınnaşer ki, a din xadimi, filankəs ehsan vererdi, mənim də yaman tamahım var idi. Məni gördü, amma məni dəvət eləmədi. Buna munasibətin. Bu din xadimi qayıdıf deyir ki, ə qardaş, o ehsanı verer ki, biz onun ölüsü üçün bir həmdi-sura oxuyax. Yəqin sən həmdi-suranı bilmersən, o din xadimi də ona görə səni ehsana dəvət eləmiyif. Deyəndə, bu qayıder deyir ki, ə

din xadimi, o ehsanın sümühlərini çölə töküllər, onu itdər yiyir. İtdər həmdi-surasını bilermi ki, mən də biləm?

## 150. MƏNİM KORLUĞUMU İNDİMİ BİLDİN?

Bir kişinin əlli yaşı vardı, əlli yaşdı bir arvatnan yaşıyırdı, amma kişinin gözünün biri koruydu. Varrı-hallı, qızıllı kişiydi. Həmişə evə gələndə qoltuğu dolu ələrdi, əlində bazarrıx. Bir gün axşam elə oldu ki, pulu olmadı, qoltuğu boş gəldi. Gələndə həmişə arvad əlində dəsmal, aftafa bunun peşvazında durardı. Gördü qoltuğu boşdu, aftafıyı da, dəsmalı da yerə qoydu. Dedi, gedim görüm niyə qoltuğu boş gəlif. Deyir:

– A kişi, nə var, nə yox?

Deyir:

– Sağlığın!

Əvvəl əli dolu gələrdi, gözü əlində olardı. İndi əli boşdu deyə, belə diqqətlə üzünə baxır, deyir:

– Bıy, Allah mana ölüm versin, a kişi!

– Aaz, özünə niyə qarğersan?

– Ə, gözünə nooldu?

Dedi:

– A belə-filan qızı, əlli ildi bir yerdə yaşıyırıx, mənim korruğumu indimi bildin?

## 151. MƏN BURALI DEYİLƏM

İki piyan toydamı, şaddıxdamı, yiyiv-içif dəmlənif gejə yola tüşdülər ki, öymüzə edək. Birinin hərarəti birinnən bir az çoxuydu. Dedi, əyə, bir kölgöy tapsax, bir daldeylanardıx. Gün bizi qırdı. Əmmə gejədi ha, ay da doğuf. Dedi, əyə, o aydı, gün döy! Sənin qızdırman üstündü mənnən. Gejədi, bəri gəl, öyümüzə edək. Deyir, yox, bir kölgöy tap. Görür ki, bir kişi inək

otarmaxdan gəlir. Bular başdıyır cəhlə[136]. O deyir gejədi, bu deyir gündüzdü. Axırı bu kişiyi görüllər, kişidən əl çəkmillər. Deyir, a kişi, bizim şərtimizi kəs! Deyir, nədi? Deyir, mən deyirəm o gündü, gün bizi qırır, gəl kölgöy tapax. O da deyir, ə, gün döy, aydı, gəl varax gedək. Kişi ağıllı kişiydi. Görür, əyə, gün desəm, bu öldürəjəh məni, ay desəm o öldürəjəh. Tez dedi:

– Qardaş, başına dönüm, qoy çıxım gedim, mən özüm də heç buralı döyüləm.

## 152. İNDİ Kİ BURAXMIRSAN, SƏNƏ VERDİM

Burda Sadıxlı kəndi var, buların çox qəribə əhvalatları var. Bolşeviklər gələn ili hamısı öydən meşiyə sarı qaçır. Yanıxlı sovetdiyində Təkə qayası deyilən yer var, ordan da meşəyə girillər. Deyillər, ayə, urus yeriyif gəlir, bolşeviklər gəlir. Bu sadıxlılar kimin əlinə nə keçir, mişoydan, çualdan, xurcunnan hərə içinə bir şey qoyor, dalına ötürür meşiyə qaçır. Biri gedir, yolda çualın qulpu ağacda bir tingə keçir. Çəkir, qopbur, elə bilir ki, urus gəlif tutufdu.

– Ay urus, burax, – deyir, – ay urus, burax. Vallah, bu saat bu canı sənnən də eliyəjəm, özümnən də, burax.

Urus ha tutmuyufdu, tingəyə ilişifdi. Deyir:

– İndi ki buraxmırsan, di yeri, sana verdim.

Çualı orda qoyuf özü meşiyə sarı gedir.

## 153. BİR OVUC ÇİVİN

İki qonşu olor, birinin əlinə təsadüfdən pul düşür, birinin də bir-iki inəyi var. Əlinə pul düşən savatdı, qabiliyyətdi adamdı. Arıçılığa dair kitab keçir əlinə. Gəlir oxuyur, görör kü,

[136] Cəhl – mübahisə

bu başqa bir aləmdi. Gəlir qonşuya ki, gəl sən də mənnən şərihli inəhlərini sat, arı alax, belə gəlirri təsərrüfatdı, varranajeyih, yüksəh əhval-ruhiyyədə yaşıyajeyih. Bu qonşu fikirrəşir ki, ay Allah, mənim iki inəyim var, uşağımı bunnan saxlıyıram. Sonra mən bunu satıb... Birdən yaxşı da olar, yaman da olar. Deyir:

– Qonşu, qadan alım, məni incitməginən, mən inəyimi satıb bir ovuc çivinə verif, o yeşiyə doldurası döyüləm. Doldurdum, yayın istisində də çivin uşdu getdi, dağdan o üzə aşdı. İnəyim itəndə qonşudan, qohumnan xavar aleram ki, hardadı, hansı səmtdədi? Axtarıf taperam. Bir ovuç çivini mən kimnən xəvər alım, tapem?

## 154. ÖZBƏK SAQQALI KİMİ

Ata oğlannarını başına yığıf deyir ki, hərənin ayrı pay torpağı var, gedin əkin əkin. Qardaşın biri geder təsərrüfatı yaxşı bejərer, əker, zəhmət çəker, zəhmətkeş olor. Biri bir az müftəxor örgənif, geder ordan-burdan oocaler[137], taxılı səper, kom-kom tullor, yerdə qalanı da nə bilim neyliyir. Gəler ki, ay dədə, lap əla səpmişəm.

Yaz başı gəler, əkin çıxer, hamının taxılı göyərer. Ata yığer indi oğulların yanına ki, deyin görüm neyliyifsiniz? Biri deyir, qəşəhdi mənimkinin vəziyyəti. Allah bircə ruzusunu versin. İl yağınnıx olsa, lap qəşəh olajax. O biri deyir ki, ba, mənimki lap qəşəhdi. Böyük deyir:

– Ay dədə, yalan deyir. O gedif özbəy sakqalı kimi ordan-burdan ouc-ouc tulloof başını girəliyif. Havıyı başını ağrıtma. Bu il əli məhsuldan çək.

---

[137] Oocaler – ovuclamaq

## 155. GEDİN DƏDƏNİZ EVİNDƏ DALAŞIN

Bir qonşu var, anası da, yoldaşı da qonşu kəntdəndilər. Özü də qızı anası bəyənif gətiribdi ha. Oğlanın birinci arvadı rus qızı oluf, qəşəh də dolanerdılar. Arvad bunu qovaladı, dedi:

– Olmaz, öz qohumumu gətirəjəm.

Gələn günnən təzə gəlinnən başdadı dalaşmağa. Gəlin-qaynana həmi qohumdular, həmi bir kəntçidilər. Qışın qarında camaat səs-küyə yığılıf. Oğlan anasını da, yoldaşını da çıxardıf dokqazın başında qarın içində saxleer. Deyir:

– Bura bax, mənim dədəm zəhmət çəkif ev tihdirif, mülk qoyuf gedifdi. Gedin dədəniz öyündə dalaşın, barışanda gəlif mənim dədəmin öyündə yaşıyarsınız. Yoxsa mənim dədəmin öyünə gəlmiyin. Dava meydanı döyül mənim dədəmin öyü.

## 156. NAĞDI MƏNİM, NİSYƏ SƏNİN

Bizim kəndin yarı torpağı dəmyədi, suvarılan yerrərimiz azdı. Keşmiş bəylərdən birinin yanına tat gəler İrannan ki, gəl sənnən şərikli bostan əkəh. Deyir:

– A tat, əhməyinə bir söz demerəm. Nağdı aldıxlarım mənimdi, mən kəndimi bilerəm, nisyə sənin boynunadı. Özün yığar, aparar gedərsən.

Tat deyir, adamdılar da, uzağı bir ay, iki ay yubatsınnar, axırda verəjəhlər da. Bir il can qoyor bejərer, əker, səper. Müəyyən bir hissəsini yığer. Payızda bəy deyir:

– O nağdıyı maa ver, nisyələr sana qalar.

Tat deyir: “Adamdılar, nolar ki, verəjəh”. Heş kim də vermir. Tat hələ də yığer pulunu, gənə də. Elə çıxer geder.

## 157. HAZIRCAVAB GƏLİN

Qədimdən bizim zona aşıx azarkeşi oluf. Bəylər məclis keçirillər özdəriçün, Aşıx Ələsgəri dəvət eliyillər Göyçədən.

Bu yanında da bir balamançı gəler. Kəndin qırağınnan keçəndə – Aşıx Ələsgər rəhmətdih bilirmiş bizim kəndin bir az baməzə olduğunu, – bir arvad su aparer ulaxnan, yanında da balaca xoduğu. Bu balamançı əl çəhmer, başdıyır ki, arvada ilişəjəm, görüm nə diyəjəh. Rəhmətdih Aşıx Ələsgər deyir:

– Ə, bulara söz çatdırammazsan, çıx gedəh, ayıfdı, bizi biyavır eləməginən.

Balamançı bunu eşitmer. Gəler deyir:

– Ay bajı, o nədi?

Deyir:

– Görmörsənmi? Ulaxdı, suya ederəm.

Deyir:

– Bə onun yanında hopbana-hopbana gəzən nədi?

Deyir:

– Nolojax, dərdin alem, aşığın yanında balamançı hərrənən kimi, bu da bir şeydi, eləcə hərrəner.

Rəhmətdih Ələsgər deyir:

– Cavabını aldınmı, gəl gedəh.

## 158. QALMAĞINDAN GETMƏYİN YAXŞIDI

İki qonşu savxozda çilingər işdellər. Birinə bir gün qəbz gəler ki, səni zbora çağırerıx. Bular indi yaxın dostdular, ikisi də fırıldax fason adamlardılar. Zbora gedəni o birsi qonax çağırer, bir beçə kəser, yiir-içellər. Zbora gedən oğlan beçeyi yidihcə sümühlərini öy yiyəsinin civinə dolduror. Savahısı gedellər. Vayenkomatın həyətində bu köyrəler ki, dostum geder, iki ay, üç ay bunu görmöjəm. Əlini civinə saler kin, ağlasın, birdən beçənin sümüyünün qırığı bunun barmağına bater, qanı çıxer. Fikirrəşer ki, mana ailəmdə belə munasibət yoxdu, bunu heç kim eləməz, bunu elə dosdum eliyif. Deyir:

– Qardaş, sənin getməyinə ağlıyajeydim, əmmə qalmağınnan getməyin yaxşıdı, getgınən.

## 159. MEHDİ

Göyəbaxanda bir Nooruz varıydı. Nemsin müharibə vaxtı kolxozun danalarını otarerdı. Mehti də ispolkom oluf. Mehtidən tələb eliyiflər Nooruzu. Nooruzu vayenkomata göndərəndə örgədif. Deyif:

– A Nooruz!

Deyif:

– Nədi?

Deyif:

– Orda vayenkomat sənnən nə soruşsa, deynən Mehti.

Deyir:

– Yaxşı.

Nooruz vayenkomata gedəndə, vayenkomat soruşor:

– Ə, haralısan?

– Mehti!

– Ə, səni buruya kim yollof?

– Mehti!

– Ə, ateyin adı nədi?

– Mehti!

– Ə, öz adın nədi?

– Mehti!

– Ə kopoğlu, nə danışersan?

– Mehti!

– Nə danışersan?

– Mehti!

Buna bir-iki dənə yapışdırellar. Yapışdıranda, "Mehti, Mehti, Mehti" deyə-deyə qapıdan çıxer. Nooruz onnan əsgərlikdən canını kutarer, gəler gənə həmən danaları otarer.

## 160. QARIŞQANIN DOSTLUĞU

Bir qarışqanın dağın o üzündə bir dostu olor. Dostu ismarış göndərer ki, ay qarışqa qardaş, mən ölörəm, gəl görüşək. Qış olor, qar olor. Qarışqa dağın döşünə dırmaşer, başına çıxanda külək vuror. Çovğun qarışqeyi dağın divinə saler. Bir neçə dəfə təkrar olor. Qarışqa görör mümkün döy. Qarışqa başdeer dağın divinnən eşer ki, dağın o üzünnən çıxım qarışqa dostumnan görüşöm. Burda bir tısbağa yua salıfmış. Tisbağa deyir ki, ay qarışqa, nə eşersən? Deyir ki, ay tısbağa qardaş, dağın o üzündə bir dostum var. O ölör, mana ismarrıyıf, onnan görüşməyə gedəjəm. Çouğun, qar qoymadı, indi burdan eşif gedif dağın o üzünnən çıxajam. Tisbağa deyir:

– Ay qarışqa qardaş, sənin nə qədər yaşın var? Sənə dağın o üzünə çıxmax üçün iki yüz il lazımdı. İki yüz il ömrün varmı?

Qarışqa deyir:

– Neynim, ölsəm də, qoy desinnər dost yolunda öldü.

## 161. EŞŞƏK BEYNİ

Qoja şirin tükü tökülördü. Buna, deyir, buyuruflar eşşək beyini. Tülkü də buna qulluğ eliyən oluf. Tülküyə deyir ki, get bir eşşək tap gətir. Gedir bu hərrəner, eşşəyi taper gətirer. Qojalmış xəstə şir eşşəyi pəncəsinnən vurmağ istiyir, eşşək duruf qaçer. Tülkü qayıdıf eşşəyin dalınnan bir də geder. Deyir ki, ayə, ağam sənnən zarafat eliyirdi. Səni çox istiyir. Gəl gedək. Qaytarıf gətirer. Şir özünü topluyur, eşşəyi vuruf öldürör. Deyir:

– Bir havamı alım, qayıdım gəlim. Ona kimi bunun beynini çixart, mən yeyim.

Tülkü beynini çıxardıf özü yiyir. Şir qayıdıf gələndə deyir:

– Bə bunun beyni hanı?

Deyir:

– Ə, beyni olsaydı yanıma düşüf gələrdimi?

## MƏTNLƏRİN SÖYLƏYİCİLƏRİ HAQQINDA

Aşağıda mətnlərin söyləyiciləri haqqında məlumat verilmişdir. Əgər bir söyləyicidən bir neçə mətn yazıya alınıbsa, birinci dəfə onun haqqında daha geniş məlumat verilir, növbəti dəfə isə söyləyicinin adı, mətnin yazıya alındığı yer qeyd olunur.

Nağılların süjet nömrəsi isə "Azərbaycan nağıllarının süjet göstəricisi" (Bakı: Elm və təhsil, 2013) əsasında verilmişdir. Topludakı nağılların böyük əksəriyyətinin həmin kitabda qarşılığına rast gəlinir, yalnız bir neçə süjetin qarşılığı yoxdur ki, onlar haqqında da əlavə məlumat verilmişdir.

### *NAĞILLAR*

1. *Halal qazanc.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi, təvəllüdü 1948, təhsili səkkizillik. *TR 835**+0.* Nağıl iki süjetin birləşməsindən təşkil olunub, ikinci süjet ilk dəfə yazıya alındığı üçün qarşılığına rast gəlinmir. Söyləyicinin dediyinə görə, sözə-söhbətə çox marağı olub, molla, aşıq, ağsaqqal görəndə həmişə onların yanında oturub söhbətlərinə qulaq asıb. Bildiyi nağılları da atası İsmayılov Hüseyn Mirqasım oğlundan eşidib.
2. *Ovçu Əhməd.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi. *TR 465E* = AT 513C*
3. *Yazıya pozu yoxdur.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi. *TR 930A+934B.* "Yazıya pozu yoxdur" süjetinin bir variantı da Bozalqanlı kəndindən Abbas Abbasovdan qeydə alınıb. Ciddi variant fərqi olmadığı üçün kitaba daxil edilməyib.
4. *Məhəmməd və Baba Sədri.* Musayev Musa Məmmədyusif oğlu, Seyidlər kəndi, təvəllüdü 1939, təhsili orta, sənəti dülgər. TR 970
5. *Döyülən ölü.* Əhmədov Kamal Həmid oğlu, Qaradaş kəndi, təvəllüdü 1934, təhsili orta. *TR 507C*
6. *Bilici uşaq.* Axundov Qayıf Əşrəf oğlu, Aşağı Bozalqanlı kəndi, təvəllüdü 1920, təhsili yeddiillik, sənəti molla. *TR 679* = AT 875D*

7. *Qız kimə ərə getsin?*Abdullayev Sakit Qara oğlu, Yekallar kəndi, təvəllüdü 1947, təhsili ali, ixtisası müəllim. *TR 653A*
8. *Səxavətli Hatəm.* Əhmədov Kamal Həmid oğlu, Qaradaş kəndi. *TR 750B*
9. *Səxavət insanlıqdandır.* Niftəliyev Əlixan Abbasqulu oğlu, Məşədivəlilər kəndi, təvəllüdü 1942, təhsili orta, sənəti aşıqlıq. *TR 750B*
10. *Səxavət ibadətdən üstündür.* Kazımova Minayə Nəsib qızı, Qaradaş kəndi, təvəllüdü 1935, təhsilsiz. *TR 750B***
11. *İbadət yaxşıdır, yoxsa səxavət?* Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi, təvəllüdü 1930, təhsili ibtidai, sənəti sürücü. *TR 750K**
12. *Saili borcdan qurtaran Əli.* Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi, təvəllüdü 1937, təhsili orta. *TR 846* = AT 650A*[1]
13. *Məhəbbət, ömür və dövlət.* İsayev İsa Cavad oğlu, Aşağı Ayıblı kəndi, təvəllüdü 1931, təhsili ali, ixtisası müəllim. *TR 945***
14. Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi. *TR 945***
15. *Çoban və naxırçı.* Əhmədov Kamal Həmid oğlu, Qaradaş kəndi. TR 945**
16. *Belə də getməz.* Nəbiyev Valeh Şəmşəd oğlu, Əlibəyli kəndi. *TR 996****
17. *Allaha pənah.* Alıyev Məhəmməd Nadir oğlu, Bayramlı kəndi, təvəllüdü 1958, təhsili ali, ixtisası müəllim. *TR 776**
18. *Ömrünə üç gün qalmış şəxs.* Alıyev Məhəmməd Nadir oğlu, Bayramlı kəndi. *TR 777***
19. *Üç dilək.* Musayev Yunis Qara oğlu, Bozalqanlı kəndi, təvəllüdü 1941, təhsili ali, ixtisası mühəndis-elektrik. *TR 945**.

Söyləyici nağılı dayısı aşıq Qədir Abbasovdan eşidib. Aşıq Qədir bölgədə qaravəlli ustası kimi tanınırdı. Yaşlı insanların dediyinə görə, məclisə toplaşanlar onun qaravəlli söyləməsini səbirsizliklə gözləyərdi. Deyilənə görə, Gürcütsan tərəfdə toyların birində məclisin müəyyən məqamında Aşıq Qədir adəti üzrə keçəl haqqında bir qaravəlli söyləməyə başlayır. Qaravəllinin ən

şirin yerində gülməkdən bəyin ürəyi dayanır. Ondan sonra Aşıq Qədir həmin qaravəllini bir daha söyləməyə tövbə edir.
20. *Qəbul olunmuş ehsan.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi. *TR 760**A*
21. *Kasıb qızın ehsanı.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi. *TR 760**
22. *Kora qismət olan qız.* Səmədov Səməd Axund oğlu, Hacallı kəndi, 76 yaş, təhsilsiz, sənəti daş ustası. *TR 437. Toplayan: Fərhadov Zəfər*
23. *İbrahim.* Məhəmmədov Məhəmməd Çovdar oğlu, Yuxarı Öysüzlü kəndi, təvəllüdü 1923, təhsili yeddiillik. Aşıq Əsəd Rzayevin şəyirdi olub. *TR 990*
24. *Çamadarçı.* Məhəmmədov Məhəmməd Çovdar oğlu, Yuxarı Öysüzlü kəndi. İlk dəfə toplanan nağıl süjetlərindən biridir, ona görə TR kataloqunda qarşılığına rast gəlinmir.
25. *Əzrayılın qardaşlığı.* Axundov Qayıf Əşrəf oğlu, Aşağı Bozalqanlı kəndi. *TR 811*+1199*
26. *Bütün qadınlar eynidir.* Axundov Qayıf Əşrəf oğlu, Aşağı Bozalqanlı kəndi. *TR 983*
27. *Novruzun nağılı.* Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi. *TR 780D**
28. *Allahın birinci adı.* Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi. *TR 910B**
29. *Allahın təpəsinə döyən çoban.* Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi, təvəllüdü 1954, təhsili orta, sənəti dülgər. Bu süjetin qarşılığına rast gəlinmir.
30. *Məhəmməd peyğəmbərlə çoban.* Həsənov Cəbrayıl Həsən oğlu, Hacallı kəndi, yaşı 73, təhsili natamam orta. *TR 827. Toplayan: Fərhadov Zəfər*
31. *İnsanın acgözlüyü.* Rüstəmov Aydın Oruc oğlu, Göyəbaxan kəndi, təvəllüdü 1935, təhsili orta. *TR 842A**
32. *Bir qıza üç elçi.* Musayev Yunis Qara oğlu, Bozalqanlı kəndi. *TR 828*

33. *Axtafa mənə öyrənmişdi.* Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi. *TR 882**

34. *Düzəldən düzəldər.* Tağıyev Ələsgər Mikayıl oğlu, Bozalqanlı kəndi, təhsili səkkizillik, sənəti aşıqlıq. TR 834C**. Bu süjetin bir variantı da Göyəbaxan kənd sakini Rüstəmov Aydın Oruc oğlundan yazıya alınıb. Ciddi variant fərqi olmadığı üçün kitaba daxil edilməyib.

35. *Kor canavarın Allahı.* Əhmədov Kamal Həmid oğlu, Qaradaş kəndi. *TR 834A*

36. *Şah Abbas və üç oğru.* Tağıyev Ələsgər Mikayıl oğlu, Bozalqanlı kəndi. *TR 951A = AT 951A**

37. *Kefli İsgəndər.* Məstanova Mahizər İsrafil qızı, Abulbəyli kəndi, təvəllüdü 1956. *TR 986. Toplayan: Nigar Həsənova*

38. Musayeva Sənəm Məmmədyusif qızı, Seyidlər kəndi, təvəllüdü 1958, təhsili orta. *TR 986+806+831C.*

39. *Bir iş görəndə fikirləş.* Əhmədov Kamal Həmid oğlu, Qaradaş kəndi. *TR 910C*

40. *Üç ağıllı söz.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi. *TR 911 = AT 911**

41. *Qaraçı qızı.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi. *TR 997**

42. *Höcət arvad.* Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi. *TR 1365B*

43. *Dəvə gördünmü?* Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi. *TR 1381*

44. *Anasını cütə qoşan oğlan.* Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi. *TR 1370A = AT 1370A**

45. *Üzlü qonaq.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi. *TR 1618*+1120*

46. *Keçəlin evlənməsi.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi. *AT 570.* İlk dəfə toplanan nağıl süjetlərindən biridir.

47. *Keçəlin oğlağının qızıl qazanması.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi. *TR 1355A**

48. *Keçəlin oğlağının qızıl qazanması.* Abbasov Abbas Qədir oğlu, Bozalqanlı kəndi, təvəllüdü 1952, təhsili ali, ixtisası iqtisadçı-mühəndis. *TR 1355A**. Söyləyici nağılı atası Aşıq Qədirdən eşidib.
49. *Keçəlin fəndi.* Tağıyev Ələsgər Mikayıl oğlu, Bozalqanlı kəndi. Kataloqda qarşılığına rast gəlinmir.
50. *Naşı biçinçi.* Niftəliyev Əlixan Abbasqulu oğlu, Məşədivəlilər kəndi. *TR 1202+958*
51. *Biçinçi və oğrular.* Tağıyev Ələsgər Mikayıl oğlu, Bozalqanlı kəndi. *TR 958*
52. *Qaz bölgüsü.* Niftəliyev Əlixan Abbasqulu oğlu, Məşədivəlilər kəndi. *TR 1533*
53. Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi. *TR 1533A**
54. *Bizim Qulunu gördünmü?* Niftəliyev Əlixan Abbasqulu oğlu, Məşədivəlilər kəndi. *TR 1540+1541+1542A**
55. *Bir kişinin sərgüzəşti.* Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi. *TR 1355C*+1525S**+1332*
56. *Tacir doğan ili.* Tağıyev Ələsgər Mikayıl oğlu, Bozalqanlı kəndi. *TR 1739*
57. *Kimin lütü bərk qaçır?* Alıyev Məhəmməd Nadir oğlu, Bayramlı kəndi. *TR 1358B*
58. *Ərinə çuxa toxuyan arvad.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi. *TR 1643*
59. *Kəkən, Kükən, Hədi, Hüdü...* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi. *TR 1716 = AT 1716**
60. Məstanova Mahizər İsrafil qızı, Abulbəyli kəndi. *TR 1716 = AT 1716* Toplayan: Həsənova Nigar.*
61. *Yaxşılığa yamanlıq.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi. *TR 155*
62. *Tülkü və dəvə.* Əhmədov Kamal Həmid oğlu, Qaradaş kəndi. *TR 76***
63. Tülkü və xoruz. Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi. TR 61A

**LƏTİFƏLƏR**

64. *Xoruz yolda da banlayar.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi, təvəllüdü 1956, təhsili orta, sənəti dülgər.
65. *Eşşək yumurtası.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
66. *Yemək yeyəndə bığları qımıldanırdı.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
67. *Pis vərdiş.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
68. *Korla sağlam.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
69. *Kar, kor, topal və lüt.* Niftəliyev Əlixan Abbasqulu oğlu, Məşədivəlilər kəndi.
70. *İslanıbsa, yağır.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
71. *Vaqonda adam varıydı ki.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
72. *Gilas yeməyə tövbəliyəm.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
73. *Gilasdı, bəsdi.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
74. *Ölənlərinin ehsanında olsun.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
75. *Qabığı da yeməliymiş.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
76. *Qırmızı turp.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
77. *Hansı kasıbın evidir?* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
78. *Üç yoldaş.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
79. *Sən də sus, mən də sus.* Niftəliyev Əlixan Abbasqulu oğlu, Məşədivəlilər kəndi.
80. *Bulamanı bula, buladıqca yala.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.

81. *Burdan çuxalı kişi keçdimi?* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
82. *İki bacının bəhsi.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
83. *Varlı və kasıb bacı.* Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi.
84. *Gəlin-qayınana deyişməsi.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
85. *Gəlin kündəni bölür.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
86. *Doğra, doyunca ye.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
87. *Cənnətə düşən bacılar.* İsmayılova Mehparə Hüseyn qızı, Qaradaş kəndi.
88. *Özüm özümə elədim.* Yusifli Qoşqar Aslan oğlu, Böyükqışlaq kəndi.
89. *Buynuzu qırıq keçi.* Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi.
90. *Puç olmuş xəyallar.* Məmmədov Dövlət Məhəmməd oğlu, Ağdam kəndi, təvəllüdü 1959, təhsili orta.
91. *Şəhərə gəldin, smetan oldun?* Məmmədov Dövlət Məhəmməd oğlu, Ağdam kəndi.
92. *Allah umuduna gedirik.* Alıyev Məhəmməd Nadir oğlu, Bayramlı kəndi.
93. *Yağmadı qar, itmədi iz.* Alıyev Məhəmməd Nadir oğlu, Bayramlı kəndi.
94. Niftəliyev Əlixan Abbasqulu oğlu, Məşədivəlilər kəndi.
95. *Aşağı polka, yuxarı polka.* Alıyev Məhəmməd Nadir oğlu, Bayramlı kəndi.
96. *Başın qoltuq görməyib.* Alıyev Məhəmməd Nadir oğlu, Bayramlı kəndi.
97. *Hacı dayı dururmu?* Alıyev Məhəmməd Nadir oğlu, Bayramlı kəndi.
98. *Tankın içində getdi.* Alıyev Məhəmməd, Bayramlı kəndi.

99. *İki muzu.* Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.
100. *Ala qırqovul hər dəfə mənə düşür.* Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.
101. *Belə ağıza söyərlər.* Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.
102. *Bizdən adam olmayacaq.* Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi, təvəllüdü 1934.
103. *Üç həkim.* Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.
104. *Gələn il o biri ayağını uzadarsan.* Tağıyev Ələsgər, Bozalqanlı kəndi.
105. *Bizim də halımıza bax.* Tağıyev Ələsgər Mikayıl oğlu, Bozalqanlı kəndi.
106. *İnşallah.* Niftəliyev Əlixan Abbasqulu oğlu, Məşədivəlilər kəndi.
107. *Çaş arvad.* Alıyev Məhəmməd Nadir oğlu, Bayramlı kəndi.
108. *Dalında Quran qaçırdı.* Alıyev Məhəmməd Nadir oğlu, Bayramlı kəndi.
109. *Sənin kimi centilmendi.* Alıyev Məhəmməd Nadir oğlu, Bayramlı kəndi.
110. *Vəssalam.* Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi.
111. *İnsanların ağzını yığmaq olmur.* Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi.
112. *İşiniz düzəlir deyə gülürsünüz.* Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi.
113. *Bəhlul Danəndə.* Yusifov Mahal İman oğlu, Qayadibi kəndi, təvəllüdü 1951, təhsilli ali.
114. *Bəhlul Danəndə və Bağdadi-Xəlifə.* Həsənov Cəbrayıl Həsən oğlu, Hacallı kəndi. Toplayan: Fərhadov Zəfər.
115. *İnkiri öldürmüşəm, Minkir qaçıb.* Həsənov Cəbrayıl Həsən oğlu, Hacallı kəndi. Toplayan: Fərhadov Zəfər.
116. *Dobrovol Qasım.* Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi, təvəllüdü 1950, təhsili ali, ixtisası müəllim.
117. Mahmudov Əbülfət Məhəmməd oğlu, Bozalqanlı kəndi.

118. *Bazarınıza şor satan gəlsin.* Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi.
119. *Gələn dəfə müsəlman kimi yeyəcəyəm.* Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi.
120. *Özüm tovuzluyam, eşşəyim bakılı.* Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi.
121. *Yemək kimə çatır?* Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi.
122. *Erməni xaça yalvarır.* Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi.
123. *Erkək eşşək xoduqlu gəzməz.* Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi.
124. *Xoruzu aparanda pulu verəcək.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
125. Əliyev Cəlil Mirzə oğlu, Qayadibi kəndi, təvəllüdü 1942, təhsili orta-ixtisas.
126. *Deyərdim mənim atımdır.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
127. Əliyev Cəlil Mirzə oğlu, Qayadibi kəndi.
128. *Bir bamba süzmə, yoxsa uşaq.* Əliyev Cəlil Mirzə oğlu, Qayadibi kəndi.
129. *"Quran" bu cana dəysin.* Əliyev Cəlil Mirzə oğlu, Qayadibi kəndi.
130. *Şərikli əkin.* Yusifov Mahal İman oğlu, Qayadibi kəndi.
131. *Mən də baxdım sənin kimi.* Yusifov Mahal, Qayadibi kəndi.
132. *Sən aldın dəndən, mən aldım undan.* Yusifov Mahal, Qayadibi kəndi.
133. *Seyid Saadın parça alması.* Yusifov Mahal, Qayadibi kəndi.
134. *Hıçqıran Məhəmməd.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.
135. *Havaxtdan it olubsan?* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi.

136. *Saqqal əmanəti.* Yusifli Qoşqar Aslan oğlu, Böyük Qışlaq kəndi, 1942, təhsili orta-ixtisas.
137. *Dədəndən qalan zülfüqar budur.* Yusifli Qoşqar Aslan oğlu, Böyük Qışlaq kəndi.
138. *Mənim dədəmə bu uzunluqda "Quran" lazım döyül.* Yusifli Qoşqar Aslan oğlu, Böyük Qışlaq kəndi.
139. *Qoyunun ürəyi yatıb.* Əsədov Zəkayil İslam oğlu, Tovuz rayonu, təvəllüdü 1960, təhsili ali, ixtisası riyaziyyat müəllimi.
140. *Onu icbari iş eləginən.* Əsədov Zəkayil İslam oğlu, Tovuz şəhəri.
141. *Çənən boş durmasın.* Əsədov Zəkayil İslam oğlu, Tovuz şəhəri.
142. *Hazırcavab Bayram.* Əsədov Zəkayil, Tovuz şəhəri.
143. *Qabın yerini deməsəydin, indi çayı stəkanda içərdin.* Əsədov Zəkayil İslam oğlu, Tovuz şəhəri.
144. *Adımı mərifətli dedin, qaldı dədəmin adı.* Əsədov Zəkayil İslam oğlu, Tovuz şəhəri.
145. *Rəiyətlə oturub yemək yeyirsən.* Əsədov Zəkayil İslam oğlu, Tovuz şəhəri.
146. *Anam məni o cama otuzdururdu.* Abbasov Abbas Qədir oğlu, Bozalqanlı kəndi.
147. *Üç pəltək bacı.* Abbasov Abbas Qədir oğlu, Bozalqanlı kəndi.
148. *Tramvay məsələsi.* Abbasov Abbas Qədir oğlu, Bozalqanlı kəndi.
149. *İtlər həmd-surasını bilir ki?* Ağayev Əlibala Məmmədyusif oğlu, Qaradaş kəndi.
150. *Mənim korluğumu indimi bildin?* Məhəmmədov Məhəmməd Çovdar oğlu, Yuxarı Öysüzlü kəndi.
151. *Mən buralı deyiləm.* Məhəmmədov Məhəmməd Çovdar oğlu, Yuxarı Öysüzlü kəndi.
152. *İndi ki buraxmırsan, sənə verdim.* Abdullayev İdris Hüseyn oğlu, Alakol kəndi.
153. *Bir ovuc çivin.* Abdullayev Qulu Umud oğlu, Yekallar kəndi, təvəllüdü 1958, təhsili orta-ixtisas.

154. *Özbək saqqalı kimi.* Abdullayev Qulu Umud oğlu, Yekallar kəndi.
155. *Gedin dədəniz evində dalaşın.* Abdullayev Qulu Umud oğlu, Yekallar kəndi.
156. *Nağdı mənim, nisyə sənin.* Abdullayev Qulu Umud oğlu, Yekallar kəndi.
157. *Hazırcavab gəlin.* Abdullayev Qulu Umud oğlu, Yekallar kəndi.
158. *Qalmağından getməyin yaxşıdı.* Abdullayev Qulu Umud oğlu, Yekallar kəndi.
159. *Mehdi.* Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi.
160. *Qarışqanın dostluğu.* Xəlilov Məcid Qulu oğlu, Şamlıq kəndi. İlk dəfə yazıya alınan nağıl süjetlərindən biridir.
161. *Eşşək beyni.* Qurbanov Hidayət Kazım oğlu, Aşağı Öysüzlü kəndi. *TR 50B*

# BAŞLIQLAR

## NAĞILLAR

Halal qazanc ........ 14
Ovçu Əhməd ........ 35
Yazıya pozu yoxdur ........ 42
Məhəmməd və Baba Sədri ........ 54
Döyülən ölü ........ 60
Bilici uşaq ........ 66
Qız kimə ərə getsin? ........ 71
Səxavətli Hatəm ........ 77
Səxavət insanlıqdandır ........ 83
Səxavət ibadətdən üstündür ........ 86
İbadət yaxşıdır, yoxsa səxavət? ........ 88
Saili borcdan qurtaran Əli ........ 95
Məhəbbət, ömür və dövlət ........ 101
Çoban və naxırçı ........ 107
Belə də getməz ........ 110
Allaha pənah ........ 113
Ömrünə üç gün qalmış şəxs ........ 116
Üç dilək ........ 118
Qəbul olunmuş ehsan ........ 127
Kasıb qızın ehsanı ........ 131
Kora qismət olan qız ........ 132
Palan tikən İbrahim ........ 134
Çamadarçı ........ 138
Əzrayılın qardaşlığı ........ 141
Bütün qadınlar eynidir ........ 144
Novruzun nağılı ........ 145
Allahın birinci adı ........ 148
Allahın təpəsinə döyən çoban ........ 150
Məhəmməd peyğəmbərlə çoban ........ 152
İnsanın acgözlüyü ........ 153

Bir qıza üç elçi ........................................................ 154
Axtafa mənə öyrənmişdi ............................................ 159
Düzəldən düzəldər .................................................... 163
Kor canavarın Allahı.................................................. 165
Şah Abbas və üç oğru ................................................ 167
Kefli İsgəndər ........................................................... 170
Bir iş görəndə fikirləş................................................ 189
Üç ağıllı söz .............................................................. 193
Qaraçı qızı................................................................. 199
Höcət arvad................................................................ 202
Dəvə gördünmü?........................................................ 204
Anasını cütə qoşan..................................................... 205
Üzlü qonaq................................................................. 209
Keçəlin evlənməsi...................................................... 214
Keçəlin oğlağının qızıl qazanması............................. 223
Keçəlin fəndi ............................................................. 235
Naşı biçinçi................................................................ 238
Biçinçi və oğrular ...................................................... 242
Qaz bölgüsü............................................................... 243
Bizim Qulunu gördünmü?.......................................... 249
Bir kişinin sərgüzəşti.................................................. 251
Tacir doğan ili............................................................ 255
Kimin lütü bərk qaçır? ............................................... 230
Ərinə çuxa toxuyan arvad .......................................... 262
Kəkən, Kükən, Hədi, Hüdü ......................................... 267
Yaxşılığa yamanlıq .................................................... 272
Tülkü və dəvə ............................................................ 276
Tülkü və xoruz........................................................... 278

**LƏTİFƏLƏR**

Xoruz yolda da banlayar............................................ 280
Eşşək yumurtası......................................................... 280
Yemək yeyəndə bığları qımıldanırdı ........................ 281

Pis vərdiş ........ 282
Korla sağlam ........ 282
Kar, kor, topal və lüt ........ 283
İslanıbsa, yağır ........ 283
Vaqonda adam varıydı ki? ........ 283
Gilas yeməyə tövbəliyəm ........ 284
Gilasdı, bəsdi ........ 284
Ölənlərinin ehsanında olsun ........ 284
Qabığı da yeməliymiş ........ 285
Qırmızı turp ........ 285
Hansı kasıbın evidir? ........ 285
Üç yoldaş ........ 286
Sən də sus, mən də sus ........ 286
Bulamanı bula, buladıqca yala ........ 286
Burdan çuxalı kişi keçdimi? ........ 288
İki bacının bəhsi ........ 289
Varlı və kasıb bacı ........ 292
Gəlin-qayınana deyişməsi ........ 292
Gəlin kündəni bölür ........ 294
Doğra, doyunca ye ........ 294
Cənnətə düşən bacılar ........ 295
Özüm özümə elədim ........ 296
Buynuzu qırıq keçi ........ 297
Puç olmuş xəyallar ........ 298
Şəhərə gəldin, smetan oldun? ........ 299
Allah umuduna gedirik ........ 300
Yağmadı qar, itmədi iz ........ 301
Aşağı polka, yuxarı polka ........ 305
Başın qoltuq görməyib ........ 306
Hacı dayı dururmu? ........ 307
Tankın içində getdi ........ 308
İki muzu ........ 309

Ala qırqovul hər dəfə mənə düşür ............................ 309
Belə ağıza söyərlər.................................................... 311
Bizdən adam olmayacaq ........................................... 314
Üç həkim.................................................................... 314
Gələn il o biri ayağını uzadarsan .............................. 315
Bizim də halımıza bax ............................................... 316
İnşallah....................................................................... 318
Çaş arvad ................................................................... 319
Dalında Quran qaçırdı ............................................... 320
Sənin kimi centilmendi.............................................. 321
Vəssalam.................................................................... 323
İnsanların ağzını yığmaq olmur................................. 323
İşiniz düzəlir deyə gülürsünüz................................... 324
Bəhlul Danəndə ......................................................... 325
Bəhlul Danəndə və Bağdadi-Xəlifə........................... 326
İnkiri öldürmüşəm, Minkir qaçıb ............................. 328
Dobrovol Qasım ........................................................ 329
Bazarınıza şor satan gəlsin ....................................... 330
Gələn dəfə müsəlman kimi yeyəcəyəm.................... 331
Özüm tovuzluyam, eşşəyim bakılı ........................... 332
Yemək kimə çatır?..................................................... 332
Erməni xaça yalvarır.................................................. 333
Erkək eşşək xoduqlu gəzməz..................................... 334
Xoruzu aparanda pulu verəcək .................................. 335
Deyərdim mənim atımdır........................................... 336
Bir bamba süzmə, yoxsa uşaq.................................... 339
“Quran” bu cana dəysin............................................. 340
Şərikli əkin................................................................. 341
Mən də baxdım sənin kimi ........................................ 343
Sən aldın dəndən, mən aldım undan.......................... 345
Seyid Saadın parça alması ......................................... 346
Hıçqıran Məhəmməd ................................................. 347

Havaxtdan it olubsan ................................................. 348
Saqqal əmanəti.......................................................... 348
Dədəndən qalan zülfüqar budur................................ 350
Mənim dədəmə bu uzunluqda “Quran” lazım döyül.....351
Qoyunun ürəyi yatıb ................................................. 352
Onu icbari iş eləginən ............................................... 352
Çənən boş durmasın.................................................. 353
Hazırcavab Bayram ................................................... 353
Qabın yerini deməsəydin, çayı stəkanda içərdin ....... 354
Adımı mərifətli dedin, qaldı Dədəmin adı................. 355
Rəiyətlə oturub yemək yeyirsən ................................ 355
Anam məni o cama otuzdururdu ............................... 356
Üç pəltək bacı ........................................................... 358
Tramvay məsələsi ...................................................... 359
İtlər həmd-surasını bilir ki? ....................................... 360
Mənim korluğumu indimi bildin? ............................. 361
Mən buralı deyiləm.................................................... 361
İndi ki buraxmırsan, sənə verdim ............................. 362
Bir ovuc çivin ............................................................ 362
Özbək saqqalı kimi ................................................... 363
Gedin dədəniz evində dalaşın.................................... 364
Nağdı mənim, nisyə sənin ........................................ 364
Hazırcavab gəlin ........................................................ 364
Qalmağından getməyin yaxşıdı ................................ 365
Mehdi......................................................................... 366
Qarışqanın dostluğu.................................................. 367
Eşşək beyni ............................................................... 367

**MƏTNLƏRİN SÖYLƏYİCİLƏRİ HAQQINDA....368**

**Tovuz folklor örnəkləri, I kitab**
Bakı, “Elm və təhsil“, 2017.

Nəşriyyat redaktoru:
**Fil.ü.f.d. Səbinə İsayeva**
**Ramiz Ələkbərov**

Kompüterdə yığan:
**Kəmalə Zeynalova**
**Səfa Əliyeva**

Korrektor:
**Könül Əliyeva**
**Məhsəti Süleymanova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 384 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış,
“Elm və təhsil” NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.